# İlham Əliyevin inkişaf, quruculuq, zəfər missiyasının başlanmasından 19 il ötür

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 225 (9104) ŞƏNBƏ, 15 oktyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Tarixin ən qüdrətli Azərbaycanının yaradıcısı

**2003-cü ilin bu günlərində Azərbaycan xalqı növbəti tarixi seçim anını yaşayırdı. Yeni əsr, yeni minillik xalqımız üçün, sadəcə, təqvim dəyişikliyi deyildi, Azərbaycan xalqı özünün inkişaf salnaməsinin yeni və daha möhtəşəm uğurlarının astanasında idi.**

1993-cü ildə **"Azərbaycan sizin sözünüzü gözləyir!", "Bizi bu bəladan qurtar!"** çağırışları ilə Ulu Öndər Heydər Əliyevə üz tutan, Onun xilaskarlıq missiyasına inanan milyonlarla vətəndaşımız 10 il sonra özünün gələcək taleyini yenə də Heydər Əliyev siyasətinə, bu siyasətin ən layiqli davamçısı cənab İlham Əliyevə etibar etdi.

Ölkəmizin müasir reallıqları Prezident İlham Əliyevin böyük liderlik xüsusiyyətləri, yüksək idarəçilik qabiliyyəti, iti zəkası və zəngin səriştəsi ilə əlaqədar olduğu kimi, Onun Heydər Əliyev siyasətinə sadiqliyinin, bu siyasi kursu dövrün tələblərinə uyğunlaşdıraraq ustalıqla davam etdirməsinin məntiqi nəticəsidir. Ona görə də cənab İlham Əliyev prezident seçkilərində xalqın dəstəyini qazanaraq vəzifəsinin icrasına başlayarkən qeyd etmişdir ki, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. **"Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm",** - deyən möhtərəm Prezident İlham Əliyev ötən 19 ildə Heydər Əliyev yolunun, Heydər Əliyev siyasətinin Azərbaycana nəhəng uğurlar qazandıra biləcək yeganə düzgün yol olduğunu sübuta yetirmişdir. Möhtərəm Prezident İlham Əliyevin praqmatik, çevik siyasəti, sistemli və ardıcıl strateji kursu ölkəmizin müasir inkişafını təmin etmişdir. Əgər Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyini, müstəqilliyimizi qoruyub onun əbədiliyini təmin etmişdisə, möhtərəm Prezident İlham Əliyev bu müstəqilliyi daha da möhkəmləndirmiş, inkişaf etdirmiş, ölkəmizi regionun lider dövlətinə çevirmişdir.

→ 4-5

# Möhtəşəm inkişafın 19 ili

Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 19 il, həqiqətən, tariximizin ən parlaq və şərəfli səhifələrini təşkil edir.

❖ ❖ ❖

Cənab İlham Əliyevin prezidentliyi ilk gündən çətin sınaqlarla başladı.

Radikal müxalifət və "5-ci kolon" Azərbaycanı yenidən anarxiya dövrünə sürükləmək, ağalarının maraqlarını təmin etmək niyyətindəydilər. Bu məqsədlə prezident seçkilərindən dərhal sonra küçə və meydanlara axışaraq insanları öz təsirləri altına salmaq, yenidən çevriliş törətmək istəyirdilər.

Xalq onlara dəstək vermədi! Prezident İlham Əliyev isə ən sərt və qətiyyətli tədbirlər gördü! Aqressiv müxalifətin ilk cəhdi fiaskoya uğradı. Yeni Prezident İlham Əliyevin atdığı addımlar isə göstərdi ki, dövlətin sükanı yenə də etibarlı əllərdədir, kimsə daha Azərbaycanda sabitliyi poza, insanları yanlış istiqamətə yönəldə bilməz!

❖ ❖ ❖

Prezident İlham Əliyev mahiyyət və fəaliyyət etibarı ilə qurucu, yaradıcı liderdir. Cari fəaliyyətlə uzaq perspektivi məharətlə əlaqələndirməyi, məsələlərə kompleks şəkildə yanaşmağı, məqsədə çatmaq yolunda ən qısa və optimal vasitələr tapmağı, istəklərini uğurla reallaşdırmağı gözəl bacarır.

❖ ❖ ❖

19 ilin ilk möhtəşəm yekunu tarixinin ən qüdrətli Azərbaycanının yaradılmasıdır. Müstəqil Azərbaycan müstəqil siyasət yürüdür, dünyada yüksək çəkiyə, siyasi nüfuza sahibdir, Avropanın enerji təminatında mühüm rol oynayır, dünyada keçirilən ən mötəbər tədbirlərin iştirakçısı və ən əziz qonağı olur, müasir, demokratik, idman dövləti kimi imic qazanıb, çoxsaylı dostlara, qarşılıqlı maraqları təmin edən əlaqə və əməkdaşlıqlara malikdir, Cənubi Qafqazın ən güclü dövləti, logistika mərkəzi, "Şimal-Cənub", - "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin kəsişdiyi məkan, transmilli layihələri uğurla gerçəkləşdirən ölkədir.

19 ilin ikinci möhtəşəm uğuru isə 44 günlük Vətən müharibəsinin zəfərlə başa çatdırılaraq ərazi bütövlüyünün bərpasıdır. Bu qələbəyə Azərbaycan 19 il hazırlaşdı.

Torpaqların qısa müddətdə işğaldan azad edilməsi isə göstərdi ki, cənab İlham Əliyev həm də "dəmir yumruğ"a sahib görkəmli sərkərdədir!

❖ ❖ ❖

Qarşıda görüləsi işlər çoxdur!

Xalqımıza uğur və xoşbəxtlik gətirəcək illər də çoxdur!

Çünki Prezident İlham Əliyev hər adi ili möhtəşəm qələbələrlə əlamətdar etməyi, xalqımızın ən müqəddəs və əlçatmaz arzularını belə reallaşdırmağı məharətlə bacarır.

❖ ❖ ❖

Xalq öz rəhbərinə inanır və onu səmimi-qəlbdən sevir!

Xalq-iqtidar birliyi, xalqın firavanlığına xidmət edən müstəqil siyasət, aydın hədəflər və məqsədə çatmaq yolunda birgə fəaliyyət növbəti illərin də uğurlarının ən möhkəm təməlidir!

→ 8

2003-cü ildən başlayan yüksəliş və zəfər yolu → 6

Qüdrətli, qətiyyətli, qurucu LİDER → 9

Möhtəşəm tarixi uğurlarımızın müəllifi → 11

Müxalifət partiyaları Prezidentin 19 illik fəaliyyətini Azərbaycanın uğur və qüdrət salnaməsi kimi qəbul edirlər: "İlham Əliyev birləşdirici faktordur" → 12

Azərbaycanı qaliblər ölkəsinə çevirən Prezident → 14

19 il əvvəl verilən söz Böyük qayıdışla gerçəkləşdirilir → 17

Elə bir meqalayihə yaratdı ki... → 19

Ali qardaşlıq → 21

Azərbaycanı xoş gələcəyə aparan KOMANDAN → 7

Müxalifətdən Prezidentə tam dəstək: "İlham Əliyev şəriksiz liderdir" → 10

Qüdrətin rəmzi → 11

Uğurlarla zəngin 19 il → 12

Dünyanın ehtiramla yanaşdığı lider → 14

"Zəngilanı bizə qaytaran İlham Əliyevə ömür boyu borcluyuq" → 15

Diplomatik zəka → 18

10 ilin ASAN yolu → 19

İlham Əliyevin sənaye inqilabı → 20

# Biz hələ ki səbir nümayiş etdiririk, lakin bunun da bir həddi var

## Prezident İlham Əliyev MDB dövlət və hökumət başçılarına bölgədəki son proseslərlə bağlı yeganə həqiqi versiyanı təqdim etdi






Oktyabrın 14-də Astanada Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib. İclasda iştirak edən dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.

Əvvəlcə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirildi. Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev iclası açıq elan etdi. MDB İcraiyyə Komitəsinin sədri - icraçı katibi Sergey Lebedev gündəlikdə duran məsələlər barədə məlumat verdi.

Azərbaycan Prezidenti İlham Əliyev iclasda çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı




- Sağ olun, hörmətli Kasım-Jomart Kemeleviç.

Mən əvvəlcə bizim regionda yaranan vəziyyətlə bağlı həmkarlarımı məlumatlandırmaq istərdim. Həmkarlarım yaxşı bilirlər ki, Azərbaycanın ərazilərinin erməni silahlı qüvvələri tərəfindən işğalı dövründə mən bu mövzunu MDB çərçivəsində heç vaxt müzakirəyə çıxarmırdım. Çünki münaqişənin nizamlanması mövzusu ilə ATƏT-in Minsk qrupu məşğul olurdu, o, mandata sahib idi. Təəssüf ki, 28 il ərzində Minsk qrupunun nəticəsi sıfra bərabərdir. İndi göründüyü kimi, bu qurumun başlıca məqsədi münaqişənin nizamlanması yox, onun dondurulması idi. Danışıqların aparılması münaqişənin hələ uzun illər həll olunmaması üçün yalnız pərdə idi. Beləliklə, münaqişə həll olunub. Azərbaycan beynəlxalq hüquqa, BMT-nin Nizamnaməsinə, o cümlədən BMT Nizamnaməsinin hər bir ölkənin özünümüdafiə hüququna malik olmasını nəzərdə tutan 51-ci maddəsinə uyğun olaraq münaqişəni özü həll edib.

Münaqişədən sonrakı vəziyyət müxtəlif cür inkişaf edir. Buna görə də həmkarlarımı son dövrlər ərzində baş verənlərlə bağlı məlumatlandırmaq istərdim. Sentyabrda - demək olar bir ay bundan əvvəl Azərbaycan-Ermənistan sərhədi ərazisində silahlı toqquşmalar baş verdi. Bu silahlı toqquşmaların səbəbləri bəllidir - Azərbaycana münasibətdə terror, ilk növbədə mina terroru və snayper terroru davam edir. İkinci Qarabağ müharibəsi başa çatandan sonra Azərbaycanın 250-dən çox vətəndaşı əsasən işğal dövründə basdırılan minaların partlaması nəticəsində ya həlak olub, ya da ciddi xəsarət alıb. Eyni zamanda bizim tərəfimizdən Ermənistan istehsalı olan piyada əleyhinə 1400 mina aşkarlanıb. Bu minalar 2021-ci ildə Laçın rayonu ilə sərhəd ərazidə basdırılıb. Həmçinin Azərbaycanın bir hərbi mövqeyindən digərinə aparan yollar minalanıb. Silahlı toqquşmalar davam edib, aktiv faza maksimum 8 saat çəkib. Bəzilərinin hesab etdiyi kimi, Azərbaycan Ermənistan ərazisini işğal etmək niyyətində olmayıb. Nə bir şəhər, nə də bir kənd işğal olunmayıb. Rusiya tərəfinin vasitəçilik fəaliyyəti nəticəsində, - mən bunu xüsusi vurğulamaq istərdim, - məhz Rusiya tərəfi atəşkəs təklifi ilə çıxış etdi, bəziləri bunu başqa ölkələrə aid edirlər ki, bu da tamamilə əsassızdır. Rusiya tərəfinin vasitəçilik fəaliyyəti nəticəsində silahlı toqquşmalar, artıq dediyim kimi, dayandırıldı.

Oktyabrın 6-da Avropa Siyasi Birliyinin yeni platforması çərçivəsində Praqada Fransa Prezidenti, Avropa İttifaqı Şurasının prezidenti, Ermənistanın baş naziri və Azərbaycan Prezidentinin iştirakı ilə dördtərəfli görüş təşkil olundu. Görüşdə bir neçə saat davam edən danışıqlar nəticəsində Ermənistan-Azərbaycan sərhədi yaxınlığında Ermənistan ərazisinə Avropa İttifaqının 40 nəfərdən ibarət mülki missiyasının göndərilməsi barədə qərar qəbul olundu. Sonradan bizə məlum oldu ki, onların sayı 50 nəfər olacaq. Onlar orada azı 2 ay olacaqlar. Bu missiyanın məqsədi, gördüyümüz kimi, tərəflərə sərhədlərin çəkilməsində, delimitasiya ilə bağlı məsələlərin müəyyənləşdirilməsində kömək göstərməkdir. Bu səbəbdən biz buna razılıq verdik. Bu missiyanı Azərbaycan tərəfinə göndərmək barədə də cəhdlər oldu, ancaq bizim tərəfimizdən bu cəhdlər qətiyyətlə rədd edildi. Buna görə də missiya Ermənistan ərazisində, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) məsuliyyət zonasında yerləşəcək. Dünən Avropa nümayəndələrinin birinci qrupu bu missiyanın yerləşdirilməsini müəyyənləşdirmək üçün Ermənistana gedib.






Təəssüf ki, Azərbaycan dördtərəfli görüşün o cümlədən Fransa Prezidentinin iştirakı ilə keçirilməsinə razılıq verməsinə baxmayaraq, - Fransanın Azərbaycan və Ermənistan arasında münasibətlərə heç bir aidiyyəti yoxdur, bəli, ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın vasitəçilik missiyası var idi, lakin Qarabağ münaqişəsi nizamlandığına görə Minsk qrupunun xidmətinə heç bir ehtiyac yox idi, özü də bu xidmətlər, artıq dediyim kimi, əgər belə demək mümkündürsə, faydadan daha çox ziyan gətirən xidmətlər idi, Minsk qrupu heç bir iş görməyib, ərazimizin bir santimetr torpağı belə azad edilməmişdi, - Azərbaycan xoş məram göstərərək Fransa Prezidentinə bu görüşdə iştirak etməyə icazə verdi. Avropa İttifaqı Şurası prezidentinin iştirakına gəlincə, bildiyiniz kimi, Brüsseldə artıq bir neçə üçtərəfli görüş keçirilib və prinsipcə, biz Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması işində Avropa İttifaqının səylərini həmişə dəstəkləmişik. Lakin Azərbaycanın nümayiş etdirdiyi xoş mərama baxmayaraq, Praqadakı görüşdən demək olar bir həftə sonra Fransa Prezidenti təhqiramiz, qəbulolunmaz, yalan və təxribat xarakterli bəyanatlarla çıxış etdi. Bu bəyanatlar mətbuatda var, hər kəs onları görə bilər. Bu bəyanatlarda o, Azərbaycanı dəhşətli müharibə törətməkdə günahlandırıb, bununla da faktları manipulyasiya edərək Fransa və dünya ictimaiyyətini çaşdırmağa səy göstərib. Azərbaycan beynəlxalq səviyyədə tanınan öz ərazisində müharibə aparırdı. Qarabağ bütün dünya tərəfindən Azərbaycanın tərkib hissəsi kimi tanınıb. Biz özünümüdafiə hüququndan istifadə edərək ərazi bütövlüyümüzü güc hesabına bərpa etdik.

Daha sonra bəyan edildi ki, Fransa heç vaxt Ermənistanı atmayacaq. Ancaq, necə deyərlər, bu ikitərəfli münasibətlər məsələsidir. Həmçinin Rusiya Federasiyasının ünvanına "Rusiya Azərbaycan oyununu oynadı" kimi qərəzli bəyanatlar səsləndirildi. Böyük ölkənin Prezidentinə küçə leksikonundan istifadə etməyin nə dərəcədə siyasi nəzakətə uyğun olmasını, qoy, Fransa ictimaiyyəti müəyyən etsin. Biz isə öz tərəfimizdən belə bəyanatları qəti surətdə pisləyirik, rədd edirik və bundan sonra Fransa hökumətinin belə münasibəti çərçivəsində Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması işində Fransanın hər hansı rol oynamasının heç bir mümkünlüyünü görmürük.

Bundan başqa, Fransanın xarici işlər naziri Azərbaycanın əleyhinə yalan bəyanatlar verib, Fransa Senatı və aşağı palata İkinci Qarabağ müharibəsi dövründə qondarma "Dağlıq Qarabağ"ı tanıyan qətnamələr qəbul ediblər. Baxmayaraq ki, hətta Ermənistan özü onu tanımayıb. Bizə məlumdur ki, noyabrın ortalarına Fransa Senatında Azərbaycan əleyhinə növbəti qətnamə hazırlanır. Beləliklə, təəssüf ki, Fransanın indiki rəhbərliyi əvvəlkilərdən fərqli olaraq, - mənim isə Prezident Şirakla da, Prezident Sarkozi ilə də, Prezident Ollandla da kifayət qədər sıx ünsiyyət qurmaq imkanım var idi və münasibətlər kifayət qədər ölçülüb-biçilmiş, kifayət qədər mehriban idi və Fransada müəyyən erməni diasporu amilinə baxmayaraq, biz həmişə Fransanın əvvəlki prezidentlərinin fəaliyyətini balanslaşdırılmış qəbul edirdik, - mahiyyət etibarilə bütün bunların üstündən xətt çəkdi. Buna görə də istərdim ki, həmkarlarımı bu vəziyyət barədə məlumatlandırım.

Daha sonra Azərbaycanın Parisdəki səfirliyinə iki dəfə basqın edildi. Özü də birinci hücumdan sonra Fransa Prezidenti telefonda mənə vəd verdi ki, bunun təkrarlanmaması məqsədilə tədbir görüləcək. Lakin bunun, yumşaq desək, doğru olmadığı ortaya çıxdı. Birinci vandalizm aktından və səfirliyin binasına soxulmaq cəhdindən sonra Azərbaycan səfirliyinin qarşısında qoyulmuş mühafizə götürüldü. Çox güman ki, bu, erməni tərəfi ilə razılaşdırılıb. Mühafizə götürülən kimi ikinci basqın cəhdi oldu, təhqiramiz yazılar oldu, Azərbaycan səfirliyinə hücum edən özündən çıxmış radikalların izdihamı oldu. Bu, qətiyyən yolverilməzdir və bütün diplomatik konvensiyaların pozulması deməkdir.

Deməliyəm ki, həmçinin Ermənistan tərəfindən Azərbaycanın Livandakı və ABŞ-dakı səfirliklərinə qarşı təxribatlar törədilib. Sonuncu təcavüz aktının, terrorun da - Azərbaycanın ABŞ-dakı səfirliyinin avtomobilinə odlu silahdan atəş açılmasının görüntüləri var. Biz Azərbaycanın diplomatik missiyalarının mövcud olduğu ABŞ-nin, Fransanın, Livanın və digər ölkələrin hakimiyyətlərini, - o ölkələrdə ki, onlar terrora məruz qala bilər, - məsuliyyətli olmağa və beynəlxalq öhdəliklərini yerinə yetirməyə çağırırıq.

Bizdə heç bir şübhə yoxdur ki, terror və vandalizm aktları Ermənistan tərəfindən təşkil edilib. Mən nə üçün bunu deyirəm? Çünki 1990-cı illərdə erməni xüsusi xidmət orqanları tərəfindən 32 terror aktı - metroda, avtobuslarda, bərələrdə və qatarlarda partlayışlar törədilib. Bu terror aktları nəticəsində iki mindən çox dinc azərbaycanlı həlak olub.

Postmünaqişə vəziyyətinin digər aspektlərinə gəldikdə, indi biz azad edilmiş ərazilərin bərpası ilə fəal məşğul oluruq. Hər şey dağıdılıb, görüntülər dərc edilib, arzu edənlər tanış ola bilərlər. On min kvadratkilometr ərazidə demək olar bir salamat bina qalmayıb, 67 məsciddən 65-i dağıdılıb. Müsəlmanların müqəddəs yerlərinin təhqir edilməsi, məscidlərdə donuz və inək saxlanılmasına dair görüntüləri internetdən də əldə etmək olar. Bütün bunlar Azərbaycan xalqına və bütün müsəlman dünyasına qarşı ifrat dərəcədə nifrətdən xəbər verir. Bunu ancaq belə başa düşmək olar.

Daha bir məqamı da qeyd etmək istərdim ki, 2020-ci ilin noyabrında Rusiya Federasiyasının vasitəçiliyi ilə üçtərəfli Bəyanat qəbul edilib. Azərbaycan Bəyanatın bütün müddəalarını yerinə yetirir, o cümlədən Ermənistandan Qarabağa maneəsiz girişi təmin edir. Ermənistan Bəyanatın özünə aid hissəsini icra etmir. Məhz Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına maneəsiz girişi təmin etmir, halbuki bu onun hüquqi öhdəliyidir, həmçinin Azərbaycan ərazisindən erməni silahlı qüvvələrini indiyədək çıxarmayıb. Biz hələ ki səbir nümayiş etdiririk, lakin bunun da bir həddi var. 2020-ci ilin noyabr Bəyanatının bu iki vacib bəndi icra edilməsə, bizim adekvat tədbir görməkdən başqa seçimimiz qalmayacaq.

Sonda Qarabağ ermənilərinin taleyi barədə. Praqa görüşündə bu məsələ üzrə bizim fikir mübadiləmiz oldu. Bizim mövqeyimiz aydındır, dəqiqdir. Qarabağ Azərbaycandır. Qarabağın erməni əhalisinin hüquqları və təhlükəsizliyi Azərbaycan Konstitusiyasına uyğun olaraq təmin ediləcək. Biz öz daxili məsələlərimizi heç bir tərəflə müzakirə etməyə hazırlaşmırıq. Praqa görüşünün yekunlarına əsasən də başa düşdüyüm qədər bu mövzu dördtərəfli görüşün bütün iştirakçıları arasında hər hansı fərqli şəkildə qəbul edilməyib.

Diqqətinizə görə çox sağ olun. Mən həmkarlarımı baş vermiş hadisələr haqqında məlumatlandırmağı zəruri hesab etdim, çünki baş verənlər barədə müxtəlif versiyalar dolaşır. İstədim ki, siz bizim versiyamızı və yeganə həqiqi versiyanı mənim özümdən eşidəsiniz. Çox sağ olun.

Prezident **Kasım-Jomart TOKAYEV:** Çox sağ olun, hörmətli İlham Heydər oğlu.

* * *

Sonra MDB Dövlət Başçıları Şurasının iclası işini geniş tərkibdə davam etdirdi.

İclasda çıxış edən MDB İcraiyyə Komitəsinin sədri - icraçı katibi Sergey Lebedev MDB Dövlət Başçıları Şurasına sədrliyin Qırğızıstana keçdiyini bildirdi.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev "Mir" Teleradio Şurasının sədri Radik Batırşini MDB-nin diplomu ilə təltif etdi.

İclasda MDB-nin icraçı katibi vəzifəsinin adı dəyişdirilərək baş katib adlandırıldı. MDB İcraiyyə Komitəsinin sədri-icraçı katibi Sergey Lebedev baş katib vəzifəsinə seçildi.

Daha sonra sənədlər imzalandı.

Bununla da Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclası başa çatdı.

## Astanada MDB dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub

Oktyabrın 14-də Astanada MDB dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

## Qazaxıstana işgüzar səfər başa çatıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına işgüzar səfəri oktyabrın 14-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Nursultan Nazarbayev adına Beynəlxalq Hava Limanında dövlətimizin başçısını Qazaxıstanın Baş naziri Əlixan Smailov və digər rəsmi şəxslər yola saldılar.



## Astanada Azərbaycan, Rusiya və Ermənistanın XİN başçıları arasında görüş

Oktyabrın 14-də Astana şəhərində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov, Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov, Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan arasında üçtərəfli görüş keçirilib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov sonuncu dəfə bu formatda görüşün bu ilin may ayında Düşənbədə keçirildiyini xatırladaraq, görüşün Düşənbədən sonra inkişaflar üzrə müzakirə aparılması üçün yaxşı imkan olduğunu qeyd edib. Xüsusən sülh müqaviləsi ilə bağlı Cenevrədə oktyabrın 2-də ikitərəfli görüşün keçirildiyini və həmin görüşdə Azərbaycan tərəfindən sülh müqaviləsinin əsas elementlərinin Ermənistana təqdim olunduğunu, elementlər üzrə Ermənistan tərəfindən cavab gözləndiyini bildirib. Sülh müqaviləsinin baza prinsiplərinin hələ bu ilin fevral ayında Azərbaycan tərəfindən təqdim olunduğu, həm Azərbaycanın, həm də Ermənistanın Praqada keçirilmiş dördtərəfli görüşün yekununda bir-birinin ərazi bütövlüyü və suverenliyini qarşılıqlı tanımaq və hörmət etmək barədə razılığa gəldiyi, bunun sülh müqaviləsinin əsasını təşkil etdiyi nəzərə alınaraq müqavilənin imzalanması istiqamətində irəliləyiş kimi qəbul edildiyi vurğulanıb.

Görüşdə eyni zamanda Azərbaycanla Ermənistan arasında normallaşmanın müxtəlif istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb. Kommunikasiyaların açılması ilə bağlı üçtərəfli işçi qrupunda indiyə qədər aparılmış danışıqlar zamanı əldə edilmiş tərəqqi əsasında praktiki işə başlamağın vacib olduğu nazir Ceyhun Bayramov tərəfindən qeyd edilib. Delimitasiya üzrə komissiyaların artıq yaradıldığı, indiyə qədər iki görüşün keçirildiyi bildirilib. Üçüncü görüşün yaxın zamanlarda keçirilməsinin nəzərdə tutulduğu diqqətə çatdırılıb. Azərbaycanın bu prosesdə işin konkret istiqamətlər üzrə aparılmasının tərəfdarı olduğu bildirilib.

Nazir üçtərəfli bəyanatların hərtərəfli icra olunmasının vacib olduğunu diqqətə çatdırıb. Bu xüsusda bəyanatların Ermənistan tərəfindən icra olunmayan müddəalarının həyata keçirilməsinin zəruriliyi vurğulanıb, o cümlədən Ermənistan tərəfindən Azərbaycan ərazilərində minaların basdırılmasının və mina xəritələrinin tam şəkildə verilməməsinin ciddi problem olduğu qeyd edilib.

Görüş zamanı həmçinin normallaşma prosesinə yardım edən digər humanitar məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Daxili İşlər Nazirliyində kollegiya iclası olub

Oktyabrın 14-də Daxili İşlər Nazirliyində (DİN) təqsirləndirilən və xəbərsiz itkin düşmüş şəxslərin axtarışı, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə, cinayətlər və xırda talamalar nəticəsində vətəndaşlara vurulmuş ziyanın ödətdirilməsi işinin vəziyyətinə, eləcə də cari ilin doqquz ayının yekunlarına həsr olunmuş kollegiya iclası keçirilib.





DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclasda giriş sözü ilə çıxış edən daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov müzakirəyə çıxarılan hər üç məsələnin fundamental insan hüquqlarının müdafiəsində, vətəndaşların qanuni mənafelərinin cinayətkar qəsdlərdən qorunmasında mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Gündəlikdəki məsələlər barədə nazirliyin aidiyyəti baş idarələrinin rəisləri məruzə edərək müzakirə olunan məsələlərlə bağlı görülmüş işlərdən, əldə edilmiş nəticələrdən, yol verilmiş nöqsanlardan və onların aradan qaldırılmasının gedişindən danışıblar. Qeyd olunub ki, cari ilin doqquz ayında respublika üzrə axtarışda olanların 81,4 faizi tutularaq istintaqa təhvil verilib. Cinayət işləri və xırda talamalar nəticəsində vətəndaşlara vurulmuş ziyanın təxminən 90 faizə qədəri ödətdirilib.

Həmin müddətdə qanunsuz dövriyyədən 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 293 kiloqram çox, yəni ümumi dəyəri 40 milyon manat təşkil edən 3 ton narkotik vasitə və 300 kiloqramdan artıq psixotrop maddə, o cümlədən narkotiklərin onlayn satışı ilə bağlı 241 fakt müəyyən edilərək 1 ton 400 kiloqramdan artıq narkotik vasitə və psixotrop maddə qeyri-leqal dövriyyədən çıxarılıb. Keçirilmiş əməliyyat tədbirləri ilə 289 nəfərdən ibarət 113 cinayətkar qrup zərərsizləşdirilib.

Tərkibində narkotik maddələr olan bitkilərin qanunsuz kultivasiyasının və yabanı halda yayılmasının profilaktikası yönümündə də davamlı iş aparılıb. Xüsusi əməliyyat planı üzrə keçirilən tədbirlərlə ümumi çəkisi 25 tona yaxın olan çətənə və xaş-xaş kolu, eləcə də yabanı halda bitmiş 166 tondan çox həmin növ bitki aşkarlanaraq məhv edilib.

Məruzələr ətrafında bir sıra ərazi orqanlarının rəisləri çıxış edərək görülmüş və planlaşdırılan tədbirlər barədə məlumat veriblər.

İclasa yekun vuran nazir V.Eyvazov bu ilin 9 ayında asayişin və ictimai təhlükəsizliyin təmini ilə bağlı qarşıya qoyulmuş vəzifələrin bütövlükdə layiqincə yerinə yetirildiyini, cinayətkarlıqla mübarizədə, insan hüquq və azadlıqlarının qorunmasında əldə olunmuş müsbət nəticələrin hesabat dövründə də qorunub-saxlanıldığını vurğulayıb. Cinayətkarlığa, onun transmilli növlərindən olan narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirən hər bir şəxsə, o cümlədən bloqçulara və digər ictimai fəallara, qeyri-hökumət təşkilatlarının nümayəndələrinə və media mənsublarına minnətdarlıq bildirib.

Bu xüsusda onu da diqqətə çatdırıb ki, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə, həmçinin həmin vasitələrin onlayn satışı sahəsində faktların 20 faizə qədəri məhz vətəndaşların məlumatları əsasında aşkarlanaraq cinayəti törətmiş şəxslər ifşa olunublar.

Eyni zamanda nəqliyyatın sayının sürətlə artdığı dövrdə paytaxtda nəqliyyat sıxlığının aradan qaldırılması ilə bağlı görülən işlərin üzərində də dayanan nazir yolların kənarında qeyri-qanuni saxlanılan və nəqliyyatın normal axınına maneçilik törədən avtomobillərin kənarlaşdırılmasının və digər qanunazidd halların aradan qaldırılmasının, ümumən bu sahədə tədbirlərin gücləndirilməsinin vacibliyinə toxunub.

Nəqliyyatı İntellektual İdarəetmə Sisteminin təkmilləşdirilməsi, o cümlədən funksionallığının artırılması ilə əlaqədar qarşıda duran vəzifələri də müəyyən edərək aidiyyəti qurumların rəhbərlərinə bir sıra tapşırıqlar verib. Həmçinin günün vacib tələblərindən olan ekoloji cinayətlərin və müvafiq sahədə baş verən inzibati xətaların qarşısının alınması üzrə həyata keçirilən tədbirlərin, xüsusən qanunsuz ağackəsmə, qiymətli ağacların məhv edilməsi hallarına qarşı mübarizənin daha məqsədyönlü aparılmasının zəruriliyini vurğulayıb.

Bütün bunlarla yanaşı, bəzi ərazi orqanlarının fəaliyyətində müəyyən nöqsan və çatışmazlıqlara da diqqət çəkərək onların aradan qaldırılması üçün lazımi tədbirlərin həyata keçirilməsini, qanunçuluğun möhkəmləndirilməsini, vətəndaşların problemlərinə, şikayətlərinə daha böyük həssaslıqla yanaşılmasını, bütövlükdə vətəndaş məmnunluğunun davamlı surətdə təmin olunmasını tələb edib.

General-polkovnik Vilayət Eyvazov əminliyini bildirib ki, şəxsi heyət bundan sonra da məsul vəzifələrinin və qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gələcək, ölkədə sabitliyin və əmin-amanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında qüvvə və bacarığını əsirgəməyəcək.

## Strateji tərəfdaşlığın mühüm mərhələsi: yeni hədəflərə doğru



Beynəlxalq münasibətlər sistemində ciddi dəyişikliklər baş verir və Avrasiyada yeni geosiyasi nizam yaranır. Belə bir situasiyada milli dövlətlər fəaliyyət dairələrini genişləndirmək, sıx tərəfdaşlıq vasitəsilə siyasi, iqtisadi maraqları təmin etmək, yeni geostrateji üstünlüklər qazanmaq üçün mühüm addımlar atırlar.

Cənubi Qafqazın lider dövləti Azərbaycanla Mərkəzi Asiyanın önəmli qüvvələrindən olan Qırğızıstan arasında əməkdaşlığın dərinləşdirilməsi də bu baxımdan diqqəti cəlb edir. Ona görə də Prezident İlham Əliyevin Qırğızıstana dövlət səfəri həm yerli, həm də beynəlxalq medianın gündəmindədir.

Bu kontekstdə bir neçə məqama xüsusi diqqət yetirmək lazımdır:

- Bakı-Bişkek geostrateji xəttində intensiv təmaslar və hərtərəfli əməkdaşlıq təkcə iki ölkə arasında deyil, regionda işbirliyinin dərinləşməsinə xidmət edir;
- Yarım il öncə strateji tərəfdaşlıq haqqında Bəyannamənin imzalanması ilə Azərbaycan və Qırğızıstan arasında münasibətlərin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi etibarlı zəmin yaradıb. Bu gün həmin zəmin üzərində mədəni-humanitar, iqtisadiyyat, nəqliyyat, təhsil, yüksək texnologiyalar sahələrində əməkdaşlıq genişləndirilir;
- İkitərəfli əlaqələrin gündəliyində duran mühüm məsələlər sırasında investisiyaların cəlb edilməsi, yeni iş yerlərinin yaradılması və ticari-iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi xüsusi yer tutur. Qırğızıstan-Azərbaycan İnkişaf Fondunun yaradılması bu baxımdan böyük önəm daşıyır;
- İki ölkə başçısının səsləndirdiyi fikirlər təsdiq edir ki, Azərbaycan ilə Qırğızıstan qlobal platformalarda bir-birinin maraqlarını qətiyyətlə müdafiə etmək əzmindədirlər. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq səmimidir və qarşılıqlı dəstəyə əsaslanır;
- Bakı ilə Bişkek arasında qarşılıqlı faydalı işbirliyi türk dünyası üçün olduqca əhəmiyyətlidir;
- Azərbaycan-Qırğızıstan əməkdaşlığı Avrasiyanın nəqliyyat xəritəsinin yenidən tərtib olunmasına mühüm töhfədir. İki ölkənin işbirliyi fonunda "Cənub-Qərb" və "Şimal-Qərb" dəhlizlərinin potensialını genişləndirmək üçün geniş imkanlar yaranıb.

Beləliklə, nəticələrə hədəflənmiş əməkdaşlıq Azərbaycana, Qırğızıstana, tərəfdaşlarımıza və bütövlükdə türk dünyasına mühüm siyasi imkanlar, iqtisadi dividendlər və strateji üstünlüklər qazandırır. İki ölkə strateji tərəfdaşlığın mühüm mərhələsində yeni hədəflərə doğru əmin addımlarla irəliləyir.

***Siyavuş NOVRUZOV,***
***Milli Məclisin Regional məsələlər komitəsinin sədri***

## AŞPA-da Azərbaycan ərazilərini minalamağı dayandırması üçün Ermənistana təzyiqin artırılmasına çağırış edilib

"Ermənistanla Azərbaycan arasında keçmiş münaqişənin ən ağır humanitar nəticələrindən biri ərazilərimizin kütləvi şəkildə minalaşdırılmasıdır. Assambleyamızın yay sessiyasından ötən müddət ərzində Azərbaycanda mina qurbanlarının sayı artıb. Keçən həftə iki nəfər həlak olub, üç nəfər ağır yaralanıb. 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanmasından sonra həmin ərazilərdə 250 nəfər mina partlayışları nəticəsində həyatını itirib və ya ağır yaralanıb. Ümumilikdə son 30 ildə 3300 azərbaycanlı minaların qurbanı olub".

Bu fikirlər Azərbaycanın AŞPA-da nümayəndə heyətinin üzvü Sevinc Fətəliyevanın sərbəst debatlar üçün hazırladığı və yazılı şəkildə avropalı parlamentarilərə təqdim edilmiş çıxışında yer alıb.

Deputat bildirib ki, Ermənistanın Azərbaycan ərazilərinə minalar yerləşdirməkdə davam etməsi, məcburi köçkünlərin geri qayıtmasına əlavə maneələr yaratması, genişmiqyaslı bərpa və yenidənqurma işlərinin aparılmasına mane olması qəzəb doğurur. Son zamanlar Azərbaycanın Laçın, Kəlbəcər və Daşkəsən rayonlarında 2021-ci ildə Ermənistanda istehsal edilmiş 1400-dən çox piyada və tank əleyhinə mina aşkar edilib. Bu, Ermənistanla Azərbaycan arasında bütün hərbi fəaliyyətlərin dayandırıldığını elan edən və bütün erməni qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasını nəzərdə tutan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata riayət edilməməsinin əyani sübutudur.

Azərbaycan Silahlı Qüvvələri tərəfindən aşkar edilən minaların miqdarı və növləri göstərir ki, Ermənistan münaqişədən sonrakı normallaşma prosesini qəbul etmək və regionda uzunmüddətli sülh, təhlükəsizlik və əməkdaşlıq yaratmaq səylərini dəstəkləmək əvəzinə, dağıdıcı siyasətini davam etdirməkdə, azad olunmuş ərazilərdə mülki əhalinin geri qayıtmasına mane olmaqda və günahsız dinc əhalini təhlükə altına salmaqdadır.

Bu ərazilərdə mina yerləşdirməsi Ermənistanın öhdəliklərinə, eləcə də 2020-ci ildə imza atdığı üçtərəfli Bəyanat çərçivəsində götürdüyü öhdəliklərə ziddir və müharibə cinayətidir.

"Ermənistan silahlı qüvvələrini Azərbaycan ərazisindən hələ də çıxarmayıb, Azərbaycan Respublikasına qarşı hərbi fəaliyyətini dayandırmayıb. Əksinə, Ermənistan Azərbaycan ərazisində istehkamlar tikir, hərbi-mühəndislik fəaliyyətini davam etdirir və bu kontekstdə burada genişmiqyaslı minalama işləri həyata keçirir.

Yuxarıda qeyd olunanlar ümumi beynəlxalq hüququn, habelə üçtərəfli Bəyanatın tələb etdiyi kimi, bütün Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən tezliklə çıxarılmasının təcili zəruriliyini nümayiş etdirir", - deyə S.Fətəliyeva bildirib.

Qeyd edib ki, Ermənistan 30 ilə yaxındır işğal altında saxladığı Azərbaycan ərazilərini kütləvi şəkildə minalayaraq, bu əraziləri dünyanın ən çirklənmiş ərazilərindən birinə çevirib. Ermənistan uzun müddətdir ki, mina xəritəsini Azərbaycana təhvil verməkdən imtina edir. Verdiyi xəritələrin düzgünlük faizi isə çox aşağıdır və minalanmış ərazilərin 5 faizini təşkil edir. Ermənistanın minalar yerləşdirməkdə davam etməsi doğma yurdlarından didərgin salınmış azərbaycanlıların evlərinə qayıtması üçün əsas maneə olmaqla yanaşı, münaqişədən sonrakı reabilitasiya və yenidənqurma planlarının həyata keçirilməsinə də böyük maneədir. Azərbaycanlı deputat beynəlxalq ictimaiyyəti Azərbaycan ərazilərindəki bütün silahlı qüvvələrini çıxarması, ərazilərimizdə yerləşdirdiyi minalar haqqında tam məlumat verməsi üçün Ermənistana təzyiq göstərmək səylərini artırmağa çağırıb.

Vurğulayıb ki, Azərbaycan dünyada ərazilərinə ən çox mina yerləşdirilmiş ölkədir. Eyni zamanda ərazilərini minalardan təmizləmək üçün ən az humanitar yardım alan ölkədir. Azərbaycan minaların mülki əhali üçün yaratdığı humanitar təhlükəyə qarşı maksimum səy göstərir. Minalar əhalinin həyatına mənfi təsir göstərir və humanitar təhlükə mənbəyi olaraq qalır. Bu, humanitar aktuallıq kəsb etdiyi üçün beynəlxalq ictimaiyyətin mina təhlükəsi ilə mübarizəyə sədaqətlə qoşulması və yardım göstərməsi vacibdir.

Donor icması tərəfindən Azərbaycana beynəlxalq yardımın artırılması minalara qarşı qlobal kampaniyaya əhəmiyyətli töhfə verəcək, ancaq təəssüf olsun ki, hazırda lazımi yardımın olmaması minadan təmizləmə kampaniyasını məhdudlaşdırır. "Minalar qlobal miqyasda humanitar təhlükə yaratdığından, yardımın paylanmasında hər hansı ayrı-seçkilik minaların yaratdığı humanitar təhlükəni artırır və minalara qarşı qlobal səylərin səbəbini dəyərdən salır. İnanırıq ki, donor icması əlavə insan tələfatlarını azaltmaq və kütləvi minalarla çirklənmə problemini daha yaxşı həll etmək üçün həm vəsait, həm də texniki avadanlıq, texnologiya baxımından Azərbaycana yardımını artıracaq", - deyə S.Fətəliyeva qeyd edib.

## Xarici ölkələrin hərbi attaşeləri Gəncədə erməni terroru qurbanlarının xatirəsini anıblar

Azərbaycan Respublikasında akkreditə olunmuş xarici ölkələrin hərbi attaşeləri Gəncə şəhərində Ermənistan silahlı qüvvələrinin raket hücumları nəticəsində həlak olan mülki əhalinin xatirəsini anıblar.



AZƏRTAC xəbər verir ki, oktyabrın 14-də Müdafiə Nazirliyinin təşkilatçılığı ilə hərbi attaşelər Vətən müharibəsi zamanı erməni hərbi birləşmələri tərəfindən Gəncədə törədilən terror hadisəsinin baş verdiyi ərazini ziyarət edib, həlak olan dinc sakinlərin xatirə guşəsinin önünə gül dəstələri düzüblər.

Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov xarici ölkələrin hərbi nümayəndələrinə 2020-ci ildə 44 günlük müharibə zamanı Ermənistan silahlı qüvvələri tərəfindən beynəlxalq humanitar hüququn norma və prinsiplərinə zidd olaraq mülki əhali arasında maksimum itki vermək məqsədilə Gəncə, Bərdə, Tərtər, Mingəçevir, Beyləqan, Qəbələ, Goranboy, Ağcabədi, Naftalan, Abşeron və Xızı rayonlarının qəsdən ballistik raketlər və digər ağır artilleriya qurğuları ilə bombalandığı barədə ətraflı məlumat verib.

Bildirilib ki, humanitar atəşkəs rejiminin tətbiq edilməsinə baxmayaraq, 2020-ci il oktyabrın 11-də gecə saat 2 radələrində Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərində çoxmənzilli yaşayış binaları raket atəşinə tutulub. Hadisə nəticəsində 4-ü qadın olmaqla 9 nəfər şəhid olub, 35 nəfər isə yaralanıb. Yaralananlardan biri də sonradan xəstəxanada həyatını itirib.

Ümumiyyətlə, 44 günlük müharibə dövründə Ermənistan cəbhədən aralıda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Gəncəni 4, 5, 8, 11 və 17 oktyabr tarixlərdə raket və ağır artilleriyadan atəşə tutub, nəticədə 10 qadın, 6 azyaşlı olmaqla, 26 dinc sakin həlak olub, 32 azyaşlı olmaqla 175 nəfər yaralanıb.

Hərbi attaşelərin diqqətinə çatdırılıb ki, İkinci Qarabağ müharibəsi dövründə Ermənistanın hərbi təcavüzü nəticəsində ümumilikdə 12-si uşaq və 27-si qadın olmaqla 93 mülki şəxs həlak olub, 454 mülki vətəndaş yaralanıb, 12292 yaşayış və qeyri-yaşayış sahəsinə, 288 nəqliyyat vasitəsinə ziyan dəyib.

Xüsusi vurğulanıb ki, Azərbaycan dünyada mina ilə ən çox çirklənmiş ölkələr sırasındadır. İkinci Qarabağ müharibəsinin başa çatmasından ötən iki il ərzində 250-dən çox Azərbaycan vətəndaşı mina partlayışları nəticəsində həlak olub və ya ağır yaralanıb.

Səfər çərçivəsində hərbi attaşelər Nizami Gəncəvi Məqbərə Kompleksində də olublar. Burada onlara dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin yaradıcılığı barədə ətraflı məlumat verilib.

## MDB Ölkələrinin Tikinti Fəaliyyətində Əməkdaşlıq üzrə Hökumətlərarası Şurasının 43-cü iclası keçirilib

### Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin nümayəndələri iclasda iştirak ediblər

Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Tikinti Fəaliyyətində Əməkdaşlıq üzrə Hökumətlərarası Şurasının 43-cü iclası keçirilib. İclas bu il Rusiya Federasiyasının Kazan şəhərində baş tutub.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən AZƏRTAC-a bildirilib ki, toplantıda Rusiya Federasiyası, Azərbaycan, Belarus, Özbəkistan, Ermənistan, Qazaxıstan və Türkmənistan respublikalarının nümayəndə heyətləri iştirak ediblər.

Azərbaycan Respublikası adından şuraya üzv olan Dövlət Şəhərsalma və Arxitektura Komitəsi bu iclasda komitənin sədr müavini Dövlətxan Dövlətxanov və digər vəzifəli şəxslər tərəfindən təmsil olunub.

İclasda üzv dövlətlər arasında əməkdaşlığın daha da genişləndirilməsinin və bu sahədə əldə edilmiş təcrübə mübadiləsinin davam etdirilməsinin əhəmiyyəti vurğulanıb. Gündəliyə daxil olan bir sıra məsələlər, o cümlədən şəhərsalma və tikinti sahəsində aktual problemlər və onların həlli yolları, tikintidə texniki tənzimləmə, qiymətqoymada resurs metodunun tətbiqi kimi mövzularda fikir mübadiləsi aparılıb, müvafiq qərar layihələri hazırlanaraq yekdilliklə qəbul edilib. Həmçinin Şura Katibliyinin Əsasnaməsi, Texniki tənzimləmə problemləri üzrə Baza təşkilatının və şuranın nəzdində fəaliyyət göstərən komissiyaların iş planları da müzakirə edilərək təsdiqlənib.

Qeyd olunub ki, Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Tikinti Fəaliyyətində Əməkdaşlıq üzrə Hökumətlərarası Şurasının 42-ci iclası ötən il Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədrliyi ilə təşkil edilmişdi. Şəhərsalma siyasətinin əsas istiqamətləri, inşaat materialları sənayesinin inkişafı, tikintidə enerjiyə qənaət və bərpaolunan enerji mənbələrindən istifadə, şəhər infrastrukturunun təkmilləşdirilməsi, layihələndirmədə müasir texnologiyaların tətbiqi və digər birgə həyata keçirilə biləcək fəaliyyət istiqamətləri ətrafında geniş müzakirələr aparılıb.

Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Tikinti Fəaliyyətində Əməkdaşlıq üzrə Hökumətlərarası Şurasının növbəti iclasının 2023-cü ilin yaz aylarında keçirilməsi planlaşdırılır.

# Tarixin ən qüdrətli

2003-cü ilin bu günlərində Azərbaycan xalqı növbəti tarixi seçim anını yaşayırdı. Yeni əsr, yeni minillik xalqımız üçün, sadəcə, təqvim dəyişikliyi deyildi, Azərbaycan xalqı özünün inkişaf salnaməsinin yeni və daha möhtəşəm uğurlarının astanasında idi. 1993-cü ildə **"Azərbaycan sizin sözünüzü gözləyir!", "Bizi bu bəladan qurtar!"** çağırışları ilə Ulu Öndər Heydər Əliyevə üz tutan, Onun xilaskarlıq missiyasına inanan milyonlarla vətəndaşımız 10 il sonra özünün gələcək taleyini yenə də Heydər Əliyev siyasətinə, bu siyasətin ən layiqli davamçısı cənab İlham Əliyevə etibar etdi.



Ölkəmizin müasir reallıqları Prezident İlham Əliyevin böyük liderlik xüsusiyyətləri, yüksək idarəçilik qabiliyyəti, iti zəkası və zəngin səriştəsi ilə əlaqədar olduğu kimi, Onun Heydər Əliyev siyasətinə sadiqliyinin, bu siyasi kursu dövrün tələblərinə uyğunlaşdıraraq ustalıqla davam etdirməsinin məntiqi nəticəsidir. Ona görə də cənab İlham Əliyev prezident seçkilərində xalqın dəstəyini qazanaraq vəzifəsinin icrasına başlayarkən qeyd etmişdir ki, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. **"Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm",** - deyən möhtərəm Prezident İlham Əliyev ötən 19 ildə Heydər Əliyev yolunun, Heydər Əliyev siyasətinin Azərbaycana nəhəng uğurlar qazandıra biləcək yeganə düzgün yol olduğunu sübuta yetirmişdir. Möhtərəm Prezident İlham Əliyevin praqmatik, çevik siyasəti, sistemli və ardıcıl strateji kursu ölkəmizin müasir inkişafını təmin etmişdir. Əgər Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyini, müstəqilliyimizi qoruyub onun əbədiliyini təmin etmişdisə, möhtərəm Prezident İlham Əliyev bu müstəqilliyi daha da möhkəmləndirmiş, inkişaf etdirmiş, ölkəmizi regionun lider dövlətinə çevirmişdir.

## Prezident İlham Əliyev nəinki Ulu Öndər Heydər Əliyevin etimadını doğrultdu, O, bütün Azərbaycan xalqının sonsuz inamını qazandı

2003-cü ildə prezident seçkiləri ərəfəsində - oktyabrın 1-də Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına tarixi müraciətində **Onun axıra çatdıra bilmədiyi taleyüklü məsələləri, planları, işləri cənab İlham Əliyevin başa çatdıra biləcəyini qeyd edərək, Ona özü qədər inandığını və gələcəyinə böyük ümidlər bəslədiyini bəyan etmişdi.** Bu, vətəni Heydər Əliyev kimi sevməyin, milli təəssübkeşliyin, xalqına, dövlətinə ləyaqətlə xidmət etməyin ən yüksək təntənəsi idi. Heydər Əliyev nəinki Azərbaycana rəhbərlik etdiyi illərdə canı qədər sevdiyi Vətəninə uğurla rəhbərlik etmiş, onu süqutun astanasından inkişaf yoluna çıxarmışdır, eyni zamanda ölkəmizin, xalqımızın gələcək taleyinin sarsılmaz təməllərini böyük müdrikliklə müəyyənləşdirmiş, onun inkişaf formulasını aydın şəkildə ortaya qoymuşdur. Azərbaycan xalqı da heç bir tərəddüd etmədən və əminliklə Ümummilli Liderin bu müraciətinə dəstək verərək onun göstərdiyi yolun ən düzgün yol olduğunu birmənalı qəbul edərək, Heydər Əliyev siyasətini davam etdirmək gücündə və iqtidarında olan, başlanılan qlobal işləri, transmilli layihələri uğurla həyata keçirə biləcək, Azərbaycanı Ulu Öndərin görmək istədiyi zirvələrə qaldıracaq yeni əsrin yeni lideri möhtərəm Prezident İlham Əliyevə səs verdi.

Oktyabrın 31-də keçirilən andiçmə mərasimindəki nitqində - Vətənə, xalqa və dövlətə sədaqət andı içərkən cənab İlham Əliyev böyük əminliklə və qətiyyətlə **bu böyük etimadı doğruldacağını, bu vəzifənin öhdəsindən layiqincə gələcəyini** bəyan etmişdi. Azərbaycan xalqı bu əminliyi, bu qətiyyəti cənab İlham Əliyevin ötən 19 illik fəaliyyətinin hər bir məqamında, onun bütün qərar və addımlarında aydın şəkildə görmüşdür. Zaman sübut etdi ki, möhtərəm Prezident İlham Əliyev nəinki Ulu Öndər Heydər Əliyevin etimadını doğrultdu, O, bütün Azərbaycan xalqının birmənalı inamını qazandı, **hər bir azərbaycanlının prezidenti** oldu. Bu gün Azərbaycan xalqı bir yumruq kimi öz liderinin ətrafında birləşmişdir və ölkəmizin qazandığı nailiyyətlərin təməlində dayanan ən mühüm amillərdən biri də xalqın möhtərəm Prezident İlham Əliyevə sarsılmaz dəstəyi, həmrəyliyidir. Bu həmrəylik, bu birlik uğurlara, Zəfərlərə yol açır.

## Prezident seçkilərinin nəticələri xalqımızın cənab İlham Əliyevə etimadının, onun şəxsiyyətinə yüksək münasibətinin göstəricisi idi

Birmənalı şəkildə qeyd edə bilərik ki, 2003-cü ilin prezident seçkilərinin nəticələri həm də xalqımızın cənab İlham Əliyevə etimadının, onun şəxsiyyətinə yüksək münasibətinin göstəricisi idi. Çünki cənab İlham Əliyev ali kürsüdə fəaliyyətə başlamazdan öncə də çalışdığı bütün vəzifələrdə yüksək peşəkarlıq, bacarıq nümayiş etdirərək missiyasını uğurla həyata keçirmişdir. O, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, birinci vitse-prezidenti kimi Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu Azərbaycanın neft strategiyasının uğurla həyata keçirilməsində çox fəal rol oynamış, "Əsrin müqaviləsi"nin imzalanmasına və icra olunmasına mühüm töhfələr vermişdir.

Onun 1997-ci ildə Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsinə seçilməsi isə bütün idman ictimaiyyəti tərəfindən Azərbaycanın idman tarixində dönüş mərhələsi hesab edilir. Çünki məhz cənab Prezident İlham Əliyevin bu komitəyə rəhbərlik etməyə başlamasından sonra o vaxta qədər idmanda süstlüyün hökm sürdüyü, beynəlxalq idman yarışlarında ciddi uğurlar qazana bilməyən Azərbaycanda Olimpiya hərəkatı genişləndi. Qısa müddətdən sonra Azərbaycan bayrağı dünyanın ən böyük idman yarışlarında, Olimpiya oyunlarında dalğalanmağa, idmançılarımız kürsülərdə yer almağa başladı. Gənclərin idmana sürətlə axını, geniş idman və olimpiya qurğularının tikilməsi və istifadəyə verilməsi də məhz bu dövrə təsadüf edir. Hesab edirik ki, bu gün Azərbaycanın dünyada idman ölkəsi kimi tanınması tamamilə obyektiv gerçəkliklərə əsaslanır və cənab Prezidentin bu sahəyə böyük diqqət və qayğısının nəticəsidir.

Möhtərəm Prezident İlham Əliyevin Azərbaycanın və regionun ən böyük siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasına rəhbərliyi də həm partiyaya böyük nailiyyətlər qazandırıb, həm də Azərbaycan siyasi sisteminin inkişafına mühüm töhfələr verib. 1999-cu ildə Yeni Azərbaycan Partiyası sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə partiyanın sədri seçilən dövlətimizin başçısının rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası xalqın inam və etimadını doğruldub, özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Ulu Öndər tərəfindən Azərbaycanın ən çətin dövrlərində zamanın tələbindən irəli gələrək yaradılan və Heydər Əliyev ideyalarından güc alan Yeni Azərbaycan Partiyası möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün də xalqımıza və dövlətimizə sədaqətlə xidmət missiyasını uğurla yerinə yetirir, yenilənir, inkişaf edir.

## Prezident İlham Əliyevin Milli Məclisin AŞPA-da nümayəndə heyətinin rəhbəri kimi fəaliyyəti parlament diplomatiyamızın tarixində parlaq yer tutur

Möhtərəm Prezident İlham Əliyevin Azərbaycan Respublikasının Milli Məclisinin deputatı kimi fəaliyyəti parlamentarizm tariximizdə xüsusi iz buraxmışdır. **"Mənim üçün Milli Məclis çox əziz və doğma bir yerdir, mənim doğma evimdir... Biz bir məqsədə qulluq edirik. Amalımız da, məramımız da birdir - ölkəmizi möhkəmləndirmək, gücləndirmək, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq, güclü, zəngin dövlət yaratmaqdır",** - deyən cənab İlham Əliyev 1995-2003-cü illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı kimi, həm qanun yaradıcılığında, həm də seçicilərin problemlərinin həllində çox fəal iştirak etmiş və hər birimiz üçün yüksək örnək yaratmışdır. Əlbəttə, onun 2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri kimi fəaliyyəti həm dövlətimizin başçısının siyasi tərcümeyi-halında, həm də parlament diplomatiyamızın tarixində parlaq yer tutur. Cənab İlham Əliyev ən mürəkkəb zamanlarda, gərgin vəziyyətlərdə belə qətiyyət, yüksək diplomatik səriştə nümayiş etdirərək, Azərbaycan həqiqətlərinin, ölkəmizin məruz qaldığı işğalçılıq siyasəti barədə faktların Avropa ictimaiyyətinə çatdırılmasına, Qərbdəki bəzi institutlarda Azərbaycana qarşı erməni diasporunun dəstək verdiyi kampaniyaların qarşısının alınmasına nail olmuş, onları ifşa etmişdir. Möhtərəm Prezident İlham Əliyevin təşkilatdakı fəaliyyəti avropalı parlamentarilər tərəfindən də yüksək qiymətləndirilmiş, O, Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilmişdir. Bu gün də Azərbaycanın dövlət başçısının fəaliyyəti bu təşkilatda böyük hörmət və ehtiramla xatırlanır.

Təbii ki, bütün bu uğurları görən, cənab İlham Əliyevin Azərbaycan dövlətinə və xalqına qazandırdığı nailiyyətləri dəyərləndirən Azərbaycan xalqı Ona etimad göstərərkən bir an belə tərəddüd etmədi və zamanla xalqımızın haqlı olduğu daha böyük uğurlarda ortaya çıxdı.

## Prezident İlham Əliyev xalqın dəstəyinə arxalanaraq anti-Azərbaycan mərkəzlərin hər birinə qalib gəldi, onları tamamilə məhv etdi

Sirr deyil ki, Azərbaycanın müstəqil inkişaf yolu heç də hamar olmamış və uzun illər ərzində dünya erməniliyinin və ölkəmizin müstəqilliyini həzm edə bilməyən mərkəzlərin hədəfində olmuşdur. Müstəqilliyin ilk illərində ölkəmizdə bir sıra dövlət çevrilişinə cəhd meyillərinin, təxribat və terror cəhdlərinin ölkə hüdudlarından kənardan idarə olunması inkar edilə bilməz. Sonrakı dövrlərdə ölkəmizə qarşı təxribatların forması dəyişsə də, mahiyyəti və məqsədi həmişə eyni olmuşdur.

2003-cü il oktyabrın 15-də Azərbaycan xalqı cənab İlham Əliyevə böyük etimad göstərərək, Onu ölkəmizin inkişafının növbəti mərhələsi üçün bayraqdar elan edəndə də bu bədnam mərkəzlər yenidən işbaşına keçmiş və Azərbaycana qarşı təxribat planlarını hərəkətə gətirmişdilər. Lakin bu dəfə də onlar qarşılarında qüdrətli lider və güclü xalq gördülər. Cənab İlham Əliyevin şəxsiyyətinin böyüklüyü həm də ondadır ki, O, xalqı milli dövlətçiliyimiz naminə böyük ustalıqla birləşdirə bilir. Ötən illər ərzində ölkəmizdə mövcud olan ictimai-siyasi sabitlik və vətəndaş həmrəyliyinin əsasında da bu birlik dayanır. Azərbaycanı müstəqil inkişaf yolundan döndərmək, ölkəmizi zəiflətmək üçün sabitliyin pozulmasına yönəlmiş bütün cəhdlər möhtərəm Prezidentin qətiyyəti və xalq-iqtidar birliyi qarşısında süqut etmişdir. **"...Bizim hamımızın borcudur ki, Azərbaycanda yaranmış bu sabitliyi qoruyaq, saxlayaq, möhkəmləndirək. Əgər Azərbaycanda sabitliyin pozulmasına kimsə can atarsa, biz buna imkan verməyəcəyik, Azərbaycan xalqının rahat, təhlükəsiz, sabitlik şəraitində yaşamasını təmin edəcəyik",** - deyən dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dünyanın ən sabit və təhlükəsiz ölkələrindən biridir.

Möhtərəm Prezident İlham Əliyev milli gücü xalqın müstəqillik idealları ətrafında müvəffəqiyyətlə səfərbər edərək, anti-Azərbaycan mərkəzlərin hər birinə qalib gəldi, onları zərərsizləşdirdi, tamamilə məhv etdi. O, dünyanın ən təsirli lobbi şəbəkələrindən biri olan dünya erməniliyini sıradan çıxardı. Onların əsrlərə söykənən yalan kampaniyası Azərbaycanın lideri tərəfindən darmadağın edildi və Ermənistan kimi dünya erməniliyi də möhtərəm Prezident İlham Əliyevin qarşısında məğlub oldu. Möhtərəm Prezident İlham Əliyev bizim üçün ən böyük sərvət, ən böyük nemət, ən böyük xoşbəxtlik olan dövlət müstəqilliyini qorumaq, onun əbədiliyini təmin etmək missiyasını böyük ləyaqətlə yerinə yetirir.

## Dünya ictimaiyyəti xalqımızın liderinin uğurları kontekstində Azərbaycan həqiqətlərini görür, təqdir edir

Azərbaycanın güclü, qüdrətli, dinamik inkişaf edən ölkə olması ona xarici siyasətdə də uğurlu addımlar atmağa, beynəlxalq mövqelərini durmadan möhkəmləndirməyə və bu gün böyük bir regionun lider dövlətinə çevrilməyə imkan vermişdir. Təbii ki, hər birimiz əvvəllər də müxtəlif xarici səfərlərdə, tədbirlərdə, simpoziumlarda iştirak etmişik. O dövrlərdə ölkəmiz haqqında danışarkən həmsöhbətlərimiz ya Azərbaycanla bağlı çox az məlumata malik idilər, ya da, sadəcə, xəritədəki yerini bilirdilər. Bu gün möhtərəm Prezident İlham Əliyev artıq dünyaya Azərbaycanı tanıtmağa çalışmır, çünki Azərbaycanı dünyanın hər yerində yaxşı tanıyırlar. Dünya ölkəmizin liderinin uğurları kontekstində Azərbaycanın həqiqətlərini görür, qəbul edir. Kiminlə görüşürük, kiminlə söhbət ediriksə, onun Azərbaycanın dünyadakı mövqeyi, ölkəmizdə aparılan quruculuq işləri haqqında dəqiq məlumatlı olduğunu görürük. Azərbaycan dünyanın coğrafi xəritəsində elə də böyük dövlət olmasa da, dünyanın ictimai-siyasi xəritəsində çox böyük bir arealı əhatə edir. Bu da hər birimizdə haqlı olaraq qürur hissi doğurur. Əlbəttə, bu qürurverici reallıqları yaradan da Azərbaycanın lideri cənab İlham Əliyevdir. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin beynəlxalq əlaqələri ən yüksək pilləyə qalxıb. O, həmişə milli mənafe və maraqların qorunmasında uzaqgörənlik və prinsipiallıq nümayiş etdirib, hər zaman öz xalqına arxalanıb.

Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən çox çevik, praqmatik və düşünülmüş xarici siyasət sayəsində Azərbaycan beynəlxalq münasibətlər sistemində çox fəal rol oynamaqdadır. Bunun təsdiqi ölkəmizin dünyanın ən böyük təşkilatlarında uğurlu təmsilçiliyi, bu təşkilatların mühüm tədbirlərinə sədrliyidir. Azərbaycan 2011-ci ildə 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmiş, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzv qəbul edilmişdir və təşkilata uğurla sədrlik etməkdədir. Azərbaycan Prezidentinin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılması da ölkəmizin qlobal əməkdaşlığa daha bir töhfəsidir. Parlament Şəbəkəsi çoxtərəfliliyi, dialoqu və parlamentlərarası əməkdaşlığı təşviq etmək üçün mühüm platformaya çevriləcək. Eyni zamanda Azərbaycanın Avropa İttifaqı ilə əlaqələri də uğurla inkişaf etmişdir. Təkcə son 2 ildə bu təşkilatla münasibətlərin daha da dərinləşdirilməsi istiqamətində keçirilən görüşlərin və aparılan müzakirələrin xronologiyasına nəzər yetirsək, bu əməkdaşlığın geniş miqyasını aydın görə bilərik. Həmçinin Azərbaycanın beynəlxalq sülhyaratma və təhlükəsizliyin təmin olunmasında NATO ilə, demokratik təsisat və institutların inkişafı istiqamətində Avropa Şurası ilə, türk dövlətləri arasında dostluq və qardaşlıq əlaqələrinin inkişafına xidmət edən Türk Dövlətləri Təşkilatı ilə, regional münasibətlərin uğurla tənzimlənməsinə yönələn fəaliyyəti ilə seçilən regional təşkilatlarla əlaqələri də əsaslı şəkildə inkişaf etmiş və səmərəli nəticələrlə müşayiət olunmuşdur. Azərbaycanın bütün dövlətlərlə münasibətləri qarşılıqlı anlaşma, qarşılıqlı hörmət, qarşılıqlı maraqlar və bir-birinin işinə qarışmama prinsipləri əsasında qurulub və bu istiqamətdə də əldə olunan nəticələr yüksək qiymətə layiqdir.

## Böyük işlər görmək üçün qarşımıza möhtəşəm vəzifələr qoymalıyıq

Prezident İlham Əliyev öz qətiyyəti, uzaqgörənliyi və müdrikliyi sayəsində ötən illər ərzində Azərbaycanın inkişaf tarixinə yeni və daha parlaq səhifələr yazmağa nail olmuşdur. O, ali kürsüdə vəzifəsinin icrasına başlayarkən **"Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik",** - deyərək qarşıdakı dövrlər üçün ölkənin hədəflərini müəyyən etmişdir. Azərbaycanın güclü, qüdrətli dövlətə çevrilməsi öz ifadəsini həm də son 19 ildə ölkə iqtisadiyyatının rekord həcmdə böyüməsində, dünyada ən sürətlə inkişaf edən iqtisadiyyat quruculuğuna nail olunmasında tapır.

Prezident İlham Əliyevin daha bir fikrinə nəzər salaq: **"Böyük işlər görmək üçün qarşımıza möhtəşəm vəzifələr qoymalıyıq".** Bəli, cənab Prezident Azərbaycanın gələcəyi üçün hər zaman böyük düşünür, çünki böyük liderlər böyük planlar qurur, böyük işlər görməyə çalışırlar. Dövrünün nəhəng dövlət və siyasi xadimlərindən biri olan Prezident İlham Əliyevin Azərbaycan dövlətinə qazandırdığı möhtəşəm nailiyyətlər də bu prinsipiallığın ifadəsidir.

Prezident İlham Əliyevin idarəçilik fəlsəfəsinin mühüm bir istiqamətini ölkəmizin modern islahatlar yolu ilə inkişafına nail olmaq təşkil edir. İslahatları yeniləşmə, müasirlik kimi dəyərləndirən dövlətimizin başçısının rəhbərliyi ilə ötən 19 ildə həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində bütün sahələrdə, o cümlədən iqtisadi seqmentdə çox ciddi keyfiyyət dəyişiklikləri, modern iqtisadi sistemə keçid baş vermişdir.

2003-cü ilin seçki marafonu ərəfəsində cənab İlham Əliyev Azərbaycanın gələcək inkişaf paradiqmaları haqqında danışarkən bunun üçün konseptual yanaşma nümayiş etdirəcəyini, bütün sahələri əhatə edən çoxşaxəli dövlət proqramlarının qəbul olunacağını bəyan etmişdir. Çox keçmədi ki, Azərbaycan xalqı Prezident İlham Əliyevin bu vədinin də həyatda öz əksini tapdığının şahidi oldu. Müxtəlif sahələri əhatə edən ayrı-ayrı dövlət proqramlarının qəbul olunması və uğurlu icrası qısa müddətdə ölkəmizin mənzərəsini əsaslı şəkildə dəyişdirmiş, bütün istiqamətlərdə inqilabi dəyişikliklər baş vermişdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yeni əsrin əvvəllərində keçid iqtisadiyyatını başa vuraraq yeni tərəqqi və milli inkişaf mərhələsinə daxil olmuş, postsovet ölkəsi fazasından çıxaraq yüksək inkişaf göstəriciləri əldə edən innovativ və modern iqtisadiyyata malik ölkə kimi uğurla inkişaf etməyə başlamışdır. Bu illər ərzində sürətli iqtisadi inkişaf, büdcə gəlirlərinin kəskin artması, dövlətin maliyyə imkanlarının genişlənməsi, makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadiyyatın neft-qaz amilindən asılılığının əhəmiyyətli dərəcədə azaldılması, iqtisadi şaxələndirmə siyasətinin uğurla həyata keçirilməsi nəticəsində qeyri-neft sektorunun iqtisadiyyatda payının əsaslı şəkildə yüksəlməsi, azad sahibkarlığın təşviq olunması və bu istiqamətdə əlverişli biznes mühitinin yaradılması, müasir sənaye quruculuğu siyasətinə uyğun olaraq minlərlə yeni müəssisənin fəaliyyətə başlaması təmin olunmuşdur.

# Azərbaycanının yaradıcısı

İstehsal sahələri və ixrac imkanlarının genişlənməsi, bank-maliyyə sistemində ciddi institusional islahatların həyata keçirilməsi, ölkənin maliyyə və valyuta ehtiyatlarının artırılması, aqrar sahədə həyata keçirilən islahatlar, kənd təsərrüfatı məhsulları istehsalçılarına edilən güzəşt və yardımların genişləndirilməsi, əhalinin etibarlı şəkildə ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində qarşıya qoyulan vəzifələr müvəffəqiyyətlə icra olunmuşdur. Əldə olunan uğurlu nəticələr ölkəmizin qarşısında yeni və daha möhtəşəm perspektivlər yaratmaqla yanaşı, ölkənin iqtisadi müstəqilliyini də təmin etmişdir. Çünki güclü iqtisadiyyat ölkənin müstəqillik yolunda inkişafının əsas sütunlarından birini təşkil edir. Azərbaycanın dövlət başçısının təbirincə desək, **ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər.**

### Demokratik inkişaf yolu Azərbaycan xalqının şüurlu seçimidir

Azərbaycanda iqtisadi islahatlar uğurlu siyasi islahatlarla tamamlanır. Başqa sözlə, Azərbaycanda siyasi və iqtisadi islahatlar vəhdət təşkil edir. İqtisadi sahədə əldə olunan nailiyyətlər siyasi sistemin təkmilləşdirilməsinə, möhkəm əsaslara malik hüquqi dövlət quruculuğuna geniş imkanlar yaratmışdır. Bu gün hakimiyyətin bütün qollarında-qanunverici, icraedici və məhkəmə hakimiyyətlərində dərin islahatlar həyata keçirilir. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə siyasi sistemin təkmilləşdirilməsi və siyasi dialoq mühitinin möhkəmləndirilməsi, yeni siyasi konfiqurasiyanın yaranması, demokratik təsisatların fəaliyyətinə geniş imkanların yaradılması, plüralizmin, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi, söz və məlumat azadlığının təmin olunması, məhkəmə - hüquq sisteminin fəaliyyətinin daha da təkmilləşdirilməsi istiqamətində həyata keçirilən ardıcıl siyasət Azərbaycanın demokratik sütunlarının daha da möhkəmlənməsini şərtləndirmişdir. Azərbaycan insan hüquq və azadlıqlarının qorunması, demokratik norma və prinsiplərin möhkəmlənməsi baxımından bir çox parametrlər üzrə dünyanın qabaqcıl ölkələri sırasında qərarlaşmışdır. Dövlət başçısı da bir məqamı dəfələrlə bəyan edib ki, demokratiya, demokratik inkişaf Azərbaycan xalqının, Azərbaycan dövlətinin şüurlu seçimidir. Azərbaycan bu yolu kiminsə xoşuna gəlmək ya da hansısa xarici subyekt tərəfindən xoş sözlər eşitmək üçün seçməyib. Məqsəd Azərbaycan xalqının daha da yaxşı yaşaması, ölkə vətəndaşlarının hüquq və azadlıqlarının daha da yaxşı qorunması mexanizmlərinin yaradılması, siyasi sistemin daha da gücləndirilməsidir. Azərbaycanda bu sahədə proseslər müsbət istiqamətdə davam edir. Prezident İlham Əliyev ölkəmizin nailiyyətlərini yüksək qiymətləndirərək, deyib ki, **Azərbaycanda demokratiyanın inkişafı təmin edilir. Azərbaycanda hüquqi dövlət quruculuğu işində çox vacib işlər görülmüşdür... Azərbaycan azad, demokratik ölkədir. Biz demokratiyanın inkişafına çox böyük diqqət göstəririk.**

### Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti ölkəmizin tərəqqisinə mühüm töhfələr verir

Möhtərəm Prezident İlham Əliyevin hər kəs tərəfindən bilinən daha bir tezisi - **"Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşları, onların mənafeyi dayanır"** iqtibası Azərbaycanın bir dövlət olaraq, sosial mahiyyətini çox aydın ifadə edir. 2003-cü ildən ötən dövr ərzində ölkənin artan maliyyə imkanları hər zaman vətəndaşların daha yaxşı həyat şəraiti ilə təmin olunmasına xidmət etmişdir. Bu dövr ərzində maaş və pensiyalar dəfələrlə artmış, sosial müdafiə tədbirləri geniş vüsət almışdır. Yoxsulluq həddinin təxminən 10 dəfə, 49 faizdən 5 faizə qədər azaldılması, 2 milyona yaxın yeni iş yerinin yaradılması ölkəmizdə həyat standartlarının yüksəlməsinə səbəb olmuşdur. Əhalinin həssas və xüsusi qayğıya ehtiyacı olan təbəqələrinin, şəhid ailələri, müharibə iştirakçıları, müharibədə sağlamlığını itirmiş vətəndaşlarımız ən yüksək dövlət diqqəti və qayğısı ilə əhatə olunmuşlar.

Əlbəttə, biz ölkəmizdə həyata keçirilən uğurlu sosial müdafiə tədbirlərindən bəhs edərkən, ilk növbədə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın təşəbbüsü və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşkilatçılığı ilə həyata keçirilən çoxşaxəli işləri qeyd etməliyik. Tam qətiyyətlə deyə bilərik ki, Heydər Əliyev Fondu dahi Heydər Əliyevin ölməz ideyalarını yaşadır, bu ideyalar işığında mənsub olduğu xalqa ləyaqətlə xidmət edir. Hörmətli Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi fəaliyyəti vətəndaşlara dövlət diqqəti və qayğısının gücləndirilməsində, cəmiyyətin bütün təbəqələrini əhatə edən uğurlu sosial siyasətin davam etdirilməsində mühüm amildir. Mehriban xanım Əliyevanın uğurlu və çoxşaxəli fəaliyyəti, ölkəmizin tərəqqisi, ayrı-ayrı sahələrdə mühüm inkişaf göstəricilərinin əldə olunması baxımından böyük əhəmiyyətə malikdir. Onun sosial və humanitar sahələrdə təşəbbüsləri, gördüyü mühüm işlər ölkəmizdə həyata keçirilən sosial müdafiə tədbirlərinin miqyasının genişlənməsində əhəmiyyətli rol oynayır. Mehriban xanım Əliyevanın istər 44 günlük Vətən müharibəsi dövründə Ordumuza dəstək, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində, istər pandemiya ilə mübarizədə həyata keçirdiyi tədbirlər milli həmrəyliyimizin daha da möhkəmlənməsi üçün əvəzsiz töhfədir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun milli-mənəvi dəyərlərin, multikulturalizm ənənələrimizin, mədəni irsimizin qorunmasında və dünyada təbliğində mühüm rolu, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafına verdiyi əvəzsiz töhfələri, xüsusi qayğıya ehtiyacı olan insanlara əl tutması onun xalqın hər kəsiminin böyük sevgisini qazanmasına səbəb olmuşdur. Fondun bir çox ölkələrdə həyata keçirdiyi humanitar təşəbbüslər isə Azərbaycanın adının dünyada daha çox tanıdılmasına xidmət edir.



### Azərbaycanın enerji resurslarının Avropa bazarına ixrac coğrafiyası daha da genişlənir

Prezident İlham Əliyevin ideyaları, Onun təşəbbüsü ilə rellaşdırılan nəhəng layihələr Azərbaycanın inkişafını təmin etdiyi kimi, bu təşəbbüslər bütün regionda sülh və əməkdaşlıq mühitinin güclənməsinə imkan vermişdir. Bu gün cənab İlham Əliyev Avrasiya məkanında təkcə siyasi arenalarda, kluarlarda adı böyük hörmətlə çəkilən, dünyanın ən populyar siyasi xadimlərindən biri deyil, xalqlar da, sadə vətəndaşlar da Azərbaycanın liderinə böyük ehtiram göstərirlər. Onun sözü imzası qədər dəyərlidir. Möhtərəm Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan Avropanın enerji xəritəsini dəyişdirir, Avrasiyada sülh və sabitliyin təmin olunmasına töhfələr verir. Bu, o deməkdir ki, cənab İlham Əliyev öz xalqının sonsuz inamını qazanan lider olmaqla yanaşı, bütöv bir coğrafiyada yerləşən xalqların da taleyinə müsbət təsir edən qlobal miqyaslı şəxsiyyətdir.

Azərbaycanın ötən illər ərzində enerji sahəsində qazandığı nailiyyətlər də əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən məqsədyönlü siyasətin möhtəşəm nəticələridir. 1994-cü ildə Ulu Öndərin gərgin zəhməti, uzaqgörənliyi və qətiyyəti sayəsindən imzalanmış "Əsrin müqaviləsi" ilə başlayan və sonrakı illərdə yeni neft və qaz yataqlarının aşkarlanması, istismara cəlb olunması və dünya bazarlarına çıxarılması ilə inkişaf edən uğurlu enerji siyasəti ölkəmizi regionda böyük enerji mərkəzinə çevirib. Bu sahədə ölkəmizlə əməkdaşlıq etmək istəyən dövlətlərin sayı durmadan artır, Azərbaycanın enerji resurslarının Avropa bazarına ixrac coğrafiyası ildən-ilə daha da genişlənir və bu gün Azərbaycan beynəlxalq bazarların etibarlı neft və qaz tədarükçüsüdür. Son 19 ildə Prezident İlham Əliyevin təşəbbüsü və ölkəmizin müəllifliyi ilə nəhəng transmilli energetika layihələri həyata keçirilmiş, Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, XXI əsrin ən böyük infrastruktur layihələrindən biri olan "Cənub qaz dəhlizi" kimi nəhəng layihələr enerji təhlükəsizliyində mühüm rol oynayır. Dünyada baş verən hadisələr fonunda Avropanın Azərbaycanda hasil olunan təbii qaza tələbatı daha da artır. Ölkəmiz Türkiyə, Gürcüstan, Yunanıstan, Albaniya, Bolqarıstan və İtaliyanın qaz təchizatında önəmli rol oynayır. Bu sıraya yeni dövlətlərin də əlavə oluna biləcəyi yönündə məlumatlar var. Bu, onu göstərir ki, Mərkəzi, Qərbi və Cənubi Avropa ölkələri üzləşdikləri enerji böhranından xilas yolunu Azərbaycanla əməkdaşlıqda görürlər. Azərbaycanın səmərəli enerji siyasəti yeni əməkdaşlıq platformaları müəyyənləşdirməklə yanaşı, Avrasiyanın enerji xəritəsinin zənginləşməsinə də strateji töhfələr verir.

Həmçinin Azərbaycanın təşəbbüsü ilə qlobal əhəmiyyət daşıyan trans-nəqliyyat, kommunikasiya layihələri reallaşdırılmış, Avropanı Asiya ilə birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması təmin edilmiş, Azərbaycan dünyada sayı məhdud olan kosmik ölkələr sırasına qoşulmuşdur. Həyata keçirilən qlobal layihələr nəticəsində Azərbaycan Avrasiyanın nəqliyyat habına çevrilmişdir.

Beləliklə, Prezident İlham Əliyevin təşəbbüsü və ölkəmizin müəllifliyi ilə həyata keçirilən nəhəng enerji və nəqliyyat layihələri Azərbaycanın güclənməsinə və beynəlxalq mövqelərinin möhkəmlənməsinə geniş imkanlar yaratmaqla yanaşı, daha geniş bir coğrafiyada əməkdaşlığın və təhlükəsizliyin təmin olunmasına mühüm töhfələr verir. Azərbaycan nəhəng təşəbbüsləri, transmilli layihələri ilə nəinki regionun taleyində həlledici aktora çevrilmişdir, eyni zamanda, daha geniş bir coğrafiyada vacib aktor kimi qəbul olunur, onun qlobal əhəmiyyəti durmadan artır.

### Qələbələr epoxası, Zəfər salnaməsi!

Şübhəsiz, sadalananlar möhtərəm İlham Əliyevin rəhbərliyi ilə son 19 ildə əldə olunan möhtəşəm nailiyyətlərin bir qismini, ölkəmizin inkişaf salnaməsinin kiçik bir hissəsini ifadə edir. Bu dövrdə o qədər böyük uğurlara imza atılıb ki, onları bir yazıda əhatə etmək təbii ki, qeyri-mümkündür. Amma Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 2020-ci ildə Vətən müharibəsində qazandığı zəfər, torpaqlarımızın işğaldan azad edilməsi dövlətçilik tariximizdə xüsusi əhəmiyyətə malikdir. Bu tarixi qələbə sayəsində Azərbaycan 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarımızı azad edərək həm tarixi ədaləti, həm də ərazi bütövlüyümüzü bərpa etmiş, BMT Təhlükəsizlik Şurasının 30 ilə yaxın kağız üzərində qalan qətnamələrini öz gücü, qüdrəti hesabına həyata keçirmişdir. Azərbaycan Respublikasının Prezidenti kimi, ilk nitqində **"Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir!"** deyən Ali Baş Komandan ölkəmizin qarşısında duran bir nömrəli vəzifəni Zəfərlə yerinə yetirdi. Bunun üçün cənab İlham Əliyev səbrlə, əzmlə və bir an belə dayanmadan çalışdı. Ali Baş Komandanın "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatı xalqımızı torpaqlarımızın əbədi azadlığı uğrunda səfərbər etdi, milli mübarizəmizin simvoluna çevrildi.

O, bütün beynəlxalq tribunalarda çıxışlarında, bütün görüşlərində Azərbaycanın haqq səsini qətiyyətlə ucaltmışdır. Münaqişənin sülh yolu ilə həll edilməsi üçün dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də çoxtərəfli görüşlərdə, ATƏT-in Zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə və digər bütün platformalarda, eyni zamanda qarşı tərəflə birbaşa danışıqlarda göstərilən səylər ardıcıl və məqsədyönlü siyasətin mühüm tərkib hissəsini təşkil etmişdir. Bütün danışıq və görüşlərdə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, işğal faktının aradan qaldırılması məsələləri qətiyyətlə irəli sürülmüş, ölkəmizin bu ədalətli mövqeyinin bütün beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsi və qəbul olunması üçün mümkün olan addımlar atılmışdır. Nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən Dağlıq Qarabağ münaqişəsinə dair mühüm qərarların qəbul edilməsinə nail olunmuş, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət ifadə edilmiş, münaqişənin məhz bu prinsiplər əsasında həllinin vacibliyi qeyd olunmuşdur. Ölkəmiz münaqişənin sülh yolu ilə həllinə dair bütün təşəbbüsləri dəstəkləmiş, problemin ərazi bütövlüyümüzün, sərhədlərimizin toxunulmazlığı, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həlli istiqamətində lazımi iradə ortaya qoymuşdur.

Digər tərəfdən, Azərbaycan qarşısında duran vəzifələri, verilən bütün tapşırıqları yerinə yetirmək gücündə olan qüdrətli ordu quruculuğu istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilmiş, ölkəmizin müasir dövrün ən yüksək standartlarına cavab verən Silahlı Qüvvələri formalaşdırılmışdır. Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda döyüşən əsgər və zabitlərimizin əksəriyyəti məhz müstəqillik dövründə dünyaya gəlmiş gənclərimiz olmuşdur. Son illərdə Ordumuzun maddi-texniki bazası əsaslı şəkildə gücləndirilmiş, Silahlı Qüvvələrimiz ən müasir döyüş texnikaları ilə, silah-sursatla təmin olunmuşdur. Görülən məqsədyönlü tədbirlər nəticəsində dünya miqyasında 50 ən güclü ordu sırasında olan Azərbaycan Ordusunun texniki imkanları böyük dərəcədə artmış və İkinci Qarabağ müharibəsində biz bunu nümayiş etdirdik. Azərbaycan Ordusunun Vətən müharibəsində göstərdiyin şücaət, yüksək döyüş qabiliyyəti və apardığı əməliyyatlar dünya hərb tarixinə qızıl hərflərlə yazılmışdır.

### Ali Baş Komandan İlham Əliyev bizi öz Vətənimizə, doğma Qarabağımıza qaytardı!

Möhtərəm Prezident İlham Əliyevin 2003-cü ilin prezident seçkiləri kampaniyası dövründə verdiyi vədlərdən biri də Azərbaycanda qaçqınlar üçün çadır düşərgələrinin ləğv olunacağı ilə bağlı idi. Çox keçməmiş bütün çadır düşərgələri ləğv edildi, qaçqın və məcburi köçkünlər üçün ən müasir və yüksək təchizatlı mənzillər tikilib onların ixtiyarına verildi. Lakin möhtərəm Prezident hər zaman deyirdi ki, bu problemin müvəqqəti həlli yoludur. Bütün qaçqın və məcburi köçkünlər öz yurdlarına, öz ocaqlarına qayıdacaqlar - **"Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar".** Cənab İlham Əliyev bunu da bacardı, tarixi torpaqlarımız bu gün azaddır. İndi həmin ərazilərdə sakinlər üçün yeni evlər, binalar tikilir, yollar çəkilir, müasir infrastruk qurulur. İndi Azərbaycan xalqı torpaqlarımızın azadlığına qovuşmasının, tarixi yurdlarımıza dönüşün xoşbətliyini yaşayır. Möhtərəm Prezident İlham Əliyevin təbirincə desək, **"Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!".**

44 günlük Vətən müharibəsində qazandığımız şanlı qələbə Azərbaycanın dövlətçilik tarixində yeni bir mərhələnin, yeni bir dövrün başlanğıcı olmuşdur. Möhtərəm Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır. İndi sülhün təmin olunması və saxlanması, işğaldan azad edilmiş ərazilərimizdə bərpa və yenidənqurma fəaliyyətləri və məcburi köçkünlərin öz torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıtması hazırda Azərbaycan dövlətinin qarşısında dayanan prioritetlərdir.

Baxmayaraq ki, azad edilmiş ərazilərdə təqribən 30 illik işğal dövründə demək olar ki, bütün infrastruktur, yaşayış binaları, evlər, tarixi, mədəniyyət abidələri tamamilə dağıdılmış, talan edilmişdir. İşğaldan azad olunmuş ərazilərimizin də ən yüksək səviyyədə yenidən qurulacağına, şəhər və rayonlarımızın bərpa olunacağına hər birimiz əminik. Azərbaycan bundan əvvəl də, Vətən müharibəsi dövründə də bütün dünyaya sübut etmişdir ki, o, qüdrətli dövlətdir və qarşısında duran bütün vəzifələri yerinə yetirmək gücündədir. Artıq Şuşada, Laçında, Ağdamda və işğaldan azad olunan digər şəhər və rayonlarımızda genişmiqyaslı bərpa işlərinə start verilib və quruculuq işləri, infrastruktur layihələri uğurla həyata keçirilməkdədir. Prezident İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyeva mütəmadi olaraq, həmin ərazilərə səfərlər edir, həyata keçirilən işlərə birbaşa özləri nəzarət edir. "ağıllı kənd", "ağıllı şəhər" konsepsiyası əsasında görüləcək işlər nəticəsində işğaldan azad olunmuş ərazilər yaxın gələcəkdə ölkəmizin dilbər guşələrindən birinə çevriləcək.

Beləliklə, Azərbaycan son 19 ildə əldə etdiyi tarixi və möhtəşəm nailiyyətlərlə özünün çoxəsrlik dövlətçilik tarixinin ən qüdrətli, ən güclü dövrünü yaşayır. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük zirvələri uğurla fəth edir. Azərbaycan xalqı gələcəyə çox böyük nikbinliklə baxır. Əlbəttə, zaman dəyişir, dünya dəyişir, Azərbaycan inkişaf edir və bu inkişaf yeni çağırışlar, yeni vəzifələr ortaya çıxarır. Lakin möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə misilsiz zəfərlər qazanan Azərbaycan dövləti hər bir vəzifənin öhdəsindən gəlməyə qadirdir!

*Heç də təsadüfi deyil ki, biz bu gün ölkəmizin qazandığı möhtəşəm nailiyyətləri gördükcə, dövlətimizin gözlərimizin önündə ildən-ilə daha da böyüdüyünü, inkişaf etdiyini müşahidə etdikcə, bir daha xalqımızın 2003-cü il 15 oktyabr tarixdə keçirilən prezident seçkilərində seçiminin nə qədər düzgün, əsaslı olduğunu dərk edir, Azərbaycanın müasir və qüdrətli dövlətə çevrilməsinə gətirib çıxarmış yolun növbəti mərhələsinin həmin tarixi seçimdən başladığı gerçəkliyini qətiyyətlə dilə gətiririk.*

**Sahibə QAFAROVA,**
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

**Azərbaycan xalqını tariximizin şanlı səhifələrini təşkil edən uğurlara aparan yolun növbəti əzəmətli mərhələsi 2003-cü ildən başlayır. Ölkəmizin vətəndaşları prezident seçkilərində İlham Əliyevə səs verməklə dövlətimizin taleyi ilə yanaşı, Qarabağın azadlığı uğrunda mübarizənin gələcəyinin də ona etibar etdiyini sübuta yetirdi. Seçimin doğruluğu təsdiqini çox gözlətmədi. "Mən İlham Əliyevə özüm qədər inanır və gələcəyinə böyük ümidlər bəsləyirəm. Əminəm ki, mənim başa çatdıra bilmədiyim işləri o, başa çatdıracaqdır" deyən Ümummilli Lider Heydər Əliyevə tarix növbəti dəfə haqq qazandırdı. Ulu Öndərin fikirlərini ölkəmizin möhtəşəm inkişafından tutmuş Qarabağın işğaldan azad edilməsinə qədər tarixi missiyanı əks etdirən vəsiyyət kimi qəbul edən Prezident İlham Əliyev öz qətiyyəti, uzaqgörənliyi və müdrikliyi sayəsində ötən illər ərzində Azərbaycanın yüksəliş və zəfər salnaməsini yaratmağa müyəssər oldu.**



# 2003-cü ildən başlayan yüksəliş və zəfər yolu

## İqtisadi sıçrayış

Prezident İlham Əliyevin siyasi uğurları öz ifadəsini hər şeydən əvvəl dövlətin qüdrətinin artırılmasında, onun iqtisadiyyatının gücləndirilməsində tapır. Heydər Əliyevin "iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" tezisinin ardıcıl surətdə reallığa çevrilməsi Ümummilli Liderin vəsiyyətlərinin aktuallığına dəlalət edən başlıca amil idi. Ulu Öndərin uzaqgörənliyinin nəticəsi olan neft strategiyasının ilk bəhrələrini verməyə başlaması ölkənin həyatında möhtəşəm dəyişikliklərə start verilməsinə əlverişli imkanlar yaratmışdı. Məmnunluq hissi ilə qeyd edilə bilər ki, Prezident İlham Əliyev mövcud imkanları lazımınca dəyərləndirərək Azərbaycanın yeni güc potensialının yaradılması kimi tarixi missiyanı müvəffəqiyyətlə gerçəkləşdirməyə nail oldu. Ölkənin hazırlaşdığı böyük iqtisadi sıçrayış baş tutdu. Azərbaycan inkişaf templərinə görə dünyada ilk pillələrə yüksəldi. Qısa vaxtda iqtisadi landşaft ciddi şəkildə dəyişdi, bu isə öz növbəsində həm ölkə daxilində iqtisadi fəallığın artmasını şərtləndirdi, həm də güclü cazibədarlığı sayəsində milyardlarla xarici sərmayənin iqtisadiyyata axmasını təmin etdi.

Neft strategiyası sayəsində ölkəmizə daxil olan böyük maliyyə resurslarının məqsədəuyğun şəkildə idarə edilməsi və ölkə üçün ən faydalı şəkildə istifadəsi iqtisadi və maliyyə idarəetməsi sahəsində dünya miqyasında mühüm yeniliklərdən hesab oluna bilər. 2007-2008-ci illərin dünyanı bürüyən dərin maliyyə böhranının Azərbaycandan demək olar ki, yan ötməsini şərtləndirən amillərdən biri məhz elə bundan ibarətdir. Beləliklə, gənc Azərbaycan dövləti dünyaya iqtisadi nəzəriyyə və praktikada böyük maraq yaradan yeni inkişaf modelini təqdim etdi. Sözügedən modelin ən uğurlu təqdimatını isə ölkənin sürətli və hərtərəfli inkişafının nümunəsində nəinki Azərbaycan vətəndaşları, habelə beynəlxalq ekspertlər və maliyyə sahəsində idarəetmə nəhəngləri müşahidə edə bilirdilər.

İqtisadi və maliyyə sahəsində uğurlu idarəetmə bütün digər sahələrin inkişafına və tamamilə yenidən qurulmasına stimul verdi və lazım olan imkanları təmin etdi. Cəmi bir neçə il lazım oldu ki, Azərbaycan beynəlxalq icma tərəfindən dünyanın ən uğurlu gənc dövləti, çiçəklənən ölkəsi adlandırılmağa layiq görülsün. Hər birimiz Vətənimizin qlobal nüfuzunun, dövlətimizin siyasi hörmətinin və beynəlxalq iştirakçılığının sürətlə artmasını böyük məmnunluqla və qürur hissi ilə izləyirdik.

Qısa tarixi zaman kəsiyində Azərbaycanın simasının bütünlüklə dəyişməsi həyata keçirilən uğurlu iqtisadi siyasətin və maliyyə idarəetməsinin diqqətçəkən nəticəsi kimi ayrıca qeyd edilməlidir. Azərbaycan təkcə iqtisadi imkanları ilə deyil, həm də yeni siması, müasirliyi, dünya şəhərsalma praktikasına töhfələri ilə cazibədar olmuşdu. Bu isə öz növbəsində ölkənin qarşısında yeni imkanlar açırdı. Təsadüfi deyildir ki, gənc Azərbaycan dövləti qlobal əhəmiyyət kəsb edən bir sıra təşəbbüs və layihələrin mərkəzinə çevrildi. Regionun iqtisadi landşaftını köklü surətdə yeniləşdirən neft-qaz ixrac kəmərləri, beynəlxalq kommunikasiya layihələri və sair ölkəmizin qlobal iqtisadi təşəbbüslərinin kiçik bir hissəsidir.

SSRİ-nin süqutundan sonra müstəqilliyini bərpa edən, ötən əsrin 90-cı illərinin əvvəllərinin ağır hərbi məğlubiyyətini, iqtisadi və siyasi böhranlarını yaşamağa məhkum edilmiş Azərbaycan XXI əsrin ilk onilliyində əvvəlki mirasından nəinki tamamilə xilas olmuş, habelə böyük iqtisadi qüdrətə malik ölkə kimi özünü dünyaya həm təqdim etməyə, həm də tanıtmağa nail ola bilmişdi. Heç şübhəsiz, bu böyük möcüzədi.

XXI əsrin ilk onilliyində Azərbaycanın böyük yüksəliş iddiaları aydın görünməkdə idi. Bu milli iddiaların həyata keçirilməsi missiyasını öz üzərinə götürən Prezident İlham Əliyev aydın şəkildə dərk edirdi ki, Azərbaycanda yeni iqtisadi islahatlar artıq obyektiv zərurətə çevrilmişdir. Dövrün tələblərinə cavab verən, müasir baxışlara əsaslanan islahatlar olmadan ölkə inkişaf iddialarını reallaşdırmaq imkanlarına malik deyildi. Prezident İlham Əliyevin islahatlar konsepsiyası məhz bu tarixi zərurətdən qaynaqlanır və həmin dövrün çağırışlarına cavab kimi qiymətləndirilməlidir. Müasir baxış anlayışı da ilk növbədə Heydər Əliyev ideyaları əsasında bu çağırışların mahiyyətinə uyğun qərarların qəbul edilməsi zərurəti kimi dərk edilməlidir.

Prezident İlham Əliyevin islahatlar konsepsiyasının hədəfləri sırasında ən başlıcası yeni iqtisadi inkişaf modelinin hazırlanması hesab olunmalıdır. Əvvəlki on ilin inkişafı artıq aydın parametrlər kəsb edən iqtisadi modelin yaradılması prosesini başa çatdırmağı qaçılmaz etmişdi və həmin vəzifə Prezident İlham Əliyevin hakimiyyətinin ilk illərində sınaqdan uğurla çıxdı. Azərbaycanın inkişaf modeli iqtisadi faktor və reallıq kimi həm ölkə daxilində, həm də beynəlxalq qurumlar tərəfindən etiraf olundu.

Prezident İlham Əliyevin islahatçılıq strategiyası öz miqyası və vüsətinə görə kifayət qədər geniş olub, təkcə iqtisadi fəaliyyət sferası ilə kifayətlənmir, kompleks və sistemli xarakteri ilə diqqəti cəlb edir. Elə bu səbəbdən də çox zaman Azərbaycanın iqtisadi modeli ölkənin inkişaf modeli kimi dəyərləndirilir. Hesab edirəm ki, belə yanaşmanın ciddi əsasları olduğunu etiraf etmək qeyri-mümkündür. Məhz hərtərəfli və dərin islahatlar sayəsində Azərbaycanın müasir siması formalaşmışdır. İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan nəinki dünyanın ən dinamik iqtisadiyyatı kimi etiraf olundu, həm də qlobal miqyasda daha sürətlə və müasir dəyərlər çərçivəsində dəyişən ölkə imicini qazandı.

Etiraf edilməlidir ki, İlham Əliyev dövrünün böyük sıçrayışı hər şeydən əvvəl Azərbaycan iqtisadiyyatının qeyri-adi inkişafında təcəssüm edir. Bunu Azərbaycanın iqtisadi möcüzəsi də adlandıranlar var və ədalət naminə qeyd etmək lazımdır ki, belə düşünənlər heç də səhv etmirlər. Onun prezidentlik fəaliyyətinin ilk 10 ili ərzində iqtisadiyyatın 3 dəfədən çox artmasına başqa ad verilməsi bəlkə də qəribə görünərdi. Sözügedən sıçrayışın iqtisadi kateqoriyalarla ölçülən digər təcəssümü qismində dövlət büdcəsinin 20 dəfəyə yaxın artımı təqdim edilə bilər.

Deyilənlərə yekun vuraraq etiraf etmək lazım gəlir ki, 2003-cü ildən etibarən Azərbaycanın misilsiz tərəqqisi və yüksəlişi hər şeydən əvvəl və əsas etibarilə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin uğur simvollarından sayılan iqtisadi sıçrayış sayəsində mümkün olmuşdur.

## Sosial rifah cəmiyyətinə doğru

Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin səciyyəvi cəhəti onun möhtəşəm hədəflər seçməsi hesab oluna bilər. Bu zərurət Ümummilli Lider Heydər Əliyevin müdrik siyasətinin öz bəhrəsini getdikcə daha aydın şəkildə göstərməyə başlaması fonunda cəmiyyətin ondan gözləntilərindən irəli gəlirdi. Sözün həqiqi mənasında möhtəşəm hədəflər mərhələsi aktual məna kəsb etməyə başlamışdı. Azərbaycan öz tarixində nəinki ən böyük iqtisadi, eləcə də sosial sıçrayışının astanasında dayanmışdı. Həllini gözləyən yeganə vəzifə bütün bunları dərk edərək, gerçəkləşdirməyə qadir olan siyasi iradənin təmin edilməsindən ibarət idi.

Xəyalən 2003-cü ilə dönüb İlham Əliyevin seçki proqramını xatırlayıb təhlil aparsaq, etiraf etmək lazım gələr ki, gələcək prezident tarixin onun üzərinə qoyduğu möhtəşəm vəzifələri yerinə yetirməyə artıq hazır idi. O zaman çoxlarının başa düşməyə çətinlik çəkdiyi vəzifələrin İlham Əliyev tərəfindən özünün seçki proqramına daxil edilməsi deyilənlərin əyani təsdiqidir. Birinci prezidentlik müddəti ərzində - 5 ildə 600 min yeni iş yerinin açılması, qaçqın və məcburi köçkünlərin illər boyu ağır şəraitdə yaşadığı çadır şəhərciklərinin aradan qaldırılması barədə vədlərini yada salmaq düşünürəm yetərlidir ki, İlham Əliyevin prezident kimi özünün qarşısında qoyduğu hədəflərin miqyası barədə aydın təsəvvür yaransın. Bu mənada onun daha bir bəyanatı da xatırlanmağa layiqdir: "Böyük işlər görmək üçün qarşımıza möhtəşəm vəzifələr qoymalıyıq". Ancaq bir şərtlə: səsləndirilən bəyanat onun müəllifinin intellektual, siyasi iradə, qətiyyət, idarəçilik bacarığı və xalqına ürəkdən, təmənnasız xidmət göstərmək kimi şəxsi keyfiyyətlərinə adekvat olsun.

Azərbaycanın yüksəlişinin növbəti təcəssümü haqlı olaraq yüz minlərlə yeni iş yerlərinin açılması hesab olunmağa layiqdir. İlham Əliyevin təqdim etdiyi proqram əsasında ölkədə 2 milyona yaxın iş yeri yaradıldı, əhalinin işlə təminatında ciddi dönüş baş verdi. İqtisadi və sosial məna tutumu kifayət qədər yüksək olan bu möhtəşəm vəzifələrin yerinə yetirilməsi də Azərbaycanın inkişaf modelinin möcüzə sayıla biləcək nəticələri sırasında layiqli yer tutur. Ölkənin əmək qabiliyyətli təxminən 5 milyonluq əhalisinin üçdəbirindən çoxu İlham Əliyevin prezidentliyi dövründə işlə təmin olunmuşdur.

Sürətli iqtisadi inkişaf, büdcə gəlirlərinin kəskin artması, dövlətin maliyyə imkanlarının genişlənməsi ictimai istehlakın yeni modelinin formalaşması zərurətini aktuallaşdırmış oldu. Artan maliyyə imkanları maaş və pensiyaların artımı, sosial müdafiə tədbirlərinin gücləndirilməsi ilə müşayiət olunmağa başladı. Əhalinin həyat səviyyəsi ciddi şəkildə yaxşılaşdı, istehlak artdı. Eyni zamanda milli sərvətin ən səmərəli şəkildə istifadə olunması mexanizmi yaradıldı: Dövlət Neft Fondunun ölkənin iqtisadi və maliyyə sistemində rolu və əhəmiyyəti daha da artırıldı, inkişafın etibarlı amili kimi ölkədə infrastrukturun köklü surətdə yeniləşməsi və modernləşməsi strategiyasına start verildi.

Müasir qlobal problemlər sırasında ilk pillələrdə dayanan yoxsulluğun aradan qaldırılması sahəsində əldə olunan nailiyyətlər böyük sıçrayışın təcəssümlərindən biri kimi tarixi əhəmiyyətə malikdir desək, yəqin ki, həqiqəti etiraf etmiş olarıq. Yoxsulluq həddinin təxminən 10 dəfə, 49 faizdən 5 faizə qədər azaldılması bu sahədə bütün dünyada əldə edilən ən möhtəşəm nailiyyət kimi tarixə düşdü.

Prezident İlham Əliyevin birbaşa təşəbbüsü sayəsində 2020-ci ildən etibarən yeni vüsət alan sosial islahatlar, o cümlədən maaşların, pensiyaların, əhalinin müxtəlif kateqoriyalarına ödənilən müavinət və yardımların ciddi şəkildə artırılması sosial rifah cəmiyyətinə doğru atılan ən qətiyyətli və diqqətçəkən təşəbbüslər hesab edilir. Bu təşəbbüslərin nəticəsi insanların həyat səviyyəsi standartlarının daha da yüksəlməsində ifadə olunur.

Nəhayət, Azərbaycanın tarixi sıçrayışının ümumi, sintetik təcəssümü barədə. Ölkəmizin dünyada ən sürətlə yeniləşən, dəyişən, müasirləşən ölkə statusunun hamılıqla qəbul edilməsi milli qürur hissi yaratmaya bilməz. Bu gün Azərbaycan və onun paytaxtı Bakı ən müasir ölkə və şəhər sayılır. Dəyişən təkcə ölkənin siması deyil, onun yaşamaq, müasirləşmək, gələcəyə layiq olmaq imkanlarını qazanmasıdır. İnsanların layiqli yaşaması üçün ən əlverişli, rahat şəraitin yaradılmasıdır. Bakının beynəlxalq miqyaslı mədəni, siyasi, intellektual mərkəzə, dialoq, idman, tolerantlıq mərkəzinə çevrilməsidir. Nəticədə bütünlükdə Azərbaycanın, onun mədəni mühitinin, dəyərləri sisteminin müasirləşməsi, modernləşməsidir, insanların həyatı ilə yanaşı, həyata baxışlarının dəyişməsidir. Bir sözlə, ölkəmiz İlham Əliyevin düşünülmüş islahatları sayəsində möhtəşəm sıçrayış yolu keçərək, vaxtilə Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, sanki dünyaya yenidən doğmuşdur. Bu sıçrayış Prezident İlham Əliyevin iradəsinin, əməyinin, idarəçilik bacarığının nəticəsi və xalqa töhfəsidir.

## Zəfər

İctimai uğurun ən əsas şərti bütün dövrlərdə və bütün sahələrdə həmişə Lider amili ilə əlaqədar olmuşdur. Tarixi təcrübənin dəfələrlə sübuta yetirdiyi həqiqət hərb sahəsində özünü daha aydın şəkildə büruzə verir. 44 günlük Vətən müharibəsi Azərbaycanın möhtəşəm zəfərində İlham Əliyevin şəxsində sərkərdə amilinin nə dərəcədə müstəsna rol oynadığının əyani təsdiqi hesab edilə bilər. Lakin İlham Əliyevin Qarabağın işğaldan azad edilməsində tarixi rolu yalnız 44 gün ərzində Ali Baş Komandan kimi misilsiz xidmətlər göstərməsi ilə bitmir. Müasir dövrün mahiyyətcə tam fərqli döyüşləri sayılan Vətən müharibəsində sərkərdə missiyasına başlamazdan əvvəl Prezident İlham Əliyevin ədalətin bərpası naminə çoxşaxəli fəaliyyəti unudula bilməz və unudulmamalıdır. Şanlı qələbəni onsuz təsəvvür etmək mümkün deyil.

2020-ci il noyabr ayının 10-dək müstəqil Azərbaycan dövlətinin qarşısında duran vəzifələr içərisində ən mühümləri erməni təcavüzü nəticəsində işğal edilmiş torpaqların azad edilməsi, ölkənin ərazi bütövlüyünün bərpası olmuşdur. Son 30 il ərzində dövlətin həyata keçirdiyi vəzifələr konkret şəraitə uyğun olaraq bu və ya digər dərəcədə dəyişikliklərə məruz qalsa da, ərazi bütövlüyünün bərpası həmişə aktuallığını qoruyub saxlamış, milli maraqların təminatının başlıca istiqaməti kimi çıxış etmişdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması zaman baxımından kifayət qədər çox vaxt apardığı kimi, həm də çoxşaxəli yanaşma, böyük səylər, gündəlik fəaliyyət tələb edirdi. Azərbaycan problemin həllinə nail olmaq üçün siyasi-diplomatik səylər göstərməklə, beynəlxalq vasitəçilərin missiyasına hörmətlə yanaşmaqla bərabər, münaqişənin nizama salınması, ədalətin bərpa olunmasında hərbi-siyasi vasitələrdən istifadə olunması ehtimalını heç zaman nəzərdən qaçırmırdı. Beynəlxalq vasitəçilərin "Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolu yoxdur" tezisinə qarşı Azərbaycanın Prezidenti İlham Əliyev tərəfindən "münaqişənin həllinin hərbi-siyasi yolu var" tezisini irəli sürməsi yuxarıda qeyd edilən fikrin ən bariz ifadəsi sayıla bilər. Uzun illər ərzində ATƏT-in Minsk qrupunun həmsədrlərinin öz missiyasına kifayət qədər məsuliyyətlə yanaşmaması və problemin həllinin diplomatik yolunu tapa bilməməsi hərbi-siyasi yolun qaçılmazlığına inamı artırırdı. Bununla əlaqədar olaraq, Azərbaycan Silahlı Qüvvələrinin gücləndirilməsi, ən müasir silahlarla təchiz edilməsi, əsgər və zabitlərin döyüş qabiliyyətinin və vətənpərvərlik ruhunun yüksəldilməsi aktuallığını nəinki saxlayır, həm də daha böyük məna kəsb edirdi. Azərbaycanın artmaqda olan iqtisadiyyatı ordu quruculuğunun qarşısında yeni imkanlar açırdı. Bir neçə il ərzində Azərbaycanın hərbi büdcəsinin Ermənistanın dövlət büdcəsini üstələməsi, hər şeydən əvvəl, bu iki dövlətin imkan və resurslarının ciddi şəkildə fərqləndiyini göstərirdi. Lakin haqqında söhbət açdığımız mənzərəni yalnız imkanlar arasında fərqin nəticəsi kimi qiymətləndirmək düzgün olmazdı. Bu, daha çox seçilmiş yolun və strategiyanın məntiqi yekunu baxımından nəzərdən keçirilməlidir. Hələ Prezidentliyinin ilk illərində İlham Əliyevin "Azərbaycanın hərbi büdcəsi Ermənistanın dövlət büdcəsindən böyük olacaq" formasında tezisini səsləndirməsi yeni hərbi strategiyanın əsas səciyyəsini ifadə edirdi.

Əsrlərboyu öz ölkəsinin milli maraqlarını müdafiə etmək kimi məqsədi qarşısına qoyan sərkərdələrin atdığı ilk addım ordunu gücləndirməkdən ibarət olub. Bu xüsusda Prezident İlham Əliyevin ordu quruculuğuna həssas yanaşması tarixdən məlum olan nəhəng sərkərdələrə xas olan strateq düşüncəsinin yeni və uğurlu nümunəsi sayıla bilər və sayılmalıdır. Sərkərdənin gücü onun yenilməz ordusundadır. Ancaq dünya hərb tarixində elə bir hal olmamışdır ki, ordu sərkərdəsiz, onun strateq düşüncəsindən, müdrikliyindən və qətiyyətindən kənarda yaradılsın. Yenilməz ordu sərkərdə müdrikliyinin və qətiyyətinin ifadəsi olduğu qədər də nəticəsidir. 44 gün davam edən Vətən müharibəsində qazanılan möhtəşəm zəfər İlham Əliyevin rəhbərliyi altında dünyanın ən müasir və ən yüksək döyüş qabiliyyətinə malik Azərbaycan Ordusunun qüdrətini nümayiş etdirdi. Vətən müharibəsində əldə edilən tarixi zəfər müzəffər ordunun sərkərdəsi kimi Ali Baş Komandan İlham Əliyevin həm müdrikliyinin, həm də qətiyyətinin birbaşa nəticəsi kimi yaddaşlara həkk olunub. Onun hərbi əməliyyatların planlaşdırılması və idarə edilməsindən tutmuş böyük sərkərdə qətiyyəti ilə döyüşçüləri, həm də nəinki döyüşçüləri, bütün xalqı qələbəyə səsləyən çağırışları müharibənin taleyini həll edən əsas amillərdəndir. İnanıram ki, İlham Əliyevin strateji düşüncəsi, sərkərdə müdrikliyi və qətiyyəti dünya hərb tarixinə yeni parlaq səhifə kimi daxil olmuşdur.

Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilmiş Ağdamdan xalqa müraciətində "Mən bu gün burada, Ağdamda dayanmışam. Öz ordumla, Qalib kimi" sözləri müzəffər sərkərdənin qələbəsini təsdiq etməsinin tarixdən məlum olan klassik nümunəsi idi. Bəli, İlham Əliyev öz qüdrətli ordusunu yaratdı, qələbə çaldı və işğaldan azad edilmiş ərazilərimizə səfər edərək möhtəşəm zəfərini bütün dünyaya bəyan etdi. Bütün dahi sərkərdələr kimi. Zəfər çaldı və yeni tarixi yaratdı.

## Azərbaycanın və Qarabağın yeni həyatı

Azərbaycanın Vətən müharibəsində möhtəşəm qələbəsi ölkəmizdə və regionda yeni reallıqlarla müşayiət olunmaqdadır. Dövlətin və cəmiyyətin qarşısında duran başlıca hədəflər və onlara nail olmaq yolları ciddi şəkildə yenilənib, xalqın yaxın və orta vədəli gələcəyə baxışları, ümid və inamları yeni ölçülər kəsb edib. Azərbaycanın gələcək inkişafla bağlı iddialarının daha qətiyyətli, daha miqyaslı və daha realist xarakter kəsb etməsi aydın müşahidə edilir. Vətən müharibəsinin qələbə ilə başa çatmasına qədər Azərbaycanın əsasən iki istiqamətə - Qarabağın azad və ölkənin inkişafının təmin edilməsi kimi şaxələrə ayrılan hədəfləri və müvafiq şəkildə paylanmalı olan resursları indi əsas hədəf kimi azad olunan ərazilərin bərpası və inkişafı üzərində qərarlaşıb. Bu isə öz növbəsində cəmiyyətin bütün diqqətinin, ölkənin resurslarının əsas hədəf istiqamətində cəm edilməsini təmin etməklə qarşıya qoyulan məqsədlərə yetişmək imkanlarını qat-qat yüksəltmişdir.

Postmüharibə dövrünün əsas hədəfinin müəyyən edilməsi 30 illik işğalın acı nəticələrinin, əgər belə demək mümkünsə, mirasının aradan qaldırılması zərurətindən irəli gəlir. Vətən müharibəsinin başa çatması və Qarabağın işğaldan azad edilməsi müasir tarixin şahidi olmadığı vəhşiliyin üstünü açmışdır. 30 illik erməni işğalından bizə vaxtilə Azərbaycanın ən dilbər güşələri olan onlarca şəhər və qəsəbələrin, yüzlərlə kəndlərin yerləyeksan edilməsi, evlərin uçurulması, infrastrukturun dağılması kimi acı və ağır miras qalıb. Erməni vəhşiliyinin bütün əlamətlərinin aradan qaldırılması, dağıdılıb yerləyeksan edilmiş şəhərlərin, qəsəbələrin və kəndlərin bərpa edilməsi postmüharibə dövrünün həllini gözləyən ümdə vəzifəsidir. Bu gün ölkənin imkanlarının əsaslı qisminin bu istiqamətə yönəlməsi dövlətin müasir siyasətinin əsas prioriteti olaraq dəyərləndirilir. Həm də söhbət sadəcə olaraq dağıntıların bərpasından deyil, Azərbaycanın işğaldan azad olan ərazilərində yeni tipli, ən müasir, qabaqcıl və yüksək texnologiyalara əsaslanan məskunlaşmanın təmin edilməsindən gedir. "Ağıllı kənd", "yaşıl iqtisadiyyat", ən müasir imkanlara malik evlər və s. Qarabağı nəinki Azərbaycanın və regionun, hətta bütün dünyanın ən qabaqcıl, rahat və inkişaf etmiş yaşayış məskəninə çevirməyə hədəflənib. Düşünmək olar ki, Qarabağ Azərbaycanın gələcəyinin yeni modeli kimi özünü təsdiqləyəcək və bütün ölkənin növbəti onilliklərdə yeniləşməsinin və müasirləşməsinin lokomotivi rolunu oynayacaqdır.

Qarabağın yenidən qurulması ilə yanaşı, qarşıda Azərbaycanda dərin islahatların həyata keçirilməsinin, əhalinin həyatının və rifahının daha yüksək səviyyəyə qaldırılması sahəsində sistemli tədbirlərin davam etdirilməsi kimi vacib və məsuliyyətli vəzifə dayanır. Hədəf Azərbaycanı yaşamaq və işləmək üçün ən rahat və cazibədar məmləkətə çevirməkdir. Azərbaycan xalqının ən yüksək həyat standartları şəraitində yaşamağa layiq olduğunu Prezident İlham Əliyev dəfələrlə qeyd etmişdir. Ötən illər ərzində bu standartların yaradılması istiqamətində mühüm işlərin görülməsi, ölkəmizin inkişaf, müasirləşmə sahəsində ciddi irəliləyişlərə nail olması heç kimə sirr deyil. Qarşıdakı illərdə daha cəsarətli addımların atılması, yeni həyat standartlarının bərqərar edilməsi naminə fədakarlıqlar göstərilməsi üçün bütün əsaslar - niyyət, iradə, təcrübə və resurslar mövcuddur. Azərbaycan inkişafın və müasirliyin elə bir mərhələsinə keçməyə artıq hazırdır ki, orada işləmək maraqlı, yaşamaq rahat, həyat isə gözəl olacaq. Bu elə bir cəmiyyət olacaq ki, orada hər kəs özünü təsdiq edə, qabiliyyət və bacarıqlarından tam şəkildə bəhrələnə biləcək.

Səsləndirilən fikirlərin sadəcə niyyət deyil, real fəaliyyət proqramı olduğu son illər ərzində əhalinin rifahının yaxşılaşdırılması istiqamətində atılan ciddi addımlarla isbata yetirilir. Əməkhaqlarının və pensiyaların artırılması, aztəminatlı ailələrə dövlət yardımlarının gücləndirilməsi yeni həyat standartlarının yaradılması strategiyasının yeni parametrlər kəsb etdiyini göstərir.

Güzəştli şərtlərlə mənzil inşaatının miqyasının genişlənməsi gənc nəslin mənzil şəraitinin qısa zamanda əhəmiyyətli şəkildə yaxşılaşdırılmasına hədəflənmişdir. İcbari tibbi sığortanın tətbiq edilməsi ilə əhaliyə səhiyyə xidmətinin əlçatanlığı və keyfiyyətinin yüksəldilməsi təmin edilmişdir. Koronavirus pandemiyası dövründə Azərbaycan hökumətinin əhalinin sağlamlığının qorunması sahəsində fəaliyyəti və onun müsbət nəticələri insanlarda dövlətin qayğısının miqyasları və mahiyyəti barədə aydın təsəvvür yaradır. İnklüziv təhsilin inkişafı, sağlam ətraf mühitin yaradılması niyyətləri və digərləri xalqın xöşbəxt gələcəyinin təmin edilməsi sahəsində genişmiqyaslı planlarından xəbər verir.

Qarabağı azadlığına qovuşdurduqdan sonra Prezident İlham Əliyevin üzərinə düşən tarixi missiya məhz belə bir Azərbaycanı yaratmaqdan ibarətdir. İndiyədək onun titanik səyləri nəticəsində bu sahədə silsilə layihələr həyata keçirilib, möhtəşəm uğurlar qazanılıb. Xalqın həyatı dəyişib. Azərbaycan sözün həqiqi mənasında xəyalların reallaşdığı çiçəklənən məmləkətə çevrilib. İndi Azərbaycan bütün dünyada məhz belə qəbul edilir.

## Yeni dünya nizamına möhtəşəm töhfə

Zahirən mürəkkəb siyasi, diplomaik, hüquqi və hərbi güc nümayişi kimi təzahür edən dünya nizamı əslində alt qatda olan maddi maraqlar kimi daim aktual və qüdrətli amilə əsaslanır. İndiki nəsillər yeni dünya nizamının formalaşdırılması istiqamətində atılan addımların fəsadlarını aydın şəkildə müşahidə etməkdədirlər. Beynəlxalq miqyasda baş verən ciddi dəyişikliklər - yeni texnologiyalar, güclər nisbətinin yerdəyişmələri, müxtəlif xarakterli siyasi və iqtisadi koalisiyalar və digər amillər ümumdünya siyasi proseslərində güclü tektonik dəyişiklikləri qaçılmaz etmişdir. Hazırkı şəraitdə beynəlxalq iştirakçılıq məharəti həlledici əhəmiyyət kəsb edir, hər bir dövlət dəyişməkdə olan beynəlxalq münasibətlər sistemindən maksimum fayda götürməyə çalışır. Belə bir zamanda Azərbaycan Prezidentinin diplomat məharətinin ölkənin milli maraqlarına böyük dividendlər qazandırması 2003-cü ildən start götürmüş möhtəşəm inkişaf strategiyasının mühüm nəticəsindən biri hesab oluna bilər.

İlham Əliyevin yüksək liderlik məharəti eyni dərəcədə xarici siyasət sahəsində özünü büruzə verir. Onun xarici siyasət doktrinası beynəlxalq iştirakçılığın gücləndirilməsi, Azərbaycana yeni dostlar qazandırması, diplomatiyada hücumçu taktikaya üstünlük verilməsi, beynəlxalq təşəbbüskarlığın artırılması və ölkənin imicinin yaxşılaşdırılması kimi bir-birini üzvi sürətdə tamamlayan 5 tərkib hissədən ibarət proqram kimi özünü təsdiq etmişdir. Diplomatiya liderin siyasi məharətini aşkara çıxaran və ölkəyə böyük dividendlər gətirən ən incə fəaliyyət formasıdır. Qlobal meyillərin güclənməsi, ölkələrin siyasi, iqtisadi, humanitar və digər sahələrdə qarşılıqlı əlaqələrinin genişlənməsi xarici siyasəti liderin özünüifadəsinin və siyasi uğurunun ən vacib amili dərəcəsinə yüksəldib. Müasir qloballaşma və informasiya texnologiyaları dövründə milli liderlər mütəmadi şəkildə beynəlxalq icmanın diqqət mərkəzində olur. Necə deyərlər, liderlər milli hüdudlardan çıxır, beynəlxalq birliyə daha intensiv şəkildə təqdim olunur və bu səbəbdən onun həm siyasi baxışları, həm davranışı daha geniş auditoriyanın müzakirə predmetinə çevrilir. Beləliklə, milli lider ölkənin beynəlxalq imicindən tutmuş onun dünya birliyində mövqeyinə qədər çeşidli parametrlərin formalaşmasında əhəmiyyətli, bəzən isə həlledici rol oynayır. Liderə təmsil etdiyi ölkəyə görə hörmət və ehtiram bəslənildiyi kimi, ölkəyə onu təmsil edən liderinə görə qiymət verilməsi praktikasının geniş yayıldığı da sirr deyildir.

İlham Əliyevin xarici siyasət doktrinasının Azərbaycana müstəsna dividendlər gətirdiyi hər kəsə yaxşı məlumdur. Azərbaycanın 2012-ci ildə dünyanın ən mötəbər beynəlxalq təşkilatının - Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, 2019-cu ildə isə ikinci ən çoxsaylı beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatına rəhbərlik etməsi gənc dövlətin beynəlxalq iştirakçılıq sahəsində yüksək fəallığının təkzibedilməz sübutudur.

Ölkəmizə böyük iqtisadi faydalar vəd edən karbohidrogen və kommunikasiya layihələrinin işlənməsi Azərbaycanın iqtisadi diplomatiyasının, möhtəşəm beynəlxalq forumların keçirilməsi humanitar diplomatiyasının, mədəniyyət sahəsində tədbirlərin təşkili mədəniyyət diplomatiyasının, idman yarışları idman diplomatiyasının gözəl nümunələridir. Sadalananların hər biri ayrı-ayrı sahələrdə Azərbaycanın böyük uğurları olub, onun beynəlxalq nüfuz və hörmətinin artmasına birbaşa təsir etməklə, ölkəmizin qlobal rolunun yüksəlməsinin əyani göstəriciləridir. Başqa sözlə ifadə etsək, yuxarıda qeyd olunanlar beynəlxalq həyatın ayrı-ayrı sahələrində ən mötəbər tədbirlər olmaqla, əslində Azərbaycanın dünyaya yeni keyfiyyətdə təqdimatı nümunələri sayılmalıdır. Bu mənada beynəlxalq birlik İlham Əliyevi gənc, lakin kifayət qədər müasirləşmiş, çağdaş dünyanın qabaqcıl dəyərlərini qəbul etmiş ölkənin lideri kimi tanımaq imkanı qazanmış oldu.

İlham Əliyevin mütəmadi olaraq ən mötəbər qlobal tədbirlərdə fəal iştirakı, ən aktual diskussiyalara qoşulması, müasir təfəkkür və dəyərlərə sahib olması onun yeni tipli milli lider imicini formalaşdırmağa əsas yaratmışdır. Bu isə öz növbəsində Azərbaycan dövlətinin beynəlxalq imicinin yüksəlməsində ifadə olunur. Tam məsuliyyət hissi ilə qeyd edilə bilər və qeyd edilməlidir ki, İlham Əliyevin müasir tipli milli lider kimi prezidentliyi Azərbaycanın mədəni dünyada ən uğurlu təqdimatıdır.

Prezident İlham Əliyevin artan nüfuzu ölkəmizin beynəlxalq iştirakçılığının genişlənməsinin başlıca amillərindəndir. Məhz bu amilin sayəsində Azərbaycan yeni dünya nizamının qərarlaşmasında getdikcə daha əhəmiyyətli rol oynayır. Cənubi Qafqazın yeni siyasi landşaftının yaradılmasından başlamış müasir karbohidrogen siyasətinin əsas parametrlərinin formalaşmasına qədər geniş spektrli qlobal gündəlikdə Azərbaycan və onun lideri İlham Əliyev əsas aktorlardan sayılmaqdadır. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev dünyanın meydana gəlməkdə olan yeni dizaynının müzakirə olunduğu mötəbər beynəlxalq toplantıların arzuolunan iştirakçısı kimi qəbul olunur. Təkcə son həftələr ərzində Səmərqənddə, Sofiyada və Praqada keçirilən beynəlxalq toplantılarda onun fəal iştirakını sadalamaq deyilənlərin bariz ifadəsi hesab edilə bilər. Sofiyadakı toplantıda Serbiya Prezidenti Aleksandr Vuçiçin Prezident İlham Əliyevə xitabən səsləndirdiyi "Sizi Avropada çox sevirlər" fikri Azərbaycan liderinin beynəlxalq nüfuzunun və hazırkı qlobal problemlərin həllinə töhfə vermək qüdrətinin miqyasından xəbər verir. Yeni dünya nizamının müzakirəsində ölkəmizin və şəxsən İlham Əliyevin yaxından iştirakı və bilavasitə hadisələrə nüfuz göstərə bilmək imkanları hamılıqla etiraf olunan reallıqdır. Onun müasir dünyanın güclü liderləri arasında yer tutmasını müşahidə etmək, düşünürəm ki, hər bir azərbaycanlının qürur və iftixar motivasiyasının vacib tərkib hissəsidir.

*2003-cü ildən başlayan yüksəliş yolu davam edir. Xalqımızı qarşıda daha böyük vəzifələr, daha əzəmətli qələbələr gözləyir. Arxada qoyduğumuz illərdə olduğu kimi, növbəti zirvələrin fəthi də Prezident İlham Əliyevin liderliyi sayəsində tariximizin yeni şanlı səhifələrinə çevriləcək. Həyat göstərir ki, Prezident İlham Əliyevin siyasi taleyi uğur və zəfərlər simvoludur. Bu isə Azərbaycanın taleyi, Azərbaycanın zəfəridir.*

**Əli ƏHMƏDOV,**
***Yeni Azərbaycan Partiyasının Sədrinin müavini***



# Azərbaycanı xoş gələcəyə aparan KOMANDAN

"Tarixi şəxsiyyətlər yaradır" deyimi var. Bəşər tarixinə nəzər salsaq, görərik ki, cəmiyyətin inkişafında, bütün sivilizasiyaların meydana gəlməsində şəxsiyyətlər böyük rol oynayır. Əsrlərin təcrübəsi göstərir ki, ayrı-ayrı ölkələrin, bölgələrin tərəqqisinə xidmət etmiş şəxsiyyətlər, nəticə etibarilə, bütün dünyanın inkişafına töhfə vermiş olurlar.

Dünyanın indiyədək yetirdiyi tarixi şəxsiyyətlərin böyük bir qismi mənsub olduqları xalqların taleyində həlledici rola malik olduqlarına, kritik məqamlarda bütöv millətlərin xilaskarı kimi çıxış etdiklərinə görə, xüsusilə seçilirlər və həyata keçirdikləri tarixi missiya həmişəlik yaddaşlarda qalır. Hegel o adamları dünya miqyaslı tarixi şəxsiyyət adlandırır ki, onların ideyaları, məqsədləri ən ümumilik, ictimai zərurilik məziyyətinə malik olsun. Tarixi şəxsiyyət üçün vacib məqamlardan biri və birincisi də tarixi yaddaşdır. Dövlətlərin və xalqların taleyüklü qərarlarının alınmasında tarixi yaddaş şəxsiyyət amilinə müraciət edir, amma tarixi yaddaşda qalmaq hər siyasətçiyə və liderə qismət olmur. Yəni daha dəqiq ifadə etsək, hər kəs bir siyasi fiqur kimi özünü tarixi yaddaşa hopdura, həzm etdirə bilmir.

## Layiqli varislik

Azərbaycan xalqının tarixinə dönüb baxdığımız zaman görürük ki, onun nəhəngliyi və yaddaşının silinməzliyi ondadır ki, müasir yeni tariximizdə özünü, adını və hər addımını qızıl hərflərlə yaddaşa həkk etdirən, dünyanın siyasi və hərb tarixində inqilabi dəyişikliklərə səbəb olan bir şəxsiyyət var ki, O, həm tarix yazdı, həm də tarixi yaddaşa düşdü. O şəxs Ulu Öndər Heydər Əliyev ideyalarının və ideallarının ən layiqli davamçısı Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. İlham Əliyevin tarixi missiyası həm də yaxın dövrümüzə aid tarixi yaddaşla sıx bağlıdır. Hələ 1990-cı ilin əvvəllərində özünün ağır günlərini yaşayan Azərbaycan xalqı qətiyyətli iradə nümayiş etdirərək gələcək taleyinə sahib çıxmağı bacardı. Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışı ilə ölkəmiz müstəqilliyini itirmək təhlükəsindən qurtuldu, inkişaf yoluna qədəm qoydu. 1993-2003-cü illərdə dövlətçiliyimizin təşəkkülü və inkişafı istiqamətində olduqca mühüm, böyükmiqyaslı işlər gördü. Lakin hələ tamamlanmamış çox perspektivli layihələr, görülәsi işlər var idi. Ümummilli lider Heydər Əliyevin səhhətində yaranan problemlər onun başladığı, nəticələrini aydın gördüyü işləri tamamlamağa imkan vermirdi.

Əlbəttə ki, həmin dövr üçün mövcud olan geosiyasi vəziyyəti nəzərə alaraq qeyd etməliyik ki, Heydər Əliyev siyasətini davam etdirmək, kifayət qədər mürəkkəb regionda yerləşən Azərbaycanı Ulu Öndərin görmək istədiyi mövqelərə çıxarmaq olduqca çətin idi. Belə bir tarixi məqamda xalq İlham Əliyevin simasında öz yeni liderini görürdü. Belə bir əminlik yaranmışdı ki, Heydər Əliyevin müdrikliklə işləyib hazırladığı inkişaf strategiyasını məhz onun siyasi varisi İlham Əliyev reallaşdıra bilər. 2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqına müraciətində yer alan "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" fikri növbəti onilliklər üçün dövlətin inkişaf xəttini müəyyənləşdirdi.

## İnkişafa yönəlik 19 il

Prezident İlham Əliyev on doqquz illik fəaliyyəti dövründə xalqa verdiyi vədləri bütünlüklə yerinə yetirib. Bu müddət ərzində ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub, insanların rifah halı daha da yaxşılaşıb. Azərbaycanın siyasi, iqtisadi imkanları genişləndirilib, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib. Bu gün regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir.

Ötən illər həm də onu göstərdi ki, Prezident İlham Əliyev qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi liderdir.

Ölkəmizin 19 il ərzində keçdiyi yola nəzər salsaq, Azərbaycan iqtisadiyyatının davamlı və dinamik inkişaf etdiyini görərik. Prezident İlham Əliyev praqmatik və çevik siyasəti, sistemli və ardıcıl yanaşması, inqilabi səciyyə daşıyan islahatları ilə Azərbaycanı iqtisadi baxımdan qüdrətli dövlətə çevirib, zamanın hər bir çağırışına anında cavab verib. Bu illər ərzində regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı, onun milli maraqları nəzərə alınmaqla həyata keçirilib. Ulu Öndərin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" kəlamı üzərində qurulan siyasət nəticəsində ötən 19 il ərzində misilsiz uğurlara imza atılıb. Qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət və qalib ölkə. Bu, öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqlarıdır. 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqı müdrik seçim edərək, Ulu Öndərin siyasi kursuna və dahi şəxsiyyətin layiqli davamçısı İlham Əliyevə səs verdi. Ötən hər il xalqın öz seçimində yanılmadığını təsdiqləməkdədir.

## Milli Lider

Dövlət başçısının apardığı siyasət nəticəsində ölkədə sosial-iqtisadi vəziyyət xeyli yaxşılaşıb, multikultural ənənələrə və milli-mənəvi dəyərlərə söykənən bir cəmiyyətin formalaşması təmin edilib, bütün ictimai institutlar, ziyalılar azərbaycançılıq ideologiyası ətrafında birləşərək ümumi maraq və mənafelər uğrunda çalışmağa başlayıb.

Dövlət başçısı həmişə vurğulayır ki, insan hüquq və azadlıqlarının, o cümlədən söz və fikir azadlığının müdafiəsi Azərbaycan dövlətinin ali məqsədi və fəaliyyətinin ən mühüm istiqamətlərindən biridir.

Dövlətimizin humanizm siyasətini yüksək dəyərləndirən xalqımız mütəmadi olaraq imzalanan əfv fərmanlarını təqdir edir. Onun çıxışlarında bu fikir hər zaman qeyd olunur ki, Azərbaycan dövləti siyasətində insan amilinə yüksək dəyər verir. Bütün bunlar ölkədə ictimai-siyasi sabitliyə rəvac verir. Məhz bu səbəbdən də vətəndaş həmrəyliyinin möhkəmləndirilməsi sahəsində ciddi nəticələr əldə olunur. Ölkəmizin milli-mənəvi dəyərlər üzərində inkişaf etməsinin dövlət siyasətinin əsas prinsipi olduğunu deyən milli lider multikultural bir ölkədə yaşayan bütün insanları vahid platformada-azərbaycançılıq ideologiyası ətrafında birləşdirib.

Çətin günlərdə - təbii fəlakətlər, qəzalar və sair ağır vəziyyətlərdə onu həmişə zərərçəkən vətəndaşların yanında görmək olar. Müharibə əlillərinin, şəhid ailələrinin, qaçqın və köçkünlərin evlərində tez-tez qonaq olan milli lider bu evləri onlara bəxş etməyin dövlətin vəzifəsi olduğunu vurğulayır və vətəndaşlara dövlətin onların arxasında dayandığını əyani surətdə göstərir. Belə situasiyalarda səmimi və sadə insan xarakteri dövlət rəhbəri xarakterini kölgədə qoyur ki, bu da lideri prezidentdən fərqləndirən əsas cəhətlərdən biridir. Vətəndaşlar da məhz bu səbəbdən öz liderinin, dövlətinin arxasında dayanır. Beləcə, xalq-lider-dövlət birliyi həm ölkənin gücünü artırır, həm də Azərbaycanın gələcəyi üçün gözəl günlər vəd edir.

## Mükəmməl xarici siyasət

Prezident İlham Əliyevin rəhbərliyi altında son üç ildə Azərbaycan öz inkişafının keyfiyyətcə yeni mərhələsinə daxil olmuşdur. Bu mərhələ bütün sahələri əhatə edən, genişmiqyaslı və davamlı islahatlar ilə xarakterizə olunur. Dövlətimizin başçısı tərəfindən "tərəqqi, təkamül və yeni şəraitə uyğunlaşma" kimi qiymətləndirilən dərinləşən islahatlar kursu sosial-iqtisadi, hüquq-məhkəmə, siyasi, struktur və kadr istiqamətlərini əhatə etməklə çoxşaxəli və dinamikdir. Bütün bunlar nəticə etibarilə ölkəmizin daxili siyasi uğurlarını şərtləndirir, səfərbər olunmuş cəmiyyət və vətəndaş həmrəyliyini möhkəmləndirir, siyasi sabitlik və təhlükəsizlik mühitinin dönməzliyini təmin edir. Nəticədə daxili siyasətin davamı və tamamlanması olan xarici siyasət istiqamətində də mövqelərimiz daha da möhkəmlənir.

Məsələyə bu prizmadan yanaşdıqda Prezident İlham Əliyevin bütövlükdə 19 il ərzində həyata keçirdiyi uğurlu daxili siyasət nəticə etibarilə Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi mənafeyinə xidmət göstərmişdir. Təkcə daxili siyasətdə deyil, xarici siyasətdə də varislik prinsipi qorunub saxlanılmışdır. Başqa sözlə, Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu çoxvektorlu, müstəqil və milli maraqlara əsaslanan xarici siyasət kursunu sürətlə dəyişən dünyanın geosiyasi reallıqlarına adekvat olaraq çevik, innovativ və hücum taktikasına əsaslanmaqla davam etdirir. Milli dövlətçilik maraqlarının müdafiəsi həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən bu siyasətin başlıca məzmununu təşkil edir. Həmin siyasətin uğurunu təmin edən çoxsaylı parametrlər sırasında birinci mövqedə dayanan amil Prezident İlham Əliyevin beynəlxalq siyasətin aktoru statusuna yüksəlməsi reallığı ilə bağlıdır. Bu statusuna tam adekvat olaraq İlham Əliyev həm daxili, həm də xarici siyasət kursunun həyata keçirilməsi prosesində dərin zəka, iti fəhm, analitik və innovativ düşüncə tərzi, sistemli analiz qabiliyyəti, prinsipiallıq və qətiyyət nümayiş etdirir. Hər dövlət başçısına nəsib olmayan bu unikal şəxsi keyfiyyətlərin daşıyıcı olan Prezident İlham Əliyev harada çıxış etməsindən və mövqe bildirməsindən asılı olmayaraq, şahmat dili ilə desək, həmişə ağ fiqurlarla oynayır və artıq start vəziyyətində qarşı tərəf və ya tərəflər üzərində ilkin üstünlüyünü təmin etmiş olur. Bununla da Azərbaycan Prezidenti hələ 23 yaşında ikən SSRİ Xarici İşlər Nazirliyinin məşhur Beynəlxalq Münasibətlər İnstitutunda diplomatiya ixtisasının incəliklərini tədris etməsinin təsadüfi olmadığını bir daha sübut edir. Bununla da, əslində, bütün dünyaya nümayiş etdirir ki, Azərbaycan öz miqyası etibarilə böyük dövlət olmasa da, sözünün mənası və çəkisi böyükdür. Qətiyyəti və iradəsi böyükdür.

Prezident İlham Əliyevin bütün diplomatik addımları milli maraqlardan çıxış etməklə zərgər dəqiqliyi ilə hesablanıb və bir çox halda siyasi opponentlərin intellekti imkan vermir ki, onlara vaxtında düzgün adekvat reaksiya versinlər. Belə unikal və uzağagedən siyasi məqsəd daşıyan addımlardan birini Prezident İlham Əliyev 2011-ci ilin iyun ayında atdı. Azərbaycan Qoşulmama Hərəkatına üzv oldu. Bir çoxları İlham Əliyevin bu siyasi gedişinin arxasında dayanan əsl mətləbi vaxtında dərk edə bilmirdilər. Mətləb isə ondan ibarət idi ki, mahir diplomat və dövlət xadimi olan İlham Əliyev Azərbaycanın dünyanın nəhəng universal beynəlxalq təşkilatı olan BMT TŞ-yə üzv olmasını əsas siyasi hədəf kimi müəyyən etmişdi. Bu hədəf xarici siyasət fəaliyyətinin çeviklik əmsalının kəskin artımı hesabına reallaşa bilərdi. Bu halda tərkibində 193 dövlətin olduğu BMT-dən sonra sayca ikinci mövqedə dayanan Qoşulmama Hərəkatına (QH) (120 dövlət) üzvlük həmin məqsədin reallaşması üçün əlavə və geniş imkanlar pəncərəsi aça bilərdi. Elə belə də oldu. Zaman yenə də prezident İlham Əliyevin çevik diplomatik təfəkkürünün uğurunu ortaya qoydu.

Prezident İlham Əliyevin müəyyən etdiyi müstəqil xarici siyasət kursu dünyada bir-birinə qarşı duran qütblər tərəfindən də müsbət qiymətləndirilir. Azərbaycanın müxtəlif güc mərkəzlərindən bərabər məsafədə mövqe seçməsi, ikitərəfli münasibətlərdə bərabər hüquq, qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə sadiq qalması, eyni zamanda ikitərəfli əməkdaşlığın heç bir halda üçüncü tərəfi hədəfə almaması reallığı beynəlxalq aləmdə dövlətimizə və onun rəhbərinə olan loyal münasibətin formalaşmasını şərtləndirən əsas amillərdir.

Qlobal iqtisadi və hərbi güc balansında uzunmüddətli dəyişikliklər, dövlətlər arasında rəqabətin artması və daha güclü qeyri-dövlət aktorlarının meydana çıxması ilə dünya sürətli və əsaslı dəyişikliklər prosesindədir. Proqnozlaşdırılmayan təhdidlər gözlənilməz hadisələrlə üzləşmə ehtimalını getdikcə artır. Dünyanın bir çox dövlətlərində terrorizm, ekstremizm və qeyri-sabit mübarizə, dövlət əsaslı təhdidlər, münaqişənin geniş vüsət alması, dövlətlərin beynəlxalq münasibətlər sisteminin digər aktorları ilə daha çox mənfi məcrada münasibətlərinin irəliləməsi fonunda Azərbaycan Prezidentinin müstəqil, eyni zamanda konstruktiv siyasət yürütməsinin, orta məxrəcin olduqca düzgün və sərrast müəyyən edilməsinin bəhrəsinin hər bir siyasi qərarda və gündəlik həyatımızda şahidi oluruq. Bu gün Azərbaycan vətəndaşı dinc, sabit və inkişaf edən bir ölkədə yaşadır, yaradır, firavan gələcək qurur. Azərbaycan bu gün beynəlxalq aləmdə siyasi sabitliyin, əmin-amanlığın, tərəqqinin, tolerantlığın məkanı kimi tanınır.

## Beynəlxalq layihələr

Məhz iti fəhmi və diplomatik məharəti hesabına Prezident İlham Əliyevin son 19 il ərzində ölkəmizin və eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatı istiqamətində atdığı çoxkombinasiyalı siyasi gedişləri heyranlıq doğurur.

Son 18 il ərzində Prezident İlham Əliyevin təşəbbüsü ilə regionda çox böyük nəqliyyat layihələri icra olunmaqdadır. "Şərq-Qərb" nəqliyyat marşrutu artıq reallaşıb. 2017-ci ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolunun açılmasından sonra artıq bu marşrut fəaliyyətdədir. Hazırda "Şimal-Cənub" nəqliyyat dəhlizinin yaradılması istiqamətində intensiv işlər görülməkdədir. Azərbaycan ərazisində bu dəhlizlə bağlı bütün işlər yerinə yetirilmişdir. Bu iki önəmli nəqliyyat dəhlizi yeni təşəbbüslərlə çıxış etmək üçün də imkanlar yaratmışdır. Artıq ölkəmizdən keçən "Şimal-Qərb" nəqliyyat dəhlizi və hələ ki, istismara verilməyən, lakin potensialı olan "Cənub-Qərb" nəqliyyat dəhlizi çox böyük layihələrdir. Xüsusilə 2019-cu ildə Azərbaycanın qlobal nəqliyyat qovşağı kimi statusu daha da möhkəmlənmişdir. Çindən gələn ilk qatar Bakı-Tbilisi-Qars dəmir yolundan keçərək Avropaya çatmışdır. Milli iqtisadiyyata təkan verəcək, daşınma xərclərini azaldacaq dəmir yolu sistemi müasirləşdirilib və bu proses davam etməkdədir.

Prezident İlham Əliyevin uzaqgörən müdrik siyasəti sayəsində Azərbaycan təkcə dünyanın enerji və nəqliyyat xəritəsini yenidən tərtib etmir, eyni zamanda dünyada ümumbəşəri dəyərlərin qorunması və təbliği istiqamətində fantastik nailiyyətlərə imza atır. Dünyada sivilizasiyalararası dialoq sahəsində ciddi problemlərin yaşanması, bu fonda konfliktlərin artması tendensiyasının müşayiət olunması, xüsusilə də islamafobiya kimi təhlükəli meyillərin bir sıra dövlətlərin və digər subyektlərin siyasətində özünə geniş yer alması reallığında Azərbaycanın mədəniyyətlərarası dialoq məkanına çevrilməsi faktı da qlobal əhəmiyyət kəsb edən məsələdir. Bu məsələlərin həlli istiqamətində Azərbaycanın təcrübəsi digər ölkələr üçün örnək ola bilər.

Ötən 19 ilin zirvəsində təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Şuşanı işğaldan azad edən sərkərdə "Mən ona özüm qədər inanıram" deyən Ulu Öndərin ata vəsiyyətini yerinə yetirdi, xalqına, məcburi köçkünlərə verdiyi sözə sahib çıxdı, güclü Azərbaycan yaradaraq düşməni onunla hesablaşmağa vadar etdi. Azərbaycanın ərazi bütövlüyünü bərpa edən müdrik lider, böyük strateq, qalib sərkərdə kimi adını əbədi olaraq tarixə yazdırdı, 44 günlük Vətən müharibəsinin əsl qəhrəmanına çevrildi. Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "güclü dövlət" konsepsiyasının əsasını təşkil edən üç mühüm güc - iqtisadi, siyasi, hərbi güc və onların vəhdəti Azərbaycanın Vətən müharibəsinin başlıca hərəkətverici qüvvəsi oldu.

8 Noyabr Zəfər Günü xalqımızın qürur mənbəyinə çevrilmiş şanlı tarixdir. Həmin tarixin üç qəhrəmanı vardır: Müzəffər Ali Baş Komandan, onun formalaşdırdığı yenilməz ordu və "dəmir yumruğ"a çevrilmiş xalq. Bu reallıqda Prezident+Ordu+Xalq sözləri sinonimləşmiş, tarixi Zəfərin simvollarına çevrilmişdir.

Bu tarixi zəfəri ilə Prezident İlham Əliyev öz adını müzəffər sərkərdə olaraq təkcə mənsub olduğu ölkənin deyil, əslində, dünyanın hərb tarixinə əbədi olaraq həkk etdi. Bu tarixi qalibiyyətin nəticəsində ordumuzun yenilməzliyi, qüdrəti və vətənpərvərliyi sözdə deyil, qanlı döyüş meydanlarında sübuta yetirildi. Xalq olaraq qəddimiz düz, başımız uca oldu. Qürurumuz özümüzə qaytarıldı. Alnımızdan xəcalət təri birdəfəlik silindi. Birləşdik. Bütövləşdik. Ən qatı əleyhdarlarımız belə bu həqiqəti etiraf etmək məcburiyyətində qaldılar.

Tarixi zəfər nəticəsində təkcə ərazi bütövlüyümüz və suverenliyimiz təmin olunmadı, həm də erməni faşizminə ölümcül zərbə endirildi. Eyni zamanda Ermənistanın və dünya ermənilərinin son 30 il ərzində sitayiş etdikləri "Miatsum" ideologiyası-İrəvan və Qarabağ ermənilərini vahid dövlət tərkibində görməyi hədəfləyən, bu prosesdə qonşu Gürcüstan ərazisinə də ilhaq zonası kimi yanaşan irticaçı ideya iflasa uğradı. Bu gün Ermənistan dövləti və erməni xalqı milli ideologiyadan məhrum olmuşdur. O, tarixin zibilliyinə atılmışdır. Eyni məkanda "Ermənistan-diaspor-artsax" ideoloji triadası da yer almışdır.

Müzəffər Azərbaycan Ordusu xilaskar Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızı Ermənistanın işğalçı silahlı qüvvələrindən azad etmək kimi müqəddəs vəzifəni şərəflə yerinə yetirmişdir.

## Böyük qayıdış

Bu gün Azərbaycan Vətən savaşının ardınca dünyanı işğaldan azad edilmiş ərazilərdə abadlıq-quruculuq işləri ilə heyrətləndirir. Prezident İlham Əliyevin hazırda ən ali amalı azad edilmiş torpaqlara yenidən həyat vermək və insanlara verdiyi sözü tutaraq, qısa zaman ərzində onları öz doğma yurd-yuvalarına yerləşdirməkdir. Bu istiqamətdə də sadəcə zəruri olan işlərin həyata keçirilməsi yox, müasir standartların tətbiq olunaraq "yaşıl enerji" zonalarının yaradılması işləri icra olunur ki, bu da dövlət başçımızın illər ərzində sinəsi Vətən qubarı bağlamış soydaşlara verdiyi dəyərin əyani sübutudur. Dünya iqtisadiyyatının mövcud pandemiya şəraitində böyük problemlər yaşadığı bir vaxtda Prezident İlham Əliyevin təşəbbüsü və təlimatları əsasında Azərbaycan yalnız erməni işğalından azad edilmiş əraziləri bərpa etməyi və yenidən qurmağı deyil, həm də "ağıllı şəhər" və "ağıllı kənd" anlayışlarını həyata keçirir. Həmin işlərin mərkəzləşmiş qaydada həlli üçün Prezident İlham Əliyevin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə Əlaqələndirmə Qərargahı (ƏQ) yaradılmışdır. ƏQ-nin tərkibində 55 dövlət qurumunu təmsil edən 160 nəfərlik 16 işçi qrupu fəaliyyət göstərir. ƏQ artıq Strateji Fəaliyyət Planını (SFP) hazırlamışdır. SFP əsasında Tədbirlər Planı da hazırlanmışdır. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq işğaldan azad edilmiş ərazilərin bərpası və yenidənqurulması işlərinin konseptual əsasları da müəyyən edilmişdir. 4 mərhələdə fəaliyyət nəzərdə tutulmuşdur: İdarəetmə və təhlükəsizlik; infrastruktur məsələlərinin həlli; sosial xidmətlər; iqtisadiyyatın yenidən qurulması və inkişafı. Tarixi və müqəddəs Zəfərdən sonra Qarabağın yenidən bərpası, dirçəldilməsi, cənnətməkanına çevrilməsi işlərinə, Böyük qayıdışa start verildi. Qələbəmizdən dərhal sonra Müzəffər Ali Baş Komandanın işğaldan azad olunmuş ərazilərimizə tarixi səfərləri başladı. Hər bir səfər də düşmən üzərində daha bir Qələbə və Zəfər oldu. Düşmənə hər mənada gözdağı verildi, tarixi açılışlar baş tutdu. Hər zaman bizim yanımızda olan, öz dəstəyini heç zaman əsirgəməyən qardaş və dost Türkiyənin və onun dövlət başçısı cənab Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə çox mühüm addımlar atıldı, tarixi Şuşa Bəyannaməsi imzalandı. Bununla bir daha dünyaya dostluq və qardaşlığımızın, birlik və bərabərliyimizin sarsılmazlığı mesajı verildi. Bir daha mesaj verildi ki, Azərbaycan-Türkiyə dostluq və qardaşlığı sarsılmazdır, dönməzdir, əbədidir, daimidir. Bəli, biz artıq Qalib dövlət, Qalib millətik. Və bir Qalib dövlət, Qalib millət olaraq bundan sonra da növbəti Qələbə və Zəfərlərə imza atacağıq. Bacardıq, bacarmışıq, bacarırıq və bacaracağıq!

İlham Əliyevin ölkəmiz, xalqımız qarşısında həyata keçirdiyi işlərin sadəcə adlarını belə bir kiçik yazıya sığışdırmaq olmaz. Məqsədimiz hamısını burada sadalamaq da deyil. Ən böyük qiyməti ona həmişə Azərbaycan xalqı verib - ardıcıl özünə dövlət başçısı seçməklə və onun siyasətinə inandığını göstərməklə. Onu təkcə Prezident kimi deyil, milli lider və sərkərdə kimi qəbul etməklə. Onun arxasında vahid bir yumruq kimi birləşməklə.

Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət Azərbaycanı xoş gələcəyə aparır. Bunu görməmək, qiymətləndirməmək və buna sevinməmək mümkün deyil. Bunun üçün sadəcə, azərbaycanlı olmaq yetər...

**Fəzail İBRAHİMLİ,**
*Milli Məclis Sədrinin müavini*

# Möhtəşəm inkişafın 19 ili



İllər təkcə ömrümüzdən kərpic kimi qopub düşmür.

İllər həm də həyatımıza yeniliklər, uğurlar, sevinc və qələbələr də gətirə bilir!

Əslində, hər bir ilin dəyəri hər kəsin, hər bir ölkə vətəndaşının həyatına, dövlətimizin inkişafına verdiyi sanballı töhfələrlə, xoş və əhatəli dəyişikliklərlə ölçülür.

Bu mənada son 19 ilin xalqımızın və ölkəmizin həyatının, vətənimizin taleyinin ən şad, fərəhli və sürətli dəyişiklikləri, möhtəşəm yenilikləri ilə yadda qaldığını görürük.

**Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 19 il həqiqətən tariximizin ən parlaq və şərəfli səhifələrini təşkil edir.**

❖ ❖ ❖

*Deyirlər, əsl həqiqət müqayisədə daha aydın görünür.*

*19 il bundan öncəki Azərbaycanla müasir dövrü müqayisə etsək, çox mühüm dəyişikliklərin və yeniliklərin baş verdiyini görərik.*

Birlikdə geriyə boylanaq, olub-keçənləri bir daha xatırlayaq, hadisələri obyektiv və düzgün qiymətləndirməyə çalışaq.

❖ ❖ ❖

Müstəqil yaşamaq istəyi Azərbaycana baha başa gəldi.

Bizi yolumuzdan döndərmək, forposta çevirmək üçün ardıcıl və məqsədyönlü şəkildə işlər görüldü, hətta "ən sərt tədbirlərə" belə əl atıldı.

*Həmin dövrdə Azərbaycanın əsl rəhbərindən ayrı düşməsi, ölkəyə maymaqların, qorxaqların, səriştəsiz və təcrübəsizlərin rəhbərlik etməsi, bəzilərinin şəxsi maraqlarını milli mənafedən üstün tutması fəlakətli nəticələrə səbəb oldu.*

İmperiyasevər qüvvələr tarixin sınaqlarından keçirdikləri "Dağlıq Qarabağ problemi" ni yenidən gündəmə gətirərək erməni separatçılarını fəallaşdırdılar, ölkəmizin ərazi bütövlüyünə qəsd yolunu tutdular.

O dövrkü dövlət başçılarının belə ssenariyə hazır olmamaları, Moskvaya qul sədaqəti göstərmələri nəzərdə tutulan mənfur planın uğurlu inkişafına şərait yaratdı.

**Xalqın kortəbii etirazlarını yatırtmaq, haqq, ədalət deyənləri yerində oturtmaq üçün SSRİ-nin birinci və axırıncı Prezidenti, ermənipərəst M.Qorbaçovun əmri ilə Azərbaycana xüsusi cəzalandırma tətbiq edildi, sovet ordusu Bakıya hücum edərək 20 Yanvar faciəsini törətdi.**

Lakin bütün bunlar Azərbaycan xalqını öz yolundan döndərə bilmədi.

A.Mütəllibovun keçmiş SSRİ-ni saxlamaq barədə keçirdiyi referendum da uğursuzluğa yuvarlandı.

*AXC-Müsavat cütlüyünün azadlıq hərəkatının dalğaları üzərində iqtidara gəlməsi vəziyyəti daha da mürəkkəbləşdirdi. Dövlət idarəçiliyində heç bir təcrübəsi olmayan səriştəsizlər və naşılar Azərbaycanı xaos və anarxiya burulğanına yuvarladılar, vətəndaş müharibəsi astanasına gətirdilər.*

**Belə bir mürəkkəb məqamda Azərbaycan xalqı üzünü sınanmış oğlu, dünyaşöhrətli siyasətçi Heydər Əliyevə tutdu, onu yenidən ölkə rəhbərliyinə dəvət etdi.**

**Xalqın çağırışına biganə qala bilməyən Ulu Öndərimiz yenidən geriyə dönərək Azərbaycanın xilaskarına çevrildi.**

Qısa müddətdə müharibə cəbhəsində atəşkəs yaradıldı, qanunsuz silahlı dəstələr zərərsizləşdirildi, əhalidəki külli miqdarda silah-sursat yığıldı, özbaşınalığa və qanunsuzluqlara son qoyuldu.

Lakin düşmən qüvvələr geri durmaq istəmirdilər.

İki dəfə - 4 oktyabr 1994-cü və 13-18 mart 1995-ci illərdə dövlət çevrilişinə cəhdlər edildi.

Xalqın gücü və dəstəyi ilə Ulu Öndərimiz bu cəhdlərin də qarşısını qətiyyətlə aldı.

1994-cü ildə "Əsrin müqaviləsi" neft kontraktı imzalandı, ölkənin gələcək inkişaf yolları müəyyənləşdirildi.

**Vəfasız ömür Ulu Öndər Heydər Əliyevin öz planlarını həyata keçirməyə imkan vermədi. Ümummilli Liderimiz "Mən ona özüm qədər inanıram..." deyə Azərbaycanın gələcək taleyini siyasi varisi İlham Əliyevə etibar edərək bizi cismən tərk etdi.**

❖ ❖ ❖

Cənab İlham Əliyevin Prezidentliyi ilk gündən çətin sınaqlarla başladı.

Radikal müxalifət və "5-ci kolon" Azərbaycanı yenidən anarxiya dövrünə sürükləmək, ağalarının maraqlarını təmin etmək niyyətindəydilər. Bu məqsədlə prezident seçkilərindən dərhal sonra küçə və meydanlara axışaraq insanları da öz təsirləri altına salmaq, yenidən çevriliş törətmək istəyirdilər.

*Xalq onlara dəstək vermədi!*

*Prezident İlham Əliyev isə ən sərt və qətiyyətli tədbirlər gördü!*

*Aqressiv müxalifətin ilk cəhdi fiaskoya uğradı.*

**Yeni Prezident İlham Əliyevin atdığı addımlar isə göstərdi ki, dövlətin sükanı yenə də etibarlı əllərdədir, kimsə daha Azərbaycanda sabitliyi poza, insanları yanlış istiqamətə yönəldə bilməz!**

❖ ❖ ❖

*Prezident İlham Əliyev mahiyyət və fəaliyyət etibarı ilə qurucu, yaradıcı liderdir.*

*Cari fəaliyyətlə uzaq perspektivi məharətlə əlaqələndirməyi, məsələlərə kompleks şəkildə yanaşmağı, məqsədə çatmaq yolunda ən qısa və optimal vasitələr tapmağı, istəklərini uğurla reallaşdırmağı gözəl bacarır.*

Odur ki, yubanmadan fəaliyyətə başladı.

Dövrün başqa bir mühüm problemi isə dövlət büdcəsində vəsait çatışmazlığı idi.

Əvvəlki rəhbərlərin səhvləri və bacarıqsızlığı nəticəsində bazar iqtisadiyyatına keçidi şərtləndirən islahatlar vaxtında və qaydasında aparılmadığından istehsal aşağı düşmüş, işsizlik artmış, yoxsulluq səviyyəsi yüksəlmişdi. Sahibkarlığın inkişafı sahəsində də ciddi maneələr vardı.

**Ulu Öndər Heydər Əliyevin sayəsində yeni Konstitusiya qəbul edilmiş, dövlət əmlakının özəlləşdirilməsinə dair iki proqram hazırlanaraq reallaşdırılmış, torpaq islahatı keçirilmiş, Bakı-Tbilisi-Ceyhan neft kəməri çəkilmişdi.**

**Lakin büdcəyə kifayət qədər neft pulları gəlmədiyindən vəziyyət hələ də ürəkaçan deyildi.**

*Cənab İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başladığı ilk günlərdən diqqətini mövcud problemlərə yönəldərək dövrü üçün çox zəruri sayılan problemlərin tezliklə həllinə nail olacağına söz verdi:*

- günün istənilən vaxtı Azərbaycanın ən ucqar kəndlərində belə elektrik enerjisi olacaqdır;
- çadır şəhərciklərində bir nəfər də məcburi köçkün qalmayacaqdır;
- Azərbaycan xalqı xoşbəxt yaşamağa layiqdir və biz buna nail olacağıq;
- regionların sürətli inkişafı təmin ediləcəkdir;
- Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına yol verməyəcək, sülh yolu baş tutmasa, digər vasitələrlə işğal altındakı torpaqlarını qaytaracaqdır!

**Bunlar Prezident İlham Əliyevin Azərbaycan xalqına dövlət başçısı olaraq verdiyi ilk vədlər idi.**

**Sözü ilə əməli bir olan cənab İlham Əliyev bütün dediklərinə şərəflə əməl etdi!**

**Ən əsası, cənab İlham Əliyev qarşısına qoyduğu ən böyük hədəflərdən birinə qısa vaxtda nail oldu:**

**Tarixinin ən qüdrətli Azərbaycanını yaratdı!**

❖ ❖ ❖

Bu yöndə yorulmadan çalışaraq bir çox məsələni uğurla və böyük uzaqgörənliklə həll etdi:

- ölkənin enerji təhlükəsizliyini təmin etdi, Azərbaycanı mavi qaz idxalçısından ixracatçısına çevirdi;
- nəqliyyat təhlükəsizliyi təmin olundu, ölkənin bütün yol infrastrukturu təzələnərək müasirləşdirildi;
- regionların sosial-iqtisadi inkişafına dair dörd dövlət proqramı qəbul edilərək uğurla reallaşdırıldı;
- sahibkarlığın inkişafı yolunda maneələr aradan qaldırıldı, dövlətin sahibkarlara dəstəyi gücləndirildi;
- aqrar sektorun inkişafını stimullaşdıran layihələr hazırlanaraq uğurla həyata keçirildi, dövlətin kəndliyə hərtərəfli dəstəyi gücləndirildi;
- möhtəşəm transmilli layihələrin - Bakı-Tbilisi-Ceyhandan sonra Bakı-Tbilisi-Ərzurum və Bakı-Tbilisi-Qarsın istifadəyə verilməsi dünya okeanına birbaşa çıxışı olmayan Azərbaycanı logistika mərkəzinə çevirdi.

Bütün bu işlərin sayəsində müstəqil Azərbaycanın dünyada dəyəri artdı, əlaqələri və imkanları genişləndi.

❖ ❖ ❖

*Son 19 ildə Azərbaycanın qazandığı nailiyyətləri rəqəmlərin dili ilə yığcam şəkildə göstərsək, belə bir mənzərənin şahidi olarıq:*

- 19 ildə Azərbaycan iqtisadiyyatı 3,4 dəfə böyüyüb;
- bu illər ərzində sənaye 3,7 dəfə artıb;
- kənd təsərrüfatı 2 dəfə çoxalıb;
- xarici ticarət dövriyyəsi 6,8 dəfə yüksəlib;
- ixrac 9,2 dəfə, qeyri-neft ixracı 7,3 dəfə artıb;
- valyuta ehtiyatlarımız 33 dəfədən çox artaraq 56 milyard dollara yüksəlib;
- son 6 ayda isə ümumi daxili məhsul 6,2 dəfə artıb;
- son 8 ayda qeyri-neft sektoru 10,3 faiz yüksəlib;
- xarici ticarət dövriyyəmiz 35 milyard dollar təşkil edib;
- strateji valyuta ehtiyatları 2,7 milyard dollar artıb;
- işsizlik və yoxsulluq beş faizə endirilib;
- son 19 ildə Azərbaycanda 19 min kilometr avtomobil, 1400 kilometr isə dəmir yolu tikilib və ya əsaslı təmir edilib;
- Azərbaycan 18 təyyarə ilə regionda ən böyük mülki hava yük donanmalarından birinə sahibdir;
- 2024-cü ilin sonuna qədər ölkədə beynəlxalq hava limanlarının ümumi sayının 7-dən 9-a çatdırılması planlaşdırılır;
- Azərbaycan 52 gəmi ilə Xəzərdə ən böyük mülki yük donanmasına malikdir.

❖ ❖ ❖

**Siyasi sahədə qazanılan qələbələr də fərəh doğurur.**

**Dünya liderləri ilə daim bir sıraya qatılan cənab İlham Əliyevin şəxsi uğurları da Azərbaycanın hörmətinə və imicinə müsbət təsir göstərir.**

*2012-ci ildə Azərbaycan 150 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi.*

*Cənab İlham Əliyev iki il ərzində qurumun iclaslarına sədrlik etdi.*

Həmin dövrdə Azərbaycanın haqlı mübarizəsinin əsl mahiyyətini dünya ictimaiyyətinə çatdırmaqla yanaşı, Ermənistanın işğalçı simasını da ifşa etdi. Eyni zamanda dünyanın mövcud problemlərinin uğurlu həlli, xüsusən inkişaf etməkdə olan yoxsul ölkələrə yardım göstərilməsi, dəstək verilməsi ilə bağlı atdığı addımlar və səsləndirdiyi səmərəli təkliflər dostlarımızın və tərəfdaşlarımızın sayının xeyli artmasına kömək göstərdi.

**Bu baxımdan cənab İlham Əliyevin 2019-cu ildə BMT-dən sonra dünyada ikinci böyük təşkilat sayılan Qoşulmama Hərəkatına Sədrliyi xüsusilə uğurlu oldu.**

**Hətta Azərbaycan Prezidentinin fəaliyyəti yüksək qiymətləndirilərək onun sədrlik müddəti daha bir il - 2023-cü ilədək artırıldı.**

*İlham Əliyevin 2019-2021-ci illərdə Türk Dövlətləri Təşkilatına (keçmiş adı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasıdır) rəhbərliyi də uğurlu və yaddaqalan oldu.*

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Azərbaycan Prezidentinin türk dövlətlərinin birliyinin yaradılması istiqamətindəki fəaliyyətləri bu gün aydın görünən və hamı tərəfindən etiraf olunan səmərəli bəhrəsini verməkdədir.

Artıq imperiya buxovlarından qurtarmış, keçmiş SSRİ-də yaşayan Türk Dövlətləri birgə fəaliyyətin əlverişli olduğunu lazımınca dəyərləndirərək eyni mövqedən çıxış etməyə başlamışlar. Bu, böyük problemlərlə üzləşən müasir dünyanı da yeni təhlükələrdən qorumağa, ölkə vətəndaşlarının rahat və asudə yaşayışını təmin etməyə geniş imkanlar açır.

*Fəxrlə qeyd edirik ki, Azərbaycan Prezidenti quruma uğurlu rəhbərliyinə görə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşündə "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilmişdir.*

❖ ❖ ❖

**İlham Əliyev Azərbaycanın dövlət başçısı seçildikdən sonra da Milli Olimpiya Komitəsinə rəhbərliyini davam etdirdi.**

İlham Əliyev bu vəzifəyə təyin olunanda ölkədə idman bərbad vəziyyətdə idi. Paytaxt və bölgələrdəki idman sarayları və qurğuları dağılaraq sıradan çıxmış, respublika stadionu və velotrek "talkuçka"ya - bazara çevrilmiş, güclü idmançılar və məşqçilər işsiz qaldıqlarından xarici ölkələrə üz tutmuşdular.

Digər ölkələrdə keçirilən beynəlxalq idman yarışlarına komandaları və idmançıları göndərməyə vəsait tapılmırdı.

**Cənab İlham Əliyevin gərgin və səmərəli fəaliyyəti sayəsində az vaxtda bu sahədə əsaslı dönüş yarandı.**

Həm də nəinki dönüşə nail olundu, Azərbaycan dünyada idman dövləti kimi tanınmağa başlandı. Üstəlik, inşa olunan yeni idman arenalarına, idmançılara və keçirilən yarışlara, respublikamıza qonaq gələn idmançılara yaradılan şəraitə, tədbirlərin yüksək səviyyədə təşkilinə görə ölkəmiz dünyada ən arzuolunan idman məkanına çevrilmişdir.

**Ötən 19 il ərzində çoxsaylı yarışlar keçirilmiş, idmançılarımız möhtəşəm uğurlara imza ataraq saysız-hesabsız mükafatlara sahib olmuşlar.**

*Lap qısa şəkildə idman nailiyyətlərini xronologiya ilə diqqətə çəkirik:*

- 2000-ci ildə Sidneydə 31 idmançı ilə təmsil olunan Azərbaycan 2 qızıl və 1 bürünc medalla dünyada 34-cü yeri, Avropa ölkələri arasında isə 23-cü yeri tutdu.
- XXI əsrin ilk Olimpiya Oyunlarında - "Afina - 2004"də 12 idman növündə 38 idmançı ilə təmsil olunan Azərbaycan milli komandası bu möhtəşəm yarışdan Vətənə 1 qızıl, 4 bürünc medalla qayıtdı.
- 2008-ci ildə Pekində təşkil edilən Olimpiadada Azərbaycan 12 idman növündə 44 atletlə təmsil olundu. Komandamız Olimpiya oyunlarında ilk dəfə olaraq hər üç əyarda medallar qazandı: 1 qızıl, 2 gümüş, 4 bürünc əldə edildi. Azərbaycan yığması 204 ölkə arasında medalların sayına görə 27-ci, medalların növünə görə isə 39-cu yeri tutdu.
- 2012-ci ildə London Olimpiya oyunlarında isə Azərbaycan idmançıları 10 medal (2 qızıl, 2 gümüş, 6 bürünc) qazandılar. Bunula da 204 ölkə arasında 30-cu yerdə qərar tutan ölkəmiz medalların ümumi sayına görə 25-ci oldu. 2 qızıl, 2 gümüş və 6 bürünc əldə edən idmançılarımız bu göstərici ilə Avropa ölkələri arasında 15-ci, MBD-də isə 5-ci yeri tutdular.
- 2016-cı ildə Braziliyanın Rio-de-Janeyro şəhərində təşkil edilən XXXI Yay Olimpiya Oyunlarına Azərbaycan 56 idmançı ilə qatıldı. İlk dəfə rekord sayda - 18 medal (1 qızıl, 7 gümüş, 19 bürünc) qazanıldı. Dünyanın 207 ölkəsindən 11 mindən çox idmançının iştirak etdiyi turnirə respublikamız 56 idmançı ilə qatılmışdı. Azərbaycan medal sayına görə 87 mükafatçı dövlət arasında 15-ci yeri tutaraq islam, türk və Qafqaz ölkələri arasında lider oldu.
- Pandemiya səbəbindən bir il təxirə salınan "Tokio-2020" Olimpiadasına 44 idmançı ilə qatılan Azərbaycan komandası turniri 3 gümüş və 4 bürünc medalla başa vurub. Gümüş medalların 2-si karate, 1-i güləş, bürünc mükafatlardan isə 2-si güləş, 1-i cüdo, 1-i boks yarışlarında qazanılıb.
- Bakı planetin bir nömrəli "Formula-1" avtomobil yarışına 6 dəfə evsahibliyi edib.

"Formula-1" Azərbaycan Qran-prisində ən məşhur 20 pilot 10 komandanın tərkibində 6 kilometr məsafədən ibarət 51 dövrəlik mərhələnin qalibi uğrunda yarışır.

- Son 20 ilin ən mühüm idman hadisələrindən biri də ölkəmizdə təşkil olunan "Bakı-2015" I Avropa Oyunlarıdır. Qitənin 50 ölkəsindən 6000-dən çox idmançının iştirak etdiyi yarışlarda atletlərimiz 21-i qızıl, 15-i gümüş, 20-si bürünc olmaqla, 56 medal qazanaraq 2-ci yeri tutdular.
- 2017-ci ildə isə paytaxtımızda təşkil olunan IV İslam Həmrəyliyi Oyunları gənclərimiz üçün çox böyük uğurla yekunlaşdı. 54 ölkədən 3000-dən çox idmançının iştirak etdiyi yarışlarda Azərbaycan atletləri 75-i qızıl, 50-si gümüş, 37-si bürünc olmaqla, 162 medal qazanaraq birinci yeri tutdular.

**Bütövlükdə 2000-ci ildən indiyədək ölkədə 50-yə yaxın Olimpiya İdman Kompleksi, həmçinin ixtisaslaşmış idman qurğuları tikilib istifadəyə verilib, mövcud idman obyektləri yenidən qurulub.**

❖ ❖ ❖

**19 ilin ilk möhtəşəm yekunu tarixinin ən qüdrətli Azərbaycanının yaradılmasıdır.**

*Müstəqil Azərbaycan müstəqil siyasət yürüdür, dünyada yüksək çəkiyə, siyasi nüfuza sahibdir, Avropanın enerji təminatında mühüm rol oynayır, dünyada keçirilən ən mötəbər tədbirlərin iştirakçısı və ən əziz qonağı olur, müasir, demokratik, idman dövləti kimi imic qazanıb, çoxsaylı dostlara, qarşılıqlı maraqları təmin edən əlaqə və əməkdaşlıqlara malikdir, Cənubi Qafqazın ən güclü dövləti, logistika mərkəzi, "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin kəsişdiyi məkan, transmilli layihələri uğurla gerçəkləşdirən ölkədir.*

**19 ilin ikinci möhtəşəm uğuru isə 44 günlük Vətən müharibəsinin zəfərlə başa çatdırılaraq ərazi bütövlüyünün bərpasıdır.**

Bu qələbəyə Azərbaycan 19 il hazırlaşdı.

**Torpaqların qısa müddətdə işğaldan azad edilməsi isə göstərdi ki, cənab İlham Əliyev həm də "dəmir yumruğ"a sahib görkəmli sərkərdədir!**

Ermənilər özlərini "məğlubedilməz millət", Ermənistan isə öz ordusunu "məğlubedilməz ordu" sayırdı.

Ermənilər ötən illərin 90-cı illərində ordusuz-müdafiəsiz, yiyəsiz-sahibsiz Azərbaycana, dinc əhaliyə hücum edərək havadarlarının köməyi ilə torpaqlarımızı ələ keçirmələrini böyük qəhrəmanlıq kimi qələmə verirdilər.

Son dövrlərdə isə Azərbaycanı "yeni müharibə, yeni ərazilərin ələ keçirilməsi olacaq", "bu dəfə erməni tankları Bakıyadək gələcək" deyə hədələyirdilər.

Həm də elə güman edirdilər ki, hərbi əməliyyatlar başlasa, 1990-cı illərin müharibəsi təkrar olunacaqdır!

**Müzəffər Ali Baş Komandan İlham Əliyev isə hakimiyyətə gəldiyi ilk günlərdən sülh danışıqlarını davam etdirsə də, müharibəyə hazırlaşırdı.**

Görürdü ki, Ermənistan danışıqlar yolu ilə torpaqları qaytarmaq niyyətində deyil!

*Cənab İlham Əliyev isə hər dəfə Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəyini qətiyyətlə bəyan edirdi.*

**Prezident İlham Əliyev yeni müharibəyə ordu quruculuğunu davam etdirərək hazırlıq görürdü:**

- ən əvvəl, yeni vətənpərvər gənclər nəsli yetişdirdi, dünyanın müxtəlif ali hərbi məktəblərində təhsil almış zabit kadrları hazırladı, ordunu yenidən komplektləşdirdi;
- ordunu ən müasir texnologiyalar əsasında hazırlanan yeni silahlarla təchiz etdi;
- müntəzəm təlimlər keçən Xüsusi Təyinatlı Qüvvələr hazırladı;
- ordunu dağlıq şəraitdə, bərkidilmiş istehkamlara qarşı döyüşə köklədi;
- hərbi əməliyyatlar dövründə düşmən ordusunun arxa ilə əlaqəsini qırmaq, təchizatını pozmaq üçün irəlicədən zəruri tədbirlər müəyyənləşdirildi;
- müharibə dövründə aldadıcı və çaşdırıcı manevrlərdən məharətlə istifadə olundu;
- orduda yüksək əhvali-ruhiyyə, döyüş əzmi yaradıldı;
- ən nəhayət, döyüşlər zamanı Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən operativ idarəetmə həyata keçirildi, dəqiq gündəlik tapşırıqlar müəyyən olunaraq icrası təmin edildi!

❖ ❖ ❖

44 günlük Vətən müharibəsi dövründə Müzəffər Ali Baş Komandan İlham Əliyev 3 istiqamətdə - hərb meydanında, diplomatiya və informasiya cəbhəsində mətanətlə vuruşdu!

Diplomatiya və informasiya savaşında təkbaşına qalib gəldi!

Düşməni qarşısında diz çökdürərək kapitulyasiya aktına qol çəkdirdi!

Çox yığcam bir rəqəm;

*Vətən müharibəsində Azərbaycan Ordusu tərəfindən Ermənistanın 5 milyard dollarlıq silah-sursatı məhv edildi.*

*O cümlədən erməni ordusunun 125 artilleriya topu, 366 tankı, 7 ədəd "S-300" zenit-raket kompleksi, 50-dən çox digər zenit-raket kompleksləri, 522 yük avtomabili və digər texnikalar ya məhv edilmiş, ya da qənimət kimi götürülmüşdür!*

Canlı qüvvə sarıdan düşmənin ölən və yaralılarının sayı on mini keçmiş, bir o qədər də hərbçi haqqında cinayət işi qaldırılan fərarisi olmuşdur!

Ən əsası, düşmən torpaqlarımızdan birdəfəlik qovulmuş və biz doğma yurda əbədi qayıtmışıq!

❖ ❖ ❖

Azərbaycan bu müharibədə ən müasir silahlardan istifadə etdi, fərqli taktika və strategiya işlətdi, XXI əsrin yeni müharibəsini apardı!

Dünya hərb elmi ölkəmizin bu uğurlarına yüksək dəyər verdi, "nümunəvi müharibə" kimi hamı bizdən öyrənməyə, bizim təcrübənin tətbiqi üçün öz ordularında islahatlara başladı!

❖ ❖ ❖

**Qarşıda daha möhtəşəm bir vəzifə - Qarabağın və Zəngəzurun cənnətə çevrilməsi prosesi durur.**

**Bu istiqamətdə də sürətli və davamlı işlər gedir.**

Şəhərlərin baş planları hazırlanaraq təsdiq olunur, yeni yollar çəkilir, zəruri infrastruktur yaradılır, bir-birindən maraqlı layihələrin icrasına start verilir.

*Artıq Böyük qayıdışın ilk qaranquşu sayılan Ağalıya keçmiş məcburi köçkünlər qayıdaraq "ağıllı" qəsəbələrində xoşbəxt günlərini yaşayırlar.*

*Dünyanın hər yerindən bütöv Azərbaycanı görməyə gələnlər mədəniyyət paytaxtı Şuşa ilə bərabər, Ağalını da ziyarət edir, məmnunluqlarını söyləyirlər!*

Qarşıda görüləsi işlər çoxdur!

Xalqımıza uğur və xoşbəxtlik gətirəcək illər də çoxdur!

**Çünki Prezident İlham Əliyev hər adi ili möhtəşəm qələbələrlə əlamətdar etməyi, xalqımızın ən müqəddəs və əlçatmaz arzularını belə reallaşdırmağı məharətlə bacarır.**

**Xalq öz rəhbərinə inanır və onu səmimi-qəlbdən sevir!**

**Ölkə vətəndaşlarının etimadını daim doğruldan dövlət başçısı İlham Əliyev isə nəyi, nə vaxt və necə etməyi gözəl bildiyindən yeni zəfərlərə çatacağımıza hamımız əminik!**

*Necə ki Prezidentimiz dedi və etdi:*

*Qarabağ Azərbaycandır!*

Azərbaycan xalqı isə xoşbəxt yaşamağa layiqdir!

Xalq-iqtidar birliyi, xalqın firavanlığına xidmət edən müstəqil siyasət, aydın hədəflər və məqsədə çatmaq yolunda birgə fəaliyyət növbəti illərin də uğurlarının ən möhkəm təməlidir!

**Bəxtiyar SADIQOV**

# Qüdrətli, qətiyyətli, qurucu

# LİDER



Azərbaycan xalqı çoxəsrlik tarixinin ən parlaq səhifələrini yaşamaqdadır. İki yüz illik münaqişəyə, otuz illik müharibəyə son qoyan İkinci Qarabağ savaşında qazandığımız Zəfərimizin ikinci ilini başımız dik, alnımız açıq, məğrur xalq kimi qeyd etməkdəyik.
Bu Zəfərin memarı isə Ulu Öndər Heydər Əliyevin layiqli varisi, onun yarımçıq qalan arzularını gerçəkləşdirən və Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən cənab Prezident İlham Əliyevdir.

Zaman göstərib ki, Azərbaycan xalqı qədimlərə söykənən şərəflə yazılmış tarixi ərzində çox müdrik qərarlar qəbul edib. 1993-cü ildə dahi şəxsiyyət Heydər Əliyevi xilaskar lider kimi Bakıya dəvət edib özünə rəhbər seçən xalq, 2003-cü ilin oktyabrın 15-də ölkədə keçirilən prezident seçkilərində etdiyi seçimində də yanılmadı. 19 il öncə xalqın mütləq əksəriyyətindən etimad mandatı alan cənab İlham Əliyev adını Azərbaycan tarixinə qurucu, islahatçı, humanist Prezident və Müzəffər Sərkərdə kimi yazdırdı. Əgər Ulu Öndər Heydər Əliyev müasir Azərbaycanın xilaskar lideridirsə, Prezident İlham Əliyev Şanlı Zəfərin memarı kimi Qarabağı bizlərə qaytaran və onu yenidən gülüstana döndərəcək güclü, qətiyyətli lider kimi tarixdə əbədi qalacaq.

## Xalqın inamı, mütləq əksəriyyətin doğru seçimi

Hazırda yaşadığımız parlaq tarix məhz Azərbaycan xalqının uğurlu və sərrast seçiminin, əzəmətli təfəkkürünün məhsuludur. Əlbəttə ki, Ümummilli Liderin 19 il öncə Azərbaycan xalqına ünvanladığı müraciətində "Mən İlham Əliyevə özüm qədər inanıram", "Mənim edə bilmədiyim işləri o, uğurla başa çatdıracaqdır" tövsiyələri ölkə əhalisinin düzgün seçimində böyük rol oynayıb. Çünki 1993-cü ildə təkidli tələbi ilə Ulu Öndəri Azərbaycana çağıran xalq inandığı, güvəndiyi xilaskar Prezidentin çağırışına bu cür reaksiya verməli idi.

15 oktyabr 2003-cü il müasir Azərbaycanın dövlətçilik tarixinin şanlı səhifələrindən biri kimi yaddaşlara yazılıb. Həmin gün ölkədə Prezident postuna azad, ədalətli və şəffaf şəkildə keçirilən 5-ci rəsmi seçkilərdə cənab İlham Əliyev seçicilərin 2 milyon 438 min 787 nəfərinin etimadını qazanaraq Azərbaycanın dövlət başçısı seçildi. 76 faizdən çox seçici cənab İlham Əliyevə səs verməklə Ulu Öndər Heydər Əliyevin siyasi kursunu dəstəklədi. Xalqımız sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu nümayiş etdirməklə yanaşı ölkədə bu siyasətə alternativin olmadığını göstərdi.

Prezident İlham Əliyev ona səs verən insanların bütün ümidlərini doğrultdu. Buna şahidlik edən xalq da Prezidentə inanaraq qətiyyətli dəstək verib, ətrafında sıx birləşərək onun gücünü və əzəmətini qat-qat artırdı. Prezident İlham Əliyev öz fəaliyyəti ilə Azərbaycanın təkcə sürətli inkişafını təmin etmədi. Onun ideyaları, əməli fəaliyyəti, qlobal miqyaslı təşəbbüsləri həm də bəşəriyyətin inkişafına vacib töhfələr verdi.

Prezident İlham Əliyevin rəhbərlik etdiyi qüdrətli Azərbaycan beynəlxalq əməkdaşlığın inkişafında, dünya miqyasında təhlükəsizliyin təmin olunmasında çox əhəmiyyətli rol oynayır. Xüsusi vurğulamaq gərəkdir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizin müasirləşməsini, respublikamızın simasının əsaslı dərəcədə dəyişməsini, dünya birliyinin layiqli üzvünə çevrilməsini təmin edib. Bu gün Azərbaycanın müxtəlif sahələrdə təcrübəsi hətta inkişaf etmiş ölkələr üçün nümunə göstərilir. Genişmiqyaslı islahatların aparılması, idarəetmənin səmərəliliyinin artırılması və digər mühüm addımlar Azərbaycanın uzunmüddətli inkişafını təmin edir.

Beləcə, Azərbaycan ötən 19 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçib, bütün sahələrdə yüksək nailiyyətlər əldə edilib. Azərbaycan inkişafın milli modelini formalaşdırıb.

Bu günün zirvəsindən dönüb ötən dövrə nəzər saldıqda Azərbaycanın nə qədər möhtəşəm inkişaf mərhələsi yaşadığının şahidi olarıq. Əlbəttə ki, 44 günlük Vətən müharibəsindəki Zəfərimizlə Qarabağın 30 ildən sonra düşməndən azad edilməsi Prezident İlham Əliyevin 2003-cü ildən başlayaraq həyata keçirdiyi düşünülmüş uğurlu siyasətin məntiqi nəticəsi və davamı hesab olunmalıdır.

Bu siyasətdə güclü zəkadan, dərin məntiqdən və uzaqgörənlikdən irəli gələn sistem və ardıcıllıq aydın şəkildə görünməkdədir. Prezident İlham Əliyev hər zaman xalqın istədiyini bütün incəliyinə qədər duyan həssas siyasətçi kimi zamanı çatan, zamanın tələb etdiyi vəzifələri müəyyənləşdirməyin və həll etməyin mahir ustasıdır.

Azərbaycanın dünyada həm yeni imicinin formalaşmasında, həm də uğurlu gənc dövlət kimi beynəlxalq etimad qazanmasında Prezident İlham Əliyevin möhtəşəm infrastruktur layihələrinin həlledici rol oynadığı danılmazdır. İndi hər bir azərbaycanlı müasir, çiçəklənən Azərbaycanla fəxr edir, qürur duyur.

## Azərbaycanı dünyaya tanıdan ən islahatçı Prezident

Lakin etiraf etməliyik ki, bütün bu nailiyyətlər heç də asan başa gəlməyib. 2004-cü ildə regionların sosial-iqtisadi inkişafına dair I Dövlət Proqramının icrasına başlayarkən Azərbaycan cəmi 1,8 milyard dollar valyuta ehtiyatlarına sahib idi. Ancaq dövlət proqramlarında nəzərdə tutulan heç bir sosial-iqtisadi layihə təxirə salınmadı.

Hazırda isə ölkənin valyuta ehtiyaları 56 milyard dollara yüksəlib. Yəni son 19 ildə valyuta ehtiyatlarımız 31 dəfə artıb. Müstəqillik illərində ölkə iqtisadiyyatına yatırılan investisiyaların həcmi 280 milyard dollara yaxındır. Bu investisiyaların böyük qismi xarici investisiyalardır və əsasən neft-qaz sektoruna yatırılıb. Son 19 ilin reallıqları fonunda bunu da vurğulaya bilərik ki, neft siyasətinin məntiqi davamı olaraq qeyri-neft sektoru da sürətlə inkişaf edib, ölkəmizin bu sahədə malik olduğu imkanlar dünyanın diqqətindədir. Hər bir layihənin uğurlu sonluqla başa çatması ölkəmizin malik olduğu imkanların təqdimatı ilə yanaşı, növbəti layihələnin gündəmə gətirilməsinə yol açır. Azərbaycanın iştirakçısı və təşəbbüsçüsü olduğu layihələr dövlətlər, xalqlar arasında körpü rolunu oynayır. Bu layihələr, həm iştirakçı, həm də əməkdaşlığın coğrafiyasının genişləndirilməsi əsasında digər dövlətlərin dayanıqlı inkişafını təmin edir. Bu da bir daha təsdiq edir ki, Prezident İlham Əliyevin Azərbaycanda yaratdığı biznes və investisiya mühiti xarici sərmayədarların ölkəmizə investisiya yatırması prosesinə də müsbət təsir göstərib.

Ölkədə qeyri-neft sektorunun inkişafı yeni neft strategiyasının məntiqi davamı hesab olunur. Güclü iqtisadiyyatın hər bir ölkənin inkişafında mühüm amil olduğunu bəyan edən Prezident İlham Əliyev ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı mühüm tədbirlər gördü. Yüzlərlə səhiyyə ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafını sürətləndirdi. Ölkədə yüzlərlə məktəb tikildi, təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirildi.

Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin etdi. Bütün bunların təməlində isə uğurlu enerji siyasəti dayandı. Bakı-Tbilisi-Qars dəmir yolu, "Cənub qaz dəhlizi", Bakı Beynəlxalq Dəniz Ticarət Limanının fəaliyyətə başlaması, "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizləri, ümumiyyətlə, nəhəng infrastruktur layihələrinin icrası Azərbaycanı regionun nəqliyyat-tranzit, eləcə də logistik mərkəzinə çevirdi.

Dövlət başçısının düşünülmüş, məqsədyönlü və ən əsası, tam müstəqil siyasəti Azərbaycanın regional və beynəlxalq miqyasda nüfuzunun daha da artmasına gətirib çıxardı. Bu siyasət həm də Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsini, kosmik klubun üzvünə və beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilməsini təmin etdi.

Müasir qloballaşma dövründə istənilən məsələ üzrə Azərbaycanın milli maraqlarının sadiq təminatçısı kimi çıxış edən Prezident İlham Əliyev beynəlxalq miqyasda da əsl lider olaraq ehtiramla qarşılandı. Bu mənada fəxarət doğuran məqamlardan biri də cənab İlham Əliyevin dünyada dərin analitik təfəkkürə və məqsədyönlü, düşünülmüş siyasi iradəyə malik lider kimi qəbul olunmasıdır. Qətiyyəti, diplomatik məharəti onu dünyanın nüfuzlu siyasi rəhbərləri cərgəsinə çıxarıb. Ona görə Azərbaycan Prezidentinin şəxsiyyəti bu gün beynəlxalq səviyyədə ehtiramla qəbul olunur. Təsadüfi deyil ki, dövlət başçısının hadisələrə baxışı, münasibəti hər bir beynəlxalq tədbirin diqqətlə izlənilən məqamlarındandır.

Prezidentin güclü siyasi iradəsi və davamlı dəstəyi sayəsində ölkədə aparılan kompleks islahatlar Azərbaycanın hər il yeni rekorda imza atmasına imkan yaratdı. Dünyada ən vacib və etibarlı reytinq göstəricisi hesab olunan Dünya Bankının "Doing Business" hesabatı dövlət başçısı İlham Əliyevi ən islahatçı Prezident kimi dəyərləndirdi. Hesabata əsasən, Azərbaycan dünyanın 10 islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Cənab İlham Əliyevin apardığı kompleks islahatlar ölkəmizə "dünyada ən islahatçı ölkə" imici qazandırmaqla yanaşı, davamlı və tarazlaşdırılmış iqtisadi inkişafı təmin edib.

Azərbaycanın təbliği, onun tanıdılması və şöhrətinin artırılması Prezidentin çoxşaxəli siyasətinin xüsusi istiqamətini təşkil edir. Ölkəmiz dəfələrlə bir sıra qlobal layihələrin təşəbbüskarı və ya uğurlu icraçısı olmuşdur. Möhtəşəm humanitar, mədəni, sivilizasiyalararası və dinlərarası dialoq, idman tədbirlərinin keçirilməsinə paytaxtımızın evsahibliyi etməsi beynəlxalq miqyasda Azərbaycana olan etimadın və hörmətin özünəməxsus göstəricisi sayılmalıdır. Azərbaycanda reallaşan beynəlxalq tədbirlərin iştirakçıları, əslində, həm də ölkəmizin bütün dünyada yüksək etimadlı səfirləri kimi də nəzərdən keçirilə bilər.

## Böyük Zəfərə aparan yol

Hələ 2003-cü il oktyabrın 31-də keçirilmiş andiçmə mərasimində Prezident İlham Əliyev keçmiş Dağlıq Qarabağ münaqişəsi haqqında belə demişdi: "Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaq. Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun azad edəcək".

Ümummilli Lider Heydər Əliyevin uzaq hədəflərə hesablanmış iqtisadi siyasətini, mükəmməl ordu quruculuğu strategiyasını əzmlə davam etdirərək xalqımızın dərin mənəvi-siyasi dəstəyini qazanan Prezident İlham Əliyev Zəfərə aparan şərəfli yolun yenilməz sərkərdəsinə çevrildi. Dövlət başçısı torpaqlarımızın işğaldan azad edilməsi kimi ağrılı və çətin missiyanı ilk gündən üzərinə götürərək "güclü ordu - güclü dövlət" konsepsiyasının fundamental bazisi olan yeni iqtisadiyyat quruculuğunu daim xüsusi diqqətdə saxladı. İqtisadi güc amili Azərbaycanın nüfuzlu beynəlxalq təşkilatlar, transmilli şirkətlər, inkişaf etmiş ölkələrlə iqtisadi-siyasi münasibətlərinin dərinləşməsində mühüm rol oynayıb, eyni zamanda ərazilərimizin işğalı faktının etirafı, ərazi bütövlüyümüzün tanınması baxımından əhəmiyyətli oldu.

İqtisadi güc diplomatiyanın fundamental sütunu kimi çıxış edərək, ölkəmizin beynəlxalq arenada mövqelərini möhkəmləndirdi, Ermənistanın işğalçı siyasətinin ifşası prosesi sürətləndi, paralel olaraq modern ordu quruculuğu istiqamətində ardıcıl tədbirlərin reallaşdırılmasına zəmin yarandı.

Milli maraqları hər şeydən üstün tutması və ən çətin məqamlarda belə layiqincə qorumağı bacarması, siyasi iradəsi, qətiyyəti, hadisələrin inkişaf axarını öncədən müəyyənləşdirə bilməsi, cəsarətli qərarlar qəbul etməsi Ali Baş Komandan İlham Əliyevə xalqımızın qəlbində qubara çevrilmiş Qarabağ yarasını əbədi olaraq sağaltmağa imkan verdi.

İllər keçdikcə Silahlı Qüvvələrimizin maddi-texniki bazası gücləndi. Ali Baş Komandanın ordu quruculuğu siyasəti mükəmməl nəticələr verdi. Həm hərbi texnikalarımız, həm də silah-sursatlarımız mütəmadi olaraq yeniləndi. Bunun nəticəsi isə 2016-cı ilin Aprel, 2018-ci ilin Günnüt döyüşlərində özünü göstərdi. Ordumuzun zəfəri ilə bitən hər iki döyüşdə hərbi qulluqçularımızın qəhrəmanlığı, mərdliyi düşmənə gücümüzü göstərdi. Bu döyüşlər Azərbaycan Ordusunun istənilən tapşırığı yerinə yetirməyə qadir olduğunu bir daha təsdiqlədi.

Azərbaycan Prezidenti yürütdüyü siyasətlə sülh tərəfdarı olduğunu dünyaya dəfələrlə nümayiş etdirsə də, işğalçı Ermənistanın terrorçu rəhbərliyi öz çirkin əməllərindən əl çəkmir, hətta ölkəmizi təxribatlara çəkən məkrli oyunlar oynayırdı.

Hakimiyyət dəyişikliyindən sonra baş nazir postuna oturan Nikol Paşinyan isə öncə Dağlıq Qarabağ münaqişəsinin sülhlə həlli istiqamətində addımlar atacağı ilə bağlı fikirlər səsləndirsə də, bir müddət sonra Koçaryan-Sarkisyan rejiminin "siyasi xəttini" davam etdirməyə başladı. Hətta "Qarabağ Ermənistandır" sərsəm fikrini səsləndirib, qədim qalamız olan Şuşada Azərbaycan xalqını təhqir edən hərəkətlərlə səbir kasamızı daşdırdı.

Sentyabrın 27-də Ermənistan silahlı birləşmələri bütün cəbhəboyu ərazilərdə yenidən təxribata əl atdı. Ali Baş Komandan isə illərlə gözlənilən hücum əmrini verdi və "Dəmir yumruq" əməliyyatı ilə Vətən savaşı başladı.

Xalqa müraciətində Ali Baş Komandan bəyan etdi ki, biz öz torpaqlarımızda vuruşuruq, erməni əsgəri Azərbaycan torpaqlarını tərk etməyincə əməliyyatlar dayanmayacaq. Sülh danışıqları isə o zaman başlaya bilər ki, Ermənistan rəhbərliyi ordusunun torpaqlarımızdan nə zaman çıxması ilə bağlı Azərbaycana təqvim planı təqdim etsin. Əks təqdirdə düşmən məhv ediləcək.

Ali Baş Komandanın xalqa müraciətindəki mətinlik, qətiyyət onu göstərdi ki, cənab İlham Əliyev güclü ordusuna və arxasında dayanan Azərbaycan xalqına güvənir. Xalq isə hər zaman olduğu kimi, öz liderinə arxalanır və qələbə müjdəsini səbirsizliklə gözləyirdi ki, bu da çox çəkmədi.

Müzəffər Ali Baş Komandanın "Dəmir yumruq" əməliyyatını uğurla icra edən Azərbaycan Ordusu cəmi 44 günə düşməni diz çökdürdü. Azərbaycan Ordusunun hər döyüşü qəhrəmanlıq dastanına çevrildi. İgid Azərbaycan oğulları şərəfləri ilə ən böyük tariximizi yazdılar, qanları, canları bahasına, heç nədən qorxmadan, çəkinmədən, ölümün gözünə dik baxaraq xalqın 30 illik həsrətinə son qoydular.

Hər bir xalqın tarixində xilaskar rolunu oynayan liderlər cəsarət nümayiş etdirir və adını əbədi olaraq dövlətinin şanlı tarixinə yazdırır. Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, xalqın 30 illik həsrətinə son qoyan Ali Baş Komandan İlham Əliyev məhz həmin liderlərdən biridir. Çünki məhz cənab İlham Əliyevin Sərkərdəliyi ilə çoxlarının qeyri-mümkün hesab etdiyi Qarabağ münaqişəsi cəmi 44 günə həll olundu. Uzun illər dünya dövlətlərinin əksəriyyətinin himayə etdiyi işğalçı Ermənistan Prezident İlham Əliyevin hərbi-siyasi diplomatiyası qarşısında diz çökdü.

Məhz cənab İlham Əliyevin diplomatik məharətinin nəticəsində Ermənistan illərlə möhkəmləndiyi, "keçilməz" istehkamlar qurduğu Ağdamı, Laçını, Kəlbəcəri bir güllə atılmadan Azərbaycana qaytardı. Bu, Ali Baş Komandan və qətiyyətli Lider prinsipiallığının, cəsarətinin təntənəsi idi.

Şanlı Zəfərlə Prezident İlham Əliyevin adı tariximizə qızıl hərflərlə yazıldı, dövlət başçısı bir daha alternativsiz Lider olduğunu isbatladı.

## Qarabağ və Şərqi Zəngəzurda misli görünməyən quruculuq işləri, aparılan sülh danışıqları

İşğal altında olan torpaqlarımızı "dəmir yumruq"la azad edən Ali Baş Komandan indi dəmir iradə ilə qədim yurdumuzu həm yenidən qurur, həm də sülh danışıqlarında Azərbaycanın qətiyyətli mövqeyini, milli maraqlarını müdafiə edən prinsipiallıq nümayiş etdirir. Yəni Prezident İlham Əliyev hər iki istiqamətdə atdığı addımlarla yenə də diqqətləri cəlb edir.

Azərbaycanın yalnız öz gücünə, heç kimdən maliyyə yardımı almadan Qarabağ və Şərqi Zəngəzuru yenidən qurması ölkənin iqtisadi qüdrətinin göstəricisi, Prezident İlham Əliyevin sülh danışıqlarında sərgilədiyi mövqeyi isə qətiyyətin təntənəsi adlandırmaq olar.

Prezident İlham Əliyev bütün şəhər və qəsəbələrin, rayonların, kəndlərin baş planını təsdiq edir və aparılan tikinti-quruculuq işləri ilə şəxsən maraqlanır. İşğaldan azad edilən ərazilərimizə Qalib Sərkərdə kimi səfər edərək düşmənə gözdağı verir.

İşğal dövründə düşmənin darmadağın etdiyi bu ərazilərdə su-elektrik stansiyaları, elektrik enerjisi stansiyaları, hava limanları, dəmir yolu xətləri, avtomobil yolları, körpülər, tunellər, magistral su xətləri, müasir yaşayış kompleksləri tikilir, sosial-iqtisadi infrastrukturlar, sənaye parkları və aqroparklar yaradılır. Son iki ildə işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin aparılmasına ümumilikdə 4 milyard 870 milyon manat vəsait ayrılıb. Gələn ilin dövlət büdcəsindən isə bu məqsədlə 3 milyard manat vəsaitin ayrılması planlaşdırılır.

İşğaldan azad edilmiş torpaqlarımızda mədəni-dini irsimizi xalqa yenidən qaytarmaq missiyasında Prezident İlham Əliyevlə yanaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da fəaliyyəti xüsusi vurğulanmalıdır. Artıq xeyli müddətdir ki, Mehriban xanım Əliyevanın göstərişi ilə 30 ilə yaxın düşmən tapdağında qalan, dağıdılan, məhv edilən, təhqir olunan, murdarlanan dini abidələrimizin, məscidlərimizin yenidən həyata qaytarılması prosesinə başlanıb. İndiyə qədər minlərlə abidəyə nəfəs verən Heydər Əliyev Fondunun budəfəki layihəsi Qarabağdakı dini irsimizin, məscidlərimizin bərpasına həsr olunub.

Ümumiyyətlə, Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəni və dini abidələrin qorunub saxlanması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Bu gün isə qürur hissi ilə deyə bilərik ki, Heydər Əliyev Fondu qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpasını həyata keçirməklə tariximizə çox böyük töhfə verir.

Ümumiyyətlə, cənab İlham Əliyevin fəaliyyətinin uğurlarını təmin edən bir neçə mühüm faktor var. Bunlar Prezidentin şəxsi bacarığı, qabiliyyəti və eyni zamanda ən yaxın silahdaşı, çiyindaşı Mehriban xanım Əliyevanın xidmətləri ilə bağlıdır. Birinci vitse-prezidentin yürütdüyü siyasət Prezident İlham Əliyevin fəaliyyətinə böyük dəstəkdir. Bu gün Mehriban xanım Əliyevanın həyata keçirdiyi layihələr həm dövlət quruculuğu prosesinə dəstəkdir, həm də Prezidentin fəaliyyətinə xalq inamını möhkəmləndirən vasitədir.

Hazırda Azərbaycan sülh müaviləsinin imzalanması üçün danışıqlara hər zaman hazır olduğunu bəyan edir və Ermənistanın da qurtuluş yolunu bunda görür.

Azərbaycan və Ermənistan liderlərinin Brüsseldə keçirdikləri 4 görüş, Avropa Siyasi Birliyinin Praqa Zirvə Toplantısı çərçivəsində reallaşan dördtərəfli görüş tərəfləri sülh müqaviləsini imzalamağa bir qədər də yaxınlaşdırdı. Bir gündə 5 saatdan artıq keçirilən iki görüş əvvəlkilərdən xüsusi ştrixləri ilə fərqləndi.

Prezident İlham Əliyevin bu görüşə qədər əldə etdiyi diplomatik uğurlarının nəticəsi olaraq bir sıra mühüm razılaşmalara gəlindi. Ən əsası isə odur ki, yekunda qəbul edilmiş bəyanata əsasən, Ermənistan Qarabağ üzərində Azərbaycanın hakimiyyətini tanıdığını bir daha təsdiqlədi. Qəbul edilmiş bəyanat da isbat etdi ki, danışıqlar tam olaraq rəsmi Bakının diktəsi fonunda keçib və sənəd Azərbaycanın istəklərinə uyğun formada qəbul olunub. Belə ki, Azərbaycan və Ermənistan bir-birilərinin ərazi bütövlüyü və suverenliyini tanıdılar və bu xüsusda BMT Nizamnaməsi əsas sənəd kimi götürüldü. Faktiki olaraq bu həm də o deməkdir ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bu, özlüyündə tarixi məsələdir. Ona görə də bu bəyanatın Praqa toplantısında verilməsi və qarşılıqlı ərazi bütövlüyünün Azərbaycan, Ermənistan, Fransa, Avropa İttifaqı Şurasının iştirakı, Avropanın demək olar, bütün siyasi rəhbərlərinin şahidliyi ilə vurğulanması böyük tarixi hadisədir.

Digər tərəfdən, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması, sülh müqaviləsinin imzalanması prosesində Avropa İttifaqınının tərəf tutmadan ədalətli yanaşması önəmlidir və Azərbaycan bunu alqışlayır.

Ümumiyyətlə, Azərbaycan Avropa İttifaqının Cənubi Qafqazda ən önəmli iqtisadi tərəfdaşıdır. Xüsusilə, dünyada enerji böhranın yaşandığı bir dövrdə Avropanın enerji təhlükəsizliyinin təmin olunması baxımından dəstəyi, eyni zamanda yaxın gələcəkdə Azərbaycanın Aİ ilə daha sıx əməkdaşlığına işarə edir. Bu, eyni zamanda Avropa İttifaqı ilə münasibətlərin gələcəkdə yalnız enerji sahəsində əməkdaşlıqla kifayətlənməyəcəyini göstərir, çünki təmasların artması, qarşılıqlı etimadın güclənməsi həm Prezident İlham Əliyev, həm də Avropa İttifaqı rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir. Bu, mahiyyət baxımından Azərbaycan-Avropa İttifaqı münasibətlərində yeni mərhələnin başlanması deməkdir.

Göründüyü kimi, artıq Avropa ölkələrinin liderləri də İlham Əliyevi dünyanın aparıcı siyasətçiləri sırasında öz sözü, qətiyyətli mövqeyi olan dövlət başçısı və vədinə sadiq etibarlı tərəfdaş kimi qəbul etdirlər. Bu da bir daha onu deməyə əsas verir ki, İlham Əliyev qlobal təşəbbüsləri ilə Avrasiyanın enerji siyasətinə mühüm töhfələr verir. Avropanın əksər ölkələri isə İlham Əliyevin müstəqil mövqeyi olan Prezident kimi fəaliyyətini çox yüksək dəyərləndirirlər.

*Bir sözə, Praqa görüşlərində sülh prosesinə artıq təkan verildi. Bu, əlbəttə ki, bir daha sübut edir ki, Prezident İlham Əliyev hər zaman milli maraqlarımızı qətiyyətlə təmin edir və uzaqgörən qərarları ilə tarixinin ən qüdrətli Azərbaycanını böyük qürurla, fəxarətlə daha möhtəşəm gələcəyə aparır.*

**Səttar MÖHBALIYEV,**
***Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***

# Yüksəliş, quruculuq və qələbə

Artıq iki ilə yaxındır ki, xalq və dövlət olaraq müasir tariximizin ən şərəfli və qürurdoğuran dövrünü yaşayırıq. Çünki 44 günlük müharibənin nəticəsi olaraq ərazi bütövlüyümüzü bərpa etdik, məğlubiyyət damğasını üzərimizdən həmişəlik götürdük.

Hünər meydanında güc yolu ilə torpaqlarımızın işğaldan azad olunmasını təmin edən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev indi Qarabağa və Şərqi Zəngəzura yeni həyat bəxş edir. Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işlərinin timsalında isə bütün dünya bir daha möhtərəm İlham Əliyevin yenilməz qətiyyətinə, quruculuq əzminə, dövlətimizin gücünə, xalqımızın iradəsinə şahidlik edir.

Torpaqlarımız işğal altında olanda da, Azərbaycan xalqı heç vaxt ümidlərini itirmədi. Günlərin birində ərazilərimizin azad ediləcəyinə olan inam heç vaxt bizi tərk etmədi. Bu inamı yaşadan, onu itməyə qoymayan isə Ulu Öndər Heydər Əliyevlə başlanan və möhtərəm İlham Əliyevlə davam edən siyasi kurs idi. Heydər Əliyev Azərbaycanı parçalanmaqdan xilas etdi, müstəqilliyimizi qorudu, müasir dövlətçiliyimizin sarsılmaz əsaslarını formalaşdırdı. Ədalətsizliyin baş alıb getdiyi, beynəlxalq hüququn yox, gücün və hegemonluğun rol oynadığı bir dünya nizamında Ulu Öndər Azərbaycanı beynəlxalq münasibətlərin bərabərhüquqlu üzvünə çevirdi, sosial-iqtisadi tənəzzülə son qoyaraq respublikamızı inkişaf yoluna çıxardı.

2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə xalqımızın yüksək etimadını qazanan Prezident İlham Əliyev isə Heydər Əliyev yolunu layiqincə davam etdirməklə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirdi.

Bu gün həmin tarixdən 19 il ötür. Bu illər bir dövlətin tarixində böyük zaman kəsiyi deyil. Amma bu dövrdə Azərbaycanın əldə etdiyi nailiyyətlər, keçdiyi inkişaf yolu neçə-neçə onilliklərə bərabərdir. Tarixi təcrübə göstərir ki, Avropanın, Amerikanın, Asiyanın inkişaf etməkdə olan dövlətləri bugünkü iqtisadi göstəricilərinə gəlib çatmaq üçün 50-100 ilə yaxın məsafə qət etmişlər. Amma onların getdikləri yolu Azərbaycan cəmi 15-16 ilə keçib. Cənab İlham Əliyevin ölkəmizə rəhbərliyinin ən mühüm məqamlarından biri Azərbaycanın iqtisadi yüksəlişidir. Bu inkişafı təmin etmək üçün Prezident İlham Əliyev ilk növbədə Ulu Öndərin müəllifi olduğu yeni neft strategiyasını layiqincə davam etdirdi. Bu sahədə erməni lobbisinin, antiazərbaycançı şəbəkənin təzyiqlərinin qarşısını qətiyyətlə alan Prezident İlham Əliyevin yenilməz iradəsi sayəsində Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin inşasının başa çatdırılmasından sonra tarixdə ilk dəfə Xəzərin karbohidrogen ehtiyatlarının alternativ nəql marşrutları ilə dünya bazarlarına çıxarılması təmin olundu. Neft-qazdan əldə olunan gəlirlər isə effektiv şəkildə iqtisadi tərəqqiyə, qeyri-neft sektorunun inkişafına yönəldildi. İlham Əliyevin inkişaf strategiyasının, müəllifi olduğu mütərəqqi islahatların, düşünülmüş dövlət proqramlarının nəticəsi olaraq ölkəmizin dörd bir yerində iqtisadiyyatın bir vaxtlar hətta əlçatmaz görünən tərəfləri inkişaf etdirildi. Bütün bunların nəticəsində Azərbaycan həm də müxtəlif vaxtlarda yaranan qlobal iqtisadi böhranların, o cümlədən pandemiyanın mənfi təzahürlərindən uğurla çıxa bildi.

Möhtərəm İlham Əliyevin yürütdüyü siyasətin nəticəsi olaraq Azərbaycan ötən 19 ildə beynəlxalq mövqelərini də əhəmiyyətli dərəcədə möhkəmləndirib. Uzun illərdir ki, regionda lider olan, bütün məsələlərdə aparıcı mövqedə dayanan dövlətimiz beynəlxalq enerji təhlükəsizliyinin söz sahiblərindən biridir. Bu il oktyabr ayının 1-də Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılışı isə göstərdi ki, hazırkı gərgin beynəlxalq münasibətlər şəraitində belə Prezident İlham Əliyev Azərbaycanın milli maraqlarını qətiyyətlə təmin edir. Qeyd etdiyim Qaz İnterkonnektoru vasitəsilə Azərbaycan "Cənub qaz dəhlizi" ilə Avropa İttifaqı ölkələrinə ixrac etdiyi təbii qazın həcmini artıracaq.

Ümumiyyətlə, indiyə qədər bütün həyata keçirilən enerji layihələri ondan xəbər verir ki, Azərbaycan özünün enerji siyasəti ilə bağlı nəyi planlaşdırıbsa, hər birinə qətiyyətlə nail olub. Enerji təhlükəsizliyi ilə bağlı qlobal proseslərin hazırkı gedişatı Prezident İlham Əliyevin yeni keyfiyyət mərhələsinə yüksəltdiyi Azərbaycanın enerji siyasətinin nə qədər düşünülmüş və nə qədər uzaqgörən olduğunu göstərir.

Mənim üçün həm də qürurvericidir ki, vaxtilə prezident seçkiləri kampaniyası dövründə möhtərəm İlham Əliyevin vəkili kimi fəaliyyət göstərmişəm. Həmin vaxtlarda yerlərdə seçicilərlə keçirilən görüşlər zamanı mən hər zaman xalqımızın cənab İlham Əliyevə böyük etimadının, inamının, Heydər Əliyev yoluna sədaqətinin şahidi olurdum. Bəli, bir lider üçün xalqın sevgisindən böyük nə ola bilər? Eyni zamanda seçkilərdə vəkil kimi fəaliyyətim mənə göstərilən böyük etimad idi.

Cənab İlham Əliyevin respublikamıza rəhbərliyinin əsas məqamlarından biri torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı ilk gündən yürütdüyü qətiyyətli siyasət oldu. Yaxşı xatırlayırıq ki, İlham Əliyev həm də çıxışlarında onu bəyan edirdi ki, sülh danışıqları baş tutmayacağı təqdirdə torpaqlarımız müharibə yolu ilə işğaldan azad olunacaq. Bu baxımdan 44 günlük Vətən müharibəsi hər zaman verdiyi sözün, vədinin üzərində layiqincə dayanan Prezident İlham Əliyevin qətiyyətinin və milli maraqlara sədaqətinin ən böyük təntənəsi oldu. Bu savaşda möhtərəm İlham Əliyev yalnız Ermənistana deyil, həm də onun havadarlarına, dünya erməniliyinə qalib gəldi. Müharibə günlərində xalqımız və dünya ictimaiyyəti bir daha İlham Əliyevin yüksək liderlik keyfiyyətlərinə və vətənpərvərliyinə şahidlik etdi. Bu savaş həm də onu göstərdi ki, Azərbaycan xalqı öz rəhbərinin ətrafında sıx səfərbər olub və heç bir qüvvə bunu sarsıda bilməz.

İndi Qarabağ və Şərqi Zəngəzur böyük tikinti meydanını xatırladır. Bu torpaqları azad edən İlham Əliyev onları həm də bərpa edir, yenidən qurur. Qısa müddətdə azad edilmiş ərazilərdə həyata keçirilən layihələrin miqyası heyrət doğurmaya bilmir. Beləliklə, İlham Əliyevin qətiyyətli siyasəti və yenilməz iradəsi indi azad olunmuş ərazilərimizin sürətli bərpasının fonunda, həmçinin Ermənistanın sülhə məcbur edilməsində, Azərbaycanın ərazi bütövlüyünü tanımasında özünü təcəssüm etdirir.

Budur İlham Əliyev siyasəti, budur İlham Əliyevin vətənpərvərliyi. Belə lideri olan xalq isə ən yüksək ehtirama layiqdir.

**Novruzəli ASLANOV,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti***



# Müxalifətdən Prezidentə tam dəstək:

# "İlham Əliyev şəriksiz liderdir"

Bu gün İlham Əliyevin respublikamıza ilk dəfə prezident seçilməsindən 19 il ötür. Dövlət başçısının bu illər ərzində həyata keçirdiyi müdrik, düşünülmüş, müstəqil siyasəti, qətiyyəti Azərbaycanın qüdrətli dövlətə çevrilməsini təmin edib. Torpaqlarımızın işğaldan azad olunması isə İlham Əliyevin fəaliyyətinin şah əsəridir.

Dövlət başçısının uğurlu fəaliyyəti ölkənin müxalif partiya mənsubları tərəfindən də yüksək qiymətləndirilir.

Milli Məclisdə təmsil olunan müxalifət partiyalarının sədrləri mövzu ilə bağlı fikirlərini qəzetimizlə bölüşüblər.

## Düzgün siyasət Azərbaycanı dünyada strateji mövqeyə malik ölkəyə çevirib

**Asim MOLLAZADƏ,**
*Demokratik İslahatlar Partiyasının sədri, Milli Məclisin deputatı:*

- Prezident İlham Əliyev Azərbaycanın yeni strateji sistemini yaradaraq, inkişaf edən iqtisadiyyatımız əsasında Silahlı Qüvvələrimizi gücləndirərək torpaqlarımızı işğaldan azad etdi. İlham Əliyev artıq iki əvvəl Müzəffər sərkərdə kimi adını tarix ilk kitablarına yazdırdı. Dövlət başçısının "Qarabağ Azərbaycandır!" ifadəsi ərazilərimizin işğaldan azad edilməsinə və bizi qalib millətə çevirməyə vəsilə oldu. Ali Baş Komandan dünyanın, beynəlxalq təşkilatların 30 il ərzində həll edə bilmədiyi Qarabağ problemini cəmi 44 gündə rəşadətli ordumuzun gücü, qüvvəsi ilə həll etdi. Bu, xalqımızın qürurunun, şərəfinin, inamının özünə qaytarılması idi. Onun liderliyi altında Azərbaycan BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş, amma icra edilməmiş dörd qətnaməsinin tələblərini təkbaşına yerinə yetirdi. Beləliklə, məğlub Ermənistan kapitulyasiya aktına qol çəkməyə məcbur oldu.

Müharibədən sonrakı iki ildə də ölkəmizin rəhbəri sülh prosesinin tezləşməsi, regionda sülhün, əmin-amanlığın yaranması üçün əməli addımlar atır. Bütün çıxışlarında qətiyyətli mövqeyini sərgiləyən İlham Əliyev yalnız Azərbaycanın milli maraqlarına uyğun, 5 baza prinsipi əsasında sülh müqaviləsi bağlamağın mümkünlüyünü, Ermənistanın bundan başqa yolu olmadığını daim xatırladır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatlar Azərbaycanın müasir dövlət kimi inkişaf prosesini sürətləndirdi. Respublikamızın inkişafı üçün bu gün də hər bir iş görülür və ümid edirəm ki, islahatlar prosesi uğurla davam edəcək, bu istiqamətdə davamlı zəruri addımlar atılacaq.

Azərbaycan son illərdə dünya tərəfindən etibarlı tərəfdaş kimi qəbul edilib, onun nüfuzu dəfələrlə artıb. Eyni zamanda ölkədə idarəetmə sistemində dəyişikliklər olub, sosial istiqamətdə uğurlu addımlar atılıb. İqtisadiyyatda, xüsusən vergi siyasətində çox ciddi struktur dəyişiklikləri həyata keçirilib. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi, neft və qaz sahəsindən asılılığın azaldılması üzərində də ciddi işlər görülür.

Prezident İlham Əliyev böhranlı vəziyyətlərdə operativ və effektiv qərarlar qəbul edərək doğru siyasət yürüdür. Bunu düzgün, düşünülmüş xarici siyasət aspektində də görmək mümkündür. Bununla da Azərbaycan, xüsusən, Avropa İttifaqı ölkələrinin etibarlı tərəfdaşına çevrilib.

Ötən illər ərzində Azərbaycanda həyata keçirilən mühüm tədbirlər, eyni zamanda dövlət başçısının qətiyyətli mövqeyi, düzgün siyasəti, Vətən müharibəsindəki şanlı qələbəmiz ölkəmizi dünyaya daha da yaxından tanıdıb.

Artıq hər kəs anlayır ki, regionda yeni reallıqlar var və Azərbaycan regionun aparıcı dövlətidir. Bu isə məhz İlham Əliyevin vaxtında və yerində verilmiş qərarlarının, müdrik siyasətinin nəticəsidir.

## 19 ilin şərəfli salnaməsi

**Fazil MUSTAFA,**
*Böyük Qurtuluş Partiyasının sədri, Milli Məclisin deputatı:*

- İlham Əliyevin prezident seçilməsi, əslində, Azərbaycan tarixində yeni bir dönəmin başlanğıcı idi. Bəzən xalqların tarixində belə bir gerçəklik üzə çıxır ki, hansısa milli məsələnin həlli üçün məhz o problemin daha dərindən bilicisi, onun həllinə yönəlik platforması olan tarixi şəxsiyyətə ehtiyac yaranır. Azərbaycanın da bu tarixi dönəmində uzun illər, bəlkə də yüz il həll edə bilməyəcəyimiz Qarabağ probleminin həlli İlham Əliyevin üzərinə düşdü. Bu, həm böyük məsuliyyət, həm də böyük şərəf idi. Tarixin qiymətləndirilməsi baxımından 19 illik hakimiyyətin ən böyük nəticəsi Qarabağın işğaldan azad olunmasıdır.

Digər sahələrdə də Azərbaycanda böyük irəliləyişlər oldu. Bu illərdə ən böyük qazanc ölkəmizin bölgədə sabitlik adasına çevrilməsidir. Bunu da İlham Əliyev etdi. Bunda əsas məsələ və gələcəkdə Qarabağ probleminin həlli üçün vacib olan təməl prinsiplərdən biri sabitliyin qorunması idi. Bunun üçün xarici siyasətdə balansı gözləmək, böyük dövlətlərlə münasibəti doğru qurmaq lazım idi. Müdrik İlham Əliyev bunu da bacardı.

Daxili siyasətdə tam həllini tapmayan müəyyən məsələlər istiqamətində də işlər gedir. Amma xarici siyasətin düzgün qurulması məhz daxili siyasətin də müəyyən dərəcədə sabit məcrada mövcudluğunu qorudu. Qarabağla bağlı məsələ ortaya çıxanda Ermənistanda siyasi böhran prosesi baş versə də, Azərbaycan ən sabit ölkələrdən biri oldu. Budur məsələnin uğurlu həlli.

İlham Əliyevin 19 illik hakimiyyəti illərində həyata keçirilən islahatlar, struktur dəyişikliklər, ölkə həyatında mədəni, iqtisadi, siyasi xarakterli irəliləyişlər təhlillərlə ölçüləcək. 19 illik hakimiyyətin şərəfli salnaməsinin zirvəsi isə Qarabağın işğaldan azad olunmasıdır. Tariximizin ən qürurlu səhifəsini yazmaq məhz İlham Əliyevə nəsib oldu. Bundan böyük xoşbəxtlik təsəvvür edə bilmirəm, çünki bu, hamımız üçün, sanki bir millət olaraq qırışıqlığın açılması, belin dikəlməsi idi. Bütün problemlərin üstündə Qarabağın işğaldan azad olunması məsələsi dururdu və buna nail olunması 19 illik hakimiyyətin ən böyük, şərəfli işi sayılmalıdır.

## Müzəffər Ali Baş Komandan

**Tahir KƏRİMLİ,**
*Vəhdət Partiyasının sədri, Milli Məclisin deputatı:*

- İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən 19 il ötür. Bu illər ərzində cənab Prezident öz fəaliyyəti ilə hətta əvvəllər ona qarşı əks mövqedə dayanan insanların düşüncələrində belə çevriliş etdi. Son yüz ildə Azərbaycan tarixində həm dövlət başçısı, həm Müzəffər Ali Baş Komandan, sərkərdə kimi ikinci şəxs göstərmək çətin ki, mümkün olsun. Dünyada da İlham Əliyevi yaxşı tanıyır, haqqında xoş sözlər deyirlər.

Bu illər ərzində Azərbaycan iqtisadiyyatı inkişaf etdi, ölkəmizin nəqliyyat şəbəkəsi quruldu və yaxşılaşdırıldı, gəmiqayırma, neft-kimya sənayesi, kənd təsərrüfatı yüksəldi. Təyyarə parkımız ciddi dəyişdi, beynəlxalq aeroportlar tikildi, neftdən gələn gəlirlər digər sahələrin inkişafına yönəldildi. Azərbaycanda makroiqtisadi göstəricilər yaxşılaşdı. Bu gün Azərbaycanın 55 milyard dollar valyuta ehtiyatı var. Bunların hamısının başında gələn isə Qarabağın işğaldan azad olunması ilə nəticələnən böyük qələbəmiz dayanır. Bu qələbəni isə cənab Prezidentin diplomatik qabiliyyəti möhkəmləndirdi.

İlham Əliyev Prezident kimi özünü təsdiq edib və hər kəs onu qəbul edir. Görülən böyük işləri görməzdən gəlmək mümkün deyil. Ölkəmizdə müxtəlif sahələrin inkişafına xüsusi diqqət yetirilir. İslahatlar bundan sonra da davam edəcək. Cənab Prezidenti təbrik edir və işlərində uğurlar arzulayıram.

## Xalqımızın qürur mənbəyi

**Fəzail AĞAMALI,**
*Ana Vətən Partiyasının sədri, Milli Məclisin deputatı:*

- Yaşadığımız yüzilliyin əvvəllərində Azərbaycanın ictimai-siyasi həyatında kifayət qədər gərginlik və narahatlıqlar var idi. Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinə və milli dövlətçilik konsepsiyasına sadiq olanlar bu prosesdə aktiv şəkildə iştirak edir, 2003-cü il prezident seçkiləri ərəfəsində İlham Əliyevin ətrafında sıx birləşir, ölkə və xarici KİV-də böyük inamla onun təbliğatını aparırdılar. Bu baxımdan Ana Vətən Partiyası tərəfindən İlham Əliyevin fəaliyyətinin bütün tərəflərini əhatə edən 12 cildlik toplunun hazırlanıb, çap edilməsi cəmiyyətdə böyük coşqu ilə qarşılandı.

İlham Əliyevin üstün şəxsi keyfiyyətləri, yüksək intellekti və siyasi baxışlar sistemi onu parlaq siyasətçi və dövlət xadimi kimi önə çəkməkdə idi.

O, siyasi mühitimizə böyük perspektiv vəd edən, yeni və orijinal nəfəsilə fərqlənən, zəngin biliyi, yüksək səmimiyyəti və qətiyyəti ilə insanların rəğbətini qazanan XXI yüzilliyin lideri kimi parlamaqda idi: ilk növbədə dahi şəxsiyyət Heydər Əliyevin ideyalarına və əməllərinə sadiq , populizmdən uzaq, dövlət və milli maraqları üstün tutan, praqmatikliyi və əməlləri ilə. Əlbəttə ki, həm də yüksək insani keyfiyyətləri ilə fərqlənən lider kimi. Bütün bu keyfiyyətləri ilə seçilən İlham Əliyevi zaman və tarixi şərait formalaşdırıb önə çıxardı. 2003-cü ildə böyük bir məsuliyyəti və ağır yükü üzərinə götürərək, prezident seçkilərinə qatıldı, xalqımızın mütləq əksəriyyətinin səsini və etimadını qazanaraq dövlət başçısı seçildi. Qətiyyəti, prinsipiallığı, adi həyatda, insanlarla ünsiyyətdə sadə, səmimi və xeyirxahlığı, bütün varlığı, millətə bağlılığı ilə İlham Əliyev 19 ildə Azərbaycanı Cənubi Qafqazın lider dövlətinə çevirdi, ölkəmizin dinamik inkişafını təmin etdi, onun beynəlxalq nüfuzunu yüksək səviyyəyə qaldırdı.

İlham Əliyev həm də Müzəffər Ali Baş Komandan kimi xalqımızın qan yaddaşında və tarixində əbədiləşdi. Qətiyyətli sərkərdə, mahir diplomat kimi 44 günə himayədarlarının hərtərəfli dəstək və köməyini alan erməni faşizminə qəhrəman Silahlı Qüvvələrimizlə, formalaşdırdığı vətənpərvər cəmiyyətlə sarsıdıcı zərbələr vurdu, erməni işğalına son qoydu, xalqımıza qələbə sevincləri bəxş etdi. Artıq biz dünyada ləyaqətli millət, qalib dövlət kimi tanınırıq.

İlham Əliyevin liderlik keyfiyyətləri artıq onu Azərbaycan hüdudlarından çıxararaq dünya liderləri arasında nüfuzlu şəxsiyyətə qədər yüksəldib. Müasir dünya düzənində milli iftixarımız olan İlham Əliyev XXI yüz ilin nadir tarixi şəxsiyyətlərindən və liderlərindən biri kimi 50 milyonluq xalqımızın qürur mənbəyidir. İlham Əliyevin möhtəşəm addımlarının uğurlu nəticələri isə hələ çox olacaq.

## İlham Əliyev Azərbaycanı zəfər bayrağı yüksəldən bir ölkəyə çevirdi

**Razi NURULLAYEV,**
*Milli Cəbhə Partiyasının sədri, Milli Məclisin deputatı:*

- Prezident İlham Əliyevin Azərbaycan qarşısında xidmətlərini danmaq mümkün deyil. Siyasi baxışlardan asılı olmayaraq bunu etiraf etmək lazımdır. Son 200 ildə Azərbaycanın dövlət başçılarından heç kim itirilmiş torpaqlarımızı qaytarmamışdı. İlham Əliyevin komandanlığı altında Zəfər bayrağı daşıyan bir millətə çevrildik. Bu, böyük tarixi hadisədir.

Biz bütün platformalarda, dünyada ölkəmizə qarşı dəyişən xoş münasibəti görürük. Prezident İlham Əliyev dünya rəhbərləri ilə görüşlərdə xüsusi ehtiram göstərilən lider kimi qarşılanır, haqqında digər ölkələrin prezidentləri xoş söz söyləyir, tərif deyirlər. Açığını deyim ki, bu, mənim qəlbimi Azərbaycan adına fəxrlə doldurur.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***



# Möhtəşəm tarixi uğurlarımızın müəllifi

**Azərbaycan xalqı dövlət müstəqilliyinin bərpasının 31-ci ildönümünün astanasındadır. Bu dövrdə çox tarixi, eləcə də gərgin hadisələrlə üzləşdik. Hətta 1993-cü ildə müstəqilliyimizi itirmək təhlükəsi ilə üz-üzə qalmışdıq. Həmin dövrdə Azərbaycanı Heydər Əliyev dühası qorudu, xilas etdi. Ulu Öndər qurtuluş missiyasını öz üzərinə götürərək dövlətimizi və müstəqilliyimizi bütün təhlükələrdən xilas etdi.**

Heydər Əliyev öz müdrik siyasəti ilə müasir və müstəqil Azərbaycan dövlətini yaratdı, onu beynəlxalq birliyin tamhüquqlü üzvünə çevirdi. Məhz Ulu Öndərin sayəsində Azərbaycan tənəzzüldən qurtularaq, inkişaf yoluna qədəm qoydu. Məhz Heydər Əliyevin uzaqgörənliyi ilə dünyanın tanınmış neft şirkətləri Azərbaycanda neft sənayesinə sərmayə yatırdılar və bu gün dönüb tarixə nəzər salanda Heydər Əliyev dühasının böyüklüyünü daha dərindən anlayırıq. Heydər Əliyev şəxsiyyətinin böyüklüyü həm də onda idi ki, o, dövlət quruculuğu prosesinin ardıcıllığını təmin edəcək əsasları da formalaşdırdı. Ulu Öndər cənab İlham Əliyevin şəxsində Azərbaycanın müstəqilliyinin, ölkəmizin sosial-iqtisadi, mədəni yüksəlişinin daimliyini, dönməzliyini təmin edəcək layiqli davamçısını müəyyənləşdirdi.

Ümummilli Lider Heydər Əliyev 2003-cü il oktyabrın 1-də xalqımıza etdiyi müraciətdə demişdir: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bu müraciətdən ötən 19 ildə Azərbaycanın sürətli inkişafı, torpaqlarımızın işğaldan azad olunması təsdiq edir ki, böyük öndər nə qədər haqlı imiş. Belə ki, xalqımız hələ ilk dəfə 2003-cü il oktyabr ayının 15-də keçirilən seçkilərdə cənab İlham Əliyevə etimad göstərməklə ən doğru və müdrik seçimini etdi. İnsanlar öz səslərini İlham Əliyevə verməklə həm də Heydər Əliyev ideyalarının davam etdirilməsini dəstəklədilər.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyinin ötən 19 ili müxtəlif və əzəmətli uğurlarla əlamətdardır. Bu illər ərzində möhtərəm Prezident dövlətçiliyimizi və müstəqilliyimizi möhkəmləndirib, sarsılmaz edib, Azərbaycanı qlobal məsələlərdə söz sahibinə çevirib. Təsadüfi deyil ki, bu gün enerji təhlükəsizliyi ilə bağlı məsələlərdə dünyanın aparıcı siyasi-iqtisadi dairələri ölkəmizlə hesablaşırlar. İndi Bakı dünyanın ən aktual problemlərinin həllinin müzakirə edildiyi siyasi mərkəz, beynəlxalq tədbirlər ünvanı kimi tanınır və belə uğurlar həm də Azərbaycanı beynəlxalq münasibətlər sisteminin ehtiram və etimad göstərilən dövlətləri sırasına çıxarıb. Bütün bunlar göstərir ki, əsası Ulu Öndər tərəfindən müəyyən edilmiş Azərbaycanın hərtərəfli inkişafı siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Heydər Əliyevin işıqlı ideyaları reallığa çevrilərək ölkəmizin hazırkı inkişafında, qazanılan böyük uğurlarda öz tarixi əksini tapır.

Ötən 19 ilin əsas uğurlarından biri Azərbaycanın iqtisadi inkişafı, qeyri-neft sektorunun yüksəlişi, regionların sürətli inkişaf yoluna çıxarılmasıdır. Bu dövrdə iqtisadiyyatımızın 3 dəfədən çox artması beynəlxalq təcrübədə rekord göstəricidir. Eyni zamanda bu fakt ona işarədir ki, qısa müddətdə keçdiyimiz inkişaf yolu bir neçə onilliyə bərabərdir. Təsadüfi deyil ki, gənc respublika olsaq da, inkişafımız dünyada nümunəyə çevrilib. Bu dövrdə 2 milyondan artıq yeni iş yerinin açılması regional inkişafdan xəbər verən əsas sosial-iqtisadi göstəricidir. Pandemiyanın yaratdığı çətinliklərə rəğmən islahatların, dövlət proqramlarının real nəticəsi olaraq bu gün Azərbaycanda iqtisadi inkişaf yenidən vüsət alır. 2022-ci ilin ötən dövründə ÜDM-nin artım tempi təsdiq edir ki, iqtisadi islahatlar bəhrəsini verir, Azərbaycan iqtisadiyyatı artım tempini bərpa edir.

Ölkədə əldə olunan müsbət makroiqtisadi göstəricilərdə kənd təsərrüfatının öz payı var. Çünki respublikamızda həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatının dinamik inkişafı üçün uzun müddətdir ki, münbit zəmin yaradılıb. 19 ildə aqrar sektorda əsaslı dəyişikliklər baş verib, yeni iqtisadi və mülkiyyət münasibətləri formalaşıb, normativ hüquqi baza təkmilləşdirilib. Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun sahə üzrə strateji hədəflərin və institusional dəyişikliklərin müəyyən edilməsi sahənin keyfiyyətcə yeni mərhələyə keçməsinin təməlini qoyub. Bu illər ərzində milli ərzaq təhlükəsizliyinin təminatı möhkəmlənib, daxili istehsal hesabına əhalinin əsas ərzaq məhsulları ilə təminatı səviyyəsi iki dəfəyə qədər artıb, meyvə-tərəvəz və bir sıra digər məhsulların tələbatdan artıq istehsal edilməsi bu məhsullar üzrə ixrac potensialını artırıb.

Sosial-iqtisadi nailiyyətlərlə yanaşı, Azərbaycanın qlobal enerji təhlükəsizliyi müzakirələrində aparıcı mövqe əldə etməsi, beynəlxalq tranzit qovşağına çevrilməsi, Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin ardınca Bakı-Tbilisi-Qars və "Cənub qaz dəhlizi" layihələrinin reallaşması, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin istifadəyə verilməsi, fəzaya 3 peykin göndərilməsi, habelə respublikamızın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, Bakının beynəlxalq tədbirlər məkanına çevrilməsi, "Avroviziya", I Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları kimi mötəbər yarışlara evsahibliyi, ölkəmizin Qoşulmama Hərəkatına hazırda davam edən sədrliyi Prezident İlham Əliyevin rəhbərliyinin geridə qalan 19 ilinin mühüm siyasi-iqtisadi və beynəlxalq uğurlarıdır. Dünyanın ən nüfuzlu siyasi liderləri ilə bir cərgədə dayanan Prezident İlham Əliyevin siyasi kursu Azərbaycanın qüdrətli dövlətə, regionda və dünyada söz sahibinə çevrilməsini təmin edib.

Azərbaycanın hər bir uğuru ölkə vətəndaşlarının öz rəhbərinə olan inamını daha da gücləndirib. Təsadüfi deyil ki, ötən hər prezident seçkisi seçicilərin mütləq əksəriyyətinin öz səslərini cənab İlham Əliyevə verməsi ilə əlamətdar olub. İnkişaf proseslərinin davamlı olmasını arzulayan vətəndaşlar hər dəfə seçkilərdə İlham Əliyevə dəstəyini nümayiş etdirib. Bu, Azərbaycanda cəmiyyətin mövcud siyasi kursa rəğbətinin və inamının real təsdiqi olmaqla bərabər, milyonların arzusunu, istəyini özündə ehtiva edib.

Fəxarət doğuran digər məqam isə Prezident İlham Əliyevin dünyada dərin analitik təfəkkürə və məqsədyönlü, düşünülmüş siyasi iradəyə malik lider kimi qəbul olunmasıdır. Qətiyyəti, diplomatik məharəti onu dünyanın nüfuzlu siyasi rəhbərləri cərgəsinə çıxarıb. Ona görə Azərbaycan Prezidentinin şəxsiyyəti bu gün beynəlxalq səviyyədə ehtiramla qəbul olunur. Dövlətimizin başçısının hadisələrə baxışı, münasibəti hər bir beynəlxalq tədbirin diqqətlə izlənilən məqamlarındandır. Məsələn, bu il oktyabr ayının 1-də Sofiyada Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimində Serbiya Prezidenti Aleksandar Vuçiçin, Bolqarıstan Prezidenti Rumen Radevin Prezident İlham Əliyev barədə söylədikləri dövlətimizin başçısının beynəlxalq miqyasda, nüfuzlu siyasi dairələrdə ehtiramla qəbul olunan siyasi lider olduğunu göstərir.

Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyinin ən əlamətdar hadisəsi isə əlbəttə ki, torpaqlarımızın işğaldan azad olunmasıdır. Məlumdur ki, Azərbaycan işğala məruz qalsa da, ATƏT-in Minsk qrupu, bir sıra beynəlxalq təşkilatlar əsl həqiqətləri dilə gətirməkdən daim uzaq oldular və dolayısı ilə Ermənistanın işğal siyasətinə dəstək verdilər, hətta ölkəmizə qarşı təzyiqlər də etdilər. Lakin cənab İlham Əliyev ilk gündən qətiyyətli siyasət yürütdü, birmənalı şəkildə Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin qurulmayacağını bəyan etdi. İkili standartlara, işğalçının müdafiə olunmasına qarşı böyük təmkin göstərən Prezident İlham Əliyev müdrik və uzaqgörən siyasəti ilə tədricən torpaqlarımızın işğaldan azad ediləcəyi tarixi də yaxınlaşdırdı. 2020-ci ilin 44 günlük Vətən müharibəsində isə bu tarixi missiyanı qətiyyətlə yerinə yetirməklə İlham Əliyev tariximizi şərəfləndirdi.

Vətən müharibəsindəki Zəfər, torpaqlarımızın işğaldan azad olunması Prezident İlham Əliyevin bir siyasi lider və Ali Baş Komandan kimi qətiyyətinin və böyüklüyünün təntənəsi oldu. İşğaldan azad edilmiş torpaqlarımızın bərpası və yenidənqurulması isə İlham Əliyev siyasətinin növbəti təntənəsi kimi tarixə düşəcək.

Bir neçə gün əvvəl Çexiyanın Praqa şəhərində Prezident İlham Əliyev, Fransa Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən görüş bir daha göstərdi ki, cənab İlham Əliyev Vətən müharibəsində qazanılan qələbəni indi siyasi-diplomatik sferada qətiyyətlə davam etdirir. Sülhə məcbur edilən Ermənistan artıq Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Mühüm məsələlərdən biri də odur ki, "Dağlıq Qarabağ münaqişəsi", "status" kimi ifadələrdən istifadə edilmir, Minsk qrupunun adı çəkilmir.

Azərbaycan Ağsaqqallar Şurası da bu dövrdə hər zaman Prezident İlham Əliyevin diqqət və qayğısını hiss etmişdir. Bu diqqət və qayğıdan irəli gələrək Ağsaqqallar Şurası ölkəmizin inkişafına, Prezidentimizin yürütdüyü siyasətə özünün layiqli töhfələrini verir. Ağsaqqallarımız dövlətçiliyimizin möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərimizin qorunması və təbliği, yeniyetmə və gənclərimizin Ulu Öndər Heydər Əliyev ideyalarına sədaqət və yüksək vətənpərvərlik ruhunda tərbiyə olunması kimi nəcib vəzifəni uğurla həyata keçirirlər.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev ölkəmizdəki inkişaf proseslərində ağsaqqalların fəaliyyətini həmişə yüksək dəyərləndirmişdir. İctimai-siyasi fəallığın təmin edilməsi üçün yaradılan hərtərəfli şəraitə, Azərbaycan Ağsaqqallar Şurasının yeni inzibati bina ilə təmin olunmasına görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə edən ağsaqqallar Prezident İlham Əliyevin ətrafında hər zaman səfərbərdirlər.

Xalqımız hələ ilk dəfə 2003-cü ildə cənab İlham Əliyevə etimad göstərəndə əmin idi ki, Heydər Əliyev ideyaları layiqincə davam etdiriləcək, Ulu Öndərin ölkəmizlə bağlı bütün arzuları gerçəkləşəcək. Budur, Azərbaycanın iqtisadi və sosial inkişafı, regionun lider dövlətinə çevrilməsi, torpaqlarımızın işğaldan azad olunması, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına geri dönüşü ilk növbədə Ulu Öndər Heydər Əliyevin arzularının həyata keçməsinin təcəssümüdür. Bütövlükdə, 19 ilin həqiqətləri təsdiq edir ki, Prezident İlham Əliyev xalqımızın möhtəşəm və tarixi uğurlarının müəllifidir.

**Eldar QULİYEV,**
***Milli Məclisin Hesablayıcı komissiyasının sədri, Azərbaycan Ağsaqqallar Şurasının sədri, professor***

# Qüdrətin rəmzi

**2003-cü il oktyabrın 1-də Azərbaycan dövlətinin memarı və qurucusu, bütün ömrünü Azərbaycan xalqının rifahına həsr etmiş Ümummilli Lider Heydər Əliyevin xalqa tarixi müraciəti oldu. Ulu Öndər Heydər Əliyev növbəti prezident seçkilərində öz namizədliyini İlham Əliyevin xeyrinə geri götürdüyünü bildirdi. Ulu Öndər çıxışında Azərbaycan xalqını özünün siyasi varisi, dünya siyasətini gözəl bilən, yüksək intellektli, qətiyyətli və praqmatik düşüncəli bir şəxsiyyət olan İlham Əliyevə səs verməyə çağırdı.**

Ulu Öndər İlham Əliyevə özü qədər inandığını, İlham Əliyevi güclü siyasətçi olmaqla yanaşı, dövlətini, xalqını sevən və lazım gələrsə, milləti yolunda canını belə verməyə hazır olan insan olduğunu bildirmişdi. Ulu Öndər bütün fəaliyyəti dövründə xalqa arxalanırdı və xalq da Heydər Əliyevə inanırdı. Xalqımız çox gözəl bilirdi ki, dövlətimizi gələcək inkişafa, vətəndaşlarımızı rifaha aparan yol Heydər Əliyev yoludur və İlham Əliyev bu siyasi kursun, bu yolun ən layiqli davamçısı olacaq. 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqının böyük əksəriyyəti prezident seçkilərində İlham Əliyevə səs verdi. Bu, Heydər Əliyev siyasi kursuna, İlham Əliyevə, böyük inama verilən səs idi. Xalqımız öz seçimində yanılmamışdı. Prezident cənab İlham Əliyev Azərbaycan dövlətini zirvələrə qaldırdı, dünyada söz sahibinə malik olan dövlətə çevirdi.

Prezident seçildiyi ilk illərdən etibarən cənab İlham Əliyev iqtisadiyyatda, səhiyyə, təhsil sistemində, ordu quruculuğunda böyük irəliləyişlərə nail oldu. Müasir, dünya standartlarına uyğun yüzlərlə xəstəxana, məktəblər inşa edildi. Gələcək nəsillərimizin sağlam böyüməsi, dünya idman arenalarında idmançılarımızın Azərbaycan bayrağını yüksəklərə qaldırması məqsədilə ölkəmizin demək olar ki, bütün regionlarında olimpiya idman kompleksləri inşa etdirildi.

Neft-qaz sənayesinin inkişafında cənab İlham Əliyev böyük layihələrə imza atdı. Trans-Anadolu, Trans-Adriatik qaz kəmərlərinin çəkilməsinə başlanıldı. Bununla da ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynamağa başladı. Xəzər dənizinin Azərbaycana aid olan sektorunda "Azəri", "Çıraq", "Günəşli" yataqlarının birgə işlənilməsi və pay bölgüsü haqqında yeni saziş imzalandı. Bununla da Azərbaycan həm də dünya enerji sənayesində həlledici rol oynadı.

Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilişi də məhz cənab İlham Əliyevin təşəbbüsü ilə reallaşdı. Bu dəmir yolu xətti Asiya və Avropanı birləşdirən bir nəqliyyat dəhlizi oldu. Bu gün Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə Asiyadan Avropaya və geriyə milyon tonlarla yük daşınır.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişi ilə Azərbaycan neftinin dünya bazarlarına çıxarılmasına nail olundu. Prezident İlham Əliyevin həyata keçirdiyi neft-qaz strategiyası, eləcə də yeritdiyi məqsədyönlü, müdrik xarici siyasət nəticəsində Avropa İttifaqı və bir çox Avropa dövlətləri ilə Azərbaycan arasında münasibətlər yeni mərhələyə qədəm qoymuşdur. Bu gün Avropa İttifaqı ilə Azərbaycan arasında istər siyasi, istərsə də iqtisadi sahələrdə sıx əməkdaşlıq əlaqələri mövcuddur. Bu gün "Cənub qaz dəhlizi" vasitəsilə Azərbaycanın təbii qazı Avropaya ixrac olunur.

Məhz Prezident İlham Əliyevin ölkə daxilində həyata keçirdiyi iqtisadi islahatlar, eləcə də güclü xarici siyasət nəticəsində Azərbaycan bu gün tək regionda deyil, beynəlxalq aləmdə nüfuzlu dövlətə çevrilmişdir.

Prezidentin ölkə iqtisadiyyatında qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirdiyi böyük layihələr Azərbaycan iqtisadiyyatının daha da gücləndirilməsinə təkan verdi. Cənab İlham Əliyev dövlət büdcəsini neft asılılığından azad etdi. Qeyri-neft sektorundan gələn gəlirlərin həcmi hər il artmaqdadır. Azərbaycan dünyada çox az dövlətlərdəndir ki, gəlirləri xarici borcları dəfələrlə üstələyir. Prezident İlham Əliyevin müəllifi olduğu iqtisadi islahatların uğurla həyata keçirilməsinin nəticəsidir ki, Azərbaycan artıq kredit alan yox, digər dövlətlərə kredit verən bir dövlətə çevrilmişdir.

Azərbaycanda elə bir sahə yoxdur ki, inkişaf etdirilməsin. Prezident seçildiyi ilk vaxtlardan cənab İlham Əliyev gənclərin sağlamlığına, təlim-tərbiyəsinə böyük diqqət ayırdı. Gənclərimiz sağlam olmaqla yanaşı, beynəlxalq yarışlarda Azərbaycan bayrağını qaldırıb, himnimizi səsləndirməklə ölkəmizi tanıtdırırlar. Dövlət başçımız hər zaman azərbaycanlı gənclərə inandığını bildirir. Bu gün gənc, istedadlı demokratik düşüncəli gənclərimizə böyük etimad göstərilir, onlar dövlət idarəçiliyində, icra orqanları strukturlarında rəhbər vəzifələrə təyin olunurlar.

Prezident İlham Əliyevin ölkəmizdə yaratdığı müasir nəqliyyat, logistika infrastrukturu sayəsində Azərbaycan "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat qovşağının mərkəzinə çevrilmişdir. Şərqlə Qərbi birləşdirən bu orta nəqliyyat dəhlizinə bir çox Avropa və Asiya dövlətləri böyük maraq göstərir. Artıq bu marşrut xətlərilə yükdaşımaların həcmi hər il artmaqdadır. Bu da tranzit ölkə olaraq Azərbaycan iqtisadiyyatına böyük gəlir gətirməklə yanaşı, Azərbaycan dövlətinin beynəlxalq aləmdə nüfuzunu artırır.

Prezident İlham Əliyevin xalqımızın qarşısındakı misilsiz xidmətlərindən bəhs edərkən demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda əldə olunan nailiyyətlər xüsusi vurğulanmalıdır. Cənab İlham Əliyev Azərbaycanda siyasi dialoqun əsasında milli həmrəyliyimizin təməlini yaratdı. Siyasi plüralizmin dəstəklənməsi çoxpartiyalı sistemin inkişafı, ölkəmizdə davamlı demokratik cəmiyyətin inkişafından xəbər verir.

Cənab İlham Əliyevin daxili və xarici siyasətinin prioritetini Azərbaycanın güclü dövlətə çevrilməsi və xalqın rifahının yaxşılaşdırılması, həyat səviyyəsinin yüksəldilməsi təşkil edir. İlham Əliyevin yeritdiyi müstəqil, balanslaşdırılmış siyasət nəticəsində Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. Beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıdı.

Azərbaycanın müstəqil parlamentarizm tarixində ilk dəfə olaraq 2020-ci ildə müxtəlif siyasi partiyalar qanunverici orqanın rəhbərliyində təmsil olundu. Milli Məclisin Sədr müavini, komitə sədri və müavinləri vəzifələrinə müxalif siyasi partiyaların nümayəndələri seçildi. Prezident İlham Əliyev ölkədə siyasi plüralizmin inkişafına böyük dəstək göstərir. Qərargahı olmayan 25 siyasi partiya üçün müvafiq yerlər ayrılmışdır. Ötən müddət ərzində 32 siyasi partiya qurultaylarını keçirmiş və nəticələri dövlət qeydiyyatına alınmaqla, fəaliyyətlərində legitimlik təmin edilmişdir. Prezident İlham Əliyev bütün dünya azərbaycanlılarının qürur duyduğu Azərbaycan adlı güclü bir dövlət yaratmışdır.

Prezident seçildiyi 19 il ərzində cənab İlham Əliyev xalqa verdiyi bütün vədləri yerinə yetirmişdir. Onun rəhbərliyi sayəsində Azərbaycanın dünyada siyasi və iqtisadi imkanları möhkəmlənib. Bu gün regionda həyata keçirilən beynəlxalq layihələr Azərbaycanın iştirakı ilə reallaşdırılır.

30 il işğal altında olan torpaqlarımız İlham Əliyevin müdrik və qətiyyətli siyasəti nəticəsində azad edildi. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü təmin olundu. İlham Əliyev ərazi bütövlüyümüzü təmin etməklə yanaşı, xalqımızın kimliyini, qürurunu özünə qaytardı. Qloballaşan dünyada adət-ənənələrimizin qorunub saxlanılması, milli dəyərlərimizə sadiqlik, gənclərimizin vətənpərvərlik ruhunda yetişməsi İlham Əliyevin xalq qarşısında əvəzsiz xidmətlərinin nəticəsidir. Bu gün İlham Əliyevin Azərbaycanda yaratdığı multikulturalizm, tolerantlıq dəyərləri dünyaya nümunə göstərilir. İlham Əliyev Azərbaycanda yaşayan bütün millətləri bir ideya - azərbaycançılıq ideyası ətrafında birləşdirdi. Dinindən, dilindən asılı olmayaraq, bu məmləkətdə yaşayan hər kəs azərbaycanlı olması ilə fəxr edir.

Cənab Prezidentin ölkənin iqtisadi potensialının artırılması yönümündə həyata keçirdiyi siyasət nəticəsində ÜDM dəfələrlə artmışdır. İlham Əliyev Azərbaycanda "neft kapitalı"nı "insan kapitalı"na çevrilməsinə dair strateji nəzəriyyə yaratdı. Azərbaycanda qeyri-neft sektoru sürətlə inkişaf edir. Bu sektorda ixrac potensialımız hər gün artmaqdadır. Azərbaycan beynəlxalq aləmdə müstəqil siyasət yeridən strateji və etibarlı müttəfiq dövlət imicini qazanmışdır. Ölkəmizin 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına 2019-2023-cü illərdə sədrlik etməsi cənab İlham Əliyevin beynəlxalq aləmdəki nüfuzundan xəbər verir.

Prezident İlham Əliyev ölkədə ordu quruculuğuna xüsusi diqqət ayırır. Prezident hər zaman Ermənistanla müharibəyə hazır olmalıyıq fikrini səsləndirirdi. Ermənistan rəhbərliyi Azərbaycana qarşı yeni torpaq iddiaları irəli sürürdü. Bu səbəbdən İlham Əliyev Ali Baş Komandan olaraq Azərbaycanda güclü, müasir ordu yaratdı. Bu ordu özləri üçün "məğlubedilməz ordu" imici yaratmış erməni ordusunu 44 günə darmadağın etdi. İlham Əliyevin bacarıqlı sərkərdə olması ilə də çox qürur duyuruq.

Yeni Azərbaycan Partiyası cənab İlham Əliyevin sədrliyi ilə yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu gün YAP regionda ən güclü və nüfuzlu partiyaya çevrilmişdir. YAP-ın 85 yerli təşkilatı, 760 mindən çox üzvü var. YAP VI çağırış Azərbaycan Respublikasının Milli Məclisində 69 deputatla təmsil olunur. Bu, vətəndaşlarımızın YAP-a və onun sədri cənab İlham Əliyevə olan etimadının göstəricisidir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı altında, ordumuzun rəşadəti, xalqımızın birliyi nəticəsində 30 illik işğala son qoyuldu. Müharibədə böyük Zəfər qazandıq. Artıq Qarabağa Böyük qayıdış planı reallaşmaqdadır. Keçmiş məcburi köçkünlərimiz də öz yurdlarına mərhələli şəkildə dönməkdədir. İşğaldan azad edilmiş torpaqlarımızın bərpası və dirçəldilməsi ilə Azərbaycan cənab İlham Əliyevin rəhbərliyi altında daha güclü bir dövlətə çevriləcək.

**KAMİLƏ ƏLİYEVA,**
***Milli Məclisin deputatı, Bakı Dövlət Universitetinin kafedra müdiri, biologiya elmləri doktoru, professor***

# Uğurlarla zəngin 19 il

Bu gün cənab İlham Əliyevin respublikamıza birinci dəfə prezident seçilməsinin 19-cu ili tamam olur. 2003-cü ilin 15 oktyabr tarixində keçirilən prezident seçkilərində seçicilərin mütləq əksəriyyəti Yeni Azərbaycan Partiyasının namizədi İlham Əliyevə etimad göstərməklə, Ulu Öndər Heydər Əliyevin siyasi kursunun davamına və beləliklə, özünün etibarlı və aydın gələcəyinə, inkişafa və quruculuğa səs verdi.

Həmin vaxt keçirilən andiçmə mərasimində ölkəmizin gələcək inkişafı ilə bağlı fikirlərini bildirən möhtərəm İlham Əliyev demişdi: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

2003-cü ildən indiyədək İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda olduqca mühüm dəyişikliklər, tariximizə qızıl hərflərlə həkk olunan hadisələr baş verib. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət ilk gündən hər bir sahədə sürətli inkişafa yol açıb, ölkəmizin beynəlxalq müstəvidə mövqelərini möhkəmləndirib. Bütün bunlar isə Heydər Əliyev ideyalarının təntənəsidir.

2003-cü ildə Prezident İlham Əliyevin qarşıya qoyduğu məqsədlərdən biri yeni iqtisadi islahatların aparılması və bununla da iqtisadiyyatda qazanılan uğurların miqyasının genişləndirilməsi, regionların sosial-iqtisadi inkişafının təmin edilməsi, işsizliyin və yoxsulluğun aradan qaldırılması idi. Ötən 19 ilin statistikası göstərir ki, bu dövrdə bütün sosial-iqtisadi çağırışlar uğurla reallaşıb, iqtisadiyyatımızın, hər bir regionun inkişaf yoluna çıxarılması, bölgələrin iqtisadi potensialının hərəkətə gətirilməsi təmin olunub, bütün şəhər və rayonlarımızın siması dəyişib. O cümlədən işsizliyin və yoxsulluğun səviyyəsi minimal həddə endirilib.

Bu dövr ərzində Naxçıvan Muxtar Respublikasının tərəqqisi Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafının ən gözəl və nümunəvi təqdimatıdır. Möhtərəm İlham Əliyevin inkişaf strategiyasının, qəbul olunmuş proqramların uğurla icra edilməsi nəticəsində bu dövrdə muxtar respublika hər il davamlı olaraq yüksək inkişaf göstəriciləri nümayiş etdirir. 19 il ərzində demək olaraq ki, bütün parametrlər üzrə davamlı inkişafa nail olunub, ərzaq və enerji təhlükəsizliyi tam təmin edilib. 2021-ci il may ayının 10-da, Ulu Öndər Heydər Əliyevin doğum günündə Naxçıvana səfər edən Prezident İlham Əliyev muxtar respublikanı iqtisadi artımın templərinə görə belə adlandırıb: "Sənaye potensialı inkişaf edir, artır. Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb".

Qürur hissi ilə qeyd etmək istərdim ki, ölkəmizə rəhbərliyi dövründə Prezident İlham Əliyev 15 dəfə Naxçıvana gəlib. Dövlət başçısının hər səfəri muxtar respublikanın inkişafında yeni səhifə açıb. Bu səfərlər zamanı Prezident İlham Əliyev Naxçıvanda 100-dən artıq təhsil, səhiyyə, idman və mədəniyyət ocağının, çoxsaylı istehsal müəssisəsinin və hərbi təyinatlı obyektin açılışını edib. Ümumilikdə isə ötən 19 ildə Naxçıvanda ölkə rəhbərinin himayəsi, tapşırığı, tövsiyəsi ilə ərsəyə gələn müəssisələrin sayı minlərlədir. Blokada şəraitində yaşayan muxtar respublikada əldə olunan bu inkişaf göstəriciləri Prezident İlham Əliyevin siyasi kursunun təcəssümü, Heydər Əliyev ideyalarının təntənəsidir.

Ötən 19 ilin ən böyük hadisəsi isə əlbəttə ki, 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın azad edilməsidir. 44 günlük müharibədə qazanılan qələbə Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunan bütün uğurlarımızın zirvəsində dayanır. Bu Zəfər cənab İlham Əliyevin Prezident kimi fəaliyyətinin ən şərəfli səhifəsi, müstəqilliyimizin, dövlətçiliyimizin möhtəşəm qəhrəmanlıq salnaməsidir.

Vətən müharibəsi həm də İlham Əliyevin Prezident və Ali Baş Komandan kimi fəaliyyətinin məhz milli mənafelərimizin təmin olunması üzərində formalaşdığını xalqımıza daha yaxından göstərdi. Belə ki, bu Qələbədən sonra Azərbaycan ictimaiyyəti gördü ki, Prezident İlham Əliyev ilk gündən torpaqlarımızın işğaldan azad olunması üçün kompleks fəaliyyət ortaya qoyub. Beynəlxalq müstəvidə Ermənistanın diplomatik küncə sıxışdırılması, hücum diplomatiyasının həyata keçirilməsi ilə yanaşı, İlham Əliyev güc yolu ilə torpaqlarımızın azad edilməsi variantını da daim diqqətdə saxlayıb və bu məqsədlə davamlı şəkildə ordumuzun döyüş imkanları artırılıb. Bu baxımdan Vətən müharibəsindəki Zəfər İlham Əliyevin müdrik və uzaqgörən, milli mənafeləri rəhbər tutan siyasətinin məntiqi nəticəsi kimi tarixə düşüb.

Azərbaycanın uğurları isə davamlıdır. İşğaldan azad edilmiş ərazilərimizin kompleks şəkildə yenidən qurulması, Ermənistanın üçtərəfli bəyanatlarla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə məcbur edilməsi və Azərbaycanın ərazi bütövlüyünü tanıması bir daha göstərir ki, Prezident İlham Əliyev dövlətimizin milli mənafelərini postmüharibə dövründə də inamla təmin edir.

***Cəbi QULİYEV,***
***Milli Məclisin deputatı***



## Müxalifət partiyaları Prezidentin 19 illik fəaliyyətini Azərbaycanın uğur və qüdrət salnaməsi kimi qəbul edirlər:

# "İlham Əliyev birləşdirici faktordur"

*Son 20 ildə Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. Bütün sahələrin sürətli inkişaf etdiyi respublikamız dünyada siyasi, iqtisadi, hərbi gücü ilə tanınır. Bu, Prezident İlham Əliyevin milli maraqlara cavab verən uğurlu daxili və xarici siyasətinin nəticəsidir. 19 illik hakimiyyəti dövründə ölkəmizin inkişafı üçün müstəsna xidmətlər göstərən İlham Əliyevin rəhbərliyi ilə Vətən savaşında qazandığımız qələbə isə Azərbaycanı qalibiyyət zirvəsinə daşıdı, xalqımızın milli qürurunu geri qaytardı.*

*Prezident İlham Əliyevin yürütdüyü siyasət müxalif siyasi partiya sədrləri tərəfindən də rəğbətlə qarşılanır.*

*Bu istiqamətdə müxalifət partiyalarının sədrlərinin fikirlərini öyrəndik.*

### Beynəlxalq müstəvidə yürüdülən ardıcıl uğurlu siyasət

**Arzuxan ƏLİZADƏ,**
*Azərbaycan Milli İstiqlal Partiyasının sədri:*

- Birmənalı olaraq qeyd edək ki, Azərbaycan Prezidentinin bu dövr ərzində gördüyü işlərin zirvəsində ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi və 30 ilə yaxın müddət ərzində işğal altında qalan torpaqlarımızın azad olunması dayanır. Müharibədən əvvəlki illərdə və bilavasitə müharibə dövründə beynəlxalq müstəvidə yürüdülən ardıcıl siyasət, münaqişə ilə bağlı həqiqətlərin davamlı olaraq beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, eyni zamanda ölkə daxilində bir barış mühitinin formalaşdırılması da qələbənin əldə olunmasında əhəmiyyətli rol oynadı. Nəticə etibarilə 44 gün davam edən İkinci Qarabağ savaşında əldə edilən möhtəşəm qələbə sayəsində Azərbaycan qalib ölkəyə, xalqımız isə qalib xalqa çevrildi və bu zəfər sayəsində regionda tam yeni reallıqlar yarandı.

O da məlumdur ki, müharibədə qalib gəlmək üçün güclü, nizamlı və müasir silahlarla təmin olunmuş orduya malik olmaq başlıca şərtdir. Bir məsələnin altını xüsusi olaraq cızaraq deyə bilərəm ki, İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illər ərzində bu sahəyə ciddi önəm verilib, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində məqsədyönlü tədbirlər görülüb. Məhz bunun nəticəsidir ki, Azərbaycan Ordusu hazırda dünyanın ən güclü orduları sırasında yer alıb.

Bu dövr ərzində əldə edilən uğurlar sırasında siyasi və iqtisadi imkanların genişləndirilməsi də mühüm əhəmiyyət kəsb edib və bununla Azərbaycanın beynəlxalq arenadakı mövqeləri ciddi surətdə möhkəmlənib. Sirr deyil ki, Azərbaycanın son illərdə iştirakçısı olduğu qlobal layihələr Avropanın enerji xəritəsini dəyişib. Təqdiredici haldır ki, bu gün regionda reallaşdırılan bütün beynəlxalq və irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, həmçinin milli maraqlarımız nəzərə alınmaqla həyata keçirilir. Azərbaycan bu gün, həm də bütün dünyada bir çox transmilli layihələrin təşəbbüskarı və uğurlu icraçısı, etibarlı tərəfdaşı kimi tanınır. Bu müstəvidə aparılan uğurlu siyasət sayəsində Azərbaycanda uzun illər bundan sonra da neftin hasilat səviyyəsinin sabit qalmasına, neft və qaz sektoruna xarici investisiya qoyuluşunun təmin olunmasına imkan yaranıb. Nəticə etibarilə Azərbaycan siyasi, iqtisadi və strateji baxımdan böyük əhəmiyyətə malik beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak etməklə bütövlükdə Avrasiya məkanında mühüm tranzit və logistika mərkəzlərindən birinə çevrilib.

### Prezident yeni geosiyasi reallıqlar yaratdı

**Qulamhüseyn ƏLİBƏYLİ,**
*Aydınlar Partiyasının sədri:*

- Cənab İlham Əliyevin fəaliyyətinin ən uğurlu dövrünü 2018-ci il seçkilərindən sonrakı illər hesab etmək olar. Məhz bu dövrdə Azərbaycan regionda qüdrətli və qalib bir dövlətə, xalqımız isə qalib xalqa çevrildi. On illərlə erməni işğalı altında olan ərazilərimizin böyük bir hissəsinin azad edilməsi ilə nəticələnən Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazıldı və bu, cənab İlham Əliyevin Ali Baş Komandanlığı ilə qazanıldı. Təbii ki, bu qələbə əvvəlki illərdə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər görülməsi sayəsində mümkün oldu. 44 günlük Vətən müharibəsinin informasiya təminatının ağırlığı da Prezidentin üzərinə düşdü. İlham Əliyevin Ali Baş Komandanlığı ilə qazanılan Qarabağ zəfəri regionda yeni geosiyasi reallıqlar yaratdı. Bu gün dövlətimiz regionda şərtləri diktə edən güc kimi çıxış edir.

Prezident İlham Əliyevin fəaliyyətinin son illəri həm də daxili siyasətdə mühüm yeniliklərlə yadda qalır. Hakimiyyət səlahiyyətlərindən sui-istifadə edərək korrupsiyalaşmış məmurların vəzifədən uzaqlaşdırılması və məsuliyyətə cəlb olunması da bu dövrdə baş verib. Siyasi sistemdə mühüm dəyişikliklərin edilməsi, partiyalara münasibətin dəyişdirilməsi, dialoq mühitinin yaradılması da Prezidentin uğurlu siyasəti sayıla bilər.

İqtisadi sahədəki yeniliklər, idarəetmədə struktur dəyişiklikləri də müsbət addımlardır. Bu dəyişikliklər sosial-iqtisadi sahələrə də müəyyən yeniliklər gətirib.

### İlham Əliyev qələbəmizin memarıdır

**Əsli KAZIMOVA,**
*Azərbaycan Sosial Rifah Partiyasının sədri:*

- Oktyabrın 15-də cənab İlham Əliyevin ilk dəfə Prezident seçilməsinin 19 ili tamam olur. Son 19 ildə respublikamız bütün parametrlər baxımından Cənubi Qafqazın lider dövləti səviyyəsinə yüksəlib, öz müstəqilliyini inamla möhkəmləndirib. Bu gün dünyadakı məlum gərginliklər fonunda ölkəmiz sabitlik və inkişaf adası kimi fərqlənir. Bütün bu uğurların təməlində isə xalqımızın yeni əsrdəki yeni liderinin - İlham Əliyevin qətiyyətli mövqeyi, səyləri, onun ardıcıllıqla həyata keçirdiyi məqsədyönlü siyasət dayanır. Xalqımız 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə böyük müdriklik göstərərək cənab İlham Əliyevin namizədliyini dəstəklədi və onu özünə yeni Prezident seçdi. Ötən 16 ildə respublikamızın həyatı müsbət reallıqlarla səciyyələnib, ölkəmiz yüksək dinamik sosial-iqtisadi inkişafa nail olub. Bütün bunlar Prezident İlham Əliyevin xalqın ona bəslədiyi ümidləri yüksək səviyyədə doğrultduğunu, müstəqil Azərbaycanın sükanını inamla idarə etdiyini əyani şəkildə təsdiqləyir.

Xalq seçkilərdə Ümummilli Lider Heydər Əliyevin siyasi məktəbinin ən layiqli yetirməsi İlham Əliyevin namizədliyini dəstəkləməklə bütün dünyaya bəyan etdi ki, Ulu Öndərin siyasi irsinə, onun yaratdığı ideya əsaslarına sadiqdir və ölkənin gələcək inkişafını bu ideyaların təntənəsində görür. Azərbaycan xalqının Prezident İlham Əliyevə belə yüksək inam bəsləməsi onun apardığı uğurlu siyasətlə bağlıdır. Son 19 ilin təcrübəsinə diqqət yetirdikdə dövlət başçısının daim xalqın arzu və istəkləri ilə üst-üstə düşən və reallıqla səsləşən təşəbbüslərlə çıxış etdiyinin şahidi oluruq. Azərbaycanın iqtisadi baxımdan dünyada ən dinamik inkişaf edən ölkəyə çevrilməsi qürurverici haldır. Hətta qlobal pandemiya dövründə belə Azərbaycan məhz ölkə başçısının uğurlu siyasəti nəticəsində mühüm iqtisadi kataklizmlərdən yayına bildi.

Təbii ki, ölkə Prezidentinin apardığı Qarabağ siyasəti xüsusi vurğulanmalıdır. 2003-cü ildən başlayaraq hərbi büdcənin artırılması, hərbi kontingentin təkmilləşdirilməsi, yeni silahların alınması Azərbaycanın ordu sisteminin güclənməsinə yol açdı. Bu isə öz növbəsində Vətən müharibəsində qələbəmizi şərtləndirdi. Prezident İlham Əliyev qələbəmizin memarı kimi tarixə düşdü. Müharibə günlərində dövlət başçısı bütün dünyaya Azərbaycanın haqq davasını anlatdı. Məhz Prezidentin səyi ilə Ermənistanın yalançı təbliğatı iflasa uğradı. Bu reallıq isə Zəfərimizin beynəlxalq aləm tərəfindən də qəbul edilməsində əsaslı rol oynadı.

Yeni dövrdə Prezident İlham Əliyevin siyasi iradəsi əsasında formalaşan yeni siyasi konfiqurasiya Azərbaycanda çoxpartiyalı sistemin inkişafına da böyük töhfələr verib. Azərbaycanın siyasi palitrasının daha da zənginləşməsi, siyasi partiyalar arasında münasibətlərin sivil qaydada inkişafının təmini gələcək uğurlarımız üçün də bir əsasdır. Bu gün ölkəmiz dünyanın aparıcı beynəlxalq təşkilatlarında uğurla təmsil olunur. O cümlədən dövlət siyasətimiz milli maraqlarımızı özündə ehtiva etməkdədir. "Xalqa xidmət etmək mənim ən böyük vəzifəmdir" deyən Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkədə aparılan siyasətin mərkəzində Azərbaycan vətəndaşlarının maraqları dayanır. Bu amil Xalq-Prezident münasibətlərinin yüksək səviyyədə inkişafının ən mühüm tezisidir.

### Vətən müharibəsi - İlham Əliyevin fəaliyyətinin ən parlaq və zirvə məqamı

**Elşad MUSAYEV,**
*Böyük Azərbaycan Partiyasının sədri:*

- İlham Əliyevin prezident seçilməsindən 19 il keçir. Onun prezident kimi fəaliyyətindən çox şey danışmaq olar. Fikrimcə, fəaliyyətinin ən parlaq və zirvə məqamı 44 günlük Vətən müharibəsində özünü göstərdi. Məhz həmin günlərdə Prezident İlham Əliyev qərarlı, tədbirli, ağıllı və uzaqgörən addımları ilə düşmən qüvvələrinin darmadağın olunması prosesinə rəhbərlik etdi, son 200 ildə torpaq itirmək alışqanlığına son verdi. Bununla da İlham Əliyev torpaqlarımızı işğaldan azad edən dövlət başçısı kimi Azərbaycan tarixinə düşdü.

İndiki halda Ermənistan-Azərbaycan münaqişəsinin sülh müqaviləsi ilə yekunlaşması prosesində də erməniləri sülhə məcburetmə istiqamətində Prezident İlham Əliyev düzgün addımlar atır.

Mən bu yolda və bütövlükdə fəaliyyətində cənab Prezidentə uğurlar arzulayıram!

### Tariximizin 19 illik qızıl çağı

**Əlisahib HÜSEYNOV,**
*Milli Həmrəylik Partiyasının sədri:*

- Tarix üçün 19 il çox kiçik bir zaman kəsimi olsa da, İlham Əliyev bu dövrdə böyük işlər görməyi bacardı. Başqa sözlə, İlham Əliyev ən yeni tariximizi yaratdı. Xatırlayırsınızsa, 2003-cü il oktyabrın 15-də İlham Əliyev prezident seçilərkən ölkəmiz və xalqımız həlli müşkül görünən bir sıra problemlərlə üz-üzə idi. O vaxt ölkəmiz hələ yeni-yeni dirçəlirdi. Eyni zamanda torpaqlarımızın işğal altında qalması davam edir, nəhəng qaçqın və məcburi köçkün ordusunun acınacaqlı vəziyyəti ən ağrılı yerlərimizdən biri olaraq qalırdı. Müstəqilliyimizə təhdidlər səngimirdi, beynəlxalq miqyaslı layihələrimizin icrasına qlobal güclər və qonşularımız tərəfindən hər cürə süni əngəllər yaradılırdı. İlham Əliyevin dövlətimizə başçılıq etmək missiyası məhz belə bir mürəkkəb siyasi şəraitdə başlamışdı.

Lakin İlham Əliyev problemlərin üzərinə getməyi və ölkəmizi sabit inkişaf yoluna çıxarmağı bacardı. Ulu Öndər Heydər Əliyevin də qeyd etdiyi kimi, liderlik bacarığı məhz o siyasətçilərə məxsusdur ki, onlar xalqının, dövlətinin milli maraqlarını qorumaqla yanaşı, həm də öz ölkəsini davamlı şəkildə inkişaf etdirməyi, xalqını yorulmadan irəliyə doğru aparmağı bacarır. Biz bunun əyani təsdiqini İlham Əliyevin 19 illik fəaliyyətinin real nəticələrində görə bilirik. Ötən müddət ərzində cənab Prezidentin rəhbərliyi altında əldə edilmiş uğurlar nəticəsində Azərbaycan həqiqətən də regionun ən inkişaf etmiş lider dövlətinə çevrilib. Bu həqiqəti heç kim dana bilməz.

Cənab Prezidentin fəaliyyətinin və uğurlarının ən böyük zirvəsini isə 44 günlük Vətən müharibəsi təşkil edir. Məhz Prezident İlham Əliyevin Ali Baş Komandan kimi qətiyyəti, iradəsi, müdrikliyi əsasında Şanlı Ordumuzun bu müharibədə düşmənin başını əzməsi, 44 günlük ağır savaşın möhtəşəm Zəfərimiz ilə başa çatması, torpaqlarımızın işğaldan azad edilməsi xalqımızın ruhunu dirçəltdi, bütün azərbaycanlıları düşmənə qalib gəlmək hədəfi ətrafında birləşdirdi. İlham Əliyev həmin günlərdə milli həmrəyliyimizin şah əsərini yazdı. Azərbaycan möhtəşəm qələbə qazanaraq həm tarixi ədalətin bərpa olunmasına, həm də ərazi bütövlüyünün təmin edilməsinə nail oldu.

Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsi zamanı necə mahir diplomat və sərkərdə olduğunu ortaya qoydu. 30 ilə yaxın müddətdə nizamlanmayan qondarma "Dağlıq Qarabağ" probleminin 44 gün ərzində həll olunması, doğrudan da, müasir dövrümüzün ən fenomenal hadisələrindən biri hesab oluna bilər. Çünki biz öz ərazi bütövlüyünü bərpa etmək istəyən bir sıra digər ölkələrin də (o cümlədən bir neçə MDB ölkəsinin) bu istiqamətdə səylərini, cəhdlərini görürük. Lakin postsovet ölkələri arasında Azərbaycan hələlik yeganə ölkədir ki, öz ərazi bütövlüyünü bərpa etməyə nail olub. Bu, doğrudan da, fenomenal hadisədir və burada İlham Əliyevin rolu xüsusən böyükdür. Biz gerçəkləri etiraf etməliyik.

Ermənilər kimi məkrli düşmənə, onlara havadarlıq edən xarici güclərə qalib gəlmək, 30 ilə yaxın davam edən ikinci "Qordi düyünü"nü (keçmiş "Dağlıq Qarabağ münaqişəsi"ni) 44 günə çözmək heç də hər liderə nəsib olan bir tale deyil. Azərbaycanın əldə etdiyi bu böyük Zəfər bir daha göstərdi ki, tarixdə şəxsiyyətlərin rolu danılmazdır və bütün qələbələri şərtləndirən amillərin başında millətin azadlıq eşqi, ordunun döyüş ruhu ilə bərabər, həm də ilk növbədə lider missiyası gəlir. İlham Əliyev qələbə qazanmağı və onu qorumağı bacaran liderlərdəndir.

### Qafqazla bağlı hər kəsin gözü İlham Əliyevdədir

**Bədrəddin QULİYEV,**
*Cümhuriyyət Xalq Partiyasının sədri:*

- Prezident İlham Əliyevin 19 illik fəaliyyəti sayəsində ölkə həyatında çox dəyişikliklər oldu. Bu müddətdə "Əsrin müqaviləsi" ilə əlaqədar neft-qaz kəmərləri, Bakı-Tbilisi-Ceyhan boru xətti çəkildi, daha sonra isə Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. Həmçinin TAP, TANAP layihələrinin həyata keçirilməsi Prezidentin digər ölkələrdə qurduğu münasibətlərin, əlaqələrin, uğurlu siyasətin nəticəsidir.

19 ildə Azərbaycanın strateji əhəmiyyəti artıb, beynəlxalq aləmdə ölkəmizə münasibət dəyişib. Dövlətimizin başçısı ordu quruculuğuna xüsusi diqqət ayıraraq ordunun təchizatı, müasir ordu modelinin yaradılması istiqamətində mütəmadi işlər görüb. Məhz hərbi sahədə görülən işlərin nəticəsini biz Vətən müharibəsində gördük. İlham Əliyev 2020-ci ildə 44 günlük müharibədəki qələbə ilə adını Azərbaycan tarixinə qızıl hərflərlə yazdırdı. Vahid komandanlıq altında düşmən tapdağında olan torpaqlarımızı işğaldan azad edərək Azərbaycanın milli ruhunu qaldırdı. Ölkədə hər kəsi bir bayraq altında birləşdirdi.

Vətən müharibəsindən sonra Qarabağda aparılan böyük tikinti-quruculuq işləri, beynəlxalq aləmdə Azərbaycanın tanınması, iqtisadi əlaqələrin, münasibətlərin formalaşması Prezident İlham Əliyevin apardığı düzgün siyasətin nəticəsidir. O, böyük kommunikasiya xətlərinin birləşməsində, yeni dünya düzənində millətimizin səsinin qoruyucusu oldu.

Azərbaycan bu gün regionda öz sözünü deyən güclü dövlətə çevrilib. Ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında böyük rol oynayır. Avropa İttifaqı ölkələri bizi yaxşı tərəfdaş kimi görür və Azərbaycanla münasibətlərinə önəm verirlər. Bölgədə baş verən proseslər fonunda dünyada Qafqazla bağlı hər kəsin gözü İlham Əliyevdədir.

Şuşa Bəyannaməsi ilə Türkiyə və Azərbaycan arasında əlaqələr müttəfiqlik səviyyəsinə qədər yüksəldi, ümumiyyətlə, türk dövlətləri birliyinin möhkəmlənməsi, həmin ölkələrlə əməkdaşlıq İlham Əliyevin apardığı siyasətin məntiqi nəticəsidir.

Ölkəmizdə müxtəlif sahələrdə çox ciddi işlər görülür. Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Türk dövlətləri üçün bu ordu modeli və döyüş ruhu demək olar ki, nümunəyə çevrilib.

2018-ci ildən sonra ölkədə partiyalılıq sisteminin daha da güclənməsi, partiyaların qeydiyyata alınması, siyasi dialoqun yaranması Prezidentin bu sahəyə də xüsusi diqqətini göstərir. Ölkədə çoxpartiyalılıq inkişaf edir. Partiyalar qərargahlarla təmin olunur, qaldırdıqları məsələlər nəzərə alınır. Ölkəmizin demokratik imici, milli dövlət quruculuğu baxımından ölkədə siyasi partiyalar üçün lazımi şərait yaradılıb.

Ümid edirəm ki, islahatlar nəticəsində gələcəkdə regional idarəetmə mərkəzləri yaradılacaq, yerli özünüidarəetmədə bələdiyyələrin səlahiyyətlərinin artırılmasına fikir veriləcək. Prezident bütün məsələlərdə ölkənin birləşdirici faktorudur.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Milli Məclisin iclasında

# Fransanın mövqeyi qərəzli və bədxahdır

## Deputatlardan Fransa prezidentinə sərt etiraz





Oktyabrın 14-də spiker Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclasda gündəliyin təsdiqindən sonra cari məsələlərin müzakirəsinə başlanıb. Çıxış edənlər Fransa prezidenti Emmanuel Makronun son günlərdə verdiyi müsahibədə Azərbaycanın ünvanına səsləndirdiyi böhtan və qeyri-obyektiv xarakterli fikirlərə sərt münasibət bildiriblər.

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib ki, dövlətimizi və torpağımızı qorumaq üçün bir olmalı, Azərbaycana qarşı deyilən sözlərin qarşısını almalıyıq.

"Son günlər Fransa prezidenti Emmanuel Makron siyasi etikaya, dövlətlərarası münasibətlər sisteminə sığmayan açıqlamalar verir". Bunu isə deputat Musa Qasımlı deyib. Onun sözlərinə görə, Makronun bu cür bəyanatlarla çıxış etməsinin bir səbəbi var: "Azərbaycan Prezidenti müstəqil siyasət yürüdür və Azərbaycan dövlətinin maraqlarını müdafiə edir. Ona görə də belə çıxışlar çox olacaq və belə çıxışları bundan sonra da gözləməliyik. Amma bu çıxışların heç bir nəticəsi olmayacaq. Makron əgər bu açıqlamalarını davam etdirəcəksə, o zaman Fransa bütün Qafqazı itirəcək".

Deputat Qüdrət Həsənquliyev bildirib ki, Azərbaycan əraziləri 30 il işğal altında olanda heç kim demədi ki, Ermənistan 1991-ci ildə olan sərhədlərə qayıtmalıdır. "10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli Bəyanatdan sonra Ermənistana Azərbaycanla sülh sazişi imzalanması üçün Azərbaycanın ərazi bütövlüyünün tanınması üçün təzyiq göstərilsəydi, 13-14 sentyabrda Ermənistanın təxribatı da baş verməzdi. Bunlara görə, Ermənistana vicdansız dəstəyinə görə Fransa birbaşa məsuliyyət daşıyır", - deyə Qüdrət Həsənquliyev diqqətə çatdırıb.

Cari məsələlərin müzakirəsi zaman çıxış edən deputatlar Fransa prezidentinin qeyri-adekvat açıqlamalarının Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması istiqamətində göstərilən beynəlxalq səylərə böyük zərbə vurduğunu, regional sülhə və təhlükəsizliyə təhdid yaratdığını bildiriblər. Çıxışlarında deputatlar vətəndaşları narahat edən və gündəmdə olan aktual məsələlərə dair fikirlərini səsləndirib və təkliflərini irəli sürüblər.

Sonra Milli Məclis gündəlikdəki məsələlərin müzakirəsinə keçib.

Parlamentin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin 22 məsələsindən ilk 18-i ikinci oxunuşda olan qanun layihələridir və birinci məsələ ilə bağlı məlumat vermək üçün sözü Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynliyə təqdim edib.

"İnsan alverinə qarşı mübarizə haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat verən Əli Hüseynli bildirib ki, sənəd insan alverinə qarşı mübarizə üzrə Milli Koordinator yanında fəaliyyət göstərən İşçi Qrupun fəaliyyətini tənzimləyir.

Layihə ilə bağlı İnsan hüquqları komitəsinin sədri Zahid Oruc rəhbərlik etdiyi komitənin müsbət rəyini diqqətə çatdırıb və qanun layihəsi səsvermədən keçərək ikinci oxunuşda qəbul edilib.

İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə də Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. Bildirib ki, məcəlləyə təklif olunan dəyişikliklər uyğunlaşdırma xarakterlidir, maddənin dispozisiyasında müvafiq qanuna istinad olunur, sanksiyalarda isə heç bir dəyişiklik yoxdur və birinci oxunuşda layihə ilə bağlı komitəyə heç bir təklif daxil olmayıb.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov məsələ barədə rəhbərlik etdiyi komitədə müsbət rəy verildiyini bildirib.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Gündəliyin 3-cü məsələsi olan Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov məlumat verib. Bildirib ki, layihənin birinci oxunuşunda və müzakirələrdə heç bir təklif və mətnlə bağlı dəyişiklik irəli sürülməyib.

Qanun layihəsi səsvermədən keçərək ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, növbəti 4-cü və 5-ci məsələlər ölkə Prezidenti tərəfindən Milli Məclisə bir məktubla daxil olub. Spiker bildirib ki, bunlar Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) qanun layihələridir.

Hər iki layihə barədə birinci vitse-spiker Əli Hüseynli məlumat verərək bildirib ki, dəyişikliklər mahiyyətcə bir-birinə yaxındır, xarici dövlətə qaçaqmalçılıq əlaməti daşımayan qanunsuz pul köçürmələrinin tənzimlənməsi ilə bağlıdır. Burada sanksiyalar az miqdarda olduqda İnzibati Xətalar Məcəlləsi ilə tənzimlənir, daha çox miqdar isə cinayət məsuliyyəti yaradır və ona görə də adekvat cəzalar Cinayət Məcəlləsində təsbit olunub.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra "Dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsinin qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi haqqında", "Maliyyə-sənaye qrupları haqqında" və "Torpaq icarəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) təqdim edilib. Diqqətə çatdırılıb ki, layihədəki düzəlişlər prosedur xarakteri daşıyır və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanuna uyğunlaşdırma məqsədi ilə hazırlanıb.

Tahir Rzayev rəhbərlik etdiyi Aqrar siyasət komitəsinin qanun layihəsinə rəyinin müsbət olduğunu bildirib.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

İclasda "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) də müzakirə olunub. Bildirilib ki, adıçəkilən qanun aksiz markası və məcburi nişanlama tətbiq edilməli olan mallar dövriyyəsinin tənzimlənməsi, onlara vergi nəzarətinin təmin edilməsi məqsədi ilə hazırlanıb. Layihənin qəbulu kölgə iqtisadiyyatının azaldılmasına, aksiz markaların saxtalaşdırılmasının qarşısının alınmasına və istehlakçıların hüquqlarının qorunmasına böyük təsir göstərəcək.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin növbəti 3 məsələsi - 8-ci, 9-cu və 10-cu məsələlər ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə bağlıdır. Spiker qeyd edib ki, bunlar Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında (ikinci oxunuş), "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), "Notariat haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələridir.

Sənədləri təqdim edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, hər üç qanun layihəsi daşınmaz əmlak hüquqlarının dövlət qeydiyyatına alınması, onun məhdudlaşdırılması və bu prosesdə notariat orqanlarının fəaliyyətində elektron alətlərdən istifadə olunması ilə bağlı münasibətlərin tənzimlənməsini özündə ehtiva edir. Qanun layihələrində notarius tərəfindən qeydiyyat üçün zəruri olan bütün prosedurların elektron informasiya sistemləri vasitəsi ilə "bir pəncərə" prinsipi üzrə vahid xidmət kimi təqdim olunması təsbit olunub. Mühüm yeniliklərdən biri də odur ki, "beh" anlayışına yeni tərif verilir. "Beh" anlayışının yeni tərifinin məğzi ondan ibarətdir ki, o, notariat orqanlarında qeydiyyata alınmazsa, onda onun hər hansı bir hüquqi mənası yoxdur.

Hər üç qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra gündəliyin 11-ci məsələsi olan "Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə" və "Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikası medallarının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə məlumat verib. O bildirib ki, layihə barədə birinci oxunuşda ətraflı məlumat təqdim edilib və heç bir dəyişiklik təklif olunmayıb.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Əminə Ağazadə gündəliyin 12-ci və 13-cü məsələləri olan "Prokurorluq haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) və "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələrini də təqdim edib. O, sənədlərin birinci oxunuşu barədə məlumat verib və deputatların qanun layihələrinin qüvvəyə minmə vaxtı ilə bağlı təklifinin nəzərə alındığını qeyd edib.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Gündəliyin 14-cü məsələsi - Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) ilə bağlı isə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, təklif olunan dəyişikliklər işçilərin peşə hazırlığının səviyyəsinin yüksəldilməsi, yeni ixtisasa yiyələnməsi, habelə ixtisasının artırılması kimi məsələlərin hüquqi tənzimlənməsini nəzərdə tutur. Həmçinin dəyişikliklərə əsasən, işçilərin attestasiyası, ixtisarı kimi hallarda işçinin peşə hazırlığı səviyyəsinin yüksəldilməsinin, yeni ixtisasa yiyələnməsinin və ixtisasının artırılmasının nəticələri nəzərə alınır.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Spiker Sahibə Qafarova gündəliyin növbəti 15-ci və 16-cı məsələləri barədə bildirib ki, bu sənədlər də ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub. Ona görə də layihələrin təqdimatları birgə, səsvermə isə ayrılıqda keçiriləcək.

"Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsini Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev təqdim edib. O, dəyişikliklərin pensiya artımlarının vahid indeksasiya metodunun tətbiqinin genişləndirilməsi və müvafiq icra hakimiyyəti orqanı tərəfindən əmək pensiyaçılarına edilən maddi yardımın pensiyaya əlavə edilməsi istiqamətləri üzrə məlumat verib.

"Dövlət qulluğu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim edib. Bildirib ki, qanun layihəsi "Əmək pensiyaları haqqında" qanuna yuxarıda təklif edilən dəyişikliklərə uyğunlaşdırma xarakteri daşıyır.

Qanun layihələrinin müzakirəsində deputatlar sənədlərlə bağlı fikirlərini və rəylərini səsləndiriblər. Komitə sədri Musa Quliyev qaldırılan məsələlərə aydınlıq gətirəndən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Sonra Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) iclasın müzakirəsinə çıxarılıb. 674 adda peşədə (vəzifədə) qadınların əməyinə qoyulan qadağanı ləğv edən və yalnız hamilə və ya bir yaşınadək uşağı olan qadınlara 204 iş yeri və ya peşədə işləməyə məhdudiyyət qoyan qanun layihəsi ilə bağlı Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verib. Komitə sədri bildirib ki, layihənin birinci oxunuşunda ətraflı məlumat verilib, deputatlar dəyişiklikləri dəstəkləyiblər və sənədlə bağlı heç bir dəyişiklik aparılmayıb.

Qanun layihəsi ilə bağlı Hicran Hüseynova rəhbərlik etdiyi Ailə, qadın və uşaq məsələləri komitəsinin müsbət rəyini diqqətə çatdırıb.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Gündəliyin 18-ci məsələsi olan "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı komitə sədri Musa Quliyev məlumat verib. Bildirib ki, sənəd Azərbaycan Prezidentinin "Dövlət icbari şəxsi sığortası sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 18 may 2021-ci il tarixli Fərmanının icrasının təmin edilməsi ilə əlaqədar hazırlanıb. Təklif edilən dəyişikliyə görə, şəhid ailələrinin maliyyə dəstəyinin mənbələri artırılıb. Komitə sədri şəhidlərin adlarının əbədiləşdirilməsi istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərin əhəmiyyətini, şəhid ailələrinə göstərilən diqqət və qayğının əhatəliliyini qeyd edərək, bu istiqamətdə işlərin dövlətin daimi diqqətində olduğunu vurğulayıb.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Spiker bildirib ki, sonrakı 4 məsələ birinci oxunuşda olan qanun layihələridir, 19-cu və 20-ci məsələlər isə ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub.

Hər iki məsələni iclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov təqdim edib.

Nizami Səfərov İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə bildirib ki, layihənin əhatə etdiyi hüquqi tənzimləmə, inzibati məsuliyyətə cəlb etmə və inzibati tənbeh tədbirləri ilə bağlı məsələlərin iki istiqamət üzrə təkmilləşdirilməsi nəzərdə tutulur. Birincisi, İnzibati Xətalar Məcəlləsinə bir sıra yeni müddəaların əlavə olunması, ikincisi, mövcud normalarda dəyişikliklərin edilməsidir.

Diqqətə çatdırılıb ki, İnzibati Xətalar Məcəlləsinə əsasən, inzibati tənbeh inzibati xətanın törədildiyi gündən 3 ay keçənədək verilə bilər. Lakin bəzi hallarda 3 aylıq müddət keçdikdən sonra təqsirkar şəxsləri inzibati məsuliyyətə cəlb etmək mümkün olmur. Bununla əlaqədar layihədə inzibati məsuliyyətə cəlbetmə müddətinin 3 aydan 4 aya artırılması təklif olunur.

Sonra Nizami Səfərov "İcra haqqında" qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə əlaqədar bildirib ki, qanunun 7.1.4-cü və 84.1-ci maddələrində dəyişiklik edilməsi nəzərdə tutulub. Birinci halda icra sənədlərində göstərilən məlumatlar sırasına tələbkar və borcluya aid məlumatlar əlavə edilir. İkinci maddə üzrə isə icra məmurunun qəbul etdiyi qərarların icra olunmamasına görə həmin subyekt tərəfindən inzibati xəta haqqında protokolun tərtib edilməsi təklif olunur.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Spiker bildirib ki, gündəliyin son iki məsələsi də ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub.

Gündəliyin 21-ci məsələsi - Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində, Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə və "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov məlumat verib. O bildirib ki, layihədə ölümün qeydə alınması, uşağın övladlığa götürülməsi ilə bağlı dövlət qeydiyyatının aparılması, "Elektron məhkəmə" informasiya sistemindən ötürülən məlumatlar əsasında vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı zamanı şəhadətnamələrin verilməsi qaydası təkmilləşdirilir.

Qanun layihəsi ilə bağlı Ailə, qadın və uşaq məsələləri, İqtisadi siyasət, sənaye və sahibkarlıq və Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitələrinin rəyləri dinlənildikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Gündəliyin son məsələsi barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov məlumat verib. Bildirib ki, birinci oxunuşda təqdim olunan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsində ölümün qeydə alınması qaydalarının pozulmasına görə inzibati məsuliyyətin müəyyən edilməsi və həmin inzibati xətaya görə tənbeh tədbirinin tətbiq edilməsi ilə əlaqədar məcəlləyə yeni maddə əlavə olunur.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## *Azərbaycan XİN:* "Fransanın əsassız ittihamları bu ölkənin vasitəçilik səylərinin bir daha nəzərdən keçirilməsini labüd edir"

"Fransa Respublikasının Prezidenti Emmanuel Makronun sözügedən müsahibəsində Azərbaycana qarşı yönələn, daha çox daxili auditoriyaya hesablanmış, tamamilə birtərəfli və açıq şəkildə Ermənistanı müdafiə edən fikirləri qəbuledilməzdir və Fransa dövlət başçısının Azərbaycana qarşı səsləndirdiyi əsassız ittihamları rədd edirik".

AZƏRTAC xəbər verir ki, bu sözlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Fransa Prezidentinin 2022-ci il 12 oktyabr tarixli müsahibəsində Azərbaycana qarşı səsləndirdiyi fikirlərə dair şərhində qeyd olunub.

"Fransa Prezidenti məhz o dövlət başçısıdır ki, Ermənistanın Azərbaycan ərazilərini 30 ilə yaxın işğal atında saxlaması, bu torpaqlardakı qanunsuz fəaliyyəti, beynəlxalq hüququn fundamental prinsiplərini heçə sayaraq Azərbaycanın ərazi bütövlüyünü və yüz minlərlə azərbaycanlının hüquqlarını kobud şəkildə pozması, BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməməsi barədə, ölkəsi Minsk qrupunun həmsədri olmasına rəğmən, bir kəlmə də olsun söz deməyib. Fransa Prezidenti, təəssüf ki, bu günədək Ermənistan tərəfindən üçtərəfli Bəyanatın müddəalarının yerinə yetirilməməsi, Azərbaycan ərazilərində minalar basdırmaqla bölgədəki təhlükəsizliyə hədə törətməsi barədə də susur.

Azərbaycan öz növbəsində hazırda Minsk qrupunun fəaliyyət göstərməsinin qeyri-mümkünlüyünü nəzərə alaraq, Fransa Prezidentinin iki ölkə arasında münasibətlərin normallaşması prosesində vasitəçilik təşəbbüslərinə yox deməyib və bu günədək E.Makronun vasitəçiliyi ilə 2022-ci il fevralın 4-də və oktyabrın 6-da dördtərəfli görüşlər baş tutub. Ancaq Fransa Prezidentinin Azərbaycana qarşı səsləndirdiyi fikirlər onun vasitəçilik səylərinin neytrallığını və qərəzsizliyini ciddi sual altında alır.

Azərbaycanın bölgədə sülhü, sabitliyi və inkişafı təmin etmək, beynəlxalq hüququn prinsiplərinə hörmət əsasında münasibətləri normallaşdırmaq cəhdləri qarşılığında Fransanın birtərəfli mövqeyi və əsassız ittihamları bu ölkənin vasitəçilik səylərinin bir daha nəzərdən keçirilməsini labüd edir", - deyə XİN-in Mətbuat xidməti idarəsinin şərhində vurğulanıb.

## Ermənistanın "böyük bacısı"nın növbəti riyakarlığı

### Fransa qərəzli fəaliyyətini davam etdirir

İkinci Qarabağ müharibəsinin reallıqlarından biri Fransanın özünü ifşa etməsi oldu. Müharibənin ilk günlərindən prezident Emmanuel Makron ölkəsinin neytrallığını unudaraq tam ermənipərəst siyasət yürütdü. Əlbəttə, onun bu addımı Prezident İlham Əliyevin qətiyyətli mövqeyi qarşısında heç bir uğur qazanmayaraq iflasa uğradı. Makronun anti-Azərbaycan mövqeyi Ermənistanın kapitulyasiya barədə məlum sənədi imzalamasından bu günə kimi davam etməkdədir.

Fransa prezidenti son zamanlar Azərbaycanla Ermənistan arasındakı danışıqlarda, "Brüssel prosesi"ndə, sülh müqaviləsinin hazırlanmasında özünü əsas vasitəçilərdən, söz sahiblərindən biri kimi göstərməyə çalışır. Lakin belə görünür ki, onun təcrübəsinin, diplomatiya savadının səviyyəsi imkan vermir ki, heç olmasa, zahirən də olsa vasitəçi statusuna uyğun bitərəflik, neytrallıq nümayiş etdirsin. Əksinə, hər addımda Azərbaycanın ünvanına absurd, reallıqdan uzaq, beynəlxalq hüquqa zidd ittihamlar səsləndirərək Ermənistana açıq dəstək mesajları verir.

Bu günlərdə "France 2" telekanalına müsahibəsində Makron bir qədər də irəli gedərək, Azərbaycanı sərhədboyu hücuma keçməkdə qınayıb: "Ermənistan bizim unikal əlaqələrimiz olan ölkədir. Azərbaycan sərhədboyu bir neçə hücum həyata keçirib. Biz bunu pisləmişik. Biz Ermənistanı buraxmayacağıq. İki il əvvəl beynəlxalq səviyyədə tanınmayan və mübahisəli ərazi olan dağlıq Qarabağda müharibə gedirdi, amma Ermənistan Qarabağda idi, çünki Qarabağ bu ölkənin ürəyindədir. Azərbaycan çoxsaylı itki və şiddətli səhnələrlə dəhşətli müharibəyə başladı və bu ərazini işğal etdi".

Bunları BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan, Azərbaycanın ərazi bütövlüyünü tanıyan, eyni zamanda da 30 ildir Qarabağ münaqişəsinin həllində, guya, vasitəçi rolunda çıxış edən dövlətin başçısı deyir. Makronun bu açıqlamalarını siyasi, diplomatik naşılıq, savadsızlıq və təcrübəsizlik kimi də qələmə verə bilərik.

Vətən müharibəsinə kimi beynəlxalq ictimaiyyət Ermənistanın Qarabağ danışıqlarında qeyri-konstruktiv mövqe nümayiş etdirməsinə, status-kvonun qorunub saxlanması cəhdlərinə, danışıqların pozulmasına yönəlik addımlarına kəskin iradını bildirmirdi. Ona görə Ermənistan artıq fəaliyyətini dayandırmış ATƏT-in Minsk qrupunun həmsədrlərinin bəyanatlarında əks olunmuş status-kvonun saxlanmasının yolverilməzliyi, hərbi əməliyyatlardan çəkinməsi və münaqişənin sülh yolu ilə həlli təkliflərini də hesaba almırdı.

1992-ci ildə yaradılan Minsk qrupu və bu qrupun 1997-ci ildən həmsədrlərindən biri kimi Fransa münaqişənin ədalətli həlli üçün təcavüzkara qarşı heç bir təzyiq göstərmək niyyətində olmayıb. Qrupun qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, suverenliyinin bərpasının zəruriliyi bildirilirdi. Lakin tərəfsiz vasitəçilik missiyasını üzərinə götürmüş ATƏT-in Minsk qrupunun həmsədrləri münaqişədə obyektiv ola bilməzdilər.

Təcavüzkar Ermənistana qarşı heç bir əməli tədbirin görülməməsi ATƏT-in nüfuzuna xələl gətirməklə bərabər, onun tərkibində yaradılan Minsk qrupuna olan ümidləri də heçə endirmişdi. Ermənistan isə danışıqlar adı ilə imitasiya ilə məşğul idi. ATƏT-in Minsk qrupunun mücərrəd və ənənəvi bəyanatları isə status-kvonu qoruyub saxlamağa çalışan Ermənistanı hər dəfə bir az da şirnikləndirirdi. ATƏT-in Minsk qrupu, əslində, təcavüzkarı öz adı ilə çağırmalı, onu sülhə məcbur etmək üçün BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələr əsasında qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxmasını birmənalı şəkildə tələb etməli idi. Lakin bunu etmirdi.

Minsk qrupunun həll etməli olduğu problemi 2020-ci ilin Vətən müharibəsində Azərbaycan hərbi yolla həll etdi. Müharibə müddətində də Fransa problemin sülh yolu ilə həllinin mümkünlüyünü diqqətə çatdırırdı. Ancaq onların sülh yolu ilə yoluna qoya bilmədiyi problemi Azərbaycan güc yolu ilə həll etdi.

Ümumiyyətlə, Fransa prezidentinin həm müharibə, həm də postmüharibə dövründəki açıqlamaları göstərir ki, o, haqsızlığın və işğalçının yanındadır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***



# Azərbaycanı qaliblər ölkəsinə çevirən PREZİDENT

Müasir parlaq tariximiz Azərbaycan xalqının müstəqil, müdrik seçiminin məhsuludur. Arzuladığımız qüdrətli dövlətin vətəndaşlarıyıq. Bu möhtəşəm tarixi bizə yaşadan isə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Prezident İlham Əliyevdir.

Ölkəyə rəhbərlik etdiyi son 19 ildə cənab İlham Əliyevin gördüyü fantastik işlər ona təkcə ölkə daxilində deyil, beynəlxalq aləmdə də böyük hörmət, nüfuz qazandırıb. Səmimiliyi, milli təəssübkeşliyi, Azərbaycan sevgisi, vətəninə, xalqına sədaqəti, qətiyyəti, prinsipiallığı və ən nəhayət, 30 illik həsrətimizə son qoyan Vətən müharibəsində Baş Sərkərdə kimi Qarabağı işğaldan azad etməsi ona ümumxalq sevgisi qazandırıb.

## 19 ilin uğur salnaməsi

19 il öncə, 2003-ci il oktyabrın 15-də keçirilən prezident seçkilərində cənab İlham Əliyevin xalqın mütləq əksəriyyətinin etimadını qazanaraq Azərbaycan Prezidenti seçilməsi də məhz bu sevginin, inamın əyani təzahürü idi. Xalq cənab İlham Əliyevi alternativsiz lider kimi qəbul edərək onu özünə rəhbər seçdi və bu günədək baş verən proseslər bu seçimin nə dərəcədə doğru olduğunu isbatladı.

Cənab İlham Əliyevin Prezident kimi fəaliyyətə başlamasının 19-cu ili tamam olur. Amma bu, o demək deyil ki, İlham Əliyev missiyası yalnız 19 illə tamamlanır. Ulu Öndər Heydər Əliyev ailəsində dünyaya göz açmaqla, bu dahi şəxsiyyətdən öyrəndikləri həyatının həm siyasi əlifbası, həm də fəaliyyət müntəxabatı olub.

2003-cü ildən vətəndaşlarından etimad mandatı alan Prezident İlham Əliyev məhz xalqın sosial-rifah halının yaxşılaşdırılması, dövlətin qüdrətinin daha da artması istiqamətində həyata keçirdiyi inkişaf konsepsiyası ilə həm alternativsizliyini, həm də hər bir azərbaycanlının Prezidenti olduğunu sübut etdi.

Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, xalqın 30 illik həsrətinə son qoyan Ali Baş Komandan İlham Əliyev həm də xilaskar liderdir. Çünki məhz İlham Əliyevin Sərkərdəliyi ilə çoxlarının qeyri-mümkün hesab etdiyi Qarabağ münaqişəsi cəmi 44 günə həll olundu. Uzun illər dünya dövlətlərinin əksəriyyətinin himayə etdiyi işğalçı Ermənistan İlham Əliyevin hərbi-siyasi diplomatiyası qarşısında diz çökdü.

Bu Zəfər 19 illik müstəqil, qətiyyətli, prinsipial siyasətin bariz təcəssümüdür. Məhz cənab İlham Əliyevin siyasi iradəsi, düşünülmüş və hərtərəfli təhlildən keçmiş siyasi strategiyası, sərkərdəlik məharəti sayəsində Azərbaycanın bütün ərazisində suveren hüquqlarımız bərpa edildi, qalib dövlətə çevrildik, müzəffər xalq olduq, ölkəmiz bütün dünyaya yeni imicdə göründü, beynəlxalq aləm Azərbaycanı qüdrətli dövlət kimi yenidən kəşf etdi.

## Vətən müharibəsində 320 idmançı şəhidlik zirvəsinə ucalıb

Sentyabrın 27-dən noyabrın 9-dək davam edən Vətən savaşı müddətində Azərbaycan Ordusu tərəfindən 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Noyabrın 20-də Ağdam rayonunun işğal edilmiş 73 faiz ərazisi, o cümlədən Ağdam şəhəri Azərbaycana təhvil verildi. Noyabrın 25-də Kəlbəcər şəhəri də daxil olmaqla, rayonun 147 yaşayış məntəqəsi işğaldan azad edildi. Dekabrın 1-də Laçın şəhəri və 126 yaşayış məntəqəsi Azərbaycana qaytarıldı.

Məhz qalib sərkərdənin diplomatik məharətinin nəticəsində Ermənistan onilliklərlə möhkəmləndiyi, "keçilməz" istehkamlar qurduğu Ağdamı, Laçını, Kəlbəcəri bir güllə atılmadan Azərbaycana qaytardı. Bu, Ali Baş Komandan və qətiyyətli Lider prinsipiallığının, cəsarətinin təntənəsi idi.

Təbii ki, qələbənin əldə edilməsində müasir ordumuzla yanaşı, güclü iqtisadiyyatımız, milli həmrəylik, iqtidar-xalq birliyi mühüm rol oynadı. Azərbaycan Prezidentinin dediyi kimi, daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşməyimiz bizə əlavə güc verdi.

Vətən müharibəsi dövründə Prezident İlham Əliyev bütün cəbhələrdə öndə idi. Cənab İlham Əliyev Ali Baş Komandan kimi hərbi fəaliyyətindən tutmuş informasiya cəbhəsində apardığı mübarizəyə qədər hamısından qalib çıxdı. Tutarlı, sərrast cavabları, dəmir məntiqə əsaslanan arqumentləri ilə dünyanın aparıcı media mənsublarına verdiyi müsahibələrdə Ermənistanın bu sahədə apardığı yalan, heç bir həqiqətə əsaslanmayan böhtan dolu təbliğatını alt-üst etdi.

Müzəffər Ali Baş Komandanın "Dəmir yumruq" əməliyyatını uğurla icra edən Azərbaycan Ordusu cəmi 44 günə düşməni məğlub etdi. Azərbaycan Ordusunun hər bir addımı qəhrəmanlıq dastanına çevrildi. Azərbaycan xalqının qəlbindən ağır daş kimi asılan torpaq həsrətinə son qoyulması ilə əsl sərkərdə olduğunu sübuta yetirən cənab İlham Əliyevin gərgin və yorulmaz əməyi, vaxtında yaradılmış güclü iqtisadiyyat, mükəmməl ordu quruculuğu, Azərbaycana münasibəti köklü şəkildə dəyişmiş xarici siyasət və özünü "dəmir yumruq" kimi göstərmiş xalq-iqtidar birliyi əsasında şanlı qələbə ilə başa çatdı. Rəşadətli Azərbaycan Ordusunun sıralarında Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Bu Zəfərdə Azərbaycan idmançılarının da payı az olmadı. Həmişə beynəlxalq arenalarda bayrağımızı yüksəklərə qaldıran gənc idmançılarımız bu dəfə əzəli torpağımız olan Qarabağda bayrağımızın dalğalandırılmasında yaxından iştirak etdilər.

Hazırda dərs dediyim Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Birinci Qarabağ müharibəsində 33, İkinci Vətən müharibəsində isə 15 tələbə və məzunu şəhid olub. Onlar idman arenalarında olduğu kimi, gərgin döyüşlərdə də mərdlik, cəsarət və şücaət göstərərək adlarını qızıl hərflərlə zəfər salnaməsinə əbədi yazdılar.

İkinci Qarabağ müharibəsində ümumilikdə 988 idmançı iştirak edib ki, onlardan 320-si canlarından keçiblər. Şəhidlərin 179-u futbolla, 27-si güləşlə, 24-ü isə cüdo ilə məşğul olublar.

Beləliklə, sıralarında Azərbaycan idmançılarının da yer aldığı qüdrətli ordumuzun cəsur oğulları şərəfləri ilə ən böyük tariximizi yazdılar, qanları, canları bahasına, heç nədən çəkinmədən, ölümün gözünə dik baxaraq xalqın 30 illik həsrətinə son qoydular.

Hər bir xalqın tarixində xilaskar rolunu oynayan Lider var. O Lider xalqının taleyüklü məsələsinin həllində xilaskarlıq missiyasını üzərinə götürüb cəsarət nümayiş etdirir və adını əbədi olaraq dövlətinin şanlı tarixinə yazdırır. Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən Ali Baş Komandan İlham Əliyev həmin liderlərdən biridir. Çünki məhz İlham Əliyevin sərkərdəliyi ilə çoxlarının qeyri-mümkün hesab etdiyi Qarabağ münaqişəsi cəmi 44 günə həll olundu. Uzun illər dünya dövlətlərinin əksəriyyətinin himayə etdiyi işğalçı Ermənistan İlham Əliyevin hərbi-siyasi diplomatiyası qarşısında aciz qaldı.

Bu gün isə Prezident İlham Əliyev Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi üçün uğurlu diplomatiya yürüdür. Məğlub Ermənistanla sülh müqaviləsinin imzalanması üçün danışıqlar aparılır. Siyasi proseslər göstərir ki, tezliklə tərəflər arasında Azərbaycanın maraqları çərçivəsində sülh müqaviləsi imzalanacaq. Bundan sonra isə tarixinin ən qüdrətli Azərbaycanı Prezident İlham Əliyevin müstəqil və qətiyyətli siyasəti ilə regionda ən güclü dövlət kimi daha böyük zəfərlərə imza atacaq.

***Hicran ŞƏRİFOV,***
***Beynəlxalq dərəcəli hakim, MOK-un Nəzarət-Təftiş Komissiyasının sədri, ADBTİA-nın baş müəllimi***

# Dünyanın ehtiramla yanaşdığı lider

Xalqımızın Zəfəri ilə başa çatan Vətən savaşının yaratdığı əsas reallıqlardan biri Azərbaycanın tarixində yeni inkişaf mərhələsinin başlanmasıdır. Bu mərhələdə qarşıya qoyulan prioritetlər bəllidir və Prezident İlham Əliyevin də elan etdiyi kimi, indi dövlətimizin milli ideyası işğaldan azad olunmuş ərazilərin bərpası, Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasıdır.

Bəli, bu gün dönüb geriyə, tarixə nəzər salanda cənab İlham Əliyevin rəhbərliyi ilə ötən 19 ildə keçilən yüksəliş yolunun nə qədər möhtəşəm, nə qədər qürurverici olduğunu görürük. Azərbaycanı inkişaf yoluna çıxaran İlham Əliyev özünün uzaqgörən, qətiyyətli və müdrik siyasəti ilə həm də xalqımızın tarixi arzusunu reallaşdıraraq, torpaqlarımızın işğaldan azad olunmasını təmin etdi.

## Milli maraqlarımızı layiqincə təmin edən siyasət

İndi işğaldan azad edilən torpaqlarımız yenidən qurulur. Amma biz bunu sadəcə bərpa prosesi kimi nəzərdən keçirmirik. Bunu həm də İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sürətli inkişafının, yüksəlişinin məntiqi nəticəsi kimi dəyərləndiririk. Eyni zamanda biz bu prosesi Azərbaycanın milli maraqlarının qətiyyətlə təmin olunmasının, dünya erməniliyinin məğlub edilməsinin nəticəsi, ikili standartlar üzərində qələbə kimi fikir süzgəcindən keçiririk.

Bütün bu uğurların, qələbələrin müəllifi isə Prezident İlham Əliyevdir. İlham Əliyevin yürütdüyü qətiyyətli və təmkinli siyasət, eyni zamanda hücum diplomatiyası bizi addım-addım bu qələbəyə yaxınlaşdırdı və 44 günlük müharibədə zəfərimizi təmin etdi.

Artıq Azərbaycan üçün başqa reallıqlar hakimdir. İndi Azərbaycan deyəndə həm də müharibədə qalib gələn ölkə yada düşür. Heydər Əliyevin qoruduğu və qurduğu, İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan indi haqlı olaraq dünyanın sayılıb-seçilən, etimad və ehtiram göstərilən dövlətlərindəndir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, biz Azərbaycan vətəndaşları olmağımızla haqlı olaraq fəxr edirik: "Biz azad ölkədə yaşayırıq, sabitlik olan ölkədə yaşayırıq, özünə güvənən ölkədə yaşayırıq. Biz haqlı olaraq fəxr edirik ki, Azərbaycan vətəndaşlarıyıq".

## Qətiyyətlə reallaşdırılan milli ideya

Azərbaycan güclü dövlətdir və torpaqlarımızı azad etdiyimiz kimi, düşmənin onilliklər ərzində dövlətimizə, xalqımıza vurduğu maddi yaraların da hamısı sağalacaq. İlham Əliyevin qətiyyəti, Azərbaycanın iqtisadi gücü sayəsində xalqımızın milli ideyasına çevrilən Qarabağın və Şərqi Zəngəzurun bərpası prosesi sürətlə gedir. Vətən müharibəsinin başa çatmasından ötən qısa müddətdə Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işləri bütün məziyyətləri ilə yanaşı, dövlətimizin gücünün təsdiqidir. Artıq iki ilə yaxındır ki, dünya dövlətimizin möhtəşəm quruculuq əzminə şahidlik edir. Qısa dövr ərzində Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma işlərinin miqyası olduqca əzəmətlidir. Zəfər yolunun, Füzuli Beynəlxalq Hava Limanının inşası, Zəngilanda Ağalı kəndinin yenidən qurulması azad olunmuş ərazilərimizin bərpasının ilk möhtəşəm qədəmləridir. Bu cür nəhəng infrastruktur layihələrin icrasının başa çatdırılması torpaqlarımızın xilaskarı Prezident İlham Əliyevin böyük siyasi iradəsinin təcəssümüdür.

Bu məsələdə əsas məqamlardan biri də ondan ibarətdir ki, Azərbaycan dövləti bərpa və yenidənqurma işlərini öz daxili imkanları hesabına həyata keçirir. 2021-2022-ci illərdə bu məqsədlə dövlət büdcəsindən 5 milyard manata yaxın vəsait ayrılıb. 2023-cü ilin dövlət büdcəsində isə Qarabağ və Şərqi Zəngəzurun bərpasına 3 milyard manatın ayrılması nəzərdə tutulur.

Vətən müharibəsindən sonra Azərbaycanın yaratdığı başqa bir reallıq isə Ermənistanın öz öhdəliklərinə əməl etməyə məcbur olunmasıdır. Bu baxımdan indiyədək keçirilən bütün görüşlər Azərbaycanın bu istiqamətdə maraqlarının təmin olunması ilə nəticələnib. Son olaraq Praqa görüşündə Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıması isə İlham Əliyevin növbəti diplomatik qələbəsi oldu.

## Sosial-iqtisadi islahatlar sürətli və effektivdir

Qarabağın və Şərqi Zəngəzurun bərpası ilə yanaşı, Prezident İlham Əliyevin qarşıya qoyduğu əsas hədəflərdən biri tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın tezliklə inkişaf etmiş dövlətlərin cərgəsinə qoşulmasıdır. Təbii ki, bu hədəfə çatmaq üçün həm iqtisadi, həm sosial sahədə mühüm keyfiyyət dəyişikliklərinin baş verməsi vacibdir. 2022-ci il ərzində Azərbaycan iqtisadiyyatında qeydə alınan artım tempi, o cümlədən vətəndaşların sosial rifahının ötən illərlə müqayisədə yüksəlməsi ondan xəbər verir ki, bütövlükdə respublikamızın yüksəlişinə xidmət edən, Azərbaycanı inkişaf etmiş dövlətlərin cərgəsinə doğru aparan sosial-iqtisadi islahatlar uğurla və sürətlə reallaşır.

Pandemiyanın yaratdığı çətinlikləri qətiyyətlə dəf edən Azərbaycanda hələ 2021-ci il tarixə uğurlu mərhələ kimi düşdü. Dünyada davam edən və yeni formaları meydana çıxan müxtəlif böhranlar şəraitində, o cümlədən Vətən müharibəsindən dərhal sonra Azərbaycanın ili uğurla başa vurması həyata keçirilən siyasətin düzgünlüyündən xəbər verdi ki, bu da respublikamızda gedən səmərəli iqtisadi proseslərin və islahatların məntiqi nəticəsidir.

2022-ci ildə isə iqtisadi sahədə artım daha sürətlə baş verdi. Statistikaya nəzər yetirsək, bunun şahidi olarıq. 2022-ci ilin yanvar-avqust aylarında ölkədə 84 milyard 880,4 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,8 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur. İqtisadiyyatın qeyri neft-qaz sektorunda isə 10,3 faizlik əlavə dəyər yaranmışdır. Bu dövr ərzində ölkənin valyuta ehtiyatları 55,9 milyard dollar təşkil etməklə, müstəqilliyimiz dövründə rekord həddə çatıb.

İqtisadiyyatda baş verən artım həm də iqtisadi müstəqilliyimizin güclənməsi deməkdir. İqtisadi müstəqillik isə öz növbəsində Azərbaycanın regionda və qlobal miqyasda mövqelərini daha da möhkəmləndirən siyasi amillərdən biridir. Görünən odur ki, vətəndaşların rifahının davamlı şəkildə yüksəldilməsini hər zaman prioritet məsələ kimi müəyyən edən Azərbaycan müharibədən yeni çıxan ölkə olmasına baxmayaraq, sosial sahədəki uğurlu siyasətini yenə də nümunəvi şəkildə həyata keçirməkdədir. Sosial tədbirlərin reallaşdırılması üçün böyük maliyyə vəsaiti tələb olunsa da, dövlət vətəndaşlarının yaşayış şəraitinin davamlı olaraq yaxşılaşdırılmasını, həssas əhali qruplarının sosial təminatının daha da gücləndirilməsini diqqətdə saxlayır. Bu da göstərir ki, İlham Əliyevin sosial siyasətinin mərkəzində vətəndaşların rifahının yüksəldilməsi dayanır.

## Beynəlxalq müstəvidə söz sahibi olan dövlət

İlham Əliyevin müdrik rəhbərliyinin nəticəsi olaraq Azərbaycan torpaqlarını işğaldan azad etməklə, onu yenidən qurmaqla, həmçinin sosial-iqtisadi sferada inkişafa nail olmaqla yanaşı, beynəlxalq müstəvidə də söz sahibi olan dövlət kimi çıxış edir. Beynəlxalq tərəfdaşlığın, sivilizasiyalararası əməkdaşlığın ən səmərəli platformasına çevrilən Azərbaycan çox mühüm forumlara, konfranslara evsahibliyi edir, irəli sürdüyü qlobal miqyaslı təşəbbüslər beynəlxalq birlik tərəfindən daim dəstəklənir.

Məlumdur ki, müstəqilliyinin bərpasının cəmi 20-ci ilində bir çox dövlətlərin həsəd aparacağı siyasi uğura imza atan Azərbaycan BMT Təhlükəsizlik Şurasının üzvü seçildi. Bu gün isə Azərbaycan BMT-dən sonra dünyanın ikinci böyük təşkilatı olan Qoşulmama Hərəkatına sədrlik edir. Bütün bunlar bir daha təsdiq edir ki, Prezident İlham Əliyevin müdrik rəhbərliyi Azərbaycanı qlobal siyasətin, beynəlxalq platformaların önünə çıxarıb.

Azərbaycan həm də bir çox qlobal proseslərə, o cümlədən enerji təhlükəsizliyi məsələlərinə söz sahibliyi edir. Son aylarda Avropa İttifaqı ilə genişlənən müzakirələr, enerji sahəsində əməkdaşlıq bunu təsdiq edən mühüm siyasi faktorlardan biridir. Bütün bunları şərtlərindən əsas amil Prezident İlham Əliyevin yürütdüyü siyasətdir.

Beləliklə, bugünkü ziddiyyətli və gərgin dünya nizamında istənilən məsələ üzrə Azərbaycanın milli maraqlarını qətiyyətlə təmin edən Prezident İlham Əliyevin yürütdüyü siyasət beynəlxalq miqyasda ehtiramla qarşılanır. İlham Əliyevə göstərilən ehtiram isə Azərbaycana göstərilən etimaddır. İlham Əliyevin yüksək imici Azərbaycanın yüksək beynəlxalq nüfuzu deməkdir.

***Günel MƏLİKLİ,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri***

Zəfərin izi ilə







# "Zəngilanı bizə qaytaran İlham Əliyevə ömür boyu borcluyuq"

## Zəfərin möcüzəsi "ağıllı kənd"də həyat qaynayır











**Avtomobilin işığı gecənin bağrını dəlib, sürətlə irəlilədikcə həyəcanımız bir qədər də artır. Sübh tezdən olduğundan hava da yavaş-yavaş aydınlaşır, dağların arxasından günəş oğrun-oğrun boylanıb, göy üzünü əlvan rəngə boyayır...**

Yaxınlıqdakı yalxı dağların sinəsi qıpqırmızı rəng alır. Günəş şəfəqlərini səpələdiyi torpaq da qızılı rəngə bürünür. Bir anlığa düşünürsən ki, keçdiyimiz bu torpaqları qızardan günəşin şəfəqləri yox, iki il əvvəl bu torpaq uğrunda canını fəda etmiş şəhidlərin qanıdır...

Məsafə getdikcə qısalır və bir azdan Zəfərin ilk ünvanı sayılan "Ağıllı kənd" yaşayş kompleksinə - Zəngilanın Ağalı kəndinə yetişəcəyik. O Ağalı ki, düşmənin 30 ildə xarabalığa çevirdiyi məkanda tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın cəmi iki ilə yaratdığı möcüzə sayılar. İndi həmin Ağalıda həyat yenidən qaynamağa başlayıb.

Nəhayət, uzanan yollar bizi dağların yamacında, Arazın sağ sahilində məskən salmış Ağalıya çatdırır. Hündür dağ yolundan baxanda gözümüz önündə gözəlliyi ilə insanı heyrətləndirən bir mənzərə açılır...

### "Ağıllı kənd"də işsiz adam yoxdur

Dan yeri yenicə sökülür. Hələ ki Ağalı kəndi səhər yuxusundan oyanmayan qayğısız bir körpəyə bənzəyir...

Yüksəklikdən kəndə tamaşa edirik və bu anda insana elə gəlir ki, gözlərin önündə canlanan real kənd yox, hansısa məşhur rəssamın yaratdığı tablodur.

Kənddə xüsusi layihə ilə tikilmiş müasir evlər, daş döşənmiş, geniş və yaraşıqlı küçələr, inzibati binalar göz oxşayır. Bütün evlərin, binaların damında günəş panelləri qurulub. Kənddə elektrik xətti yoxdur. İçərisinə qənbər daşı döşənmiş arx da bu gözəlliyə əlavə bir çalar qatır.

Bir azdan "ağıllı kənd"də həyat qaynayacaq. Böyüklər işə, uşaqlar məktəbə tələsəcəklər...

Şanlı Zəfərimizin memarı Prezident İlham Əliyev 2021-ci ilin aprelində bu kəndin təməlini qoyanda bəlli oldu ki, 2016-cı ildə Cocuq Mərcanlıdan başlayan Böyük qayıdış planının icrası tezliklə Zəngilanla davam edəcək.

Az vaxtda 110 hektardan çox ərazidə sürətlə tikinti işləri aparıldı. İnnovativ tikinti materiallarından istifadə olunmaqla tam izolyasiya olunmuş 200 fərdi ekoloji ev, 4 qeyri-yaşayış binası, 360 şagird yerlik məktəb, 60 yerlik uşaq bağçası tikilərək istifadəyə verildi. Hazırda kənddə 66 ailə olmaqla 325 nəfər yaşayır.

Ağalıda müasir şəhərsalma standartları tam tətbiq olunur desək, səhv etmərik. Burada çirkab və sel sularının axıdılması üçün kanalizasiya xətti tikilib, kənd sakinlərinin asudə vaxtlarının mənalı təşkili üçün gözəl və yaraşıqlı park-meydan salınıb. Unikal gözəlliyi ilə seçilən fəvvarə və memarlıq abidəsi göz oxşayır. Xüsusi olaraq piyada və velosiped yolları çəkilib.

Kənd meydanında Dövlət Xidmətləri Mərkəzi yaradılıb. Burada kənd sakinlərinə "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" mərkəzi, DOST mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzi və Bank xidmətləri, iaşə obyektləri, ət kəsimi məntəqələri, mağazalar şəbəkəsi fəaliyyət göstərir.

Çox gözləməli olmuruq, küçələrdə hərəkətlilik başlayır. "Ağıllı kənd"in sakinləri evlərindən çıxıb işə tələsirlər...

Kənd icra nümayəndəsi Gəray Hüseynov bizimlə söhbət zamanı qeyd edir ki, Ağalıya köçmək istəyən sakinlərimiz növbəyə durublar. Bütün ağalılılar doğma yurda qayıdışı səbirsizliklə gözləyirlər: "30 illik məcburi köçkün həyatından sonra dövlətimiz bizə xəyalımıza belə gəlməyəcək bir şərait yaradıb. İşləmək istəyənlər üçün iş yerləri yaradılıb. Hazırda kənddə "Gill Med Sağlamlıq və Tekstil və tibb ləvazimatları istehsalı" müəssisəsi, çörək sexi, "Şirin Aqro" fəaliyyət göstərir. Yaxın günlərdə tikintisi başa çatmaq üzrə olan Zəngilan Beynəlxalq Aeroportu və "Dost Aqropark" da fəaliyyətə başlayacaq ki, bu da əlavə iş yerləri deməkdir".

### Ağalının 82 yaşlı ən qocaman sakini: "İlham oğlum mənə cənnəti bağışlayıb"

Söhbət əsnasında bəlli olur ki, kəndin ən yaşlı sakini Mariya Fərəcovadır. Elə ilk olaraq da Mariya nənənin yaşadığı evə üz tuturuq. Mariya nənə həmişə olduğu kimi, bu gün də yuxudan erkən durub səhər-səhər toyuqları hindən açıb qarşılarına dən səpirdi. 82 yaşı olmasına baxmayaraq, olduca qıvraq və işgüzardır. Həyətində səliqə ilə tərəvəz məhsulları, göy-göyərti, xiyar-pomidor da əkib, becərib.

Darvazanı döyüb həyətə daxil oluruq. Bizi çox mehribanlıqla qarşılayan Mariya nənə söhbətə zarafatla başlayır:

- Xoş gəlmisiniz, a bala, ağacda yatana oxşuyursuz. Yəqin xeyirdir inşallah. Uzaq yol gəlmisiz, keçin içəri. Pomidor-yumurta bişirim yeyin. Vallah öz toyuğumun yumurtası, özüm əkdiyim pomidordan olacaq, tər-təmiz, yeməli...

Təşəkkürümüzü bildirib gəlişimizin səbəbini izah edirik və elə həyətdəcə söhbətə başlayırıq. Kəndin ən yaşlı sakini həyat hekayəsini danışır:

- 1940-cı ildə anadan olmuşam. Uşaqlığım müharibə illərinə, gəncliyim qıtlığa düşdü. Bir qədər yaşlaşanda yenicə gün görməyə başlamışdıq ki, erməni dığaları araya qan saldılar. 1993-cü ildə yurdumuzu, yuvamızı başına qoyub, canımızı götürüb, soyuqda, qiyamətdə Arazdan İrana keçdik. Oradan da canımızı götürüb qaçdıq.

28 il yurd-yuvasız yaşadıq. Adamın üstündə Allah var. Dövlət bizə yaxşı baxdı. Ev tikdi, şərait yaratdı. Allah Prezidentimizin, həyat yoldaşı Mehriban qızımın canını sağ-salamat eləsin. Yanımızda oldular, qayğımıza qaldılar. Heç bir narazılığımız yox idi. Tək nigarançılığımız torpaq idi ki, onu da İlham oğlum şəxsən özü həll etdi. İnanmırdım ki, qoca vaxtımda bir də Zəngilanı, Ağalını görə bilim. Amma ömrü verən də, alan da Allahdır. Demək, Ağalını görmək qismətimdə varmış. Ömrü uzun olsun Prezidentimiz İlham Əliyevin, nə qədər alqış eləsək də, azdır. Çünki İlham oğlum mənə cənnəti bağışlayıb. Bu böyüklükdə ev-eşik tikib verib. Vallah bu rahatçılıq mənim üçün möcüzədir.

7 övlad anasıyam - 3 oğlum, 4 qızım var. Şükür Allaha ki, oğlanlarım da doğma kəndimizə qayıdıblar. Hamısı da işləyir. Hər gün Yaradana şükür, torpaqlarımızı bizə qaytaran əsgərlərimizə, dövlətimizin başçısına dualar edirəm. Bundan sonra ölsəm də, dərdim yoxdur.

### "Ağıllı kənd"ə qohumlarıgilə qonaq gələnlər geri qayıtmaq istəmirlər

Mariya nənə ilə maraqlı söhbətimizi bitirib qonşuluqdakı evə üz tuturuq. Hasardan boylanan məktəbliləri görüb hiss etdik ki, bu, çoxuşaqlı ailədir. Uşaqlar evlərindən çıxıb məktəbə tərəf üz tutdular. Böyük və yaraşıqlı ikimərtəbəli evin qapısını döyürük. Ev sahibləri bizi köhnə tanışları kimi heç nə soruşmadan evə dəvət edirlər.

Bəlli olur ki, İsmayılovlar ailəsi Ağalıya birinci köçlə gələnlərdəndir. Ev sahibləri Fərmayil və Arzu İsmayılovanın 6 övladı var. Böyük qızları Aydan ailəli, böyük oğlanları Orxan Xocavənddə hərbi xidmətdədir. Günel, Aysel, Gülsel və Müzəffər məktəblidirlər.

Arzu xanım deyir ki, yeni mənzildə yeni həyata başlayıblar və heç bir problemləri yoxdur: "Bizə bu gözəl həyatı yaşadan Prezidentimizə təşəkkür edirəm. 29 illik qaçqın həyatından sonra elimizə-obamıza qayıtmışıq. Vallah, bu həyat bizə möcüzə kimi görünür. Bütün sosial xərclərdən azadıq. Dövlətin də bir əli üstümüzdədir. Bu gün yenə yardım almışıq. Yoldaşım işləyir, ailəmizi dolandırır. O qədər darısqal, şəraitsiz otaqlarada yaşamışıq ki, indi bu ikimərtəbəli 5 otaqlı, hər cür şəraiti olan evdə yaşadığımıza özümüz də inana bilmirik. Bu evi biz bütün ömrümüz boyu işləsək də, tikə bilməzdik. Amma dövlətimiz, Prezidentimiz var olsun ki, vətəndaşlarına belə diqqət, qayğı göstərir. Zəngilanı, Ağalını bizə qaytaran İlham Əliyevə ömür boyu borcluyuq".

Söhbət əsnasında bəlli olur ki, evdə qonaq da var. Fərmayil İsmayılovun qardaşı Rəfael həyat yoldaşı ilə birgə Sumqayıtdan qonaq gəlib. Söhbətə qoşulan Rəfael İsmayılov keçmişi və bu günü müqayisə edir: "1993-cü ildə Zəngilan işğal olan gün buranı sonuncu tərk edənlərdənik. Arazdan keçib İrana, oradan da Beyləqana getdik. Başımıza gəlməyən dərd, müsibət qalmayıb. Şükür ki, sağ-salamatıq, doğma kəndimizdəyik. Qardaşımın evinə hələ ki qonaq kimi gəlmişik. Mən də müraciət etmişəm. Kəndimizə qayıdacağım günü səbirsizliklə gözləyirəm. Burada yaradılan bu rahat şəraiti görəndən sonra heç geri qayıtmaq istəmirəm. Gördüyünüz kimi, evlərin üstünə günəş panelləri quraşdırılıb. O panellər günəşdən aldıqları enerjini elektrik enerjisinə çevirir. Evdə daima isti su, internet var. İşıqların sönmə qorxusu yaşanmır. Kənddə işləmək istəyənlər üçün kifayət qədər iş yeri var. Bilmirəm hara düşmüşük. Kəndimiz nağıllar aləminə oxşayır. Gördüklərimə hələ inana bilmirəm. Narahatıq ki, vətəndaş olaraq bizə bu şəraiti yaradan dövlətin borcunu verə bilməyək. Mən bu dövlətin vətəndaşı olduğum üçün qürur duyuram".

### Hər gün yuxudan duranda torpağı öpürəm

Evində qonağı olduğumuz başqa bir Ağalı kənd sakini Şahin Mahmudov ikinci köç zamanı, sentyabrın 10-da doğma yurda gələnlərdəndir. Şahin 3 övlad atasıdır. Fərdi sahibkarlıqla məşğul olan Şahin indi Ağalıda xoşbəxt həyat sürür:

- Bakıda Nəsimi rayonunda yataqxanada yaşayırdım. Uşaqlığımın keçdiyi bu yerləri bir an belə unutmurdum. Sözün açığı, yenidən bu torpaqlara qayıdacağımıza gümanım gəlmirdi. 2020-ci ilin oktyabrında ordumuzun Zəngilanı düşmən işğalından azadetmə xəbərini eşidəndə sevincimdən az qala dəli olurdum. Bu gerçək bir möcüzə idi. Torpağımız düşmən tapdağından xilas edilmişdi. Amma bu tezliklə doğma yurda qayıdacağımızı, belə bir şəraitdə yaşaya biləcəyimizi heç təsəvvürümüzə gətirməzdik. Hər gün yuxudan durub bayıra çıxanda əyilib torpağı öpürəm....

Övladlarım Aqşin, Babək, Amin Bakıda doğulublar. Hər gün onlara Zəngilandan danışardım. Onlar da bu yerin həsrəti ilə böyüyüblər. Eşidəndə ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev bizim kəndi bərpa edir, çox sevindik. Xoşbəxtik ki, 29 ildən sonra öz doğma vəteninə dönən ilk sakinlərdənik. Sevinirəm ki, dövlətin bizə verdiyi bu evdə 3 əsgər böyüyür. Sabah onlar əlinə silah alıb, öz torpaqlarını qoruyacaqlar. Bu gün artıq vətənsiz deyilik, evimiz, eşiyimiz var. Var olsun Prezidentimiz ki, bizə bu xoşbəxtliyi yaşadır.

Mahmudovlar ailəsində bir stəkan çay içib yeni həyatlarında xoş və firəvan günlər arzulayıb yolumuza davam edirik.

29 il əvvəl doğma yurd-yuvasından çıxmaq məcburiyyətində qalan insanlar indi evlərinə qayıtmağın böyük sevincini yaşayırlar. O zaman kəndlərindən çıxarılanda buranı gözyaşları içərisində tərk etmişdilər, 29 ildən sonra geri qayıdanda da gözyaşları selə dönmüşdü. Amma bu, sevinc və qürur gözyaşları idi...

Artıq Ağalıda həyat qaynayır. Hər kəs iş başındadır. Əhalinin məşğulluğu, yaradılan şəraitlə tanış olmaq üçün müxtəlif ictimai-iaşə obyektlərinə baş çəkmək fikrindəyik. Elə bu məqsədlə də ilk olaraq kənddə yaradılmış tibbi təyinatlı tekstil məhsulları, o cümlədən tibbi maska və baxil, uniforma istehsal olunan "Gillmed" tikiş fabrikinə yollanırıq...

*(Ardı var)*

***Rəşad BAXŞƏLİYEV,***
***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

*Bakı-Zəngilan-Bakı*









# Davamlı diqqət, böyük qayğı

## Şəhid ailələri, müharibə əlilləri və veteranlar Sumqayıtda hərtərəfli sosial dəstəklə əhatə olunublar





















İşğal altında olan torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnən İkinci Qarabağ savaşı son ikiəsrlik tariximizin zirvə nöqtəsi oldu. Xalqımız və rəşadətli ordumuz 44 gündə şanlı tarix yazaraq 30 illik işğala son qoydu, ərazi bütövlüyümüzü bərpa etdi.

Bu qələbə ilə Prezident İlham Əliyev Azərbaycanı qalib ölkəyə, Azərbaycan xalqını qalib xalqa çevirdi. Bu möhtəşəm qələbə eyni zamanda milli birliyin təntənəsi oldu, Azərbaycanın hərbi və iqtisadi gücünü dünyaya nümayiş etdirdi. Xalqımız bu müharibədə yumruq kimi bir oldu, vətən torpaqları uğrunda ayağa qalxdı. Bu müharibə xalqımızın əyilməz ruhunu göstərdi. 44 gün ərzində dünya Azərbaycanı yenidən tanıdı, onun rəhbərinin yenilməzliyinə, siyasi müdrikliyinə şahidlik etdi.

### Torpaq uğrunda ölən varsa, vətəndir…

Bu zəfər regionda tamamilə yeni reallıqlar yaradaraq Azərbaycanın həm Cənubi Qafqazda, həm də qlobal miqyasda mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirib. Hərb meydanında qazanılan qələbə son onilliklərdə sürətli yüksəliş dövrünü yaşayan Azərbaycanı beynəlxalq aləmdə həm də qalib dövlət kimi tanıtdı.

İşğaldan azad olunmuş bütün ərazilərimizdə böyük qələbənin təntənəsi yaşanmaqdadır. Düşmən tapdağından qurtulub rahat nəfəs alan torpaqlarımızda başlanan quruculuq işləri gündən-günə sürətlənir, yeni layihələrin icrasına başlanılır. Azərbaycan dövləti bu əraziləri bərpa edir, ona ikinci həyat bəxş edir. Görünən odur ki, Qarabağa Böyük qayıdış proqramı ən qısa müddətdə icra olunacaq.

Tarix həm də sübut edir ki, dövlətlərin və xalqların öz milli hüquqları, torpaqlarının azadlığı uğrunda mübarizələri, işğalçıya qarşı aparılan savaşlar qansız, qadasız ötüşmür. Bu yolda qan da tökülür, qurbanlar da verilir. Dövlət, xalq həm də onda böyük olur ki, onun uğrunda canından keçənlər var. Görkəmli türk şairi Mithat Camal Kuntayın yazdığı kimi, "Torpaq əgər uğrunda ölən varsa, vətəndir".

Bu mənada xalqımızın başını uca tutmağa, qürur hissi keçirməyə tam mənəvi haqqı var. 44 günlük Vətən savaşında vəzifəsindən, rütbəsindən asılı olmayaraq döyüşən bütün hərbçilərimiz - zabitlərimiz, çavuşlarımız, əsgərlərimiz öz hünərləri ilə yeni vətənpərvərlik nünunələri yaratdılar, dastanlar yazdılar. Xalqımızın qəhrəmanlıq tarixini öz rəşadətləri ilə zənginləşdirən qəhrəman oğullarımız bu savaşda öz canlarını fəda etdilər, torpaqlarımızın azadlığı uğrunda müqəddəs şəhidlik zirvəsinə yüksəldilər. Şəhidlərin ruhu şaddır, çünki uğrunda mübarizə apardıqları Vətən torpaqları azaddır. Bu torpaqlar indi bizim üçün daha müqəddəsdir, çünki onun hər qarışına şəhidlərimizin qanı hopub.

Prezident İlham Əliyevin sərəncamı ilə Vətən müharibəsinin başlandığı tarix respublikamızda Anım Günü kimi təsis olunub. Bu tarixin əbədiləşdirilməsi zərurəti ona əsaslanır ki, torpaqlarımızı qanı, canı bahasına işğaldan azad edərək tarixi ədalətin bərpasına nail olan, xalqımızın başını ucaldan qəhrəman hərbçilərimizin qanı yerdə qalmamış, şəhidlərimizin qisası məhz döyüş meydanında alınmışdır.

2021-ci il sentyabrın 27-də - Anım Günündə Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlarımıza və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq yürüş təşkil edildi. Bu yürüş xalqın birliyinin daimi və sarsılmaz olduğunun, Vətənə sevginin, şəhidlərimizə ehtiramın əbədiliyinin növbəti təzahürü idi.

Anım Gününün ikinci ildönümündə isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva şəhidlərin əziz xatirəsini Füzuliyə səfər zamanı rayonun Qaraxanbəyli kəndində yad etdilər. Vətən müharibəsində xalqımız ilk şəhidlərini məhz bu ərazidə vermişdi. Dövlət başçısı buradan bir daha bəyan etdi ki, şəhidlərimizin qanı yerdə qalmadı və döyüş meydanında qisasımızı aldıq: "Bütün Azərbaycan xalqı şəhidlərimizin əziz xatirəsini yad edir. Allah bütün şəhidlərimizə rəhmət etsin. Şəhidlərimiz Vətən, torpaq uğrunda öz canlarını fəda etdilər. Biz öz şəhidlərimizlə fəxr edirik. Qəhrəman əsgər və zabitlərimizlə fəxr edirik. Şəhidlərimizin qanı yerdə qalmadı, biz şəhidlərimizin qanını aldıq. Döyüş meydanında qisasımızı aldıq. Doğma torpaqlarımızı düşməndən azad etdik, ölkəmizin ərazi bütövlüyünü bərpa etdik".

2020-ci il sentyabrın 27-də zəfər yürüşünə başlayan Azərbaycan Ordusu ilk olaraq Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı və Böyük Mərcanlı və Nüzgar kəndlərini işğaldan azad etmişdi. İşğal dövründə Ermənistan bu ərazilərdə bir neçə mərhələdən ibarət möhkəmləndirilmiş müdafiə mövqeyi, mühəndis-maneələr sistemi yaratmışdı. Lakin bunların heç biri ordumuzun qalibiyyət yürüşünün qarşısını ala bilmədi və müharibənin ilk günündə artıq düşmənin bütün müdafiə qurğuları dəf edildi, mövqeləri ələ keçirildi.

Azərbaycan xalqı şəhidlərimizin əziz xatirəsini hər zaman uca tutacaq, ehtiramla anacaq. Həm sentyabrın 27-nin Anım Günü kimi təsis olunması, həm də Bakı şəhərinin ən gözəl yerlərindən birində Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməlinin qoyulması şəhidlərimizin xatirəsinə olan yüksək ehtiramın təcəssümüdür.

Yeri gəlmişkən, qeyd edək ki, Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda döyüşən və şəhid olan əsgər və zabitlərimizin əksəriyyəti məhz müstəqillik dövründə dünyaya gəlmiş mərd oğullar idi. Onlar bu illərdə vətənpərvərlik ruhunda böyümüşlər, tərbiyə olunmuşlar. Məhz bu amil həm də Azərbaycandakı milli həmrəyliyin əsas elementlərindən biri kimi çıxış etmişdir.

Azərbaycan dövləti daim şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına yüksək diqqət və qayğı ilə yanaşmışdır və bu proses hər zaman yüksək səviyyədə davam edir. Şəhid ailələrinin və müharibə əlillərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün Prezident tərəfindən qəbul edilmiş mühüm qərarlar cəmiyyətimiz tərəfindən alqışlarla qarşılanır. Şəhid ailələrinin üzvlərinə dövlət tərəfindən 11 min manat birdəfəlik sığorta ödənişinin, 500 manat Prezident təqaüdünün verilməsi, şəhid uşaqlarının təhsil haqqını ödəməkdən azad olunması, şəhid ailələri və əlillərə mütəmadi olaraq yeni mənzillərin, avtomobillərin verilməsi kimi tədbirlərin keçirilməsi dövlət qayğısının ən böyük nümunəsidir. Bundan əlavə, müharibə iştirakçılarına əlillik dərəcəsindən asılı olaraq birdəfəlik 8800, 6600, 4400 manat sığorta ödənişləri də verilib. Əlillik dərəcəsinə uyğun olaraq, Prezident təqaüdlərinin ödənişi, əlilliyi müəyyən edilmiş şəxslərin pensiya hüququ əldə etməsi və ölkə hüdudları daxilində pulsuz sanatoriya-kurort müalicəsi ilə təmin olunması dövlətin onlara xüsusi diqqətinin təcəssümüdür. Postmüharibə dövründə bu kateqoriyadan olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib. 3850 mənzil şəhid ailələri və müharibə əlillərinə, 264 avtomobil müharibə əlillərinə təqdim edilib. Ümumilikdə, ötən dövrdə 12850 imtiyazlı şəxs mənzil və ya fərdi evlə, 7500 müharibə əlili avtomobillə təmin edilib.

Vətən müharibəsi əlillərinə, şəhid ailələrinə, veteranlara Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən də yüksək diqqət və qayğı göstərilir. Müharibədə yaralanan hərbçilərimiz Heydər Əliyev Fondunun xətti ilə qardaş Türkiyədə müalicə olunublar. Həmçinin müharibə əlilləri fond tərəfindən yüksək texnologiyalı protezlərlə təmin ediliblər.

### Sumqayıtlılar torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına döyüşüblər

Tarixi zəfərə imza atan şəhidlərimizin və qazilərimizin arasında Sumqayıtda doğulub boya-başa çatmış, şəhərə pənah gətirmiş sakinlər də var. Qeyd edək ki, hələ 2020-ci ilin iyul ayında Ermənistanın Tovuzda törətdiyi təxribatdan sonra minlərlə şəhər sakini könüllü olaraq Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt baş idarəsində qeydiyyata düşmüşdü. Vətən müharibəsi isə ilk gündən sumqayıtlıların da işğal altında olan torpaqlarımızın azadlığı uğrunda mübarizə əzminin, vətənpərvərliyinin təsdiqi oldu.

Sonrakı günlərdə könüllü olaraq Vətən savaşında iştirak edən sumqayıtlıların sayı daha da artdı. Sumqayıt ictimaiyyəti həmin günlərdə döyüşə gedənləri alqış sədaları ilə yola salırdı.

Öncə onu qeyd edək ki, sumqayıtlılar hələ Birinci Qarabağ müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda qəhrəmanlıqla döyüşüblər. Bu gün Sumqayıtdakı Şəhidlər xiyabanında dəfn olunan şəhidlərimizin 407 nəfəri Birinci Qarabağ müharibəsində həlak olub. Daha 144 nəfər sumqayıtlı isə Birinci Qarabağ müharibəsində itkin düşmüş sayılır. Bu müharibədə şəhər sakini olan 1000-ə yaxın hərbçi müxtəlif əlillik dərəcəsi almışdır.

2016-cı il Aprel döyüşlərinin şəhidi, polkovnik-leytenant Raquf Orucov, 2020-ci ildə Ermənistanla dövlət sərhədinin Tovuz rayonu istiqamətindəki hərbi təxribatın qarşısını alarkən həlak olmuş general-mayor Polad Həşimov kimi qəhrəmanlar isə bütün sumqayıtlılar üçün vətəni sevməyin yeni nümunələrini yaratdılar. Azərbaycan Silahlı Qüvvələrinin müxtəlif qoşun növlərində xidmət edən sumqayıtlılar Vətən müharibəsində böyük ruh yüksəkliyi ilə döyüşdülər. Suqovuşanın, Cəbrayılın, Hadrutun, Füzulinin, Zəngilanın, Qubadlının və nəhayət, Şuşanın azad olunmasında sumqayıtlılar qəhrəmanlıqla savaşdılar. Onlardan bir neçə nəfəri Vətən Müharibəsi Qəhrəmanı adına layiq görüldü, bir qismi yüksək orden və medallarla təltif olundu.

Vətən müharibəsində 115 nəfər sumqayıtlı şəhidlik mərtəbəsinə yüksəldi. 9 nəfər sumqayıtlı (6 nəfər ölümündən sonra) Vətən Müharibəsi Qəhrəmanı adına layiq görüldü. 21 nəfər sumqayıtlı yüksək ordenlərlə təltif olundu.

Hazırda Sumqayıtda 2 min nəfərə yaxın Vətən müharibəsi iştirakçısı yaşayır. Onlardan təqribən 200 nəfərə müxtəlif dərəcəli əlillik təyin olunub.

### Şəhidlərin adı layiqincə əbədiləşdirilir

Sumqayıtda torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlər zamanı şəhid olmuş şəhər sakinlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Şəhərdə 14 nömrəli tam orta məktəbə Vətən Müharibəsi Qəhrəmanı Adil İbrahimlinin, 25 nömrəli tam orta məktəbə Vətən Müharibəsi Qəhrəmanı Anar Şükürovun, 28 nömrəli tam orta məktəbə Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimovun adı verilib. Polad Həşimovun adını daşıyan məktəbdə büstü qoyulmuş və muzeyi yaradılmışdır.

Şəhərin 38 küçəsinə şəhidlərin adları verilmişdir. Həmçinin şəhidlərin yaşadıqları ünvanlara xatirə lövhəsi və barelyeflər vurulmuşdur.

Son illər Sumqayıtda genişmiqyaslı quruculuq işləri həyata keçirilmiş, şəhərin siması tamamilə dəyişmişdir. Tarixi ənənələrini bərpa edən, müasir sənaye mərkəzi kimi tanınan Sumqayıt həm də quruculuğun və inkişafın əsas ünvanlarından biridir. Şəhərdə 1992-ci ildə salınan və 515 şəhidin uyuduğu Şəhidlər xiyabanı da 2021-ci ildə əsaslı şəkildə təmir olunmuş, kompleks yenidənqurma işləri aparılmış, ərazisi genişləndirilərək 1,2 hektara çatdırılmışdır. Yenidən qurulan Şəhidlər xiyabanında "Qalib Əsgər" abidəsi ucaldılmış, hündürlüyü 30 metr olan yeni bayraq dirəyi quraşdırılmışdır.

Şəhidlər xiyabanında yaşıllıq örtüyü salınmış, işıqlandırma sistemi müasirləşdirilmiş, fontan kompleksi inşa edilmişdir. Yenidənqurma işləri çərçivəsində Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə "Zəfər ağacı" abidəsi yaradılmış, həmçinin inzibati bina inşa olunmuşdur. Şəhidlər xiyabanında Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 144 şəxs haqqında məlumatların əks olunduğu abidə də ucaldılmışdır.

Prezident İlham Əliyev bu il iyulun 20-də Sumqayıta səfəri zamanı Şəhidlər xiyabanında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuş, "Qalib Əsgər" abidəsinin və Xocalı faciəsi qurbanlarının xatirəsinə həsr olunan abidənin önünə gül dəstələri qoymuşdur.

Anım Gününün ikinci ilində Sumqayıtda da silsilə tədbirlər təşkil olunub. Şəhidlər xiyabanında keçirilən anım tədbirində Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, Milli Məclisin deputatları, şəhid ailələri və şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Şəhərin müxtəlif ərazilərində şəhidlərimizin xatirəsinə həsr olunmuş ağacəkmə aksiyası keçirilib, üç minə yaxın ağac əkilib.

Onu da qeyd edək ki, müharibə günlərində şəhidlərin nəşinin gətirilməsi, dəfn olunması, başdaşlarının quraşdırılması, yas mərasimlərinin keçirilməsi Sumqayıt Şəhər İcra Hakimiyyətinin maddi və mənəvi dəstəyi ilə həyata keçirilmişdir. Hər bir şəhid ailəsinə birdəfəlik maddi vəsait və ərzaq yardımı olunmuşdur. Sumqayıt Şəhər İcra Hakimiyyətinin xətti ilə bu tədbirlərin keçirilməsinə 670 min manatdan artıq vəsait xərclənmişdir.

Sumqayıtda hər bir şəhidin xatirəsinə yüksək ehtiram göstərilir, doğum günlərində və şəhid olduqları tarixlərdə onlarla bağlı anım tədbirləri keçirilir.

### Hər bir şəhid ailəsinin, müharibə əlilinin və veteranının müraciətinə həssaslıqla yanaşılır

Sumqayıt şəhərində şəhid ailələri və qazilər daim diqqət mərkəzində saxlanılır, onların sosial təminatı və yaşayış imkanlarının yaxşılaşdırılması istiqamətində müxtəlif tədbirlər həyata keçirilir. Şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcovun sərəncamı ilə şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin məşğulluğuna və sosial problemlərinin həllinə dəstək olmaq məqsədilə 2021-ci ilin oktyabr ayında Sumqayıt Şəhər İcra Hakimiyyəti yanında Əlaqələndirmə Mərkəzi yaradılmışdır. Əlaqələndirmə Mərkəzində şəhid ailələrinin üzvləri, qazilər, Sumqayıt Şəhər İcra Hakimiyyətinin və aidiyyəti qurumların əməkdaşları təmsil olunurlar. Əlaqələndirmə Mərkəzi məşğulluqla bağlı müvafiq tədbirlərin icrasını təmin edir, işsiz əhalidən daxil olan məlumatlar əsasında müvafiq təkliflərin işlənib hazırlanmasını və zəruri tədbirlərin həyata keçirilməsini təşkil edir.

Sumqayıt ŞİH əməkdaşları mütəmadi olaraq Vətən müharibəsində yaralanmış qazilərin evlərində olur, onların qayğıları, səhhəti, müalicələrinin gedişi ilə maraqlanır, ailələrinə ərzaq və maddi yardımlar çatdırırlar.

2021-ci ilin yanvar ayından bu günə kimi şəhid ailələrinə, qazilərə və müharibə iştirakçılarına bayramlarda, əlamətdar günlərdə və özlərinin müraciəti əsasında Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən 345 min 100 manat məbləğində ərzaq yardımı və 389 min 600 manat maddi yardım verilmişdir. Bununla yanaşı, 3 şəhid ailəsi üzvünün təhsil haqqı 7700 manat olmaqla ödənilmişdir. 3 şəhid ailəsinin evi əsaslı təmir edilmişdir. Son illər Birinci Qarabağ müharibəsinin iştirakçıları olan qazi və şəhid ailələrindən 373 nəfər, İkinci Qarabağ müharibəsindən isə 245 nəfər mənzil növbəsi üçün Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən uçota götürülmüşdür. Onlardan 385 nəfər yeni mənzillə təmin olunmuşdur.

Şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı prioritet vəzifələrdən biri onların işlə təminatıdır. Sumqayıt Şəhər İcra Hakimiyyətinə müraciətlərin mütləq əksəriyyəti işlə təminatla bağlı olmuşdur. Həyata keçirilən tədbirlər nəticəsində 233 nəfər şəhid ailəsi üzvü və müharibə iştirakçısının məşğulluğu təmin olunmuşdur. Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısı tərəfindən son bir ildə 120 nəfər şəhid ailəsi üzvü, müharibə əlili və müharibə veteranı qəbul edilmişdir. Qəbul zamanı qaldırılan məsələlər əsasən işlə təmin olunmağa kömək göstərilməsi ilə bağlı olmuşdur. Onlardan 24 nəfərin müraciəti Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısı tərəfindən nəzarətə götürülərək həll edilmiş, 44-nün icrası üçün müvafiq idarələrə göndərilmişdir.

Sumqayıtda şəhid ailəsi üzvlərinə və müharibə iştirakçılarına yerli sahibkarlar da dayaqdırlar. Ötən dövrdə tam fiziki hərəkətləri məhdud olan 27 nəfər qazi sahibkarlar tərəfindən himayəyə götürülmüşdür. Bundan başqa, bir qazinin əməliyyatının tam xərcini sahibkar öz üzərinə götürmüş, bir qaziyə dəyəri 2500 manat olan elektrik əlil arabası verilmiş, bir şəhid anası və iki qazi ailəsi ev mebelleri və məişət avadanlıqları ilə təmin olunmuşlar. Bir şəhid övladı isə 18 yaşına qədər himayəyə götürülmüşdür.

Sumqayıtda şəhid ailələri, müharibə əlilləri və veteranlar hərtərəfli sosial dəstəklə əhatə olunublar. İnkişafı və quruculuğu ilə diqqət çəkən Sumqayıtda bu kateqoriyadan olan vətəndaşlara göstərilən qayğı da nümunəvidir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***











# 19 il əvvəl verilən söz

## Böyük qayıdışla gerçəkləşdirilir

O, hələ 2003-cü ildə söz vermişdi ki, beş il ərzində Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq.

2007-ci ildə, cəmi 4 il ərzində bu böyük hədəfə nail oldu.

O demişdi ki, məcburi köçkünlərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçiriləcək.

2020-ci ilə qədər ölkədə məcburi köçkünlər üçün 100-dən çox qəsəbə-şəhərcik salındı. Ötən müddət ərzində Azərbaycanda 300 mindən çox məcburi köçkün mənzillərlə, fərdi evlərlə təmin edildi, həmçinin onların problemləri ardıcıl şəkildə öz həllini tapdı.

Ən ümdəsi, O, Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdi ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacaq.

Baş sərkərdə olaraq qətiyyəti, əzmi, gücü sayəsində Vətən müharibəsində cəmi 44 günə düşməni qarşısında diz çökdürərək torpaqlarımızı işğaldan azad etdi, Azərbaycana zəfər sevinci yaşatdı, dədə-baba yurdundan didərgin düşən yüz minlərlə vətəndaşımızın yurd həsrətinə son qoydu.

Qürurlu Zəfərimizin üzərindən heç bir gün keçməmiş, məcburi köçkünlərə, "Əziz keçmiş köçkünlər, siz artıq köçkün deyilsiniz...", deyə gözaydınlığı verdi, bu vətən həsrətli insanlara tezliklə yurd-yuvalarına qovuşdurulacaqlarının müjdəsini çatdırdı.

Beləliklə, sözünə, vədinə, andına sadiq olan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev uzaqgörən siyasəti, mükəmməl hərbi taktikası sayəsində bir vətəndaş, bir dövlət başçısı kimi xalqı, ölkəsi naminə üzərinə götürdüyü mənəvi öhdəlikləri layiqincə yerinə yetirərək Vətən qarşısındakı müqəddəs borcunu ödədi.

### Zəfərə doğru

Əslində, Azərbaycan dövləti Prezident İlham Əliyevin ötən illər ərzində böyük məharətlə yürütdüyü mükəmməl siyasət, yaratdığı güclü iqtisadiyyat, qüdrətli ordu, malik olduğu yüksək beynəlxalq nüfuz sayəsində Zəfərə doğru inamla irəliləyirdi.

Torpaqlarımızın işğaldan azad edilməsini qarşısına prioritet məqsəd kimi qoyan İlham Əliyev bu məqsədə çatacağımızın yaxın olduğunu, Azərbaycan xalqına, keçmiş məcburi köçkünlərə, hələ 2016-cı ildə Lələtəpə zəfəri zamanı bəyan etmişdi: "...Azərbaycan bayrağı bu gün Lələtəpədə və Ağdərədə dalğalanır, Şuşada da, Xankəndidə də dalğalanacaq".

2019-cu ildə "Valday" Beynəlxalq Diskussiya Klubunun iclasında "Qarabağ Azərbaycandır!" haqq nidalı bəyanatı ilə Azərbaycan Prezidenti 30 ildir torpaqlarımızı işğal altında saxlayan mənfur düşmənin canına vahimə saldı.

Bununla Qarabağ və ətraf ərazilərdən zorla didərgin salınan vətəndaşlarımızın qanayan yurd yarasına məlhəm çəkdi.

Azərbaycan xalqının hər bir üzvünün arzularının zirvəsində yer alan həmin müqəddəs məqama isə 2020-ci il sentyabrın 27-də başlayan və cəmi 44 gün sürərək Zəfərlə yekunlaşan haqq savaşında yetdik. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu Qarabağımızı, işğal altında qalan bütün torpaqlarımızı azad etdi.

İlham Əliyev qətiyyəti, siyasi iradəsi, vətənpərvərliyi, möcüzə kimi görünən bütün bu məsələləri cəmi 44 günə reallığa çevirdi, xalq olaraq taleyimizi büsbütün dəyişdi, məğlubiyyətdən Zəfər zirvəsinə qalxdıq, yüz minlərlə soydaşımız Vətəndə qəribçilikdən qurtuldu.

### "Hər zaman mənim gözlərimin önündə onlar idi"

"...Hər zaman mənim gözlərimin önündə onlar idi, nə qədər əzab çəkdilər, nə qədər əziyyət çəkdilər, amma sınmadılar, möhkəm durdular. Budur Azərbaycan! Budur Azərbaycan xalqı!"

Vətən müharibəsini parlaq qələbə ilə başa çatdırdıqdan sonra müsahibələrinin birində Prezident İlham Əliyevin yurdundan didərgin salınmış vətəndaşlarımızla bağlı kövrələrək ifadə etdiyi bu fikirlərdə olduğu kimi, ötən dövr ərzində keçmiş məcburi köçkünlərin problemlərinin həlli dövlət başçısının gündəliyində duran vacib məsələ idi.

İlham Əliyev Qarabağın, ümumiyyətlə, işğal altında olan torpaqlarımızın azadlığa qovuşdurulmasını, məcburi köçkünlərimizin vətən nisgilindən qurtulmalarını ən ümdə vəzifəsi hesab edirdi.

Fəaliyyətinin ilk dövründən qaçqınların və məcburi köçkünlərin problemlərinin həllini prioritet olaraq müəyyənləşdirən İlham Əliyevin 2003-cü il prezident seçkiləri ərəfəsində proqramının tərkib hissəsi də bu məsələ idi.

Ötən illər ərzində məcburi köçkün soydaşlarımıza qayğı, onların mənzil və həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində görülən bütün işlər birbaşa Prezident İlham Əliyevin diqqət və nəzarəti altında həyata keçirilib. Onlar müvəqqəti yaşayış yerlərindən və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülüb, yaşayış şəraitləri yaxşılaşdırılıb, sosial rifahlarının yüksəldilməsi üçün dövlət proqramları icra edilib.

### Birinci vitse-prezident vəzifəsində ilk müşavirəsini onlara həsr etdi

Qaçqın və məcburi köçkünlərin mənzil-məişət problemlərinin həlli istiqamətində Birinci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva da müstəsna xidmətlər həyata keçirib. Fəaliyyətində hər zaman əhalinin zəif müdafiə olunan təbəqələrinə həssaslıqla yanaşan Mehriban xanım qaçqın və məcburi köçkünlərin problemlərini də daim diqqət mərkəzində saxlayıb. Ən əlamətdar günlərdə, bayramlarda məcburi köçkünlərimizin yanında olub, onlara dəstəyini, qayğısını nümayiş etdirib. Özünün də vurğuladığı kimi, Mehriban xanım sosial problemlərin, xüsusilə də qaçqın və məcburi köçkün ailələrinin çətinliklərinin aradan qaldırılmasına xüsusi diqqətlə yanaşıb.

O da təsadüfi deyil ki, Mehriban Əliyeva Birinci vitse-prezident vəzifəsində ilk müşavirəsini də Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr etmişdi.

Məcburi köçkünlər üçün salınmış yaşayış qəsəbələri, "Qobu-1", "Qobu-2", "Qobu-3" layihəsinin təşəbbüskarı da Mehriban xanım olub, 2017-ci ildə Birinci xanımın iştirakı ilə onlardan ilkinin təməli qoyulub. Ümumiyyətlə, Qobu qəsəbəsində 3 layihədə toplam 3700-ə yaxın məcburi köçkün ailəsi yerləşdirilib.

### Məcburi köçkünlərə 111-ci hədiyyə

2020-ci il mayın 28-də Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə məcburi köçkünlər üçün salınmış 111-ci yaşayış kompleksinin, Bakının Qaradağ rayonunda 1336 məcburi köçkün ailəsi üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin açılışı oldu.

Müstəqillik günündə məcburi köçkünlər qarşısında çıxışında İlham Əliyev mühüm bir məsələyə diqqət çəkdi. Dövlət başçısı xüsusilə vurğuladı ki, bütün Azərbaycan xalqı bilməlidir, bu, sizin üçün müvəqqəti yaşayış yeridir. Torpaqlarımız işğaldan azad ediləndən sonra biz bu gün hələ də işğal altında olan torpaqlarda buna oxşar gözəl binalar, şəhərciklər tikəcəyik, ermənilər tərəfindən dağılmış şəhərlərimizi yenidən quracağıq.

Yeri gəlmişkən, o məqamı da qeyd edək ki, həmin gün açılışı olan "Qobu-3", həm də məcburi köçkünlər üçün salınmış sonuncu müvəqqəti yaşayış kompleksi kimi yaddaşlarda qaldı.

Çünki ondan sonra Azərbaycan dövləti keçmiş məcburi köçkün vətəndaşları üçün öz dədə-baba yurdlarında isti ocaq qurmağa başladı.

### Biz bu torpaqlara qayıtdıq

"...Mən həmişə deyirdim ki, gün gələcək, işğal altındakı torpaqlarımız azad ediləcək, biz bu torpaqlara qayıdacağıq və qayıtmışıq..."

Prezident İlham Əliyevin Azərbaycan xalqına söz verdiyi və sərkərdə qətiyyəti ilə cəmi 44 gün ərzində həyata keçirdiyi kimi, indi biz torpaqlarımıza qovuşmağın xoşbəxtliyini yaşayırıq.

Vətən müharibəsinin qələbə ilə başa çatmasından dərhal sonra isə azad yurdlarımızda genişmiqyaslı bərpa və quruculuq işlərinə start verilib.

Qarabağ və Şərqi Zəngəzurda daimi həyatın var olması üçün möhkəm bünövrələr atılır, əhəmiyyətli layihələr gerçəkləşdirilir. 30 il ərzində işğalçı Ermənistan tərəfindən tamamilə darmadağın edilən ərazilərimiz sürətlə dəyişir, mənfur düşmənin viran qoyduğu yurdlarımıza yeni nəfəs verilir. Burada əsaslı quruculuq tədbirləri həyata keçirilir, infrastruktur yenilənir, yollar çəkilir, tunellər salınır, beynəlxalq hava limanları tikilir. Eyni zamanda vəhşi ermənilərin illərlə divan tutduğu tarixi, mədəni, dini irsimiz bərpa olunur.

Azərbaycanın qısa zaman ərzində Qarabağda və Şərqi Zəngəzurda həyata keçirdiyi böyük quruculuq işləri dünyada böyük heyrətlə qarşılanır. Dövlət başçısının vurğuladığı kimi, dünya müharibələrinin tarixində savaşdan sonra bu sürətlə heç bir yerdə quruculuq-bərpa işləri aparılmayıb və bu gün bu parlaq nümunənin əsasını Azərbaycan qoyur. Həm də ölkəmiz azad olunan torpaqlarda həyata keçirdiyi bu genişmiqyaslı işləri təkbaşına, heç kimdən kömək almadan öz siyasi iradəsi və iqtisadi gücü, xalqımızın səfərbərliyi və milli həmrəyliyi sayəsində aparır.

### Bir qərinəlik Vətən ayrılığı bitdi

İndi tarixi torpaqlarımıza Böyük qayıdış başlayıb. Böyük qayıdışın ilk təməl daşı isə hələ 2017-ci ildə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində qoyulmuş, 2016-cı ildə Azərbaycan Ordusunun Aprel zəfəri ilə azad olunan bu Vətən torpağımız doğma sakinlərinə sevinclə qucaq açan ilk yurdumuz olmuşdu.

Parlaq Vətən müharibəsindən sonra bir qərinəlik ayrılığın daşını ataraq, əzəli yurdlarına ilk qovuşma xoşbəxtliyini yaşayanlar isə Zəngilanın Ağalı kəndinin sakinləri oldular.

Bizə tarixi torpaqlarımıza qayıdışın tezliklə gerçəkləşəcəyi müjdəsini Prezident İlham Əliyev bu il Müstəqillik Günü ərəfəsində verdi. Mayın 27-də Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasiminin keçirilməsi zamanı dövlət başçısı İlham Əliyev Ağalı kənd sakinləri ilə görüşü zamanı söylədi ki, "Bu gün Böyük qayıdış dediyimiz prosesə start verildi".

Ağalıya dönən insanların timsalında Vətən həsrətindən qurtulan, "məcburi köçkünlük yükü"ndən azad olan insanların xoşbəxtliyinə şahid olduq.

2022-ci il iyulun 19-da, vaxtilə Ağalıdan zorla didərgin salınan insanlar yüksək sevinclə yurd yerlərinə döndülər. Zəngilanı, Ağalını heç zaman görməyən yeni nəsillər dədəbaba torpaqlarında yaşayıb-yaratmağa, tikib-qurmağa, bu torpağa daha dərin köklərlə sarılmağa getdilər.

Çox tezliklə şuşalılar, ağdamlılar, laçınlılar, kəlbəcərlilər, ümumiyyətlə, bütün keçmiş məcburi köçkünlər əzəli torpaqlarına qaytarılacaqlar.

### Nəhəng çağırışla üz-üzə

"Bu gün biz yeni çağırışlarla üzləşirik. Ancaq bunlar xoş çağırışlardır - Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması, insanların geri qayıtması və Azərbaycanın hər hansı bölgəsində yaşayan keçmiş məcburi köçkünlər üçün daha yaxşı şəraitin yaradılması".

Bu il oktyabrın 5-də Ağdamda baş tutan Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimindəki çıxışında Prezident İlham Əliyev bir daha bəyan etdi ki, hazırda biz keçmiş məcburi köçkün və qaçqınları öz doğma yurdlarına mümkün qədər tez bir zamanda geri qaytarmaq üçün nəhəng bir çağırışla üz-üzəyik.

Dövlət başçısı söylədi ki, ötən müddətdə 300 mindən çox məcburi köçkün yeni ev və mənzillərlə təmin edilmişdi. Həmin mənzillərin açılışı zamanı isə məcburi köçkünlər Prezidentə minnətdarlıqlarını bildirməklə yanaşı, hər dəfə qeyd edirdilər ki, onları öz torpaqlarına qaytarsın: "Mən onlara hər dəfə söz verirdim ki, bunu reallaşdıracağam və mən fəxr edirəm ki, biz bunu reallaşdıra bildik və artıq Böyük qayıdış proqramı başlayıb".

Bəli, dövlət başçısı İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında müharibədən ötən qısa müddət ərzində böyük quruculuq meydanına çevrilən Qarabağ və Şərqi Zəngəzur artıq doğma sakinlərini qəbul etməyə başlayıb. Çox tezliklə, bütün keçmiş məcburi köçkünlər qayıdış karvanları ilə doğma yurdlarına dönəcəklər. Yenidən o doğma torpaqlarda yaşayacaq, quracaq, abadlaşdıracaq, xoşbəxt həyat sürəcəklər. İllərdir evəşiyindən pərən-pərən düşmüş, ölkəmizin dörd bir yanına səpələnmiş vətəndaşlarımız artıq birgə xoş günlərə qanad açıblar. Necə ki Prezident İlham Əliyev vaxtilə, 24 dekabr 2011-ci ildə, 50 illik yubileyini Qarabağ torpağında - Ağcabədidə Taxtakörpü ərazisində məskunlaşmış Laçın rayonundan olan məcburi köçkün ailələri ilə birgə qeyd etdiyi gün onlara söz vermişdi: "...Bu, müvəqqəti yaşayış məntəqəsidir. Torpaqlarımız işğalçılardan azad olunandan sonra bütün köçkünlər üçün Laçında, Kəlbəcərdə, Ağdamda, hələ ki işğal altında olan digər torpaqlarda bundan da gözəl evlər tikəcəyik. Mən buna şübhə etmirəm..."

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***















# Diplomatik zəka

Azərbaycanın Zəfər diplomatiyası dünyanın mövcud olduğu dərin böhrandan regional və qlobal inkişaf trayektoriyasına çıxaracaq yolları göstərir. Prezidentin son zamanlar həyata keçirdiyi tarixi səfərlər beynəlxalq münasibətlərdə otuz ilə bərabər intensiv diplomatik dinamikaya təkan verib.

Formalaşan yeni dünya nizamına şimal və cənubdan, şərq və qərbdən, Avropa və Asiyadan müşahidə edilən geosiyasi proseslər beynəlxalq münasibətlər sistemində mənfi tendensiyaların çarpaz effektli gərgin nəticələrini daha da artırmaqdadır. Prezident İlham Əliyevin qısa zaman fasilələri ilə Orta Asiya respublikalarına, Qazaxıstana və Qırğızıstana, eləcə də Bolqarıstana rəsmi dövlət səfərləri, son Praqa görüşləri, Avropa Birliyinin yüksək rəhbərləri ilə ardıcıl təmasları, Astanada Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin 6-cı Zirvə Toplantısında iştirakı, həmçinin müxtəlif dövlət başçılarının ölkəmizə səfərləri yerli və xarici medianın gündəmində özəl xəbərlər sırasındadır.

Dövlət başçısının səfərlərinin qlobal diplomatik gündəmi təşkil etməsinin səbəbləri çoxdur. İlk sırada qeyd edə bilərik ki, Azərbaycanın zəfər diplomatiyası dünyaya mövcud olan dərin böhrandan regional və qlobal inkişaf trayektoriyasına çıxaracaq yolları göstərir. Bu səfərlər müstəqillik tariximizdə dövlətlərarası diplomatik münasibətlərin sona çatan 30 illik mühüm bir mərhələsinə yekun vurmaq, qarşıdakı yeni fazanın başlanğıcını, əsas hədəflərin müəyyən edilməsi baxımından hələ uzun müddət dərin, hərtərəfli təhlillərin mövzusu olacaq.

Digər tərəfdən beynəlxalq vəziyyətin getdikcə təlatümlü, "turbulent fazaya" daxil olması dövlətlərdən strateji sabitliyin təmin edilməsi və yeni, ədalətli dünya nizamının yaradılması üçün daha da intensiv aktiv fəallıq tələb edir. Burada isə başlıca şərt siyasi liderlərin mövcud mürəkkəb çağırışları önləyə biləcək siyasi təfəkkür və fəhmə malik olmasıdır.

Prezidentin son diplomatik fəaliyyəti Avropa və Asiya kimi kontinental coğrafiyanı bütünlükdə əhatə etməkdədir. Brüssel, Sofiya, Praqa, Moskva, Bişkek, Astana və digər şəhərlərdə müzakirə edilən məsələlərin son dərəcə zəngin gündəmi miqyas və əhatəliliyi, ən vacibi, taleyüklü məzmunu baxımından geniş tədqiqatların mövzusudur. Oktyabrın 1-də Bolqarıstan Respublikasının paytaxtı Sofiya şəhərində Yunanıstan-Bolqarıstan Qaz İnterkonnektorunun (IGB) açılış mərasimi ilə başlayan diplomatik təqvim bir an belə səngimədən davam edir.

Səfərlərin tarixi əhəmiyyəti sarsılmaqda olan mövcud beynəlxalq münasibətlər fonunda Azərbaycan Prezidentinin qarşılıqlı faydalı, regional və milli təhlükəsizliyi təmin etməyə yönəlmiş təşəbbüsləri ilə qat-qat artmaqdadır. Bu reallıq - hər bir böhranı imkana çevirmək dahi liderlərə xas keyfiyyətdir - kimi məlum olan aksiomanı bir daha təsdiqləyir.

Orta Asiya özünəməxsus milli maraqlara və dəyərlərə malik nadir geosiyasi məkandır. Orta Asiya ölkələri tarix, etnik-mədəni və dini baxımdan türkdilli dövlətlərlə bağlıdır. XX əsrin sonu, XXI əsrin ilk onilliklərində beynəlxalq münasibətlər sisteminin uzun sürən transformasiyası dövründə bu region Şərqlə Qərbi birləşdirən qədim və cari yüzillikdə yenidən dirçəldilən İpək yolunun kəsişməsində strateji geosiyasi statusuna görə məxsusi yer tutur. Bölgə bir tərəfdən ən zəngin neft və qaz, təbii və humanitar ehtiyatları, digər tərəfdən isə Cənubi Asiya və Yaxın Şərqdəki qonşu ölkələrin inkişaf problemlərinin kövrəkliyi ilə tanınır. Təsadüfi deyil ki, bu region dünyada mövcud olan geoiqtisadi rəqabətdə "Tarixin coğrafi oxu" - "Heartland" adlanan məkanı, "Avrasiya Balkanları" hesab edilən strateji qovşaqdır. Dinamik inkişaf edən region strateji Avrasiya marşrutlarının kəsişməsində yerləşir və böyük iqtisadi potensiala malikdir. Onun ən qiymətli mineral ehtiyatları və əlverişli geostrateji mövqeyi dünya bazarına çıxmaq üçün hər cür əsas yaradır. Orta Asiyanın davamlı dinc inkişafı beynəlxalq tranzit marşrutlarının və qlobal enerji və siyasi təhlükəsizlik sisteminin inkişafına yol açır.

Müasir dünyanın transformasiyasının mürəkkəb reallığı enerji və logistik məkanda rəqabəti əlavə katalizatora çevirib. Qlobal qüvvələr nisbətinin hazırkı gərgin rəqabəti şəraitində Zəfər tarixini yazan Azərbaycan Prezidenti bölgəyə səfər etməklə qısa zamanda, geoiqtisadi vurğuları həm Azərbaycanın, həm də Orta Asiya ölkələrinin milli maraqları, buradan isə nəhəng Avrasiyada enerji təhlükəziliyi üzərinə keçirməyə qadir olub.

Dövlət başçımızın istər Orta Asiya, istərsə də Avropa ölkələrinə son dövrdə həyata keçirdiyi rəsmi səfərləri tarixi hadisəyə çevirən olduqca geniş amillər mövcuddur. Səfərlərin ilkin yekunlarının təhlili göstərir ki, Orta Asiya üzərində qlobal güclərin gərgin rəqabəti fonunda türkdilli dövlətlərinin geosiyasi seçimi Zəfər yazan Azərbaycandır.

Azərbaycan, Qazaxıstan, Özbəkistan və Qırğızıstanın qəbul etdiyi qarşılıqlı diplomatik qərarlar, daha sıx və dərin əlaqələrin qurulması yönündə siyasi əzmkarlığı, dünyada yaşanan problemlərə onların qlobal arenada ortaq mövqeləri göstərdi ki, türkdilli xalqların münasibətləri təkcə müttəfiqlik xarakteri daşımır. Onlar beynəlxalq siyasətdə və dünya iqtisadiyyatında məsələlərə bənzər baxışlardan, ən vacibi, atılacaq addımlarla bağlı geosiyasi, iqtisadi, mədəni və mənəvi həmrəylikdən qaynaqlanır. Prezident İlham Əliyevin Avropa və Asiyanı savaşan qütblər deyil, kontinental barışın məkanına çevirəcək, türkdilli dövlətlərin nüvəsini təşkil edəcək təşəbbüsləri, məhz yeni dünya düzəninin formalaşmasında əsas oyunçu statusunu qazanması böyük tarixi əhəmiyyətə malikdir.

Bütövlükdə, dövlət başçımızın Şərq və Qərbin yeni dünya nizamında geosiyasi, iqtisadi, logistik və kommunikasiyanı çoxşaxəli inkişaf məkanı etməyə qadir strateji bağları möhkəmləndirməsi, şübhəsiz ki, ən qısa müddətdə öz qlobal bəhrəsini verəcək. Kontinental diplomatik mərkəzlərin siyasi liderlərinin son aylarda Azərbaycana münasibətdə müşahidə olunan, getdikcə yüksələn diplomatik fəallığı onların üzləşə biləcəkləri mühüm çağırışlar və siyasi xaos astanasında strateji müttəfiq, etibarlı tərəfdaş seçimini artıq etdiklərini təsdiqləyir. Zəfər tariximiz diplomatik müstəvidə ardıcıl qələbələrlə davam edir.

Qlobal geosiyasi və iqtisadi böhranın getdikcə gücləndirdiyi çağırışlar Azərbaycanın Zəfər diplomatiyasına, güvənli müttəfiqliyinə, sarsılmaz birliyin "dəmir yumruq" modelinə danılmaz ehtiyac yaradıb.

***Tahirə ALLAHYAROVA,***
***Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin üzvü, professor***

# Müstəqil dövlətçilik kursu qarşıya qoyulan bütün milli məqsədləri reallaşdırdı

Zamanın sürətli axarında o xalqlar irəli gedirlər ki, onların ümumi strateji hədəfləri olsun. Həmin hədəflərə doğru müstəqil siyasət yeridib, düzgün istiqamət götürsünlər və qazanılan bir nailiyyət digərini tamamlasın. Onda həmin xalq can atdığı böyük ideallara qovuşacaq.

Prezident İlham Əliyev ötən müddət ərzində artıq milli ideologiyanın əsas prioritetlərinə çevrilən müstəqil dövlətçilik, daxili və xarici siyasət xətti ilə ölkəmizi tarixinin ən qüdrətli mərhələsinə çatdırdı, qarşıya qoyduğu bütün milli məqsədləri reallaşdırdı. Azərbaycanın ərazilərini düşməndən təmizlədi. 44 günlük Vətən savaşında ordumuzun gücü ilə torpaqlarımızı azad etdi. Dövlət başçısı düşünülmüş parlaq diplomatiyası, uzun illərdən bəri bu möhtəşəm günlərə doğru addım-addım həyata keçirdiyi hazırlıq işləri, heç bir təzyiq qarşısında sarsılmayan qətiyyəti ilə Zəfərimizi bütün dünyaya qəbul etdirdi. Ən nüfuzlu, ən böyük dövlətləri Azərbaycanın mövqeləri ilə hesablaşmaq, haqq və ədalətin səsini dinləmək məcburiyyətində qoydu. Xalqımızın birliyini, milli vəhdətini, bərabərlik, doğmalıq ruhunu nümayiş etdirdi. Min illər ərzində yaratdığımız şərəfli keçmişdən gələcəyə doğru böyük bir yol başladı.

Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni bir dövrün təməlini qoydu. Bu, onun həm missiyası, həm də apardığı müstəqil siyasətinin tarixi nailiyyəti oldu. Müzəffər Ali Baş Komandan qalibiyyəti, başladığı hər işin uğurları ilə qüdrətli liderə çevrildi!

Azərbaycan indi dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasındadır. Bu inkişafın əsasında reallaşdırılan daxili və xarici siyasət kursu dayanır. Belə bir müstəqil strateji kursun Prezident İlham Əliyev tərəfindən müasir dövrün reallıqlarına müvafiq surətdə qətiyyətlə davam etdirilməsi hazırkı milli inkişafın fundamental əsaslarını təşkil edir. Müxtəlif inkişaf modellərinin uğurla tətbiqi, sosial-siyasi, iqtisadi, humanitar yönümlü islahatların həyata keçirilməsi, sabitliyin qorunması, beynəlxalq münasibətlər sistemində artan nüfuzumuz qlobal məsələlərdə ölkəmizin ciddi təsir gücünə malik olduğunu göstərir. Əlbəttə ki, bütün bu nailiyyətlərin əsasında güclü lider fenomeni dayanır.

Özünü doğruldan yanaşmaları, uğurlu təşəbbüsləri, ən mühümü isə başqalarında yaratdığı yüksək inam hissi Prezident İlham Əliyevi müasir dünyamızın ən önəmli siyasi liderlərindən biri mövqeyində qərarlaşdırıb. Beynəlxalq siyasi arenada ona böyük rəğbət bəsləyir, irəli sürdüyü rəylərlə hesablaşır, təşəbbüslərini dəstəkləyirlər. Çünki ölkəmizin rəhbəri hər zaman doğrunun yanındadır. Azərbaycan Prezidentinin irəli sürdüyü təkliflərin nə qədər yerində, məqsədyönlü olduğunu, real nəticələrə hesablandığını tarix dəfələrlə sübuta yetirib. Ona görə dünya liderləri dövlət başçımızın baxışlarına böyük önəm verirlər.

Hakimiyyətə gələndən böyük Zəfər Gününə kimi Qarabağ məsələsində düşmən tərəfə, onun havadarlarına qarşı qətiyyətli mübarizəsi sonda onu hədəfinə çatdırdı, ata vəsiyyətini həyata keçirdi, torpaqlarımızı işğaldan azad etdi, ölkəmiz üçün yeni bir gələcək formalaşdırmağa başladı.

## Gələcəyə strateji baxış

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz müstəqillik tarixinin yeni onilliklərində möhtəşəm nailiyyətlərə imza atır. Bu nailiyyətləri şərtləndirən əsas amil, təbii ki, Azərbaycanın müstəqil siyasət aparması, iqtisadi, siyasi, sosial cəhətdən heç kimdən asılı olmadan öz seçdiyi yola davam etməsidir. Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi milli strateji inkişaf kursuna uyğun olaraq zamanında bu istiqamətdə atılmış tarixi addımlar bütün sahələrdə müstəqilliyimizin əbədiliyinə, daimiliyinə, dönməzliyinə təminat yaradır. Xalq olaraq öz həyatımızı arzuladığımız kimi qurmağımıza, ulularımızdan gələn qədim ənənələrimizə, dəyərlərimizə qloballaşma dövründə sahib çıxmağımıza, dövlətimizi getdikcə daha da möhkəmləndirməyimizə şərait yaradır.

Bu gün dünyada gedən proseslər göstərir ki, müstəqilliyini illər əvvəl bəyan etmiş ölkələrin öz yoluna ardıcıl şəkildə davam edə bilməsi heç də asan deyil. Bir çox dövlətlərin müstəqilliyi formal xarakter daşıyır, reallıqda hansısa supergüclərin iqtisadi-siyasi, mədəni asılılığındadır. Yaxud da öz istiqlalına nail olub müstəqil həyatını qurmaq istəyən ölkələrdən böyük güclərin öz maraqları naminə istifadə etməsi, onların başı üzərində təhlükəli oyunlar qurmağa çalışması göz önündədir. Əfsuslar olsun ki, bütün bunlar dəhşətli müharibələrlə, xalqların fəlakəti, yüz minlərlə insanın faciəsi ilə nəticələnir. Belə bir ağır zamanda respublikamız bütün dünyada sabitlik, təhlükəsizlik məkanı kimi tanınmaqdadır.

Bütün toqquşan maraqlar Azərbaycanda - Cənubi Qafqaz regionunun bütün parametrlər üzrə lider ölkəsində üst-üstə düşür, əməkdaşlıq üçün bu məkanda hansısa ortaq nöqtələr tapılır. Azərbaycan indi müstəqil siyasəti ilə qlobal enerji-kommunikasiya sistemlərinin əsas mərkəzlərindən birinə çevrilib. Ölkəmiz bütün dünyada mədəniyyətlər arasında dialoq, multikulturalizm məkanı kimi məşhurdur. Dünyada sivilizasiyalararası dialoq sahəsində ciddi problemlərin yaşandığı, bu zəmində münaqişələrin gücləndiyi, xüsusilə də islamafoboya kimi təhlükəli meyillərin bir sıra dövlətlərin və digər subyektlərin siyasətində özünə geniş yer alması reallığında Azərbaycanın mədəniyyətlərarası dialoq məkanına çevrilməsi faktı qlobal əhəmiyyət daşıyır. Bu məsələlərin həlli istiqamətində Azərbaycanın təcrübəsi digər ölkələr üçün örnək sayılır.

Beynəlxalq aləmdə ölkəmizin nüfuzu getdikcə güclənir, dövlətimizin sözü eşidilir, hörmətlə qarşılanır. Bu nailiyyətlərin hər biri məhz Azərbaycan rəhbərliyinin yürütdüyü müstəqil siyasət sayəsində mümkün olub. Məhz bu siyasət nəticəsində ölkəmiz təxminən 30 illik işğala son qoydu. Göstərdi ki, Azərbaycanı milli maraqlarından, tutduğu haqq yolundan heç kim və heç nə döndərə bilməz. Məhz müstəqil siyasətin uğurları sayəsində bu ğun azad edilmiş torpaqlarımızda genişmiqyaslı bərpa-quruculuq tədbirləri həyata keçirilir. Azərbaycan dövləti heç kimin yardımına ehtiyac duymadan, öz imkanları hesabına o torpaqları yenidən həyata qaytarır, reallaşdırılan genişmiqyaslı layihələrlə azad yurdlarımızı normal inkişaf axarına qovuşdurur. Bütün bu imkanların mənbəyi Azərbaycanın tutduğu dövlətçilik xəttində, iqtisadi-siyasi müstəqilliyindədir.

## Milli ideologiyamızın mühüm prioriteti

Bu gün müstəqil siyasət Azərbaycan üçün sadəcə inkişaf yolu deyil, eyni zamanda milli ideologiyamızın mühüm prioritetidir və ölkəmiz bütün istiqamətlərdə bu prioriteti nəzərə alır. Son illərdə ölkəmizdə cəmiyyət həyatının bütün önəmli sahələri üzrə aparılan dinamik islahatlar da bunun təzahürüdür. Aparılan köklü dəyişikliklərlə Azərbaycan tərəqqi və təkamül yolu keçərək yeni şəraitə uyğunlaşır. Xalqın böyük dəstəyi ilə müşayiət olunan bu islahatlar ölkəmizin daxili siyasi uğurlarına yol açır, cəmiyyətimizi daha da səfərbər edir, vətəndaş həmrəyliyini, xalq-hakimiyyət birliyini möhkəmləndirir, siyasi sabitlik və təhlükəsizlik mühitini möhkəmləndirir. Nəticədə daxili siyasətin davamı kimi xarici siyasət istiqamətində də Azərbaycanın addımları daha dayanıqlı və ardıcıl xarakter daşıyır.

Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu coxvektorlu, müstəqil və milli maraqlara əsaslanan xarici siyasət kursunu sürətlə dəyişən dünyamızın geosiyasi reallıqlarına adekvat olaraq çevik və innovativ şəkildə davam etdirir. Milli dövlətçilik maraqlarımızın müdafiəsi Prezident İlham Əliyevin apardığı siyasətin əsas qayəsidir. Coğrafi miqyas baxımından o qədər də böyük olmasa belə Azərbaycan məhz bu siyasət sayəsində sözünün çəkisi, etibarlı tərəfdaş imici ilə qlobal proseslərin ən əhəmiyyətli iştirakçılarından birinə çevrilib. Azərbaycan bu statusu, mövqeyi real addımlar, qazanılan sarsılmaz inam sayəsində əldə edib. Azərbaycan Prezientinin "Bizim sözümüz də imzamız qədər dəyərlidir" fikri sadəcə söz deyil, ölkəmizlə hansısa məqamlarda tərəfdaşlıq etmiş hər kəsin əmin olduğu həqiqətdir. Ölkələrə də, dünya liderlərinə də, beynəlxalq təşkilatlara da bəllidir ki, Azərbaycan öz milli maraqlarını nəzərə almaqla verdiyi istənilən sözü tutacaq, bütün vədlərə, üzərinə götürdüyü bütün öhdəliklərə sadiq qalacaq. Xalqımızın maraqlarına zidd hər hansı anlaşmalara isə Azərbaycanı razı salmaq qətiyyən mümkün deyil. Bu iradə xalqın öz Liderinə olan dəstəyindən gəlir.

Dünyanın böyük gücləri yaxşı anlayırlar ki, bu qətiyyətə üstün gəlmək, Azərbaycanı öz müstəqil inkişaf yolundan sapındırmaq mümkün deyil. Əgər respublikamızla əməkdaşlıqdan faydalanmaq istəyirsənsə, bu dövlətin müstəqil siyasət kursunu, irəli sürdüyü şərtləri mütləq nəzərə almalısan. Bu zaman qarşılıqlı əməkdaşlıq bütün tərəflərin xeyrinə olacaq.

Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi qlobal proseslərdəki fəal mövqeyi, bəşəriyyətin gələcəyi naminə strateji təşəbbüsləri ilə dünya siyasətinə yeni dəyərlər gətirir, hər kəsi sülhə, müştərək əməkdaşlığa çağırır, münaqişələrə, qarşıdurmalara, insan faciələrinə son qoyub ali məqsədlər ətrafında birləşməyə dəvət edir. Azərbaycanın Türk Dövlətləri Təşkilatındakı fəaliyyəti, qardaş Türkiyə ilə birgə bu qurumun hərəkətverici qüvvəsi rolunda çıxış etməsi təşkilatı tədricən qlobal gücə çevirir. Türkdilli ölkələrin qarşılıqlı əməkdaşlığı, bəşəriyyət üçün xoş niyyətlər uğrunda gücləri birləşdirməsi, tarixin yeni çağlarında yeni dəyərlər yaratması Azərbaycanın müstəqil xarici siyasətində xüsusi yer tutur.

Bundan başqa, mədəniyyət diplomatiyası da Azərbaycanın xarici siyasət kursunun mühüm istiqamətlərindəndir. Bu, dövlətlər və xalqlar arasında müxtəlif mədəniyyətlərin mübadiləsini təmin edir, qarşılıqlı dözümlülük üzərindən dostluq körpüləri salır, mehriban qonşuluq əlaqələrinin qurulmasına geniş imkanlar yaradır. Müasir beynəlxalq münasibətlərdə mədəniyyət diplomatiyası hər bir dövlət üçün çox səmərəli siyasi strategiya alətidir. Müasir dövrdə heç bir dövlət bu gücdən faydalanmadan beynəlxalq aləmdə inkişaf və inteqrasiya edə bilməz.

Dövlət rəhbərimizin həyata keçirdiyi müstəqil siyasətin nailiyyətləri sayəsində bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan dövləti mədəniyyət sahəsində həyata keçirdiyi düşünülmüş siyasətlə də beynəlxalq aləmdə zəngin potensiala və yüksək mədəniyyətə malik ölkə kimi nüfuz qazanıb. Ölkəmiz qısa müddətdə ümumdünya mədəniyyət diplomatiyası cərəyanına fəal şəkildə qoşularaq, özünü mədəni mübadiləyə, xalqların mənəvi yaxınlığına açıq, ümumbəşəri irsin zənginləşdirilməsinə və qorunmasına qadir dövlət kimi tanıtmağı bacarıb, bu istiqamətdə ciddi nəticələr qazanıb.

Xalqımızın milli-mədəni dəyərlərinin dünyada təbliği, mədəni və humanitar əlaqələrimizin genişlənməsi, əsrlərboyu bəşər mədəniyyətinə nadir töhfələr vermiş şəxsiyyətlərimizin müasir dünyaya təqdimatı Azərbaycanın xarici siyasət kursunun mühüm istiqamətidir.

Vətən müharibəsindəki tarixi qələbəmiz mədəniyyət sahəsində də böyük dəyişikliklərin əsasını qoydu. İşğaldan azad edilmiş Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan olundu. Bülbülün, Natəvanın, Üzeyir bəy Hacıbəylinin büstləri yenidən Şuşaya qovuşdu. Bülbülün Şuşadakı ev-muzeyi bərpa edildi. 30 illik fasilədən sonra "Xarıbülbül" festivalı yenidən Vətənində keçirildi. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Vaqif Poeziya Günləri yüksək səviyyədə təşkil olundu. Şuşada aparılan quruculuq işlərinə paralel həyata keçirilən bütün layihələr şəhərin mədəni həyatını da canlandırır, vandalların vurduqları yaraları sağaldır. Bütün bunlar 30 illik işğal dövründə Qarabağda, Şərqi Zəngəzurda dəhşətli vandalizm əməlləri törətmiş, dağıntılarla, qarətçiliklə öz miskin, saxtakar mahiyyətlərini ortaya qoymuş işğalçı tərəfdən fərqli olaraq Azərbaycan xalqının nə qədər mədəni, sivil, inkişafa, quruculuğa, tarixi-mənəvi dəyərlərə önəm verən xalq olduğunu bütün dünyaya göstərir.

Modernləşdirmə konsepsiyasının təşəbbüskarı olan Prezident İlham Əliyev innovasion, idarəçilik səviyyəsi yüksək olan kadr potensialı yaradılması üçün xüsusi proqramların, layihələrin reallaşdırılması məqsədilə dövlət əhəmiyyətli sənədlər imzalayıb. Bunlar ölkəni modernləşdirməyə, insan kapitalını inkişaf etdirməyə, istedadlılara qayğı göstərməyə və onları himayə etməyə, potensialının üzə çıxarılmasına yönəlmiş rəhbər sənədlərdir.

Bu gün ictimai mühitdə elmin və ziyalılığın, qabaqcıl texnologiyaların böyük əhəmiyyəti təbliğ edilir, milli modernləşmə hamı tərəfindən dərk olunan hədəfə çevrilir. Eyni zamanda cəmiyyətimizdə innovasion və texnoloji yeniləşmə zərurətinin irəli sürülməsi, peşəkar kadr ehtiyatının formalaşması dövlət rəhbərimizin bu istiqamətdəki ardıcıl və qətiyyətli siyasi xəttidir.

## Əks-qütblər arasında balans

Prezident İlham Əliyevin müəyyən etdiyi müstəqil xarici siyasət kursu dünyada bir-birinə qarşı duran qütblər tərəfindən də müsbət qiymətləndirilir. Azərbaycan müxtəlif güc mərkəzlərindən bərabər məsafədə seçdiyi mövqeyi illərdir ki, qorumağı bacarır. Belə ki, ikitərəfli münasibətlərdə bərabər hüquq, qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə sadiqdir, eyni zamanda ikitərəfli əməkdaşlığın heç bir halda üçüncü tərəfi hədəfə almamasını vacib sayır. Qeyd edilənlər beynəlxalq aləmdə dövlətimizə, Azərbaycan Prezidentinə loyal münasibətin formalaşmasında çox mühüm rol oynayır.

Bu gün Azərbaycan dövləti Avropanın enerji təhlükəsizliyinin əsas təminatçısıdır və ölkəmiz bu mövqeyə illərin zəhməti, ortaya qoyulan sarsılmaz siyasi iradə sayəsində nail ola bilib. Enerji təhlükəsizliyinin dünyanın aparıcı dövlətlərinin milli təhlükəsizlik strategiyasının həlledici elementi statusunda çıxış etdiyi müasir dünyamızda Azərbaycan Avropa qitəsinin enerji mənzərəsini yenidən müəyyənləşdirir. Azərbaycanın Avropa İttifaqı ilə imzaladığı Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu da bunun daha bir təzahürüdür.

Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu neft diplomatiyasını uğurla davam etdirən Prezident İlham Əliyev müxtəlif obyektiv və subyektiv çətinliklərin öhdəsindən gələrək Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi nəhəng neft və qaz marşrutlarının reallaşdırılmasına nail oldu. Bu layihə "Cənub qaz dəhlizi" kimi yeni layihələrə də yol açdı və hazırda bu, enerji sahəsində qlobal reallıqlara çox mühüm təsir göstərir.

2017-ci il sentyabrın 14-də beynəlxalq ictimaiyyət Azərbaycanın enerji təhlükəsizliyi sahəsində yeni və tarixi bir səhifə yazdığına şahidlik etdi. Həmin gün "Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə yeni sazişin imzalanması ilə bu yataqların işlənilməsi 2050-ci ilə qədər uzadıldı. Bütün bunlar Azərbaycanın gələcəyinə olan inamdan, ölkəmizlə tərəfdaşlıq perspektivlərindən, dövlətimizin yürütdüyü müstəqil daxili və xarici siyasətin uğurlarından xəbər verir.

Son onilliklərdə Prezident İlham Əliyevin təşəbbüsü ilə regionda çox böyük nəqliyyat layihələri də həyata vəsiqə qazanıb, "Şərq-Qərb" nəqliyyat marşrutu reallığa çevrilib, 2017-ci ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmiryolunun açılmasından sonra artıq bu marşrut fəaliyyətdədir. Hazırda isə "Şimal-Cənub" nəqliyyat dəhlizinin yaradılması istiqamətində intensiv işlər görülür.

Bu gün Azərbaycanın fəal liderliyi ilə regionda yaranan yeni reallıqlar müstəqil dövlətçilik kursunun hər bir ölkə və xalq üçün ən böyük dəyər olduğunu göstərir və dövlətimizin yeni-yeni uğurlarına zəmin yaradır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Elə bir meqalayihə yaratdı ki...

## Azərbaycan, eləcə də Avropa bundan ən azı 100 il faydalanacaq



İlham Əliyev dünyaya səs salan bir meqalayihə də yaratdı. Elə bir meqalayihə ki, bununla Avropanın enerji xəritəsi yenidən çəkildi. Qoca qitənin mavi yanacağa ehtiyacı artanda, vəziyyət hətta kəskin şəkil alanda neçə-neçə ölkə bu layihənin köməyinə bel bağladı.

Elə bir meqalayihə yaratdı ki, onun həyata keçirilməsində Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya birləşdi. Daha neçə ölkə - Bosniya və Hersoqovina, Xorvatiya, Monteneqro, Rumıniya, Macarıstan, Slovakiya da ondan bəhrələnmək arzusundadır. Marşrutun getdikcə uzanması, şaxələnməsi də istisna deyil.

Elə bir meqalayihə yaratdı ki, qarşıdan gələn 100 il ərzində Azərbaycan xalqına xidmət edəcək və milli iqtisadiyyatımızın inkişafında mühüm amil olacaq. Ölkəmizin regionda və Avropada nüfuzunun artmasını, Azərbaycanla Qərb arasında münasibətlərin daha yüksək pilləyə qalxmasını şərtləndirəcək. Azərbaycanın enerji ixrac edən və tranzit ölkə kimi əhəmiyyəti daha da artacaq. Layihədə iştirak edən bütün ölkələr, şirkətlər mənfəət götürəcəklər. Bu layihə Azərbaycana böyük gəlirlər gətirərək insanların rifahının yüksəlməsinə təsir göstərəcək, xalqımızın firavan gələcəyini təmin edəcək.

Bu meqalayihə "Cənub qaz dəhlizi" adlanır. Başqa sözlə, məhz Prezident İlham Əliyevin səyləri, dünyadakı siyasi nüfuzu və təşəbbüskarı olduğu nəhəng layihələr sayəsində Azərbaycan qaz ixrac edən ölkə kimi tanındı, şöhrət tapdı.

Dövlət başçısının qeyd etdiyi kimi, "Cənub qaz dəhlizi" Azərbaycanın liderliyi ilə həyata keçirilən, tarixi əhəmiyyətə malik, xalqımızın firavan gələcəyini təmin edən, regionda, Avropada təhlükəsizliyin, əməkdaşlığın möhkəmlənməsinə xidmət göstərən qlobal layihədir. Dövlət başçısı bununla yanaşı, "Cənub qaz dəhlizi"nin beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq şəraitində reallaşdığını da dəfələrlə vurğulamışdır. Yəni "Cənub qaz dəhlizi" layihəsinin uğurla tamamlanması nümayiş etdirir ki, komanda şəklində aparılan iş həmişə yaxşı nəticə verir. Burada istehsalçı, tranzit və istehlakçı ölkələrin maraqları üst-üstə düşür.

Xatırladaq ki, Cənubi Qafqaz Boru Kəməri (CQBK) Azərbaycan qazını Gürcüstana 2006-cı ildə çatdırıb. Gürcüstan-Türkiyə sərhədində CQBK-ya 280 kilometrlik boru kəməri qoşulur ki, bununla Azərbaycan qazı Ərzuruma nəql edilir. Səngəçal-Ərzurum marşrutu ilə uzanan bu xətt bütövlükdə Bakı-Tbilisi-Ərzurum (BTƏ) kəməri adlanır. BTƏ 2007-ci il iyulun 3-də istifadəyə verilib.

"Cənub qaz dəhlizi"nin təməlini də əslində elə BTƏ yaradıb. Azərbaycandan İtaliya torpağınadək 3500 kilometrlik məsafə boyu uzanan, üç kəmərdən ibarət olan bu dəhlizin birinci seqmentini genişləndirilmiş CQBK təşkil edir.

Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) "Cənub qaz dəhlizi"nin ikinci və ən böyük hissəsidir. Onu bu möhtəşəm enerji dəhlizinin birləşdirici halqası, onurğa sütunu da adlandırırlar.

Azərbaycan qazı artıq Avropaya da ixrac edilir. "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan TAP (Trans-Adriatik Qaz Boru Kəməri) 2020-ci ilin son günündə istifadəyə verildi. Bununla da "Cənub qaz dəhlizi" tam fəaliyyətə başladı.

"Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının layihənin həyata keçirilməsində müstəsna rolu var. Məşvərət Şurasının bu il fevralın 4-də Bakıda keçirilən toplantısı sayca 8-ci idi. Keçən il koronavirus pandemiyası səbəbindən videokonfrans formatında keçirilən 7-ci iclası nəzərə almasaq, 2015-ci ildən üzübəri ildə bir dəfə, adətən fevral ayında baş tutan bu tədbirə həmişə Azərbaycan evsahibliyi edib. Bu da XXI əsrin nəhəng layihələrindən biri - "Cənub qaz dəhlizi"nin təşəbbüskarının və aparıcı qüvvəsinin Azərbaycan olduğunu təsdiqləyən faktlardandır. Bu həm də Prezident İlham Əliyevin dünyadakı nüfuzundan qaynaqlanır.

Meqalayihələrimiz getdikcə şaxələnməkdədir. Cari il oktyabrın 1-də istifadəyə verilən Yunanıstan-Bolqarıstan İnterkonnektoru (IGB) bunun növbəti təsdiqidir. IGB Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan təbii qazı Bolqarıstana çatdıracaq.

İnterkonnektorun açılış mərasimindəki çıxışında dövlətimizin başçısı Azərbaycan qazının ixracı və onun potensialı məsələlərinə toxunaraq demişdir: "Ötən il qaz ixracımız təxminən 19 milyard kubmetr təşkil etmişdir. Onun 8,2 milyard kubmetri Avropaya nəql olunmuşdur. Bu isə əvvəlki illə müqayisədə 40 faiz artım deməkdir. Bu il biz ixracımızı 22 milyard kubmetrə qədər artıracağıq və onun 11,5 milyard kubmetri Avropa istehlakçılarına çatdırılacaqdır. Artıq söylədiyim kimi, bu ilin iyul ayında biz xanım prezident Ursula Fon der Lyayenin Azərbaycana səfəri zamanı Avropa Komissiyası ilə anlaşma memorandumu imzaladıq. Bu, çox əhatəli sənəddir, ona əsasən, 2027-ci ilə qədər biz təbii qazın təchizat həcmini ən azı iki dəfə artırmağı planlaşdırırıq və bunu etməyə tam potensialımız var. Biz TANAP-ın 16 milyard kubmetrdən 32 milyard kubmetrə, TAP-ın isə 10 milyard kubmetrdən 20 milyard kubmetrə qədər genişləndirilməsi ilə bağlı tərəfdaşlarımızla artıq məsləhətləşmələrə başlamışıq. Çünki bu olmadan əlavə təchizatı təmin etmək çətin olacaq".

Qeyd edək ki, Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Bu gün "Cənub qaz dəhlizi"nin ehtiyat mənbəyi yalnız "Şahdəniz" olsa da, yaxın gələcəkdə ona digər yataqların da qoşulacağı gözlənilir. Ölkəmiz həmçinin müasir və çoxşaxəli qaz nəqliyyatı infrastrukturuna malikdir. Bu da bir sıra ölkələri mavi yanacaqla təmin etməyə imkan verir. Qısa müddət ərzində bu sahədə qazanılmış təcrübə və əldə edilmiş uğurlar sabahın daha böyük işləri üçün də möhkəm zəmindir. Prezidentimiz bütün bunları nəzərə alaraq demişdir: "Enerji təhlükəsizliyi məsələləri bütün dövrlərdə mühüm əhəmiyyət kəsb edir, ancaq indiki şəraitdə bu əhəmiyyət daha da artmışdır. Biz bunu yaxşı dərk edirik. Ona görə əlimizdən gələni edirik ki, qaz hasilatını artıraq və tərəfdaşlarımızı təbii qazla təmin edək".

Zaman Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulmuş vəzifələrin məqsədyönlü olduğunu, müəyyənləşdirilmiş strategiyanın düzgün seçildiyini təsdiqlədi. Həyata keçirilən çoxşaxəli proqramlar, dərin islahatlar ölkəmizi böyük inkişaf yoluna çıxardı və bu yolda yeni uğurlu addımlar atılmaqdadır. Prezidentimizin dediyi kimi, "Cənub qaz dəhlizi" layihəsi başa çatıb, bizim işimiz isə davam edir".

*Flora SADIQLI,*
*"Azərbaycan"*



## İlham Əliyevin yaratdığı milli brend ictimai xidmətlər sahəsində mükəmməl nümunə, təkmil örnəkdir

# 10 ilin ASAN yolu

Tarix 2003-cü il 15 oktyabr. Azərbaycan xalqı ölkədə keçirilən prezident seçkilərində Ulu Öndər Heydər Əliyevin layiqli varisi İlham Əliyevə yüksək etimad mandatı verərək özünə lider seçir. Xalqın inandığı, güvəndiyi dövlət başçısı yürütdüyü uğurlu diplomatiya və milli maraqlara əsaslanan müstəqil siyasətlə nəinki göstərilən etimadı doğruldur, hətta 200 illik münaqişəyə, 30 illik müharibəyə son qoyaraq Müzəffər Komandan kimi könüllərdə heykəlini ucaldır.

Prezident kimi fəaliyyət göstərdiyi 19 ildə İlham Əliyev Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirir. Dünyada ən islahatçı, humanist və müstəqil siyasət yürüdən lider kimi tanınır. Azərbaycanın sosial-iqtisadi inkişafı üçün misli görünməmiş layihələr reallaşdırır. Məhz bu layihələrlə Azərbaycan dünyaya milli "Made in Azebaijan" kimi brendlər çıxarır.

O milli brendlərdən biri də "ASAN xidmət"dir.

Prezidentin sözü ilə desək "ASAN xidmət"in yaradılması Azərbaycanda aparılan ciddi islahatların təzahürüdür. Bu, yeni sistemdir. Bu, Azərbaycan brendidir".

10 il öncə - 2012-ci ildə Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzləri yaradılmasını və onların gələcək fəaliyyətini dəyərləndirərkən Prezident İlham Əliyevin söylədiyi bu fikirlər bu gün bir daha öz təsdiqini tapır.

Siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanan İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 19 ildə xalqın rahatlığı naminə həyata keçirdiyi islahatlar bu gün öz mükəmməl nəticəsini verməkdədir. Prezidentin ictimai xidmətlər sahəsində reallaşdırdığı islahatların nəticəsidir ki, bu gün vətəndaş-dövlət münasibətləri yüksək səviyyədədir.

### 10 ildə 24 "ASAN xidmət" mərkəzi yaradılıb

Bu, bir həqiqətdir ki, İlham Əliyev fəaliyyətə başladığı ilk gündən dövlət orqanları qarşısında əhalinin problemlərinin operativ öyrənilməsini və səmərəli həllini ən vacib vəzifə kimi müəyyənləşdirib. Həmçinin bu sahədə ən mükəmməl nümunəni yaratmaqla rəsmi strukturların xalqın xidmətçisi funksiyası daşıdıqlarını daim təbliğ edib.

Elə prinsipləri operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyətlilik, etik davranış qaydalarına nəzarət və rahatlıq olan "ASAN xidmət" sisteminin yaradılması da bu islahatların real nümunəsidir.

Bu gün "ASAN xidmət" dünyada bu sahədə ən təkmil örnək kimi qəbul edilən Azərbaycan modelidir. İctimai xidmətlər sahəsində "ASAN xidmət"in xətti ilə aparılan islahatlar nəinki bu sahəni nümunəvi edib, eyni zamanda cəmiyyətdəki münasibətlərə də çox müsbət təsir göstərib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzləri dövlət başçısının 2012-ci il 13 iyul tarixli 685 nömrəli fərmanı ilə yaradılsa da, qurum həmin ilin 29 dekabr tarxindən fəaliyyətə başlayıb.

Hazırda 24 "ASAN xidmət" mərkəzi fəaliyyət göstərir. Onlardan 7-si Bakı şəhərində, 2-si Gəncədə, 2-si Sumqayıtda olmaqla, digərləri Sabirabad, Bərdə, Qəbələ, Masallı, Quba, Mingəçevir, İmişli, Şəki, Şamaxı, Kürdəmir, Tovuz, Ağcabədi və Balakəndədir.

Lənkəran, Salyan və Naxçıvanda isə ilk "ASAN xidmət" mərkəzləri inşa olunur.

### Bir mərkəzdə 320-dən çox xidmət

"ASAN xidmət" mərkəzlərində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 325-dən çox xidmət göstərilir.

















"ASAN Kommunal" mərkəzlərində isə "Azərişıq" ASC, "Azərsu" ASC və "Azəriqaz" İB tərəfindən 55 növ xidmət mövcuddur.

Bu günədək "ASAN xidmət" mərkəzlərinə 8 milyon 236 mindən çox vətəndaşın 57 milyona yaxın müraciəti daxil olub.

Keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 faiz təşkil edir.

Ümumiyyətlə, sirr deyil ki, İlham Əliyevin müəllifi olduğu "ASAN xidmət"in yaradılması ictimai xidmətlər sahəsində inqilabi dəyişiklik kimi qəbul edilir. Eyni zamanda bu, yeni davranış qaydalarının tətbiqidir.

Əvvəllər xidmət sektoru problemli sahə idi. Həm pozuntular olurdu, həm diqqətsizlik, həm də vətəndaşlara bir çox hallarda hörmətsizlik edilirdi, laqeyd münasibət göstərilirdi. Vətəndaşlar onlara çatacaq sənədləri, arayışları günlərlə, həftələrlə ala bilmirdilər, yaxud da onlardan nə isə tələb olunurdu, qanunsuz tələblər irəli sürülürdü. Bu gün isə məmnunluq əmsalı 100 faizə yaxın olan "ASAN xidmət" mərkəzləri ölkə ictimaiyyətinin ən çox etibar etdiyi, inandığı, güvəndiyi mərkəz kimi fəaliyyət göstərir.

### Könüllü ordusu, 10 səyyar "ASAN xidmət" avtobusu və 1 "ASAN qatar"

Regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə vətəndaşlara səyyar formada xidmətlərin göstərilməsi davam etdirilir. 2013-cü ilin iyun ayından etibarən 2 milyon 686 mindən çox vətəndaşa səyyar xidmət göstərilib.

Könüllülər "ASAN xidmət"in fəaliyyətə başladığı ilk gündən etibarən bu konsepsiyanın bir komponentidir. Bu prosesə 30 mindən çox könüllü gənc qoşulub. Bu günə kimi könüllülər tərəfindən 5 mindən çox təlim, 750-dən çox yerli və beynəlxalq layihə keçirilib və 3 minə yaxın könüllü "ASAN Kadr" portalı vasitəsilə işlə təmin olunub.

Dövlət Agentliyi və tabeliyində olan qurumlar öz fəaliyyəti çərçivəsində 15 ölkə və 2 beynəlxalq təşkilatla müqavilə imzalayıb.

Bu çərçivədə İtaliya, Böyük Britaniya, Türkiyə, Monteneqro, Estoniya, Koreya, İndoneziya, Mərakeş, Özbəkistan, Uqanda və digər ölkələrin müvafiq sahələr üzrə fəaliyyət göstərən qurumları ilə anlaşma memorandumları imzalanıb.

Eyni zamanda UCLG Afrika və ICESCO təşkilatları ilə anlaşma memorandumları imzalanıb.

İndoneziya, Monteneqro, Özbəkistan, Türkmənistan, Rusiya Federasiyası və bir sıra ölkələrin müvafiq sahələr üzrə fəaliyyət göstərən qurumlarının nümayəndələrinə Dövlət Agentliyinin ekspertləri tərəfindən təlimlər keçirilib.

Həmçinin bir neçə ölkədən "ASAN xidmət" təcrübəsinin öz ölkələrində tətbiqi ilə əlaqədar müraciətlər daxil olub. Hazırda danışıqlar davam etdirilir.

Göründüyü kimi, milli brendimiz olan "ASAN xidmət" fəaliyyətini getdikcə daha da şaxələndirir. "ASAN xidmət"də çalışan hər bir əməkdaş öz işi ilə həm vətəndaş məmnunluğunun daha da yüksəlməsi, həm də Azərbaycanın beynəlxalq nüfuzunun, siyasi çəkisinin artması üçün operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyətlilik prinsiplərinə sadiqlik nümayiş etdirir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*








**Məlumdur ki, dayanıqlı inkişaf istehsalyönümlü sənayenin miqyasından asılıdır. Bunun üçün hər bir ölkədə sənaye istehsalı ümumi istehsalda yüksək çəkiyə malik olmalıdır. Bizdə bu sahədə üstün mövqe neft sənayesinə məxsusdur. Lakin enerji daşıyıcılarının qiyməti dünya üzrə sabit olmadığı üçün bu dəyişkənlik ölkənin maliyyə bazarına bəzən müsbət, bəzən də mənfi təsir göstərir. Odur ki, ölkəmizdə də iqtisadiyyatın şaxələndirilməsi, xüsusilə qeyri-neft sənayesinin inkişafı ön plana çəkilmişdir.**

# İlham Əliyevin sənaye inqilabı

Prezident İlham Əliyevin rəhbərliyi ilə bu sektorun inkişafı üçün iqtisadi islahatların aparılmasına start verilmişdir. Bu istiqamətdə görülən işlər nəticəsində ümumi istehsalda qeyri-neft sənayesinin payı xeyli artmışdır.

Ölkəmizdə sənayeləşmə prosesini sürətləndirmək məqsədilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qəbul olunmuşdur. Bu sənədlə sənayenin inkişaf perspektivləri müəyyən edilmiş, hazırlanan tədbirlər planına əsasən sənaye potensialının gücləndirilməsi, rəqabətqabiliyyətliliyin artırılması, kadr potensialının, elmi təminatın yaxşılaşdırılması, normativ-hüquqi bazanın təkmilləşdirilməsi nəzərdə tutulmuşdur.

Dünya sənaye tarixinə nəzər yetirdikdə görürük ki, zaman-zaman onun müxtəlif inkişaf formaları meydana gəlir. Bunlardan biri də məhz texnopark adlanan yeni istehsal və xidmət sahələridir. Yeni sənaye birlikləri olan texnoparklar ötən əsrin 50-70-ci illərində fəaliyyətə başlayıb. İkinci mərhələ 80-90-cı illəri əhatə edib, üçüncü mərhələ isə 2000-ci ildən başlayaraq bu günədək davam edir.

Texnoparkların mərhələlərlə inkişafı səbəbsiz deyil. Statistikadan aydın olur ki, hər 15-20 ildənbir texnoparkların yeni formalarının yüksəliş dövrü başlayır. Bu da bazar və iqtisadiyyatın dəyişkən inkişaf tendensiyası, ümumilikdə cəmiyyətin transformasiyası ilə izah olunur.





## Davos Forumu ölkəmizin 4-cü Sənaye İnqilabına töhfə verəcəyinə inanır

Dünya İqtisadi Forumunun 4-cü Sənaye İnqilabı Regional Mərkəzinin Azərbaycanda yaradılması haqqında Davosda niyyət protokolu imzalanmışdır. Bu, ölkəmizdə qeyri-neft sənayesinin inkişafı sahəsində görülən işlərə verilən yüksək qiymətdən irəli gəlir və belə bir sənədin imzalanması həmin mötəbər tədbirdə diqqətçəkən məqam olmuşdur. Protokol imzalanandan sonra Dünya İqtisadi Forumunun prezidenti Borge Brende Azərbaycan Prezidentinə müraciət edərək demişdir: "Siz qarşıya hədəf qoyanda onu həyata keçirirsiniz. Düşünürəm ki, Azərbaycan 4-cü Sənaye İnqilabına ən yaxşı hazır olan ölkələrdən biri olacaq".

Sənayeləşmədə ölkədə yaradılan texnoparkların əhəmiyyəti böyükdür. Texnoparklar yüksək keyfiyyətli məhsul hazırlamaq qabiliyyətinə malikdir və buna elmin son nailiyyətlərindən və müasir texnologiyalardan istifadə etməklə nail olunur. Hazırda Bakıda, eləcə də bölgələrdə texnoparkların və sənaye məhəllələrinin yaradılması istiqamətində böyük işlər görülür. Bununla yerli və xarici sahibkarlar üçün müxtəlif istiqamətlər üzrə yeni sənaye müəssisələrinin yaradılmasına kömək göstərilir.

Prezident İlham Əliyevin 21 dekabr 2011-ci il tarixli fərmanı ilə ilk dəfə Sumqayıtda Kimya Sənaye Parkı yaradılmışdır. Məqsəd ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli məhsul buraxmaq, onu dünya bazarına çıxarmaq, qeyri-neft sektorunun davamlı inkişafına nail olmaq, həmçinin əhalinin məşğulluğunu təmin etmək idi. Parkın sənaye zonasında kimya sənayesi, tikinti sənayesi və digər sənaye sahələri üzrə müəssisələrin - parkın rezidentlərinin fəaliyyət göstərməsi üçün böyük imkanlar yaradılmışdır və proses davam edir. Hazırda bu müəssisələrdə istehsal edilən məhsullar ölkənin daxili tələbatını ödəməklə yanaşı, dünya bazarına da ixrac olunur. Bu da onu göstərir ki, yüksək texnika və texnologiyalardan istifadə olunduğu üçün texnoparklarda rəqabətqabiliyyətli məhsul istehsal edilir.

İkinci böyük sənaye nəhəngi olan Balaxanı Sənaye Parkı isə Prezident İlham Əliyevin 28 dekabr 2011-ci il tarixli sərəncamı ilə yaradılıb. Qeyd edək ki, həmin parkda fəaliyyət göstərən sahibkarların marağı nəzərə alınaraq dövlət başçısının 1 mart 2018-ci il tarixli sərəncamına əsasən, onun ərazisi 1,3 hektar artırılaraq 8,3 hektara çatdırılıb. Balaxanı Sənaye Parkının ərazisində məişət tullantılarının emalı (təkrar emalı) və xidmət müəssisələri yaradılıb. Bu səbəbdən parkın idarəedici təşkilatı "Təmiz Şəhər" ASC-dir. "Yaşıl iqtisadiyyat"ın inkişafında xüsusi əhəmiyyətə malik olan bu parkın təşkilində başlıca hədəf təkrar istehsal sahəsinə maraq göstərən potensial sahibkarlar və investorlar üçün əlverişli şəraitin yaradılması idi ki, ona da nail olunub.

Prezidentin 3 iyun 2015-ci il tarixli sərəncamına əsasən, ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə Bakıda Qaradağ Sənaye Parkı yaradılmışdır.

Eyni zamanda ölkənin hərtərəfli inkişafına nail olmaq üçün bölgələrdə də sənaye müəssisələrinin yaradılmasına xüsusi diqqət yetirilir. Dövlət başçısının 26 fevral 2015-ci il tarixli sərəncamı ilə yaradılan Mingəçevir Sənaye Parkı məhz bu məqsədə xidmət edir. Üstəlik, sənayeləşmənin ağırlıq yükünün regionlara köçürülməsi həm ölkənin ümumi inkişafı baxımından əhəmiyyətlidir, həm də bölgələrdə yaşayan əhalinin məşğulluğu təmin olunur.

Xatırladaq ki, Mingəçevir Sənaye Parkının təməlqoyma mərasimi Prezidentin iştirakı ilə 2016-cı il sentyabrın 21-də keçirilmişdir. Parkda rezident kimi qeydiyyata alınmış "Mingəçevir Tekstil" MMC-nin iplik istehsalı üzrə dəyəri 85 milyon dollar, illik istehsal gücü 20 min ton iplik olan 2 fabriki ("Ring" və "Open End" üsulu ilə) də 2018-ci il fevralın 27-də dövlət başçısının iştirakı ilə istifadəyə verilmişdir. Buradakı avadanlıqlar Almaniya, İsveçrə, İspaniya və Yaponiyanın aparıcı şirkətlərindən alınaraq quraşdırılmışdır. Texnoparkda fəaliyyət göstərən fabriklərdə şəhər əhalisi üçün 750 yeni iş yeri açılmışdır.

Yeri gəlmişkən, sənaye zonaları ölkənin qeyri-neft sektorunun, innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin inkişafında və əhalinin məşğulluq səviyyəsinin təmin edilməsində mühüm rol oynayır. İndiyədək sənaye zonalarında 89 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və onlardan çoxu artıq fəaliyyətə başlayıb. Sahibkarlar tərəfindən bu günədək sənaye zonalarına 6,2 milyard manatdan çox investisiya yatırılıb və 9500-dək iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 400 milyon manat investisiyanın yatırılması və 2 minə yaxın iş yerinin yaradılması nəzərdə tutulur. Sənaye zonalarında indiyədək ümumilikdə 5 milyard manatlıq məhsul istehsal edilib ki, onun da 1,4 milyard manatlığı (təqribən 28 faizi) ixrac olunub.

Bütün bunlar həm də sənaye zonalarında sahibkarlar üçün əlverişli investisiya mühitinin yaradılması hesabına mümkün olmuşdur. Belə ki, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, texnikanın, texnoloji avadanlıqların və qurğuların istehsal məqsədilə idxalı zamanı ƏDV-dən və 7 il müddətinə gömrük rüsumlarından azad olunurlar.

## Qeyri neft-qaz sənayesi məhsullarının ixracı artır

Ötən il sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 35-dən çox ölkəsinə ixrac edilib. İndiyədək sənaye zonalarında ümumilikdə 5,8 milyard. manatlıq məhsul istehsal edilib ki, bunun da 1,7 milyard manatlıq hissəsi ixrac olunub. 2020-ci ildə sənaye zonalarında 1,27 milyard manatlıq məhsul istehsal edilmişdisə, keçən il 2,4 milyard manat təşkil edir. Ötən il sənaye zonaları üzrə ixracın həcmi 2020-ci illə müqayisədə 2,7 dəfə artaraq qeyri-neft sənayesi məhsullarının ixracındakı payını 30,8 faizə çatdırmışdır.

İşğaldan azad olunmuş ərazilərdə texnoparkların yaradılmasına start verilib. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Ağdamda və Cəbrayıl rayonunun Soltanlı kəndində də texnoparklar yaradılır. Həmin texnoparkların fəaliyyəti ilk növbədə işğaldan azad olunmuş ərazilərin potensialından istifadə etməyə hesablanıb. Bununla yanaşı, doğma yerlərə dönəcək soydaşlarımızın məşğulluğunun təmin ediləcəyinin hədəf seçilməsini də unutmaq olmaz. Bu isə o deməkdir ki, həmin texnoparklar bölgənin iqtisadi inkişafnı təmin etməklə yanaşı, həm də sosial məsələlərin həllinə müsbət təsirini göstərəcək.

Tikilməkdə olan Ağdam Sənaye Parkına sahibkarlar tərəfindən böyük maraq göstərilir, artıq 2 sahibkara sənaye parkının rezidenti statusu verilib. İqtisadiyyat Nazirliyinin İqtisadi Zonaların İnkişafı Agentliyində bununla bağlı keçirilən tədbirdə sahibkarlara Sənaye Parkının rezidentinin qeydiyyat şəhadətnaməsi təqdim olunub.

Müxtəlif çeşiddə sintetik xalçaların istehsalı ilə məşğul olacaq "Dadaş-N" MMC Ağdam Sənaye Parkında 2 hektar ərazidə fabrik inşa edəcək, investisiya dəyəri 9,5 milyon manat olan layihə çərçivəsində il ərzində 1 milyon kvadratmetrdən çox xalça istehsalı, 60 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur.

Ağdam Sənaye Parkının digər yeni rezidenti - "Veliev" MMC tərəfindən "Prefabrik dəmir-beton məmulatları istehsalı" layihəsi həyata keçiriləcək. Layihə çərçivəsində körpülərin, sənaye və yaşayış binalarının tikintisi üçün gərginləşdirilmiş dəmir-beton tirlərin, kirişlərin, fermaların, döşəmə panellərinin, üfüqi su novlarının, dəmir-beton dirəklərin, müxtəlif növ hasarların, kanalizasiya borularının, səki və divar daşlarının, yaşayış binalarının tikintisi üçün izolyasiyalı panellərin və s. istehsalı planlaşdırılır. Dəyəri 2,5 milyon manat təşkil edən layihə çərçivəsində il ərzində 200 min kvadratmetr dəmir-beton məmulatlarının istehsalı planlaşdırılır. Müəssisədə 80 daimi iş yeri yaradılacaq, burada Türkiyə istehsalı və yerli texnologiyalardan istifadə ediləcək. Müəssisədə istehsal olunan məhsullar ilkin olaraq daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək.

Qeyd edək ki, Ağdam Sənaye Parkı Prezidentin 28 may 2021-ci il tarixli fərmanı ilə yaradılıb. Sənaye Parkında tikinti materiallarının istehsalı müəssisələrinin yaradılması, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, yem, gübrə istehsalı və emalının, eyni zamanda xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili nəzərdə tutulur.

Prezident İlham Əliyevin apardığı uğurlu islahatlar sayəsində ölkədə yüzlərlə kiçik, orta və iri müəssisə, sənayeni inkişaf etdirmək məqsədilə nəhəng istehsal sahələri olan texnoparklar yaradılıb.

Texnoparklar həm ərazisinə, həm də burada yerləşən müəssisələrin sayına və istehsal etdiyi məhsulların növünə görə sənaye nəhəngləri sayılır. Digər sənaye birlikləri - sənaye məhəllələri isə texnoparklardan fərqli olaraq kiçik və yığcamdır. Buradakı müəssisələrdə əsasən yerli xammaldan istifadəyə üstünlük verilir. Lakin texnoparklardakı kimi, sənaye məhəllələrində də yüksək texnologiyalardan istifadə edilərək keyfiyyətli məhsul istehsal olunur. Sənaye məhəllələrinin digər bir üstün cəhəti də bölgələrdə yerləşməsidir. Bu, yerli sahibkarlara az məbləğdə investisiya qoymaqla dövlətin güzəştlərindən istifadə etmək imkanı yaradır. Onlar da bu imkanlardan yararlanaraq öz işlərini müasir səviyyədə qura bilirlər.

Yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin davamlı inkişafını və əhalinin məşğulluğunu təmin etməkdə sənaye məhəllələrinin rolu böyükdür. Regionlarda sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, yerli ehtiyatlardan səmərəli istifadə etməklə sənaye sahələrinin inkişafı, istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması baxımından da sənaye məhəllələrinin müstəsna əhəmiyyəti var.

## Regionların inkişafında sənaye məhəllələrinin rolu yüksəkdir

Ölkəmizdə sənayenin inkişafına ən yüksək səviyyədə diqqət təsadüfi deyil. Əvvəla, sənaye iqtisadiyyatın aparıcı sahələrindəndir. Qeyd etdiyimiz kimi, uğurla həyata keçirilən sənayeləşmə siyasəti sayəsində Azərbaycanın müxtəlif regionlarında yüzlərlə müasir sənaye müəssisəsi yaradılıb. Nəticədə daxili tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, eləcə də ixracın həcmi və coğrafiyası genişlənib.

Ən başlıcası isə, əsas hədəf olan qeyri-neft sənayesinin inkişafı sürətlənib və dönməz xarakter alıb. Sənaye məhəllələrinin istehsal sahələri həcmcə kiçik olsa da, istehsal etdikləri məhsul növlərinə görə çoxşaxəlidir. Belə məhəllənin bir üstünlüyü də odur ki, ölkənin bütün şəhər və rayonlarında bu cür müəssisələr yaratmaq mümkündür və yaradılır da. Çünki bir çox müəssisənin xammalı həmin bölgələrdə yerləşir. Kiçik sahələri əhatə etdiyi üçün onların quraşdırılmasının xərci də azdır. Belə müəssisələr onlara kiçik və orta sahibkarların sərmayə qoymaq imkanına malik olduqları üçün də sərfəlidir. Yeri gəlmişkən qeyd edək ki, bu istiqamətdə həyata keçirilən siyasətin əsas məqsədi rayonlarda sənaye məhəllələrinin yaradılmasıdır.

Neftçala Sənaye Məhəlləsi bu sahədə birincilərdəndir. Burada hətta minik avtomobilləri də istehsal olunur. "Xəzər" avtomobilləri alıcıların rəğbətini qazanmağa başlayıb. Odur ki, gələcəkdə müəssisədə ildə 10 min avtomobilin istehsalı nəzərdə tutulur.

Məhəllədə "Kəhf" MMC də fəaliyyət göstərir. Müəssisənin illik istehsal gücü 25 ton balıq yemi istehsal etməkdir. Qarşıdakı illər müəssisədə mal-qara üçün, eləcə də digər yemlərin istehsalı planlaşdırılır. Onu da bildirək ki, müəssisənin yaradılması üçün 12 milyon manat investisiya qoyulub. Bunun 5,9 milyon manatı Sahibkarlığın İnkişafı Fondundan alınmış güzəştli kreditdir.

Neftçala Sənaye Məhəlləsində daha bir müəssisə fəaliyyət göstərir. İllik istehsal gücü 2 milyon tara olan "Metak" MMC-yə 1,35 milyon manat investisiya yatırılıb.

Həmin müəssisəyə də Sahibkarlığın İnkişafı Fondu tərəfindən 600 min manat güzəştli kredit verilib. "Gilan PİVOT" MMC-nin investisiya dəyəri isə 1 milyon manatdır. Müəssisədə 15 nəfər işlə təmin edilib. Bundan başqa, Neftçala Sənaye Məhəlləsində "Toğrul-2008", "Providence Limited", "Azproduct", "Petroqeoaz" MMC-lər fəaliyyət göstərir.

Hacıqabul və Sabirabad sənaye məhəllələri də ölkədə məhsul istehsalına töhfələrini verir. Masallı Sənaye Məhəlləsi isə Prezident İlham Əliyevin 2016-cı il iyunun 13-də imzaladığı sərəncamla yaradılıb. Ümumi sahəsi 10 hektar olan sənaye məhəlləsində dövlət vəsaiti hesabına lazımi infrastruktur, o cümlədən 2,5 MVt gücündə elektrik enerjisi təchizatı, gücü saatda 25 kubmetr olan sutəmizləyici qurğu qurulub, su və kanalizasiya sistemi, təbii qaz təchizatı, rabitə və nəqliyyat infrastrukturu yaradılıb. Eləcə də yüksək standartlara cavab verən 3 istehsal modulu, ikimərtəbəli inzibati bina, texniki və köməkçi binalar tikilib, genişmiqyaslı abadlıq işləri aparılıb. Hazırda burada mebel, dam örtükləri və aksesuarları, dəmir məmulatları, döşək, taxta emalı məmulatları istehsal olunur.

Bütün bu sənaye ocaqlarının fəaliyyəti və gələcək perspektivləri Prezidentin diqqət mərkəzindədir. Bu da onların inkişafına yeni təkan verir, yüksəlişə stimul yaradır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



# Ali qardaşlıq

Türk Dövlətləri Təşkilatı (əvvəllər Türk Şurası) ortaq tarix, ortaq dil, ortaq kimlik və ortaq mədəniyyət kimi dörd təmələ əsaslanır və üzv dövlətlər arasında əməkdaşlıq və həmrəyliyin inkişafı baxımından mühüm regional platformadır. Məmnunluq doğuran odur ki, təşkilat yarandığı gündən türkdilli dövlətlər arasında münasibətlər ildən-ilə yeni inkişaf mərhələsinə qədəm qoyur və əlaqələr konkret mexanizmlər üzərində inkişaf etdirilir. Bu inkişafın davamlı və səmərəli olmasında Azərbaycan rəhbərinin xüsusi rolu var.

Məlum olduğu kimi, Türk Dövlətləri Təşkilatı türkdilli ölkələrin dövlət başçılarının 3 oktyabr 2009-cu il tarixdə Azərbaycanın qədim şəhərlərindən biri olan Naxçıvanda keçirilən Zirvə görüşündə imzalanmış Naxçıvan Sazişinə əsasən yaradılmışdır. Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə təşkilatın təsisçi üzvləridir. Təsadüfi deyil ki, 2019-cu il oktyabrın 15-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının dövlət başçılarının Zirvə görüşü Azərbaycanda keçirilib. Burada həmçinin Türk Şurasının 10 illik yubileyi qeyd olunmuşdur. Zirvə görüşündə Özbəkistan tamhüquqlu üzv olaraq təşkilata qatılmışdı. Azərbaycan türkdilli dövlətlərin birliyi və bərabərliyinin siyasi, iqtisadi, sosial münasibətlər cəhətdən daha da gücləndirilməsi istiqamətində dəyərli xidmətlər göstərmişdir.

Bu istiqamətdə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülən və türkdilli ölkələr arasındakı siyasi və iqtisadi sahələrdə əlaqələrin inkişafına yönəldilmiş layihələrin əhəmiyyəti xüsusilə önəmlidir.

Xatırladaq ki, 2020-ci il aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti, Türk Şurasının sədri İlham Əliyevin təşəbbüsü ilə təşkilatın videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirilib. Bu toplantı son dövrün ən aktual məsələsi olan koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunub. Qeyd etmək lazımdır ki, bu, dünya miqyasında dövlət başçıları səviyyəsində pandemiya ilə bağlı Zirvə görüşünü keçirən ilk beynəlxalq tədbir kimi tarixə düşüb.

Tədbirdə ölkə rəhbərlərinin qəbul etdikləri qərara əsasən, koronavirus pandemiyası ilə mübarizə istiqamətində səylərin birləşdirilməsi məqsədilə 2020-ci il aprelin 28-də Türk Şurasının səhiyyə nazirlərinin, aprelin 30-da Türk Şurasının nəqliyyat sahəsi üzrə nazirlərinin, mayın 6-da üzv ölkələrin iqtisadiyyat nazirləri və gömrük idarələri rəhbərlərinin və mayın 7-də miqrasiya sahəsindəki dövlət qurumu rəhbərlərinin toplantıları videokonfrans vasitəsilə keçirilib. Bu toplantılar çərçivəsində böyük platforma olaraq Azərbaycan Prezidentinin yaratdığı və təşəbbüskarı olduğu bu mexanizmin nə qədər səmərəli, vacib və böhran dövrünün idarə edilməsi üçün nə qədər əhəmiyyətli olduğu bir daha ön plana çıxıb.

Ümumiyyətlə, türkdilli ölkələr arasında əlaqələr ildən-ilə inkişaf etməkdədir. Onları ortaq mədəniyyət, adət-ənənələr, milli-mənəvi və dini dəyərlər, tarixi köklər, etnik əlaqələr birləşdirir və bu amillər qarşılıqlı səmərəli fəaliyyət üçün əsas təməldir. Bu əlaqələrin əhatə dairəsi çoxşaxəlidir. Beynəlxalq Türk Mədəniyyət Təşkilatı olan TÜRKSOY türk dünyasının milli-mənəvi irsinin qorunması, inkişafı və təbliği istiqamətində mühüm vəzifəni həyata keçirir. Məlumdur ki, türkdilli dövlətlər coğrafi-strateji baxımdan dünyanın əhəmiyyətli bölgəsində yerləşir. TÜRKSOY-un ardından Türk Şurası və TÜRK PA-nın yaradılması regionda türkdilli ölkələrin hərtərəfli qarşılıqlı fəaliyyətinə önəmli təkan verir, regional təhlükəsizlik təhdidlərinə qarşı mübarizə aparır, ticarət və investisiya imkanlarının möhkəmlənməsinə kömək edir.

Türk Şurasının təşkilatçılığı ilə dövlət başçılarının Zirvə görüşü 2013-cü ildə Qəbələ şəhərində keçirilmişdir. Bu da Azərbaycanın türkdilli dövlətlər arasında nə qədər mühüm körpü rolu oynadığının bariz nümunələrindən biridir. Ortaq tarix, ortaq dil, ortaq kimlik və ortaq mədəniyyət kimi dörd əsas sütun üzərində qurulmuş bu təşkilat özünü bunlarla məhdudlaşdırmır. Daha doğrusu, təşkilat ona üzv olan dövlətlər arasında iqtisadiyyat, elm, təhsil, nəqliyyat, gömrük, turizm və digər sahələr kimi mövcud olan ikitərəfli əməkdaşlıq sahələrini genişləndirərək regiona fayda vermək üçün çoxtərəfli əməkdaşlığa çevrilmək niyyəti daşıyır. Təşkilat həmçinin tarixi İpək yolunun bərpası, regional türk diaspor mərkəzlərinin qurulması kimi əhəmiyyətli mövzularda önəmli qərarlar qəbul etmişdir.

Eyni zamanda Türk Akademiyası və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu kimi təşkilatlar da ölkələrimiz arasında elm, təhsil və mədəni-humanitar əlaqələrin inkişafına böyük töhfələr verir. Bu təşkilatlar vasitəsilə türkdilli ölkələr həm öz milli-mənəvi kimliyini qoruyur, həm də siyasi-iqtisadi cəhətdən daha böyük bir güc kimi təmsil olunurlar. Buna görə bu birliyin nüfuzunun artması zamanın tələbinə çevrilmişdir.

Qeyd olunanlarla yanaşı, qardaş türk respublikaları - Özbəkistan və Türkmənistanla olan əməkdaşlığın genişləndirilməsi də çox əhəmiyyətlidir. Əlbəttə, bu könüllü olmalıdır. Qeyd etmək lazımdır ki, türkdilli ölkələrin dövlət başçılarının 2018-ci ilin sentyabr ayında Qırğızıstanda keçirilmiş Zirvə toplantısında təxminən 20 illik fasilədən sonra Özbəkistan dövlət başçısı səviyyəsində iştirak etmişdir. Xüsusilə vurğulamaq lazımdır ki, Macarıstan Türk Şurasında müşahidəçi statusu almışdır. Macarıstanın Baş naziri Viktor Orban da Qırğızıstanda keçirilən Zirvə görüşünün iştirakçısı olmuşdur. Artıq bu ölkələrin təmsilçiləri Türk Şurası və TÜRK PA-nın toplantılarında müşahidəçi və qonaq qismində iştirak edirlər. Bu fəaliyyətlər gələcəkdə qardaş ölkələrin türk əməkdaşlıq qurumlarında tamhüquqlu üzv kimi iştirak etmələri üçün əlverişli zəmin yaradır.

Türkdilli dövlətlərin regionda sabitliyin və sülhün qorunub saxlanılması, ölkələrimizin ərazi bütövlüyünün beynəlxalq münasibətlər sistemi səviyyəsində tanınması və qəbul olunması, BMT-nin qətnamələrindən irəli gələn məsələlərin türk dövlətləri arasında da yekdilliklə qarşılıqlı hörmətə dayanaraq qəbul edilməsi kimi məsələləri də vurğulaya bilərik. Burada keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələni qeyd etmək lazımdır. Münaqişənin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında ən tez zamanda həllinin vacibliyi bütün Zirvə toplantılarının qəbul etdiyi qətnamələrdə xüsusi vurğulanmışdır. Bunu Azərbaycanın uğuru, eyni zamanda türkdilli dövlətlər tərəfindən ölkəmizin haqq səsinin qəbul olunması və dəstəklənməsinə verdikləri töhfə və həmrəylik kimi də qəbul edə bilərik.

Azərbaycanın Türk Dövlətləri Təşkilatına sədrlik etdiyi dövrdə onun həm nüfuzu, həm də gücü daha da artıb. 2020-ci il bütün türk dünyası üçün həqiqətən də əsl Zəfər ili olub. Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü bərpa etməsi türk birliyini daha da möhkəmləndirib. Ötən illər ərzində Türk Şurası son dərəcə səmərəli fəaliyyət göstərib və türk dövlətləri arasında dostluq münasibətlərinin və qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi yönümündə böyük nailiyyətlər qazanıb. 2019-cu ilin oktyabrında Bakıda keçirilmiş Zirvə görüşündən sonra Azərbaycan bu təşkilata sədrlik edib. Zirvə görüşündə xüsusi olaraq qeyd edilib ki, 2020-ci il türk dünyası üçün həqiqətən də məhsuldar, hətta Zəfər ili olub. Türk dünyası önəmli uğurlarına, ən başlıcası, Azərbaycan ərazilərinin işğaldan azad olunmasına, suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsinə görə daha da güclənib. Digər tərəfdən də Azərbaycan Prezidenti İlham Əliyev bütün türkdilli dövlətlərlə dostluq münasibətlərinin və qarşılıqlı faydalı əməkdaşlığın gücləndirilməsini xarici siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Ölkəmizin geosiyasi mövqeyi imkan verir ki, Orta Asiyanın türkdilli dövlətləri ilə Avropa ölkələri arasında logistik dəhlizlər yaratmaqla, iqtisadi əlaqələri daha da genişləndirsin. Türkdilli dövlətlərin birliyi istiqamətində səylərin son illər daha da intensivləşdirilməsi isə bu birliyin zəruriliyi ilə şərtlənir.

Türk Şurasının Zirvə görüşündə qeyd edildiyi kimi, Azərbaycanın Ermənistan silahlı birləşmələri üzərində tarixi qələbəsi Cənubi Qafqazda yeni reallıqlar yaradıb. Bu reallıqlar həm region ölkələri qarşısında, həm də ümumilkdə Avrasiya məkanında böyük iqtisadi inkişaf perspektivlərinə açılmış pəncərədir. Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündəki çıxışında bütün region ölkələrinin bu imkanlardan yararlana biləcəklərini diqqətə çatdırıb: "Azərbaycanın tarixi əraziləri olan Zəngəzur mahalından keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək. Beləcə bu layihələr bütün digər ölkələr üçün də yeni, əlavə imkanlar yaradacaq."

Hazırda bölgələrdə həyata keçirilən nəhəng iqtisadi layihələr Avropa ilə Asiyanı, şimalla cənubu bir-birinə sıx bağlayır. Türk əməkdaşlıq qurumları bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq edirlər. 2021-ci il noyabrın 12-də İstanbulda keçirilmiş VIII Zirvə görüşündə dünyanın siyasi sistemində önəmli platformaya çevrilməkdə olan Türk Şurasının bundan sonra Türk Dövlətləri Təşkilatı adı ilə fəaliyyətini davam etdirməsi haqqında qərar qəbul edildi. Tarixi İstanbul Zirvə görüşündə olduqca mühüm olan "Türk dünyasına baxış - 2040" konsepsiyası qəbul edilmiş və liderlər arasında bəyannamə imzalanmışdır. Bu Zirvə görüşündə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən Prezident İlham Əliyevə Türk Dünyasının Ali Ordeni təqdim olunmuşdur.

Görünən odur ki, siyasi əlaqələrlə yanaşı, türk dövlətlərini bir-birinə bağlayan iqtisadi əlaqələr də hər zaman gündəmdədir. Odur ki, bu ölkələr arasında iqtisadi münasibətlər hər il inkişaf edir, ticarət əlaqələri genişlənir. Hazırda türkdilli ölkələrdə enerji-nəqliyyat layihələrinin həyata keçirilməsinə xüsusi diqqət yetirilir. Regional əməkdaşlığın gözəl nümunələri olan bu layihələr təbii ki, türk dünyasına tərəqqi və inkişaf gətirir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Azərbaycanın geosiyasi məkanda artan rolu bütün sahələrdə özünü göstərir

İki il öncə bütün xalq televiziya ekranları qarşısında Ali Baş Komandanın müraciətlərini səbirsizliklə gözləyirdi... Hər gün cəbhədən, ordumuzun apardığı uğurlu döyüş əməliyyatlarından, işğal altında olan torpaqlarımızın azad olmasından xoş müjdələr verilirdi xalqa...

Yenə xalqın diqqəti Müzəffər Ali Baş Komandana yönəlib. Müharibə bitsə də, mübarizə davam edir... Bu dəfə Ali Baş Komandan düşmənlə siyasi-diplomatik meydanda üz-üzədir... Sözsüz ki, şərtləri qalib ölkənin başçısı diktə edir. Düşmən də qəbul etmək məcburiyyətindədir...

Söhbət dövlət başçısı İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin və Çex Respublikasının Baş naziri Petr Fialanın dəvəti ilə iştirak etdiyi Avropa Siyasi Birliyinin Zirvə Toplantısı çərçivəsində Praqada aparılan danışıqlardan gedir.

Oktyabrın 6-da Prezident İlham Əliyev Praqada Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə görüşdü. Görüşdə Azərbaycan-Avropa İttifaqı tərəfdaşlıq əlaqələrinin perspektivləri, Ermənistan-Azərbaycan əlaqələrinin normallaşdırılması istiqamətində söhbət aparıldı. Dövlətimizin başçısı Brüsseldə Şarl Mişelin iştirakı ilə keçirilmiş görüşlərin əhəmiyyətini qeyd edərək Azərbaycanın Brüssel formatını dəstəklədiyini qeyd etdi. Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Fransa Respublikasının Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan arasında beş saat davam edən görüş oldu. Xalqımızın maraqla izlədiyi əsas məsələ də bu görüşün gedişatı və əldə olunan nəticələr idi.

Fransa Prezidenti Emmanuel Makronun ermənilərin yaxın dostu olduğu heç kimə sirr deyil. Siyasi ekspertlər Nikol Paşinyanın onun yanında özünü rahat hiss etməsini, görüş zamanı yenə erməni hiyləsinə əl ata biləcəyini ehtimal edirdilər. Lakın görüş öncəsi qalib ölkənin Prezidentinin təmkinli davranışları, qürurverici hərəkətləri və özünə inamı ümidlərimizi daha da artırırdı. Hiss olunurdu ki, Azərbaycan Prezidentinin qətiyyəti nəticəsində oktyabr bu dəfə yaddaşımıza diplomatik mübarizənin qalibi olduğumuz ay kimi yazılacaq. Belə də oldu, görüşdən dərhal sonra nəticələr barədə rəsmi bəyanat verildi.

Sənəddə vurğulanıb ki, Ermənistan və Azərbaycan Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və hər iki tərəfin bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıdığı 1991-ci il Alma-Ata Bəyannaməsinə sadiqliklərini təsdiqləyiblər: "Onlar təsdiqləyiblər ki, bu, sərhədlər delimitasiyası komissiyalarının işi üçün əsas olacaq və oktyabrın sonunadək sərhəd komissiyalarının növbəti iclası Brüsseldə baş tutacaq.

Ermənistan Azərbaycanla sərhəddə Aİ-nin mülki missiyasına yardım göstərməyə razılaşıb. Azərbaycan bu missiya ilə ona aid olduğu dərəcədə əməkdaşlığa razılıq verib.

Missiya oktyabrda fəaliyyətə başlayacaq və maksimum iki ay müddətində davam edəcək. Missiyanın məqsədi güvən yaratmaq və öz hesabatları vasitəsilə sərhəd komissiyalarının fəaliyyətinə töhfə verməkdir".

Oktyabrın 6-da Praqada Avropa Siyasi Birliyinin Zirvə Toplantısı çərçivəsində "Avropa qitəsində sülh və təhlükəsizlik" mövzusunda "dəyirmi masa" keçirildi. "Dəyirmi masa"da çıxış edən Prezident İlham Əliyev bildirib ki, İkinci Qarabağ müharibəsindən sonra regionda yeni vəziyyət yaranıb. Ermənistan tərəfindən 30 illik işğala, bu dövrdə törədilmiş dağıntılara, vəhşiliklərə baxmayaraq, Azərbaycan Ermənistanla sülh müqaviləsinin imzalanması təklifi ilə çıxış edib.

Dövlətimizin başçısı Azərbaycan, Türkiyə-Ermənistan münasibətlərinə toxunaraq qeyd edib ki, Azərbaycan Türkiyə və Ermənistan arasında münasibətlərin normallaşdırılması üzrə aparılan prosesi dəstəkləyir. Vurğulayıb ki, Azərbaycanla Ermənistan, eləcə də Türkiyə ilə Ermənistan arasındakı normallaşma prosesi bir-birini tamamlayacaq, bütövlükdə regionda sülhün və əmin-amanlığın təmin olunmasına xidmət göstərə biləcək haldır.

## Biz sülhə daha da yaxınlaşırıq

Azərbaycan Respublikasının Prezidenti görüşdən sonra televiziya kanallarının suallarını cavablandıran zaman fikirlərini nikbinliklə ifadə edib: "Ümid edirəm ki, biz sülhə yavaş-yavaş yaxınlaşırıq və Şarl Mişelin də bu sahədəki fəaliyyətini mən yüksək qiymətləndirirəm. Çünki bildiyiniz kimi, Brüsseldə bir neçə dəfə üçtərəfli görüş keçirilmişdir və hər dəfə biz sülhə daha da yaxınlaşırıq. Bu dördtərəfli görüş Şarl Mişel və Emmanuel Makron tərəfindən təşkil edilmişdir və bu görüş zamanı da önəmli məsələlər müzakirə olunub. Hesab edirəm ki, bu görüşün də sülh müqaviləsinə çatmaq üçün önəmi olacaq".

## "Avropa İttifaqı bizim üçün çox önəmli tərəfdaşdır"

Jurnalistlərin suallarını cavablandırarkən dövlətimizin başçısı Avropa ilə olan çoxsahəli əməkdaşlığa toxunaraq qeyd edib: "Bu gün Azərbaycanın enerji resurslarına Avropada daha böyük tələbat var. Bizim tərəfimizdən həyata keçirilmiş layihələrin əhəmiyyəti bu gün özünü daha da büruzə verir.

Digər istiqamətlər, əlbəttə ki, siyasi dialoq. Avropa İttifaqı bizim üçün çox önəmli tərəfdaşdır və yeni saziş üzərində iş aparılır. Sazişin böyük əksəriyyəti artıq razılaşdırılmışdır…"

Azərbaycanın artan iqtisadi qüdrəti, yerləşdiyimiz strateji əhəmiyyətli coğrafi məkan həm də siyasi gücümüzə güc qatıb desək, yanılmarıq. Dünyanın nəhəng dövlətləri bu gün Azərbaycanla iqtisadi-siyasi əməkdaşlığa maraqlı olduqlarını qətiyyən gizlətmirlər. Hətta Azərbaycanla daha ciddi iqtisadi əməkdaşlığa can atırlar. Jurnalistlərin suallarını cavablandıran dövlət başçısı yaranmış vəziyyəti dəyərləndirərək qeyd edib: "Nəqliyyat sahəsində əməkdaşlıq üçün yeni imkanlar yaradılıb. Çünki Azərbaycanın coğrafi vəziyyəti və müasir nəqliyyat infrastrukturu Avropa üçün də çox önəmlidir. Həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" nəqliyyat dəhlizlərini nəzərdə tuturam. Avropa İttifaqı ölkələri bizim əsas ticarət tərəfdaşlarımızdır. Azərbaycanın geosiyasi məkanda artan rolu, əlbəttə, iqtisadi sahədə də, sərmayə qoyuluşu sahəsində də özünü göstərir. Yəni bir çox sahələr üzrə - əlbəttə ki, təhsil, humanitar sahə çox önəmlidir. Mən deyə bilərəm ki, son aylar ərzində Avropa İttifaqı ilə Azərbaycan arasında həm təmasların sayı kəskin artıb, eyni zamanda mahiyyət də yeni müstəviyə çıxıb və qarşılıqlı etimad artıb. Mən bunu çox yüksək qiymətləndirirəm".

## Azərbaycan Avropa ailəsinin bir üzvü olur

Jurnalistlərin suallarını cavablandırarkən dövlətimizin başçısı ölkəmizin belə bir möhtəşəm tədbirə dəvət olunmasına da münasibət bildirib: "Azərbaycanın bu tədbirə Avropa tərəfindən dəvət edilməsinə, bunu, əlbəttə, biz yüksək qiymətləndiririk. Bu, yeni platformadır, müzakirələr təzə başlayıb. Hələ ki, bu təşəbbüsün gələcəyi ilə bağlı dəqiq bir şey demək mümkün deyil. Amma hər halda Azərbaycanı həm Avropa İttifaqı tərəfindən, həm də tədbirin ev sahibi - Çexiya tərəfindən bu Avropa ailəsinə dəvət etmələri deməyə əsas verir ki, bizim əlaqələrimizin çox gözəl perspektivləri vardır".

Azərbaycan Respublikasının Prezidenti televiziya əməkdaşlarının suallarını cavablandırarkən vurğulayıb ki, dünyada mövcud olan geosiyasi vəziyyət bizim resurslarımıza tələbatı kəskin artırmışdır. Əgər belə demək mümkündürsə, tale elə gətirdi ki, bizim bütün layihələrimiz hazır olan vaxtda Avropada qaza olan tələbat daha da artdı: "Bu yaxınlarda Bolqarıstanda Yunanıstan-Bolqarıstan İnterkonnektorunun açılış mərasimində də mən bu barədə məlumat verdim ki, biz ötən il qaz ixracatımızı əvvəlki ilə nisbətən 40 faiz artırmışıq. Bu il təxminən 30-40 faiz artıracağıq. Əlbəttə ki, bu, böyük sərmayə tələb edir və biz buna getməyə hazırıq və buna gedirik. Ona görə Avropa İttifaqı ilə imzalanmış memoranduma əsasən, növbəti illərdə biz Avropaya qaz ixracatını ən azı iki dəfə artırmağı planlaşdırırıq. Yəni əgər keçən il bu, 9 milyard kubmetr idisə, deməli, 2027-ci ildə bu, ən azı 18 milyard kubmetr olacaq, bəlkə də çox".

Vətəndaş olaraq həm iqtisadi, həm siyasi uğurlarımızla sevinməyə, öyünməyə kifayət qədər haqqımız çatır. 2020-ci ilin payızında bizi hərb meydanında qələbəyə aparan, ordumuzun zəfərini təmin edən Müzəffər Ali Baş Komandan bu gün dünyada qəbul edilən nüfuzlu liderdir. Döyüş meydanında qazanılan uğurlar imzalanmış bəyanatlarda, təsdiq olunmuş sənədlərdə öz əksini tapır. Əgər Ermənistan hərbi-siyasi rəhbərliyi danışıqlar prosesində səmimi davransa, dövlətimizin başçısının qətiyyəti nəticəsində regionda sülhü tezliklə bərpa etmək mümkün olacaq.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# İkiəsrlik erməni ideologiyasına qalib gələn sərkərdə

Ermənilərin tarixi torpaqlarımıza köçürülməsindən iki əsrə yaxın vaxt keçir... Elə başımıza gələn bəlaların tarixi də oradan başlayır. Yurdsuzlar yerimizə, yurdumuza sahiblənəndən sonra daha böyük iştaha düşdülər. "Dənizdən-dənizə böyük Ermənistan" yaratmağı xəyal etdilər... İki əsrə yaxındır ki, bu xam xəyallarını gerçəkləşdirmək üçün başımıza gətirmədikləri oyun qalmadı... Ən sonuncusunu isə XX əsrin axırlarında indiki Ermənistandan azərbaycanlıları bütünlüklə deportasiya etməklə, Qarabağda insanlığa sığmayan vəhşiliklər törətməklə, torpaqlarımızın 20 faizini işğal etməklə tamamladılar...

Hər şeyin bir sərhədi olsa da, erməni vəhşiliyinin, erməni ağılsızlığının sərhədi olmadı. Yolunu azmış düşmən yalnız torpaqlarımızın sərhədlərini keçməmişdi, insanlıqlarını da itirmişdi. Bütün siyasi, diplomatik qayda-qanunları pozub, sözün həqiqi mənasında, qazandıqları müvəqqəti qələbənin eyforiyasına uyan ermənilər bizə meydan oxuyurdular. Düşmən hərb meydanında üstünlüklərini keçilməz dəmir-beton istehkamlarla möhkəmləndirir, yeraltı tunellər tikir, torpaqlarımızda dünyanın gözü qarşısında beynəlxalq qanunlara məhəl qoyulmadan məskunlaşma aparırdı. Tarixi yerlərin adı dəyişdirilir, min illərin yadigarı olan abidələr ya məhv edilir, ya da saxtalaşdırılırdı. Bizi qıcıqlandırmaq üçün babalarımızın at çapıb, qılınc oynatdığı qəhrəmanlıq meydanlarında şənliklər qurulur, millətimizə qarşı qəzəb və nifrət, həqarət püskürərək, mənəm-mənəmlik edirdilər… Düşmən o qədər harınlamışdı ki, qarşısındakının nə gücünü, nə dəyərini, nə də nəyə qadir olduğunu qiymətləndirə bilmirdi…

Erməni baş naziri, özü ilə eyni səviyyədə olan bir qrup nadanın önündə özünün qəhrəman obrazını yaratmaq məqsədilə sələflərindən də irəli gedərək "Qarabağ Ermənistandır və nöqtə" dedi. Bununla da hadisələr pik həddə yüksəldi. Münaqişənin siyasi danışıqlar yolu ilə həllinə olan ümid sabun köpüyü kimi partladı. Çox çəkmədi ki, erməni baş nazirinə nüfuzlu "Valday" sammitində Azərbaycan Prezidenti tərəfindən tutarlı cavab verildi: "Qarabağ Azərbaycandır və nida işarəsi". Bu həm də ermənilərin havadarlarına verilən cavab idi. Əgər qarşı tərəf ağıllı siyasətçi olsaydı, deyilən sözün, qəzəbin ifadə formasından güzəştin olmayacağını duymalı idi. Əslində ermənilər 2016-cı ildə Aprel döyüşləri zamanı Azərbaycan Ordusundan aldığı cavabdan nəticə çıxarmalıydı.

2020-ci il həyatımıza pandemiya, taclı virusla mübarizə ili kimi daxil oldu. Yaddaşımıza isə uzun müddət həsrətində olduğumuz Qələbə möhürünü vuran Zəfər ili kimi yazıldı. Mənfurlar həmin ilin isti yay günlərində əsəblərimizi test etmək niyyətinə düşdülər. Bu dəfə bir qədər də irəli gedərək Dağlıq Qarabağla heç bir əlaqəsi olmayan Tovuz rayonunda sərhədlərimizə təcavüz etdilər. İgid generalımız, əsgər və zabitlərimiz şəhid oldu… Xalq meydanlara çıxıb, yumruğunu düyünləyib, qəzəb püskürdü. Gənclərimiz "Ya Qarabağ, ya ölüm" dedilər… Hərbi səfərbərlik idarələrinə axışan gənclər "Cənab Ali Baş Komandan, əmr ver, döyüşək!" dedilər.

Prezident İlham Əliyev düşmənə və onun havadarlarına sentyabrda dərs verməkdə qərarlı idi. Bəli, sözün bütün mənalarında böyük bir dərs... 44 günlük Vətən müharibəsinin gedişi zamanı dövlət başçısı İlham Əliyevin idarəçiliyinin bir məktəb olduğunu, ondan öyrənilməli, əxz edilməli çox məsələnin olduğunu bütün dünya gördü. Vətən və millət üçün bu ağır günlərdə Prezident İlham Əliyev apardığı siyasətlə, göstərdiyi fədakarlıqla millətin gözündə müqəddəsləşdi. Millət öz seçimində səhv etmədiyini, taleyini etibar etdiyi liderin əvəzolunmazlığını, xalqı, dövləti yolunda nələr etdiyini və nələrə qadir olduğunu gördü. Xalq düşmənə yönəlik qəzəbi, qətiyyəti, ordusuna olan inamı gördü. Bu ağır günlərdə "Xalq Prezident - Prezident Xalq" tandemi yarandı...

27 sentyabr 2020-ci il. Düşmən tərəfi bütün cəbhə boyu ağır artilleriyadan istifadə edərək ordumuzun yerləşdiyi əraziləri və dinc əhalinin yaşadığı yaşayış məntəqələrini atəşə tutdu. Yağının qorxutmaq, yeni ərazilər zəbt etmək, qan tökmək, özünü göstərmək niyyəti vardı... Amma yanılırdı. İndi nə Azərbaycan Ordusu 90-cı illərin özfəaliyyət dərnəyinə bənzər ordu idi, nə də qarşısındakı Ali Baş Komandan o illərin komandanı idi…

Xalq 27 sentyabr səhərini müharibə xəbəri ilə açdı. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı dərhal xalqın önünə çıxıb düşmənin xain həmləsi barədə məlumat verdi. Yumruğunu qətiyyətlə düyünləyib, düşmənə layiqli cavab veriləcəyini əminliklə bildirdi. O qədər əzmkarlıqla danışdı ki, deyilən hər kəlmə, söylənilən hər bir fikir hamının ürəyindən oldu. Xalq qarşısında əsl sərkərdəni, çoxdan arzuladığı güclü Sərkərdə obrazını gördü. Aparılan tədbirli siyasət, görülən işlər elə döyüşün ilk anındaca qəhrəman əsgərlərimizin misilsiz şücaəti nəticəsində öz bəhrəsini verdi. Müharibənin ilk günündən əldə olunan üstünlüklər, qələbə müjdəli xəbərlər öz ordusunu qurub, əsgərləri qələbəyə aparan bir sərkərdənin xalqın qəlbində yenilməz obrazını yaratdı. Prezident vətəndaşının düşündüyü kimi düşünür, onun başa düşdüyü dildə danışır, işlətdiyi ifadələri işlədirdi. Düşməndən alınan hər qarış torpaq haqqında xalqına dərhal şəxsən özü məlumat verirdi.

Müharibə təkcə Qarabağda, döyüş meydanında getmirdi. İnformasiya cəbhəsində, diplomatik sahələrdə də düşmən hücuma cəhd edirdi. Pulla satın alınmış, erməni lobbisinin təsir dairəsində olan, azad söz, azad mətbuat pərdəsi ilə demokrat mantosu geymiş bəzi media təmsilçiləri ölkəmizə hücum çəkdilər. Bu müddətdə biz Prezident İlham Əliyevin təkcə ordunun deyil, həm də informasiya cəbhəsinin Ali Baş Komandanı olduğunun, bütün sədləri məntiqlə yarıb keçməyi bacardığının şahidinə çevrildik. Hətta bəziləri dəmir məntiq, dəmir iradə, müqayisə oluna bilməyəcək elmi potensiala malik bir siyasi xadimlə üzləşdiklərini, dalana diréndiklərini etiraf etmək məcburiyyətində qaldı. Düşmənin belini Azərbaycan əsgərinin əzmi, cəsarəti, qəhrəmanlığı ilə birgə Müzəffər Ali Baş Komandanın qətiyyəti qırırdı.

Müzəffər Ali Baş Komandanın hər çıxışı, hər sözü onun ordusunun əsgərlərinin dilində bir şüara çevrildi. Əsgərlərimizin döyüş ruhunu artırdı. Qələbə əzminə əzm qatdı. Əsgər ordunun başında iradəli bir sərkərdənin durduğunu gördü, hiss etdi. Bu da onu qələbəyə həvəsləndirdi.

Biz 44 günlük müharibədə xalq tərəfindən seçilən, öz xalqına güvənən və ondan güc alan bir liderin qətiyyətini, inamını, gücünü, analitik təhlil bacarığını, dəmir məntiqini, dünya liderləri arasında siyasi çəkisini və nüfuzunu gördük. Ən çətin anlarda doğru və dəqiq qərar vermək qabiliyyətinin, eyni zamanda dövlətlərarası münasibətdə şəxsiyyətin rolunun bir daha şahidi olduq.

Müzəffər Ali Baş Komandan dəfələrlə qeyd edib ki, 44 günlük müharibənin qəhrəmanı ön cəbhədə döyüşən, cəsarəti, vətən sevgisi, namusu, qeyrəti ilə silahlanıb düşmənin canına vəlvələ salan, torpağı geri qaytaran əsgər və zabitlərimizdir. Bu müharibənin qəhrəmanı belə cəsur oğullar yetişdirmiş atalar, analar, bütövlükdə Azərbaycan xalqıdır. Bunu isbat etməyə ehtiyac da yoxdur.

Bu müharibənin zəfərlə başa çatmasının başlıca səbəblərindən biri də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin vaxtında qəbul etdiyi düzgün və qətiyyətli qərarlar oldu. Ona görə də deyə bilərik ki, bu müharibənin, zəfər yürüşünün baş qəhrəmanı ordunu quran, yaradan, ona komandanlıq edən cənab İlham Əliyevdir. Onun apardığı uğurlu siyasət nəticəsində ordumuz 30 illik yolu 44 günə qət etdi.

30 ilə yaxın bir vaxt idi ki, xalqımız Qarabağ ağrısı, Qarabağ dərdi ilə yaşayırdı. Bu müharibə torpaq həsrətinə birdəfəlik son qoydu. Müharibədə qəhrəman ordumuz düşmənin hərb maşınını darmadağın edib, ona sarsıdıcı zərbə vurdu. Bu qələbə təkcə erməni ordusu üzərində çalınan qələbə deyil, həm də erməni ideoloqları, ermənilərin "böyük Ermənistan" yaratmaq barədə reallıqdan uzaq mifik düşüncəsi üzərində çalınan qələbədir. İllərdən bəri ermənilərin qardaş Türkiyəyə, qonşu Gürcüstanın ərazilərinə iddialı olmaları heç kimə sirr deyil. Azərbaycan Ordusunun düşmən üzərində sarsıdıcı qələbəsi bu ideyanın müəlliflərinə, sərsəmlikləri anlamayıb onun əsirinə çevrilmiş sadə ermənilərə dərs oldu. Bundan sonra erməni ictimaiyyəti dərk etməlidir ki, Qarabağa sahiblənə bilməyib ağır məğlubiyyətə uğrayan bir ölkə qonşuları ilə normal münasibət qura bilməsə, daha böyük faciələrlə üz-üzə qalacaq.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## 15 oktyabr 2020-ci il

# Azərbaycan: ZƏFƏR gündəliyi

**Oktyabrın 14-dən 15-nə** keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində əvvəlki günlərdə olduğu kimi vəziyyət gərgin olaraq qalıb.

Ermənistan silahlı qüvvələrinin bölmələri gecə ərzində cəbhənin bəzi istiqamətlərində Azərbaycan Ordusunun mövqelərinə basqın etməyə cəhd göstərib. Qoşunlarımız tərəfindən həyata keçirilən uğurlu tədbirlər nəticəsində qarşı tərəf ciddi itki verib və cəbhənin müxtəlif istiqamətlərində geri çəkilməyə məcbur edilib.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 1 ədəd "Tor-M2KM" zenit raket kompleksi, 4 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-20, 1 ədəd D-30 və 2 ədəd D-1 haubitsa topu, bir neçə PUA-sı və avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Əldə olunan məlumata əsasən, Ermənistan silahlı qüvvələrinin müvəqqəti işğal etdiyi ərazilərdəki qüvvə və ehtiyatlarına ağır zərbə vurulub. Düşmənin canlı qüvvəsi, döyüş texnikası, silah-sursatı, yanacağı tükənmək üzrədir.



Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhə boyu əməliyyat üstünlüyünü saxlayır.

❖ ❖ ❖

Humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazilərini atəşə tutub. Tərtər rayonunda dəfn mərasimi zamanı əraziyə ağır atrilleriyadan atəş açılıb. Ölən və yaralananlar olub.

❖ ❖ ❖

Prezident İlham Əliyev Rusiyanın "Ria Novosti" Agentliyi üçün "Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibə verib.

Ali Baş Komandan döyüş əməliyyatlarının nəticələri ilə bağlı verilən suala cavabında deyib ki,



Azərbaycan Ordusu düşmənin dərin eşelonlaşdırılmış müdafiə xəttini yarmağa nail olub: "Bəzi sahələrdə hətta 4 müdafiə xətti vardı. Lakin ərazinin relyefi, dağ relyefi, əlbəttə, müdafiə olunmaq üçün əks-hücumla müqayisədə daha münasibdir. Bu günə qədər onlarca yaşayış məntəqəsi, o cümlədən Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun kəndlərinin çox hissəsi, Füzuli rayonunun kəndlərinin əksəriyyəti, strateji əhəmiyyətli Suqovuşan qəsəbəsi işğaldan azad edilib. Biz işğalçıları Murovdağ silsiləsindəki strateji yüksəkliklərdən çıxarmışıq və ölkəmizin ərazi bütövlüyünün bərpası üzrə uğurlu əməliyyatı davam etdiririk".

Prezident deyib ki, təkcə pilotsuz zərbə uçuş aparatları vasitəsilə düşmənin 1 milyard dollardan çox dəyərində hərbi texnikası məhv edilib.

❖ ❖ ❖

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində paylaşım edib:



"Nə dərəcədə insaniyyətdən kənar, rəhmsiz və mənəvi tənəzzülə uğramış olmalısan ki, dəfn mərasimi zamanı qəbiristanlığı qəsdən atəşə tutasan? Dünya ictimaiyyətini Ermənistanın müharibə cinayətlərini qınamağa çağırıram. Həlak olanların ailələrinə və doğmalarına başsağlığı verirəm. Allah rəhmət eləsin".

❖ ❖ ❖

Prezident İlham Əliyev Türkiyənin NTV televiziyasına müsahibə verərək bir daha Azərbaycan Ordusunun uğurlu əməliyyatlarından danışıb. Qeyd edib ki, döyüş meydanında əsas hədəf strateji yüksəklikləri işğalçılardan azad etmək və böyük əraziləri nəzarət altına almaqdır:



"Bizim uğurlu əməliyyatımız davam edir. Bu günə qədər, - əlbəttə ki, hər gün bu rəqəmlər dəyişir, - təqribən 40-a yaxın, ya da ki, 40-dan çox yaşayış məntəqəsi, - şəhərlər və kəndlər işğalçılardan azad edilmişdir. Yaxın vaxtlarda növbəti sevincli xəbərlər, xoş xəbərlər gələcəkdir".

Ali Baş Komandan əməliyyatların tədricən, vahid bir planlama əsasında aparıldığını və bütün hədəflərin seçildiyini söyləyir.

Prezident bir daha Ermənistana mesaj ünvanlayır: "Ermənistan tərəfi, sadəcə olaraq, bu reallıqla hesablaşmalı və təcavüzünü dayandırmalıdır, atəşkəsə əməl etməlidir və qalan torpaqlardan da öz xoşu ilə çıxmalıdır ki, qan tökülməsin və bundan sonra bu məsələ sülh yolu ilə həll edilsin. Biz indi torpaqlarımızı azad edirik. Biz bayrağımızı artıq şəhərlərimizi əhatə edən dağlara sancırıq, şəhərlərimizdə mövcud olan binalara sancırıq, biz zəfər marşındayıq".

❖ ❖ ❖

Prezident xalqa növbəti xoş xəbəri çatdırıb. İlham Əliyev özünün rəsmi tviter səhifəsində yazıb:

"Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Əks-hücum əməliyyatları zamanı mənəvi-psixoloji təminat tədbirləri çərçivəsində keçirilən təbliğat-təşviqat işi davam edib.

Ali Baş Komandanın müraciətləri, həmçinin işğaldan azad olunmuş kəndlər haqqında məlumatlar operativ şəkildə çap olunmuş bülletenlər və səyyar radioqovşaq vasitəsilə mülki sakinlərə çatdırılıb.

Keçirilən tədbirlər cəbhəboyu zonada yaşayan dinc sakinlər tərəfindən ruh yüksəkliyi ilə qarşılanıb.

❖ ❖ ❖

"France 24" televiziya kanalına müsahibə verən Prezident İlham Əliyev bir daha həqiqətləri söyləyib. Ermənistanın humanitar atəşkəsə əməl etmədiyini vurğulayan İlham Əliyev bəzi təxribatçı suallara da əsl diplomat və Ali Baş Komandan kimi cavab verib.

Jurnalistin "Siz deyirsiniz ki, atəşkəs müəyyən olunandan sonra Azərbaycan tərəfindən heç bir zərbə endirilməmişdir? Hətta hərbi hədəflərə də?" sualını Prezident belə cavablandırıb: "Xeyr, hərbi hədəflərə zərbələr endirilmişdir. Biz bunu təkzib etmirik. Lakin bu təbiidir, çünki biz özümüzü müdafiə etməli idik. Atəşkəsə birtərəfli qaydada nail olmaq mümkün deyil. Əks halda Ermənistan üstünlüyə malik olacaq və öz məqsədinə çatacaq. Əslində, onlar elə bunu etməyə çalışırlar. Onlar azad edilmiş əraziləri geri götürməyə cəhd edirlər. Xüsusilə onlar Hadrut şəhərini geri götürməyə cəhd ediblər. Lakin uğursuzluğa düçar oldular. Mənim onlara məsləhətim belədir və mən artıq Ermənistan hökumətinə və həmçinin Ermənistan xalqına açıq şəkildə mesajımı ünvanlamışam ki, onlar azad edilmiş əraziləri geri götürmək cəhdlərini dayandırmalıdırlar. Bu, yalnız yeni qurbanlara səbəb olacaq və qan tökülməsinə gətirib çıxaracaqdır".

❖ ❖ ❖



Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Qubadlı rayonu ərazisindən atdığı əməliyyat-taktiki raket Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisində partlayıb. Dinc sakinlərə və mülki obyektlərə zərər dəyməyib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Ermənistan: məğlubiyyətin xronikası

❖ ❖ ❖

Azərbaycan Ordusu cəbhədə düşmənə getdikcə daha ağır zərbələr vurur. Düşmənin hərbi-texniki potensialı əhəmiyyətli dərəcədə sıradan çıxarılıb. Eyni zamanda Ermənistan canlı qüvvə sarıdan da ciddi korluq çəkir. İşğalçının Qarabağdakı ordusunun şəxsi heyətinin və xaricdən gələn muzdluların böyük qismi ordumuz tərəfindən məhv edilib. Bu səbəbdən Ermənistan artıq 60-70 yaşlı qocaları döyüşə göndərir.



❖ ❖ ❖

Ermənistan hərbi birləşmələrində canlı qüvvə ilə bağlı yaranan problemin kökündə təkcə Azərbaycanla döyüşdə olan itkilər dayanmır. Bunun bir səbəbi də odur ki, minlərlə erməni ordu sıralarında xidmətdən boyun qaçırır. Erməni gəncləri illərdir ki, hərbi xidmətdən yayınmaq üçün ölkəni tərk edirlər və bu proses son günlər daha da intensivləşib. Hökumətin səfərbərlik barədə qərarına baxmayaraq, müxtəlif bəhanələrlə çağırışçı yaşında olan ermənilər xidmətdən yayınır, imkanı olanlar isə ölkəni tərk edirlər. Bu səbəbdən



Ermənistanda yaşlıların orduya cəlb edilməsi daha da sürətlənib. İşğalçı ölkədə bunu yaşlıların təcrübələrinin çox olması səbəbindən könüllü şəkildə ordu sıralarına qoşulması kimi təbliğ edirlər. Amma təcrübə göstərir ki, yaşlı insanlar fiziki göstəricilərinin və çevikliyin aşağı olması səbəbindən elə döyüşə gəldiyi ilk andan həyatla vidalaşırlar.

❖ ❖ ❖

Bu günlərdə Fransanın "Liberation" qəzeti yazmışdı ki, Ermənistan ordusunda əsgər çatışmazlığı yaşanır. Buna görə hətta Fransada yaşayan erməni əsilli qocaları da Qarabağda döyüşməyə razı salmaq üçün iş aparılır. Qəzet erməni əsilli 64 yaşlı Fransa vətəndaşı Qilbert Minasyanın Qarabağ döyüşlərində vuruşmaq üçün Yerevana yola düşməsi barədə material yayımlayıb. Məqalədə həmin şəxsin 1990-cı illərdə də Azərbaycana qarşı Ermənistan ordusunda döyüşdüyü bildirilib.

❖ ❖ ❖

Hazırda işğalçı ölkənin hərbi-siyasi rəhbərliyi əsgər çatışmazlığını əsasən xaricdən gələnlərin hesabına kompensasiya etməyə çalışsa da, bu sahədə ciddi fiaskoya uğrayıb. Yayılan məlumatlarda vurğulanır ki, xaricdə yaşayan ermənilər koronavirusla əlaqədar sərhədlərin bağlı olduğunu bəhanə edərək, Ermənistana gəlməkdən boyun qaçırırlar.

❖ ❖ ❖

İndi işğalçı ölkənin rəhbərliyi əsasən Yaxın Şərq ölkələrindən olan muzdluların döyüşlərə cəlb edilməsinə köklənib. Amma bu sahədə də ciddi problemlər yaşanır. Çünki muzdlulara pul ödəmək lazımdır. Ermənistanın daxili imkanları



isə heç vaxt muzdluların maliyyələşdirilməsinə imkan verməyib. İndiki çətin iqtisadi vəziyyətdə isə bütün imkanlar tükənib. Diasporun topladığı vəsait Ermənistanın kiçik problemlərini belə ödəmək iqtidarında deyil. Tükənən iqtisadi imkanlar fonunda yaxın vaxtlarda bu ölkədə ərzaq qıtlığının baş verməsi də gözlənilir.

Ona görə indi Ermənistanda səfərbərliyə qocalar alınır. Onlar hətta qadınları məcburi şəkildə buna cəlb edir və rəsmi təbliğatda qəhrəmanlıq nümunəsi kimi qələmə verirlər. Səfərbərliyə alınan yaşlıların döyüş qabiliyyəti isə yoxdur. Ordunun anbarlarında onlara verməyə hərbi geyim də tapılmır.

❖ ❖ ❖

Bu günlərdə Ermənistan müdafiə nazirliyininnümayəndəsi Artsrun Ovannisyan feysbuk sosail şəbəkəsində yazıb ki, qadın batalyonu yaradılıb. Göründüyü kimi, Azərbaycan Ordusunun Ermənistan silahlı qüvvələrinə cəbhədə vurduğu ardıcıl ağır zərbələr düşməni çətin vəziyyətə salıb. İşğalçı ölkə kişi döyüşçü tapmaqda çətinlik çəkir. Bütün bunlar Ermənistan ordusunda canlı qüvvə çatışmazlığını həll etməyin mümkünsüzlüyünü göstərir. Video və fotofaktlar, eləcə də sosial şəbəkələrin erməni seqmentində yayılan məlumatlar da bunu təsdiqləyir.

Azərbaycan Ordusunun zərbələri nəticəsində minlərlə itki verən düşmən ordusunda yaralıların sayı da çoxdur. KİV Xankəndidə bütün mülki və hərbi xəstəxanaların çoxdan dolduğunu, bu səbəbdən yaralıların Ermənistanın müxtəlif bölgələrinə aparıldığını yazır. Ölkənin səhiyyə nazirliyi xəstəxanalarda yer olmadığı üçün koronaviruslu xəstələrin qəbulunu məhdudlaşdırıb. Başqa bir problem isə Ermənistanda həkim və digər tibbi personalın çatışmazlığıdır. Görünən odur ki, Ermənistan bu fəlakətdən heç cür xilas ola bilməyəcək.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Sosial medianın qanunla tənzimlənməsi günün tələbidir

## Dezinformasiyanın qarşısını almaq üçün ciddi tədbirlər görülməlidir

Sosial şəbəkələrdə informasiyanın necə sürətlə yayılması hər kəsə bəllidir. Təbii ki, informasiya texnologiyalarının inkişafı, informasiyaya əlçatanlıq müasir dövrün reallıqları olsa da, əsası olmayan və yalan məlumatların yayılması cəmiyyətdə çaşqınlıq yaradır. Belə xəbərlərin, xüsusən həssas dönəmlərdə məqsədli şəkildə paylaşılması insanlar arasında panika, ajiotaj yaratmaq niyyəti güdür. Ölkəmizdə də sosial şəbəkələr üzündən yalan, şantaj və dezinformasiya xarakterli məlumatların paylaşılmasının zaman-zaman şahidi oluruq. Belə xarakterli məlumatların yayılmasının qarşısını almaq məqsədilə tədbirlər görülsə də, yenə də arzuolunmaz hallarla qarşılaşırıq.



Hətta bəzən sosial mediada yayılan yalan və böhtan insanların şərəf və ləyaqətinə toxunur. Eyni zamanda reketlik fəaliyyəti ilə məşğul olan saytların, "jurnalistlər"in belə məsələlərdə daha aktiv olduğu müşahidə edilir. Bu baxımdan bəzi ekspertlər sosial medianın tənzimlənməsini, bu sahədə qanunvericiliyin sərtləşdirilməsini zəruri hesab edirlər.

Türkiyədə artıq internet mediada dezinformasiya xarakterli məlumatların yayılmasına qarşı qanunun tələbləri sərtləşdirilib. Belə ki, qanuna əsasən təşviş, qorxu və çaxnaşma yaratmaq məqsədilə çaşdırıcı məlumat yayanları 1 ildən 3 ilə qədər həbs cəzası gözləyir. Bununla yanaşı, cinayət onu törədənin şəxsiyyətini gizlətməklə və ya hansısa təşkilatın fəaliyyəti çərçivəsində törədildikdə cəza yarıya qədər artırılacaq.

"Trend" İnformasiya Agentliyinin baş direktor müavini, Əməkdar jurnalist Sahil Kərimli qəzetimizə açıqlamasında deyib ki, son zamanlar ümumilikdə dünyada sosial media sahəsində yaranmış xaos, özbaşınalıq və ciddi neqativ hallar Azərbaycandan da yan keçmir və bu kimi mənfi tendensiyalar olduqca təhlükəli ziddiyyətlər yaradır. Jurnalist qeyd edir ki, dezinformasiya, şər-böhtan, qara piar, insanların şərəf və ləyaqətinin alçaldılması halları sosial media vasitəsilə cəmiyyətin dayaqlarını sarsıdır, mənəvi terrora şərait yaradır. Bu kimi halların qarşısı çox ciddi şəkildə alınmalıdır. Bu günlərdə qardaş Türkiyədə internet mediada yalan və dezinformasiya xarakterli məlumatların yayılmasına qarşı qanunun tələblərinin sərtləşdirilməsi bu baxımdan olduqca zəruri və yerində atılmış addımdır.

Sahil Kərimli hesab edir ki, analoji addım Azərbaycanda da atılmalı, bu sahədə ciddi qayda-qanun yaradılmalıdır: "Sirr deyil ki, ölkəmizdə də bəzi saytlar tərəfindən yalan, şantaj və dezinformasiya xarakterli, sifarişli materiallar yayımlanır. Açıq reketlik fəaliyyəti ilə məşğul olan bu saytlar heç bir əsası olmayan yalan və saxta məlumatlar tirajlayır, ictimaiyyət arasında çaşqınlıq yaradır. Sosial mediada yayımlanan yalan və böhtan insanların şərəf və ləyaqətini alçaldır, işgüzar nüfuzuna xələl gətirir. Bu pozuntuların qarşısının alınması üçün qanunun sərt üzü tətbiq edilməli, ciddi tədbirlər görülməlidir".

Onun sözlərinə görə, bu kimi hallar peşəkar, vicdanlı jurnalistikanın fəaliyyətinə kölgə salır, mediamızın nüfuzunu zədələyir, jurnalistlərin cəmiyyətdəki hörmətinə xələl gətirir: "Jurnalist adını özünə qalxan edərək cinayət törədən, reketliklə məşğul olan məlum saytlar və onların əməkdaşları haqqında ciddi ölçü götürməyin vaxtı çatıb. Düşünürəm ki, Azərbaycanda da bu sahədə müvafiq qanunvericilikdə dəyişiklik edilməli, müddəalar sərtləşdirilməlidir".

Baş direktor müavini vurğulayır ki, bu gün Azərbaycan bütün sahələrdə informasiya müharibəsi aparır, işğalçı Ermənistanın yalan və saxta təbliğatını ifşa edir. Belə bir məqamda ölkə mediası daha ayıq-sayıq olmalı, təxribatdan, dezinformasiyadan uzaq durmalıdır.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Bakıda Beynəlxalq Avrasiya Mətbuat Fondunun 30 illik yubileyi qeyd olunub

Oktyabrın 14-də Bakıda Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) 30 illik yubileyi münasibətilə tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, BAMF-nin prezidenti Umud Mirzəyev bildirib ki, fond 1992-ci ildə yaradılıb və BMT-nin Sosial İqtisadi Şurasının (ECOSOC) Əsas Məşvərətçi Statuslu üzvü olan beynəlxalq qeyri-hökumət təşkilatıdır. Deyib ki, BAMF media və vətəndaş cəmiyyətinin inkişafı, qaçqın və məcburi köçkünlərin problemləri, sülh quruculuğu və münaqişələrin həlli, icmaların inkişafı və təhsil istiqamətlərində proqramlar həyata keçirir. U.Mirzəyev 30 il ərzində fondun təşəbbüsü ilə böyük və önəmli işlər görüldüyünü diqqətə çatdırıb.

BAMF-nin Müşahidə Şurasının sədri Çingiz Abdullayev Azərbaycan həqiqətlərinin mətbuat vasitəsilə dünyaya çatdırılmasının vacib olduğunu söyləyib. Bildirib ki, Heydər Əliyev Fondunun kitabları çap olunduqdan sonra Azərbaycanın mövqeyi, Xocalı faciəsinin həqiqətləri dünyaya daha geniş miqyasda çatdırılıb.

Daha sonra çıxış edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin müdir müavini Səadət Yusifova ölkəmizin QHT sektorunda 30 il fasiləsiz fəaliyyət göstərən, çoxsaylı layihələri ilə ölkəmizin müxtəlif regionlarında və xaricdə mütərəqqi işlər görən fondun kollektivini təbrik edib. Bildirib ki, 1991-ci ildə dövlət müstəqilliyi bərpa edildikdən sonra Ermənistan-Azərbaycan münaqişəsi, ərazilərimizn 20 faizinin işğal olunması, etnik təmizləmə, milyona yaxın insanın qaçqın və məcburi köçkünə çevrilməsi, siyasi-iqtisadi səbatsızlıq nəticəsində yaranan hərbi, siyasi, iqtisadi, humanitar böhran ölkəmizi olum və ölüm seçimi qarşısında qoymuşdu. Məhz Ümummilli Lider Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə qayıtması ölkəmizi bu ekzistensional təhlükələrdən xilas etdi. Bundan sonra siyasi-iqtisadi formasiyada fundamental dəyişikliklər, ölkəmizdə dövlət quruculuğu, köklü islahatların aparılması zərurəti yeni dövrə xas təsisatların yaranmasını şərtləndirdi. Azərbaycanın ictimai həyatında dövlətlə cəmiyyət arasında kommunikator rolunda çıxış edən vətəndaş cəmiyyəti institutları formalaşmağa başladı.

Səadət Yusifova diqqətə çatdırıb ki, bu gün QHT-lər dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin vacib institutlarından biridir. Ölkəmizdə 3640-dan çox QHT fəaliyyət göstərir. Bildirilib ki, Prezident İlham Əliyevin Sərəncamı ilə 2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması ölkəmizdə QHT sektorunun inkişafında yeni dövrün başlanğıcı hesab oluna bilər. Şura tərəfindən görülmüş işlər ictimai sektorun inkişafına və dövlət-vətəndaş cəmiyyəti arasında əməkdaşlığa yeni təkan verib.

"Dövlət və cəmiyyətin həyatında QHT-lərin rolunun artması, onların fəaliyyətlərinin yeni dövrün çağırışlarına uyğun qurulması, bu sahədə həyata keçirilən dövlət dəstəyinin təkmilləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin Fərmanı ilə 2021-ci ildə Şuranın varisi kimi Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi yaradıldı. Bu gün agentlik qarşısına qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində işlər aparır. QHT-lər ölkəmizdə islahatların həyata keçirilməsi, postpandemiya problemlərinin həlli, işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, postmünaqişə məsələlərinin həlli, sülhyaratma və reinteqrasiya proseslərində fəal iştirak etməli və dövlətə bu sahədə dəstək olmalıdırlar", - deyə Səadət Yusifova bildirib.

Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, ölkəmizdə QHT-lərə dövlət dəstəyi, dövlət-QHT əməkdaşlığına aid kifayət qədər nümunələr var. Bu əməkdaşlığın ən bariz nümunələrindən biri elə məhz Beynəlxalq Avrasiya Mətbuat Fondudur.

"Otuz il bundan əvvəl olduğu kimi, bu gün də fondun fəaliyyətində humanitar aspekt üstünlük təşkil edir. İyirmi ildir Azərbaycanda Mina Təhlükəsizliyi ilə mübarizə proqramına qoşulan fond Azərbaycan ərazilərinin müharibə qalıqlarından və minalardan təmizlənməsi prosesində ANAMA-nın əsas tərəfdaşlarından biridir. BAMF 30 il ərzində təmas xəttində, 44 günlük Vətən müharibəsi bitdikdən sonra işğaldan azad edilmiş ərazilərdə minalar və partlamamış hərbi sursatların təmizlənməsi istiqamətində maarifləndirmə işləri aparır", - deyə Səadət Yusifova qeyd edib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bu gün fondun ötən 30 illik fəaliyyətinə yekun vurulduğunu və yeni dövr üçün planlar qurulduğunu diqqətə çatdırıb. Qeyd edib ki, Beynəlxalq Avrasiya Mətbuat Fondu təsis olunduqdan bəri bütün fəaliyyətini sülh quruculuğu prosesinə həsr edib.

# Şəhidlərimiz Vüsal Teymurov və Telman Kəlbiyevin ailələri ziyarət olunub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin əməkdaşları Vətən müharibəsi şəhidləri Teymurov Vüsal Zakir oğlu və Kəlbiyev Telman Yadigar oğlunun ailələri ilə görüşüb.




Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, şəhidlərimizin xatirəsi yad edilib, onların hərbi əməliyyatlar zamanı göstərdikləri şücaətlərdən bəhs olunub.

Hər iki şəhidimizin ailələri ilə bağlı sosial dəstək tədbirləri həyata keçirilib, həmçinin onların məşğulluq məsələlərinin həllinə kömək göstərilib.

Dövlət Məşğulluq Agentliyi tərəfindən şəhid Vüsal Teymurovun bacısı Könül Teymurova gözəllik salonu, şəhid Telman Kəlbiyevin həyat yoldaşı Günay Kəlbiyeva isə un məmulatları istehsalı zərfi üzrə özünüməşğulluq proqramı çərçivəsində aktivlərlə təmin olunub. Görüşlərdə hər iki ailənin bundan sonra da sosial dəstək tədbirləri ilə əhatə olunacaqları bildirilib.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, oktyabrın 14-də əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Samux rayonunda Samux və Göygöl rayonlarının sakinlərini fərdi qaydada qəbul edib.

Qəbul zamanı müraciət edən vətəndaşların bir hissəsini şəhid ailələrinin üzvləri və müharibə veteranları təşkil edib.

Müraciətlər pensiya və ünvanlı sosial yardım, aktiv məşğulluq proqramlarına cəlbolunma, mənzillə təminat, əlillik və reabilitasiya, sosial xidmətlər və s. məsələlərlə bağlı olub.

Hər bir müraciətə fərdi qaydada baxılaraq araşdırılıb və nəticəsinə əsasən tədbirlər görülüb.

Vətəndaşların bir qisminin müraciətlərinə uyğun olaraq özünüməşğulluq, ictimai işlər və digər aktiv məşğulluq tədbirlərinə, reabilitasiya və sosial xidmətlərə cəlb olunmaları və s. üçün qeydiyyatı aparılıb. Sorğu xarakterli müraciətlərlə bağlı vətəndaşlara ətraflı izahatlar verilib.

* * *

Oktyabrın 14-də Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev Qəbələ rayonunda Qəbələ, Oğuz, İsmayıllı, Ağdaş və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, xüsusilə Vətən müharibəsi iştirakçılarının, qazilərin və şəhid ailələrinin qayğılarına həssaslıqla yanaşılıb, məhkəmələrin fəaliyyəti ilə bağlı qaldırılan məsələlərin bəzilərinin həlli ilə bağlı müvafiq tövsiyələr verilib, digərləri isə araşdırılması və onların qanunauyğun şəkildə həll edilməsi üçün Ali Məhkəmə Aparatının qəbulda iştirak edən məsul işçilərinə tapşırıqlar verilib.

Bölgə sakinləri dövlət başçısının vətəndaşlara göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə edib, Azərbaycan Prezidentinin tövsiyələrinə əsasən məhkəmələrin fəaliyyəti ilə bağlı yerlərdə qəbulların təşkilindən məmnunluqlarını bildiriblər.

# Şuşa ilə Kayseri arasında qardaşlaşmış şəhərlər haqqında protokol imzalanıb

Erməni işğalından azad olunmuş Şuşa şəhəri ilə Türkiyənin Kayseri şəhəri arasında qardaşlaşmış şəhərlər haqqında protokol imzalanıb.




Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsindən AZƏRTAC-a bildirilib ki, sənədə əsasən iki qardaşlaşmış şəhərlər mədəni, sosial və iqtisadi münasibətləri, həmçinin dostluq və qardaşlıq əlaqələrini təşviq etmək və birgə fəaliyyət sahələrini genişləndirmək niyyətindədirlər. Tərəflər arasında birgə proqram, layihələr, qarşılıqlı səfərlərin təşkili, habelə təcrübə və məlumat mübadiləsi, incəsənət, mədəniyyət, turizm, elm, ticarət və informasiya texnologiyaları sahələrində əməkdaşlıq nəzərdə tutulub.

Şəhər təmsilçiləri həmçinin qarşılıqlı əlaqələri daha da inkişaf etdirmək üçün UNESCO-nun "Yaradıcı Şəhərlər Şəbəkəsi" proqramı çərçivəsində əməkdaşlıq edəcəklər.

Sənədi Kayseridə səfərdə olan Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov və Kayseri Böyükşəhər Bələdiyyə başçısı Memduh Büyükkılıç imzalayıblar.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov deyib: "Nəzərə alsaq ki, Şuşa şəhəri 2023-cü ildə TÜRKSOY-un qərarı ilə Türk Dünyasının Mədəniyyət Paytaxtı elan edilib, bu baxımdan Türkiyənin qədim tarixə malik Kayseri şəhəri ilə qardaşlaşma haqqında sənədin imzalanması xüsusi əhəmiyyət kəsb edir. Bildiyiniz kimi, sentyabrın 21-də Şuşa Qoruğu Ərzurum şəhər bələdiyyəsi ilə də eyni məzmunlu sənəd imzalayıb. Şuşa şəhərinin türk dünyasının digər mühüm şəhərləri ilə bu istiqamətdə əməkdaşlığı davam edəcək".

Kayseri Böyükşəhər Bələdiyyə başçısı Memduh Büyükkılıç bildirib ki, Şuşa şəhəri ilə qardaşlaşmaq onlar üçün böyük şərəfdir. Şuşa şəhərinin 28 illik işğaldan sonra azad olunması, şəhərin sürətlə bərpa edilməsi, çoxlu sayda beynəlxalq tədbirlərə evsahibliyi etməsi bütün Kayseri sakinlərini sevindirən bir haldır. Kayseri şəhərinə səfər çərçivəsində Şuşa şəhərinin nümayəndə heyətini həmin bölgənin valisi Gökmən Çiçək də qəbul edib.

Görüşdə Azərbaycanın qələbə rəmzi olan "Xarıbülbül" döş nişanı valiyə hədiyyə olunub.

Səfər zamanı Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Məftun Abbasov Azərbaycan Qardaşlaşma parkı və Xocalı parkı, Kayseri qalası və Milli Mücadilə Muzeyini ziyarət etdikdən sonra Kayseridə ənənəvi keçirilən kitab sərgisinin açılışında iştirak edib.

Həmçinin şəhərin Talas bələdiyyəsinin əməkdaşları, "Kayseriqaz" şirkətinin nümayəndələri və Kayseridə təhsil alan azərbaycanlı tələbələrlə də görüş keçirilib.

# Muxtar respublikanın elm xadimləri Türkiyədə keçirilən beynəlxalq simpoziumda iştirak ediblər

Qardaş Türkiyənin Ərzincan şəhərində Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımın və Türkiyə Cümhuriyyəti Mədəniyyət və Turizm Nazirliyinin himayəçiliyi, Ərzincan Valiliyi və Bələdiyyəsinin təşkilatçılığı ilə oktyabrın 9-12-də keçirilən "Beynəlxalq Türk Dünyası" simpoziumunda muxtar respublikanın elm xadimləri də iştirak ediblər.



AMEA Naxçıvan Bölməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ərzincan Binəli Yıldırım Universitetində keçirilən simpoziumda Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Türkiyənin sabiq Baş naziri, Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Birliyinin sədri Binəli Yıldırım, Ərzincan valisi Mehmet Makas, Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının Azərbaycan üzrə nümayəndəsi Həsən Həsənov, akademiklər İsa Həbibbəyli, İsmayıl Hacıyev, eləcə də tanınmış siyasət və elm adamları, müxtəlif sahələr üzrə ixtisaslaşmış mütəxəssislər iştirak ediblər. Dünyanın 43 ölkəsindən 800 iştirakçının qatıldığı simpozium əyani və onlayn formatda keçirilib.

Türklüyə, türk dünyasının birliyinə töhfə vermək məqsədi daşıyan simpoziumda dil, folklor, tarix, mədəniyyət, maarif, iqtisadiyyat, nəqliyyat, turizm və ticarət əlaqələri, sosial və coğrafi faktorlar, dövlətçilik tarixi, hüquq, ilahiyyat, informasiya mübadiləsi və başqa mühüm sahələri əhatə edən elmi araşdırmalar uğurla təqdim olunub. Simpozium müddətində ortaq mədəni dəyərlərin, elmi düşüncənin, iqtisadi əlaqələrin və müasir inkişafın təhlilinə yönəlik müzakirələr aparılıb, festival və sərgilər, konsert təşkil edilib.

Simpoziumun plenar iclasında çıxış edən Binəli Yıldırım tədbirin keçirilməsinin, burada aparılan fikir mübadiləsinin türk dövlətlərinin birliyinə verəcəyi töhfələrdən danışıb.

Plenar iclasın sonunda Azərbaycan nümayəndə heyətinin tərkibində səhnəyə dəvət olunan akademik İsmayıl Hacıyev Binəli Yıldırıma Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun salamını çatdırıb, göndərdiyi hədiyyələri ona təqdim edib. Binəli Yıldırım Naxçıvanla bağlı xoş təəssüratlarını dilə gətirib, göstərilən diqqətə görə təşəkkür edib.

Daha sonra İsmayıl Hacıyev Naxçıvanın füsunkar təbiətinin, əzəmətli Haçadağın təsvir olunduğu rəsm əsərini universitetinin rektoru professor Akın Leventə hədiyyə edib.

Simpozium öz işini türk dövlətlərinin paytaxt şəhərlərinin adlarını daşıyan iclas salonlarında keçirilən bölmə iclaslarında davam etdirib. AMEA Naxçıvan Bölməsinin sədri akademik İsmayıl Hacıyevin "Naxçıvanın Azərbaycanın milli dövlət tarixində rolu", bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun icraçı direktoru dosent Elxan Məmmədovun "Naxçıvan və Şərqi Anadolu xalq şeirində təbiət və heyvan obrazları" mövzusunda məruzələri iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Akademik İsmayıl Hacıyev Azərbaycan ərazisində ən qədim zamanlardan başlayaraq günümüzədək mövcud olmuş dövlətlərin tarixində Naxçıvanın roluna diqqət çəkib, mövzunu xronoloji ardıcıllıq əsasında şərh edib, Azərbaycan dövlətçiliyində varislik və coğrafi ərazi amillərinin mühümlüyünü vurğulayıb.

"Ankara" salonunda keçirilən bölmə iclasına akademik İsmayıl Hacıyev rəhbərlik edib, Elxan Məmmədov isə "Astana" zalında keçirilən bölmə iclasında katiblik edib.

Simpoziuma onlayn qoşulan bölmənin Qafqaz tarixi şöbəsinin müdiri tarix elmləri doktoru, dosent Emin Şıxəliyev, Dilçilik şöbəsinin müdiri dosent Nuray Əliyeva və elmi işçi Nilufər Ağayeva isə müvafiq olaraq "XX əsrin əvvəllərində İngiltərənin Cənubi Qafqaz siyasətində erməni faktoru və Azərbaycana təsirləri (İngiltərənin arxiv materialları əsasında)", "Ərzincan və Naxçıvan şivələrinin səs sisteminin bəzi ortaq xüsusiyyətləri haqqında", "Xan sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi, Möminə Xatun və Açıq Səma Altında Muzey Kompleksi Naxçıvanda maddi və mədəni nümunələrin qorunmasında mühüm önəmə malikdir" mövzulu məruzələri də iştirakçıların diqqətini cəlb edib.

# Əbu-Dabidə Qlobal Media Konqresinin Səfirlər Forumu keçirilib

Əbu-Dabidə Qlobal Media Konqresinin Səfirlər Forumu keçirilib. Tədbirdə Qlobal Media Konqresinin Ali Təşkilat Komitəsinin (GMC) üzvləri, sosial media fəalları və kontent yaradıcıları iştirak ediblər.



AZƏRTAC xəbər verir ki, Birləşmiş Ərəb Əmirliklərinin rəsmi WAM Agentliyinin ofisində keçirilən forumda agentliyin baş direktoru, GMC-nin sədri Məhəmməd Cəlal Əl Raysi və Əbu-Dabi Milli Sərgi Mərkəzinin (ADNEC) baş kommersiya direktoru Xəlifə Əl Qubaysi noyabrın 15-17-də baş tutacaq Qlobal Media Konqresinə hazırlıq işləri barədə məlumat veriblər.

Çıxışlarda qeyd olunub ki, Qlobal Media Konqresində 25 ölkədən 150 sərgi nümayəndəsi və 18 ölkədən 170 məruzəçi iştirak edəcək, həmçinin 27 ixtisaslaşdırılmış seminar təşkil olunacaq. AZƏRTAC da tərəfdaşlardan biri kimi konqresdə öz stendi ilə təmsil olunacaq.

Tədbirdə Yaxın Şərqdə ilk dəfə olaraq media sənayesi, rəqəmsal kommunikasiya, süni intellekt, qabaqcıl texnologiyalar və innovasiya məsələləri müzakirə ediləcək, həmçinin radio və TV, onlayn nəşrlər, eləcə də qlobal miqyasda sosial media üzrə sessiyalar təqdim olunacaq. Bundan əlavə, iri beynəlxalq şirkətlərin iştirakı ilə ixtisaslaşmış sərgi keçiriləcək.

Səfirlər Forumunda məlumat verilib ki, GMC tərəfindən müxtəlif media fakültələrinin tələbələri, mütəxəssisləri və kontent yaradıcıları üçün beynəlxalq ekspertlərin iştirakı ilə bir sıra interaktiv seminarlar təşkil ediləcək.

Təkrar

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi respublika üzrə bir sıra məktəbəqədər təhsil müəssisələrinin əsaslı təmiri işlərinin satın alınması ilə bağlı *açıq tender elan edir*

**Respublika üzrə bir sıra məktəbəqədər təhsil müəssisələrinin əsaslı təmiri işlərinin satın alınması üçün açıq tender elan edir.**

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - N.İsgəndərova.

Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.

Tel: (+99412) 465 73 48 (daxili 134).

Maraqlananlar açıq tender prosedurunun əsas şərtlər toplusunu 1500,0 (bir min beş yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. 01.10.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.10.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı, icra probasiya şöbəsi və ya müvafiq kommersya məhkəməsi tərəfindən təqdim olunmuş arayış);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 01.10.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçı baş podratçı kimi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi texniki bazası (sifarişin yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *AZS İSO 9001:2020; AZS İSO 14001:2020, AZS İSO 45001:2020 sertifikatları;*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 60 (altmış) bank günü);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **07 noyabr 2022-ci il saat 11:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **17 noyabr 2022-ci il saat 17:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **18 noyabr 2022-ci il saat 15:00-da** Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***



# OXUCULARIN NƏZƏRİNƏ!

***"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti kompüterlərin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 21 oktyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küç. 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***

# BMT-nin Danimarkadakı mərkəzində Şuşada "ağıllı şəhər" konsepsiyasının tətbiqi imkanları müzakirə olunub

BMT-nin Danimarkadakı mərkəzində Şuşada "ağıllı şəhər" konsepsiyasının tətbiqi imkanları müzakirə olunub.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin "Şuşa ili" çərçivəsində elan etdiyi xüsusi qrant müsabiqəsinin qalibi olan "Müasir informasiya cəmiyyəti və innovasiyalar" İctimai Birliyinin İdarə Heyəti üzvlərinin Danimarkanın paytaxtı Kopenhagendə Birləşmiş Millətlər Təşkilatının (BMT) şəhərciyində qurumun rəsmiləri ilə görüşü keçirilib.

Birlik üzvləri BMT-nin Ətraf Mühit Proqramı (UNEP) kollektivi qarşısında işğaldan azad olunmuş ərazilərdə, xüsusilə, Şuşada həyata keçirilən infrastruktur layihələri, Ağdamın baş planı və bu istiqamətlərdə qurulan beynəlxalq əməkdaşlıq barəsində məlumatların da yer aldığı təqdimatla çıxış edib. Görüş əsnasında nümunə olaraq ölkədə qurulan ilk "ağıllı kənd" - Zəngilan rayonunun Ağalı kəndi barədə də ətraflı məlumat verilərək, kəndin əvvəlki və cari vəziyyətini əks etdirən fotolar iştirakçılara nümayiş olunub. Qeyd edilənlərlə yanaşı, işğaldan azad olunan ərazilərin daha dayanıqlı və ağıllı formada yenidən qurulması, bərpaolunan enerji istehsalı ilə bağlı həyata keçirilən layihələr haqqında da ətraflı bəhs olunub.

Proqramın Enerji səmərəliliyi Departamentinin rəhbəri Qabriela Prata Dias, ekspertlər Romanas Saviskas və Zoulun Çen tərəfindən isə bərpa və yenidənqurma işləri zamanı "ağıllı həllər"in yerli xüsusiyyətlər və əhalinin rəqəmsal savadlılıq səviyyəsi nəzərə alınmaqla tətbiqi üzrə BMT-nin digər ölkələrdəki (Çin, Hindistan, Argentina, Türkiyə və s.) təcrübəsi Birlik üzvlərinin diqqətinə çatdırılıb.

Həmçinin, "ağıllı şəhər"in maraqlı tərəflərinin bilik, bacarıqlarının artırılması və proseslərdə iştirak təşəbbüslərinə dəstək məqsədilə təşkil olunan "Potensialın Gücləndirilməsi" (Capacity Building) proqramları və bu sahədə məlumatların daha qısa və effektiv yolla paylaşılması üçün nəzərdə tutulan "Təlimçilər üçün Təlim" (Train for Trainers) layihələrinin əhəmiyyəti vurğulanıb.

Görüşün sonunda BMT nümayəndələri Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədləri istiqamətində atılan addımları, xüsusilə, "ağıllı şəhər" və "ağıllı kənd" quruculuğu ilə bağlı təşəbbüsləri yüksək qiymətləndirdiklərini, bu sahədə təcrübə paylaşımına daim hazır olduqlarını ifadə edib.

# Dünyada aclıq rekord həddə çatıb

16 Oktyabr Ümumdünya Ərzaq Günü ərəfəsində Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Ərzaq Proqramı (ÜƏP) hazırkı böhranın əsas səbəblərini aradan qaldırmaq və miqyasına görə rekord həddə çatan aclığın qarşısını almaq üçün təcili tədbirlər görməyə çağırıb.



ÜƏP-nin məlumatına görə, qlobal ərzaq böhranı təkcə 2022-ci ilin ilk aylarında dünyada ac insanların sayını 282 milyondan 345 milyona nəfərə çatdıran iqlim dəyişiklikləri, münaqişələr və iqtisadi təzyiqlər nəticəsində yaranan bir neçə böhranın birləşməsidir.

## Böhranın əsas səbəbləri aradan qaldırılmalıdır

Təşkilatın builki məqsədi rekord sayda insana - 153 milyon nəfərə ərzaq yardımı göstərməkdir. Cari ilin ortalarına qədər dünyada 111 milyondan çox insan artıq ÜƏP vasitəsilə yardım alıb.

Təşkilatın icraçı direktoru Devid Bisli deyib: "Biz görünməmiş qlobal ərzaq böhranı ilə üzləşirik və bütün əlamətlər ən pisinin hələ qarşıda olduğunu göstərir. Son üç ildə ac insanların sayı dəfələrlə yeni zirvələrə çatıb. Açıq deməliyəm ki, bu böhranın əsas səbəblərini aradan qaldırmaq üçün kütləvi və əlaqələndirilmiş səylər olmasa, vəziyyət daha da pisləşə bilər və pisləşəcək. Biz daha bir il rekord aclığa dözə bilmərik".

ÜƏP beş ölkədə - Əfqanıstan, Efiopiya, Somali, Cənubi Sudan və Yəməndə aclığın qarşısını almaq üçün humanitar tərəfdaşlarla işləyir. Bu ölkələrdəki münaqişələr əhalinin ən həssas təbəqələrini aclığa sürükləyir, çünki kommunikasiyalar pozulur, humanitar yardımlara çıxış məhdudlaşır və insanlar kütləvi şəkildə köçməyə məcbur olurlar.

Mütəxəssislərin proqnozlarına əsasən, münaqişənin gələcək məhsula təsiri bütün dünyada hiss olunacaq.

## İqlim sarsıntıları intensiv xarakter alır

Son dövrlər iqlim dəyişiklikləri daha intensiv xarakter alır. Məsələn, Afrikada görünməmiş quraqlıq Somalini artıq aclıq həddinə çatdırıb.

Daşqınlar bir neçə ölkədə evləri və əkin sahələrini dağıdıb, ən çox zərər isə Pakistana dəyib. Əhalinin həssas təbəqələrini iqlim dəyişikliyinin təsirlərindən qorumaq üçün profilaktik tədbirlər əsas müdafiə vasitəsi olmalıdır. Bu cür tədbirlər gələn ay Misirdə keçiriləcək 27-ci İqlim Sammitinin gündəliyinin bir hissəsidir.

ÜƏP-nin 2022-ci il əməliyyat planı təşkilatın tarixində ən böyük plandır. Milyonlarla insanın aclıqdan ölməsinin qarşısını almaq, dayanıqlı milli qida sistemləri və təchizat zəncirlərini qurmaq üçün çalışmaq planın əsas prioritetləridir.

Bu il təşkilat iqtisadi böhrana cavab olaraq Şri-Lankaya yardımı 6 dəfə artırıb, Pakistanda daşqınlarla bağlı fövqəladə proqramın icrasına başlayıb və aclıq təhlükəsi ilə əlaqədar Somalidə yardım proqramını rekord səviyyəyə çatdırıb.

Əfqanıstanda ÜƏP hər beş nəfərdən ikisinə yardım edir. Təşkilat həmçinin Ukraynada fəaliyyətə başlayıb və Moldovada münaqişədən qaçan ailələrə dəstək olmaq üçün yeni ofis açıb.

Humanitar yardımın xərclərinin və çatdırılma müddətlərinin artması səbəbindən ÜƏP təchizatçı bazasını şaxələndirməyə davam edir. Nəticədə bu, yerli və regional satınalmaların artmasına kömək edir. Məsələn, 2022-ci ildə ümumi dəyəri 1,2 milyard dollar olan ərzaq məhsullarının 47 faizi yerli istehsalçılardan alınıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# "Anadolu" Agentliyi media hüquqlarının qorunması mövzusunda simpozium təşkil edib

Türkiyənin "Anadolu" Agentliyi "Dijitallaşma prosesində media hüquqlarının qorunması" mövzusunda simpozium təşkil edib.

AZƏRTAC xəbər verir ki, Ankarada agentliyin mərkəzi ofisində keçirilən simpoziuma rəsmi şəxslər, tanınmış jurnalistlər, beynəlxalq statuslu kütləvi informasiya vasitələrinin nümayəndələri qatılıblar.

Açılış mərasimində "Anadolu" Agentliyinin baş direktoru Serdar Karagözün, professor Hüseyn Yamanın, doktorlar Ali Taha Koçun və Ziya Taşkentin çıxışları dinlənilib.

Sonra simpozium dörd panel üzrə davam edib.

Mütəxəssislər dijitallaşma dövründə medianın hüquqlarına dair prosesləri mərhələli şəkildə təhlil ediblər. Vurğulanıb ki, bu problemin həlli mükəmməl qanunvericilik bazası ilə tənzimlənməlidir.

Çıxışlarda qeyd olunub ki, müasir dövrdə kütləvi informasiya orqanlarının hüquqlarının qorunması xəbərçilik sahəsində məsuliyyətin artmasını və dezinformasiyaların aradan qaldırılmasını təmin edən yeganə çıxış yoludur.

Bütün panellər üzrə müzakirələrdən sonra suallar cavablandırılıb.







# ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikasının mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyevə bacısı

**SEVDA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Milli Məclisin deputatı Sabir Rüstəmxanlıya bacısı

**SƏMAYƏ RÜSTƏMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Yasamal rayon prokuroru Elman Süleymanova anası

**ƏDİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mahmud Məmmədov Alim Quliyevə qardaşı

**FAMİL SƏLİM OĞLU QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Günay Bank" ASC-nin rəhbərliyi və kollektivi Alim Quliyevə qardaşı

**FAMİL SƏLİM OĞLU QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6506
Sifariş 2897
Qiyməti 40 qəpik